İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
# ƏLİYEV

## ƏLLİ BEŞİNCİ KİTAB

## FEVRAL 2013 - APREL 2013

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial-iqtisadi inkişafının təmin olunmasına, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri, həmçinin ilk telekommunikasiya peyki – «Azərspace-1»in orbitə buraxılması münasibətilə Azərbaycan xalqına təbriki yer almışdır.

Kitabda, həmçinin dövlət başçısının Serbiya, Xorvatiya və Monteneqro respublikalarına rəsmi səfərləri, Gürcüstan prezidentinin Azərbaycana səfəri və ölkəmizə gələn digər xarici dövlət və hökumət rəsmiləri, siyasi xadimlər, nümayəndə heyətləri ilə görüşləri, nitq və çıxışları, nüfuzlu mətbuat orqanlarına və televiziya kanallarına verdiyi müsahibələri, müraciət və məktubları da toplanmışdır.

Bu cilddə eyni zamanda, Prezidentin Bakının ev sahibliyi etdiyi Dünya İqtisadi Forumunun (Davos Forumu) «Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq» mövzusunda keçirilən konfransında nitqi, mükalimələr və müzakirələr də verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

## «BAKU» JURNALINA MÜSAHİBƏ

*7 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni il ərəfəsində «Baku» jurnalına müsahibə vermişlər.*

**M ü x b i r: «Baku» jurnalının 5 yaşı tamam olur. Yubiley əhval-ruhiyyəsi xatirələri oyadır. Bizim ilk müsahibəmiz də məhz Sizinlə olub. Bu gün, 5 il keçdikdən sonra jurnalımız haqqında fikirləriniz bizə maraqlıdır. Nəşrimizi bəyənirsinizmi?**

**İ l h a m Ə l i y e v:** Çox təqdirəlayiqdir ki, yaranışından qısa müddət ərzində «Baku» jurnalı böyük oxucu auditoriyası qazanıb. Jurnalın uğurlarında mövzuların aktuallığı, özünəməxsus tərzi, müasir dizaynı və materialların təqdimatı mühüm rol oynayır. Azərbaycan mədəniyyətinin və incəsənətinin zəngin və qədim tarixi, xalqımızın çoxəsrlik ənənələri haqqında məqalələr və başqa mövzularda materiallar jurnalı daha da maraqlı və oxunaqlı edir. Jurnalın təkcə Rusiyada deyil, başqa ölkələrdə də oxunması müsbət haldır.

**M e h r i b a n Ə l i y e v a:** «Baku» jurnalı qısa müddətdə nəşr olunmasına baxmayaraq, oxucuların böyük rəğbətini qazanıb. Bu gün ölkəmiz haqqında obyektiv və müsbət informasiyanı xaricdə təqdim edən belə mənbənin olması sevindirici haldır. «Baku» jurnalı Azərbaycan və onun paytaxtı, məşhur həmyerlilərimiz, Azərbaycan diasporunun görkəmli nümayəndələri, ölkəmizin mədəni həyatının mühüm hadisələri və milli mətbəximiz haqqında parlaq və aydın şəkildə məlumat verir. Mən jurnalınıza gələcəkdə daha böyük məşhurluq, daha geniş oxucu auditoriyası arzulayıram.

**M ü x b i r: Ötən 5 il ərzində ölkə həyatının bütün sahələrində əsaslı dəyişikliklər göz qabağındadır. Bu gün ölkəniz**

**yüksək inkişaf dinamikası ilə seçilir. Azərbaycan sözsüz ki, regionda lider dövlətdir. Bu uğurun sirri nədədir?**

**İ l h a m   Ə l i y e v:** Zənnimcə, uğurların sirri ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun davam etdirilməsindədir. Zaman göstərdi ki, bu, Azərbaycanı xaos və dağılmaqdan qurtaran yeganə düzgün siyasi kurs idi. Gəlin Azərbaycanın müstəqilliyinin ilk illərini xatırlayaq. Ölkədə hərbi-siyasi və mənəvi böhran hökm sürürdü, iqtisadiyyat tamamilə tənəzzülə uğramışdı. Azərbaycan müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmışdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan inkişaf dövrünə qədəm qoydu. Siyasi-demokratik institutların bərpası, bazar iqtisadiyyatı və müasir inkişaf başladı. Bütün bunlar Azərbaycanın dünyada dinamik inkişaf edən ölkələrdən biri olmasına gətirib çıxardı. Bu gün Azərbaycanda keçirilən siyasi islahatlar azad cəmiyyətin yaranması ilə nəticələndi. Ölkəmizdə vətəndaşların bütün azadlıqları təmin edilib: söz, vicdan, mətbuat və başqa azadlıqlar. Sabit siyasi sistem, səmərəli sosial siyasət, zəngin təbii sərvətlər, müasir infrastruktur, əlverişli coğrafi mövqe, təhsil almış gənclik – bütün bunlar ölkəmizin uğur qazanmasında böyük rolu olan amillərdir.

İqtisadi sahədə son illərdə böyük uğurlara nail olmuşuq. Son 8-9 ildə iqtisadiyyatımız 3 dəfə artıb. Yoxsulluğun səviyyəsi 49 faizdən 6 faizə enib. İşsizlik problemi, demək olar ki, köklü şəkildə həll edilib. Bu gün işsizlik cəmi 5,2 faizdir. Biz əsas infrastruktur layihələrini gerçəkləşdirməyə nail olmuşuq. Bütün sosial proqramlar həyata keçirilib. Bu gün neft sektorunun iqtisadiyyatımızın sabitləşdirilməsinə yönələn əsas amil olmasına baxmayaraq, son illərdə qeyri-neft sahəsi də uğurla inkişaf edir. Bu il bu sahədə artım təqribən 10 faiz təşkil edib. Biz qısa zamanda ciddi iqtisadi islahatlar aparmağa, iqtisadiyyatı şaxələndirməyə nail olmuşuq. Ölkəmizin təşəbbüsü ilə qlobal enerji və nəqliyyat layihələri həyata keçirilir. Bu gün Azərbaycanın beynəlxalq aləmdə sabit reytinqi

var. Bütün aparıcı reytinq agentlikləri ölkəmizin inkişafını yüksək qiymətləndirir. Müasir texnologiyaların, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafı ölkəmizin qarşısında duran ən mühüm prioritetlərdən biridir.

Azərbaycanın strateji inkişafını təmin edən əsas amillərdən biri kimi, regionların sosial-iqtisadi inkişafı proqramını xüsusi qeyd etmək istərdim. Bütün regionlarda infrastruktur layihələrinin gerçəkləşdirilməsi və yeni iş yerlərinin açılması prosesi gedir. Regionların sosial-iqtisadi inkişafı proqramının icrasından ötən müddət ərzində 1 milyon 100 min iş yeri açılıb ki, onlardan da 800 mini daimidir.

Azərbaycan tarixən müxtəlif sivilizasiyaların qovuşduğu region olub. Bu gün ölkəmizdə bütün mədəniyyət və dinlərin birgə mövcud olduğu əsl tolerant cəmiyyət yaranıb. Bakı Beynəlxalq Humanitar Forumun keçirilməsi ənənə halını alıb. Azərbaycan millətlərarası və sivilizasiyalararası dialoqun keçirilməsində böyük təcrübəyə malikdir. Əminəm ki, bu tolerantlıq bütün dünya üçün nümunə ola bilər və bu ənənə gələcəkdə də ölkəmizdə davam edəcək.

Azərbaycan artıq böyük idman ölkəsidir. İdmançılarımız Olimpiya oyunlarında və nüfuzlu beynəlxalq idman yarışlarında böyük uğurlar qazanırlar. Azərbaycan idmanın müxtəlif növləri üzrə Avropa və beynəlxalq səviyyəli yarışlara ev sahibliyi edir. Bütün ölkədə olimpiya idman kompleksləri tikilir. Bu məqamda Avropa Komitəsinin Baş Assambleyasının I Avropa oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi barədə qərarını xüsusi qeyd etmək istəyirəm. Bu, mühüm tarixi qərardır.

Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artır. Azərbaycan xarici siyasət sahəsində böyük uğurlara nail olub. Ölkəmizin rolu beynəlxalq miqyasda da möhkəmlənir. Bu gün Azərbaycanın maraqları nəzərə alınmadan regionda heç bir layihə həyata keçirilə bilməz. Biz beynəlxalq təşkilatlar çərçivəsində dünyanın əksər ölkələri ilə uğurlu əməkdaşlıq edirik. 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT

Təhlükəsizlik Şurasına üzv seçilməsi ölkəmizin beynəlxalq nüfuzunun artmasına dəlalət edir.

Təəssüf ki, bütün bunlarla yanaşı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də öz həllini tapmayıb. Ermənistanın təcavüzkar siyasəti Azərbaycan torpaqlarının 20 faizinin işğalına gətirib çıxarıb. Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasında qəbul edilən 4 qətnamə işğal olunmuş torpaqlarımızdan erməni işğalçı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edir. Qeyd olunan qətnamələrdən başqa, ATƏT-in, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq qurumların Azərbaycanın ərazi bütövlüyünün bərpasını tələb edən qərar və qətnamələri vardır. Bizim mövqemiz ondan ibarətdir ki, münaqişə ancaq Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həll edilməlidir.

**M ü x b i r: Mehriban xanım, cənab Prezident tərəfindən sadalananların sirrini nədə görürsünüz?**

**M e h r i b a n Ə l i y e v a:** Şübhəsiz ki, Azərbaycanın dinamik inkişafında məqsədyönlü siyasi və iqtisadi islahatların, neft strategiyasının, neft-qaz gəlirlərindən səmərəli istifadənin və güclü sosial siyasətin rolu böyükdür. Bütün bunların mərkəzində insan amili dayanır. Hər şey insan üçündür. Onun azadlığını, təhlükəsizliyini, yaşayışını təmin etmək dövlətin əsas vəzifəsidir. Biz 21 ildir ki, müstəqil dövlətik. Müstəqillik xalqımız üçün çoxdan gözlənilən, qiymətli dəyər idi. Məqsədimiz və arzumuz inkişaf etmiş, güclü, azad ölkədə yaşamaqdır. Sözsüz ki, bu çox güclü motivasiyadır. Eyni zamanda, beynəlxalq aləmdə müasir Azərbaycanın real və obyektiv imici formalaşıb. Biz öz tarixi köklərimizə, ənənələrimizə bağlıyıq. Bununla belə, dünyaya açığıq. Bizim üçün dözümlülük, tolerantlıq, multikulturalizm təkcə son zamanlar dəbdə olan sözlər deyil. Bu, Azərbaycan xalqının çoxəsrlik həyat tərzi və fəlsəfəsidir. Bu gün ölkəmiz siyasi, mədəni və iqtisadi sahələrdə çox sayda beynəlxalq konfrans, forum və görüşlərin keçirildiyi

ölkədir. Bu, qədim ənənələrin müasir təzahürüdür. Ölkəmizə gələn hər bir qonaq möhtəşəm inkişafla yanaşı, azərbaycanlıların məxsusi qonaqpərvərliyini və genişürəkliliyini qeyd edir. Buna ən yaxşı misal, ötən il ölkəmizdə keçirilən «Eurovision–2012» mahnı müsabiqəsidir. Biz bu cür möhtəşəm mədəni tədbirin təşkilinə və keçirilməsinə görə ən yüksək qiymət aldıq. Bütün dünyadan minlərlə qonaq ölkəmizlə tanış oldu, Bakının gözəlliyinə əmin oldu və xalqımızın sülhsevərliyinə, qonaqpərvərliyinə heyran qaldı. Bizim nəslin bəxti gətirib ki, Azərbaycanda həqiqətən böyük dəyişikliklər və zəfərlər dövründə yaşayırıq, bütün quruculuq proseslərinin iştirakçısı ola billərik. Sadəcə, Vətəni sevmək və onu qiymətləndirmək lazımdır.

**M ü x b i r: Bakı öz əfsanəvi gözəlliyi ilə bütün qonaqları heyran edən mədəniyyət və sivilizasiya mərkəzinə çevrilib. Burada inanılmaz tikinti bumu yaşanır. Siz Bakının müasir simasını necə xarakterizə edərdiniz?**

**İ l h a m  Ə l i y e v:** Bu gün hər bir azərbaycanlı fəxr edə bilər ki, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Biz bunu görürük, qonaqlarımız da etiraf edir. Təsadüfi deyil ki, 2009-cu ildə Bakı İSESKO tərəfindən İslam mədəniyyəti paytaxtı elan edilmişdi. Bu bizim paytaxtımıza verilən böyük qiymət idi. Bu gün Bakıda genişmiqyaslı abadlıq və quruculuq işləri görülür, iri infrastruktur layihələri həyata keçirilir. Sevindirici haldır ki, günbəgün müasirləşən Bakı öz tarixi simasını da qoruyub saxlayıb. Özündə Avropa və Şərq arxitekturasını birləşdirən paytaxtımıza gələn qonaqların sayı durmadan artır. Bu gün Bakı nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Biz gələcəkdə də Bakının inkişafı üçün tədbirlərimizi davam etdirəcəyik.

**M e h r i b a n  Ə l i y e v a:** Mənim üçün Bakı həmişə əvəzedilməz auraya malik ən gözəl şəhər olub. İçərişəhər, Dənizkənarı bulvar, Fəvvarələr meydanı, Neftçilər prospekti, Bakı Venesiyası, funikulyor – hər bir bakılı üçün bu yerlər artıq kult hesab edilir. Öz sevimli şəhərinin ona layiq olan gözəlliyə

qovuşmasını görmək xoşbəxtlikdir. O necə də təmiz və baxımlıdır. Qədim tarixi siması ilə yanaşı, tamamilə yeni, müasir siması formalaşır. Yenidənqurma işlərinin mərkəzdən kənarlara çıxması göz qabağındadır. Yarıdağılmış tikililərin yerində avropasayağı, rahat və gözəl parklar salınır. Qeyri-adi arxitektura, xüsusi mədəni estetikaya malik zonalar yaranır. Məsələn, yaxın gələcəkdə «Baku Art City» layihəsi başa çatacaq. Xəzər dənizinin sahilində, Dənizkənarı bulvarın davamında özünəməxsus qalereyalar, salonlar, muzeylər və sərgi meydançaları olan incəsənət mərkəzi yaradılacaq. XX əsrin sənaye arxitekturasının bazasında paytaxtımız üçün tamamilə yeni, yaradıcı ruhu olan mini-şəhərcik yaradılacaq.

**M ü x b i r: Həyatınızda son 5 ildə nə dəyişib?**

**M e h r i b a n  Ə l i y e v a:** Son 5 ilin ən xoşbəxt, yaddaqalan hadisəsi kimi, nəvələrimizin dünyaya gəlməsini hesab edirəm. Uşağın doğulması həmişə böyük xoşbəxtlik və Tanrının nemətidir. Bu, insanın həyatını dəyişən və həyata tamamilə fərqli baxmağa vadar edən möcüzədir.

**M ü x b i r: Oxucularımıza yeni ildə arzularınız...**

**İ l h a m  Ə l i y e v:** Mən «Baku» jurnalının oxucularını və kollektivini qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edir, kollektivə yeni yaradıcılıq uğurları və cansağlığı arzulayıram.

**M e h r i b a n  Ə l i y e v a:** Qoy hər kəsin həyatında işıqlı və gözəl günlər daha çox olsun! Qoy ümidləriniz doğrulsun, arzularınız çin olsun! Hamıya cansağlığı, xoşbəxtlik və sevgi arzulayıram!

## AZƏRBAYCANIN İLK «AZƏRSPACE-1» TELEKOMMUNİKASİYA PEYKİNİN ORBİTƏ BURAXILMASI MƏRASİMİNDƏ İŞTİRAK

*«Azərkosmos» ASC-nin yeni inzibati binası*

*8 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 8-də Azərbaycanın müstəqillik tarixinin ən önəmli hadisələrindən biri – Azərbaycan Respublikasının ilk telekommunikasiya peyki – «Azərspace-1»in «Azərkosmos» Açıq Səhmdar Cəmiyyətinin (ASC) yeni binasında uğurla orbitə buraxılması mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı həmin gün «Azərkosmos» ASC-nin yeni inzibati binasının açılışını da etmişdir.*

*Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına böyük diqqət göstərilir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2013-cü ilin ölkədə «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. 2008-ci ildə «Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması», 2009-cu ildə ölkədə kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafında dövlətin kifayət qədər maraqlı olduğunu nümayiş etdirdi. Bunun ardınca dövlətimizin başçısı 2010-cu ildə «Azərkosmos» Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında sərəncam imzaladı və həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi. Azərbaycanda və Qafqazda ilk*

*peyk operatoru olan «Azərkosmos» mövcud olduğu 2 il ərzində ölkədə teleradio yayım və telekommunikasiya xidmətlərinin göstərilməsi, hökumət və korporativ müştərilərin tələblərinə cavab verən yüksək etibarlı rabitə platformalarının təmin edilməsi istiqamətində iş apardı. Ən əsası isə bütün diqqət ölkəmizin ilk süni peyki olan «Azərspace-1»in hazırlanmasına və orbitə buraxılmasına yönəldildi. Dizaynı və qoşulma imkanları ilə milyonlarla insanın informasiya və rabitə xidmətlərindən geniş istifadə edəcəyi ilk peykimizin orbitə buraxılması ilə bağlı həyata keçirilən hazırlıqlar, əlbəttə ki, ölkəmizin qüdrətini dünyaya nümayiş etdirən ən önəmli hadisələrdən biridir.*

*Azərbaycan prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya «Azərkosmos» ASC-də yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, «Azərkosmos» ASC müştərilərinə hər zaman yüksək keyfiyyətli xidmətlər göstərməyi qarşısına məqsəd qoymuşdur. Bu məqsədlə «Azərkosmos» fəaliyyətini beynəlxalq standartlar əsasında quraraq keyfiyyətli idarəetmə siyasətinin formalaşdırılması istiqamətində iş aparır. «Azərkosmos»un yerləşdiyi ərazidə «Azərspace»ə nəzarəti həyata keçirmək üçün bütün imkanlar var. Burada peykin idarə olunması üçün müxtəlif təyinatlı antenalar quraşdırılmışdır.*

*«Azərkosmos» ASC-nin inzibati binasında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, burada əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Ötən dövrdə «Azərkosmos» ASC-də yüksək ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilib. Texniki heyət mərhələli şəkildə ABŞ-da və Malayziyada müxtəlif kurs və təlimlərdə iştirak etmişdir. Əsas məqsəd «Azərspace» peykinin idarə və istismar edilməsinin azərbaycanlı mütəxəssislər tərəfindən həyata keçirilməsini təmin etməkdir.*

*Prezident İlham Əliyevə hazırkı və gələcək layihələr barədə də məlumat verildi ki, 2015-ci ildə aşağı orbitli peykin, 2016-cı ildə isə «Azərspace-2»nin orbitə buraxılması planlaşdırılır.*

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Azərspace-1» peykinin orbitə buraxılması prosesini izlədilər. Bakı vaxtilə saat 01.36-da Azərbaycan Respublikasının ilk peyki – «Azərspace-1» Cənubi Amerikada, Fransanın inzibati idarəçiliyində olan Fransız Qvianasındakı Kuru kosmodromundan – Qviana Kosmik Mərkəzindən üzərində üçrəngli Azərbaycan bayrağı olan «Ariane-5» daşıyıcı raketi ilə orbitə buraxıldı.*

*Peyk buraxılışı üzrə dünya bazarının 50 faizindən çox hissəsinə malik və fəaliyyətə başladığı 1980-ci ildən müxtəlif daşıyıcı raketlərlə bütövlükdə 242 peyk buraxılışı həyata keçirmiş «Arianespace» şirkəti üçün «Azərspace-1» peykinin buraxılışı «Ariane-5» daşıyıcı raketi ilə 2002-ci ildən etibarən həyata keçirilən 54-cü ardıcıl uğurlu buraxılış hesab olunur. «Azərspace-1» peyki «Orbital Sciences» korporasiyası tərəfindən işlənib hazırlanan və hazırda 22 fəal peykin üzərində uğurla fəaliyyət göstərən «STAR-2» peyk platforması əsasında yığılmışdır.*

*Faydalı yük üzrə 36 fəal transponderlə təchiz olunan və təqribən 3,2 ton çəkisi olan «Azərspace-1» peyki 46 dərəcə Şərq uzunluq dairəsində geostasionar orbitdə yerləşəcək və Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edəcəkdir. Orbitdə istismar müddəti ən azı 15 il təşkil edəcək «Azərspace-1» peyki teleradio yayımı və telekommunikasiya xidmətlərinin göstərilməsi, eləcə də korporativ və hökumət müştərilərinin tələblərinə cavab verən keyfiyyətli və dayanıqlı rabitə platformalarının təmin edilməsi üçün nəzərdə tutulub.*

*Peykin resurslarının 20 faizi Azərbaycanın tələbatını ödəmək üçün istifadə olunacaq, qalan 80 faizi isə dünya bazarlarına ixrac ediləcəkdir. Artıq peykin resurslarının 40 faizinin satışı üçün şərti müqavilələr imzalanmışdır. «Azərspace-1» peykinin texnoloji dizaynı və geniş qoşulma imkanları vasitəsilə dünyanın təqribən üçdəbir hissəsini əhatə edəcək coğrafiya üzrə milyonlarla insan müasir informasiya və rabitə xidmətlərindən*

rahat istifadə edə biləcəkdir. İlk peykimiz 50-dən artıq ölkəni birləşdirən məkanda mühüm iqtisadi rol oynayacaqdır. Azərbaycanın ilk telekommunikasiya peykinin buraxılması iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayenin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində mühüm addım olmaqla yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Belə ki, «Azərspace-1» peyki yaxın gələcəkdə bütün Azərbaycan ərazisində keyfiyyətli televiziya və radio yayımı, o cümlədən sürətli «IP» xidmətlərin göstərilməsini təmin edəcək, ümumiyyətlə, ötürülən bütün məlumatlara daha yaxşı nəzarət olunacaq, müxtəlif elektron hökumət layihələrinin həyata keçirilməsi, həmçinin məsafədən təhsil və elektron səhiyyə kimi mühüm proqramlar üçün əlverişli platforma yaradılacaq, yerüstü fiber-optik şəbəkə zədələndiyi hallarda rabitə problemlərinin aradan qaldırılması üçün səmərəli və sürətli həll yolu təqdim olunacaq, habelə rabitənin təhlükəsizliyinin təmin edilməsi üçün yeni şifrələmə texnologiyası ilə mühafizə olunan və ən son tələblərə cavab verən müasir rabitə sistemi qurulacaqdır. «Azərspace-1» peykinin sığortalanması ilə əlaqədar bağlanılan müqaviləyə əsasən, orbitdə baş verə biləcək bütün qəza hallarında «Azərkosmos» ASC sığorta ödənişləri hesabına «Azərspace-1» layihəsini davam etdirmək imkanına sahib olacaqdır. «Azərspace-1» peyki kosmodromdan qalxdıqdan 33 dəqiqə sonra raketin gövdəsindən ayrıldı. Fəzaya buraxıldıqdan 34 dəqiqə 56 saniyə sonra Azərbaycanın ilk peyki orbitdə yerini tutdu.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ilk peyki – «Azərspace-1»in uğurla orbitə buraxılması münasibətilə xalqımızı təbrik etdi.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa təbriki

Bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. Bu gün birinci Azərbaycan telekommunikasiya peyki orbitə çıxarıldı. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu doğrudan da tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir. Bu hadisə onu göstərir ki, müstəqil Azərbaycan dövləti sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük. Bu hadisə münasibətilə bu işdə iştirak etmiş bütün qurumlara, bütün insanlara, ilk növbədə, Azərbaycan mütəxəssislərinə minnətdarlığımı bildirmək istəyirəm. Bu gün bu salonda əyləşən gənc mütəxəssislərimiz artıq peşəkar mütəxəssislərdir, bizim fəxrimizdirlər. Çox şadam ki, bu gözəl idarəetmə mərkəzində çalışan işçilərin böyük əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Peykin orbitə çıxarılması beynəlxalq əməkdaşlıq çərçivəsində mümkün olmuşdur. Bu, Amerikanın «Orbital» və Fransanın «Arianespace» şirkətlərinin köməyi, dəstəyi, fəaliyyəti nəticəsində mümkün olmuşdur. Beynəlxalq əməkdaşlıq bütün sahələrdə inkişaf edir, artır. Biz kosmik sənayedə də bu əməkdaşlığın gözəl nəticələrini görürük.

Azərbaycan uğurla inkişaf edir. Ölkəmizdə böyük quruculuq işləri aparılır. Ölkəmizin beynəlxalq nüfuzu artır. Azərbaycan bu gün dünyanın birinci beynəlxalq qurumunun – BMT Təhlükəsizlik Şurasının üzvüdür. Azərbaycan iqtisadiyyatı mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən rəqabət- qabiliyyətliliyinə görə MDB məkanında birinci, dünya miqyasında isə 46-cı yerdədir. Ölkəmizdə çox uğurlu iqtisadi islahatlar aparılır və yeni texnologiyaların, informasiya-kommunikasiya texnologiyalarının inkişafı bu gün Azərbaycanı fərqləndirən cəhətlərdən biridir. Təsadüfi deyil ki, 2013-cü il Azərbaycanda mənim sərəncamımla «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilmişdir. Əminəm ki, biz bu il və

bundan sonrakı illərdə informasiya-kommunikasiya texnologiyaları sahəsində daha da böyük nailiyyətlərə çatacağıq. Birinci peykin orbitə çıxarılması çox əlamətdar tarixi hadisədir. Bu işə 5 il əvvəl başlamışdıq. 2008-ci ildə mənim tərəfimdən Azərbaycan peykinin orbitə çıxarılması haqqında qərar verilmişdir. 2009-cu ildə Dövlət Proqramı qəbul edildi. 2010-cu ildə «Azərkosmos» Səhmdar Cəmiyyəti yaradılmışdır və artıq Azərbaycan kosmik klubun üzvünə çevrilmişdir. Biz gələcəkdə də yeni peyklərin orbitə çıxarılması istiqamətində fəal işləyirik və buna nail olacağıq. 2015-ci, 2016-cı illərdə əlavə 2 peyk orbitə buraxılacaq və artıq Azərbaycanda kosmik sənayenin inkişafı üçün çox gözəl imkanlar yaranacaqdır.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı bizim uğurlu gələcəyimizi müəyyən edəcək, təmin edəcəkdir. İnformasiya-kommunikasiya texnologiyaları sahəsi həm bilik, zəka, intellekt, həm də biznes sahəsidir. Peykin fəaliyyəti nəticəsində Azərbaycan dövləti maliyyə məsələlərini həll edəcək. Yəni, bu peykin fəaliyyəti iqtisadi cəhətdən də səmərəlidir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı ümumən hər bir ölkənin inkişafını müəyyən edir. Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaq. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, daha da müasir dövlətə çevrilsin. Bu yaxınlarda İnformasiya Texnologiyaları Universitetinin yaradılması haqqında imzaladığım sərəncam dediyim sözlərin təsdiqidir. Bir daha bütün Azərbaycan xalqını bu tarixi hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu gün – 8 fevral 2013-cü il Azərbaycan tarixində qalacaqdır. Əminəm ki, bundan sonrakı illərdə bu sahədə daha da böyük uğurlar əldə ediləcəkdir.

Əziz həmvətənlər, sizi bu tarixi hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm. Eşq olsun Azərbaycana!

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ TOMİSLAV NİKOLİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*8 fevral 2013-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin fevralın 8-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçi və xanımı Dragitsa Nikoliçi qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Serbiya Respublikasının Prezidentinə raport verdi.*

*Serbiyanın və Azərbaycanın dövlət himnləri səsləndi. Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Serbiya Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Tomislav Nikoliçə, Serbiya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ TOMİSLAV NİKOLİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*8 fevral 2013-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi.*

*Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin Azərbaycan Respublikasına rəsmi səfərinin ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı. Azərbaycan ilə Serbiya arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi.*

*Görüşdə ikitərəfli, regional, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 fevral 2013-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Bu Sizin Azərbaycana birinci səfərinizdir və mən əminəm ki, səfərin çox gözəl yekunları olacaqdır. Biz Sizinlə artıq geniş fikir mübadiləsi apardıq və görürük ki, bütün sahələrdə birgə əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Mən əminəm ki, Sizin səfəriniz bizim siyasi əlaqələrimizi daha da möhkəmləndirəcəkdir. Əlbəttə, bu əlaqələr iqtisadi sahədə əlaqələrin inkişafına güclü təkan verəcəkdir. İqtisadi sahədə artıq birgə fəaliyyət üçün gözəl təcrübəmiz vardır. Əminəm ki, səfər zamanı yeni layihələr haqqında konkret və dəqiq qərarlar veriləcəkdir. Xüsusilə energetika, nəqliyyat, investisiyaların qoyuluşu sahələrində əməkdaşlıq üçün çox gözəl perspektivlər vardır.

Əminəm ki, Sizin səfəriniz bütövlükdə Serbiya–Azərbaycan əlaqələrinin inkişafı üçün çox əhəmiyyətli olacaqdır və Siz ölkənizə ən xoş arzularla, təəssüratlarla qayıdacaqsınız.

Bir daha xoş gəlmisiniz!

*Serbiya Respublikasının Prezidenti səmimi qəbul üçün minnətdarlığını bildirdi.*

**T o m i s l a v N i k o l i ç:** Cənab Prezident, hesab edirəm ki, Serbiyanın Azərbaycana olan mehriban münasibətlərini əlavə şərh etməyə ehtiyac yoxdur.

Bu dostluq Serbiyada kimin hakimiyyətdə olmasından asılı olmayaraq daimi olaraq qalır. Dünyanın Şərq hissəsində Azərbaycan Serbiya üçün çox etibarlı bir tərəfdaşa çevrilib.

Müdrikliklə idarə etdiyiniz ölkədə vətəndaşlar azadlıq şəraitində yaşayır. Hesab edirəm ki, hər iki tərəf bu dostluqdan bəhrələnir və vaxt artıq gəlib yetişib ki, biz bu dostluğu konkret iqtisadi əməkdaşlığa çevirək. Serbiya əslində bunu hər zaman sizə təmənnasız edəcəkdir. Biz də istəyirik ki, siz bizə yardım edəsiniz ki, bu günə qədər apardığımız işlərin miqyasını daha da genişləndirək. Hesab edirəm ki, ölkələrimiz arasında olan birbaşa sərmayələr uzun perspektivli investisiyalara çevrilə bilər.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*8 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra fevralın 8-də Azərbaycan–Serbiya sənədlərinin imzalanma mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası və Serbiya Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiya Respublikasının Xarici İşlər naziri İvan Mrkiç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiya Respublikasının Xarici İşlər naziri İvan Mrkiç imzaladılar.*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ TOMİSLAV NİKOLİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Prezident sarayı*

*8 fevral 2013-cü il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliç fevralın 8-də mətbuata birgə bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!

Mən Sizi, cənab Prezident, bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Bu, Azərbaycana Sizin birinci səfərinizdir. Mən çox şadam ki, səfər uğurlu keçir. Əminəm ki, səfərin nəticələri çox müsbət olacaq və əlaqələrimizin gələcək inkişafını təmin edəcəkdir.

Biz Sizinlə bu gün keçirdiyimiz fikir mübadiləsi əsnasında ikitərəfli əlaqələrimizin bütün aspektlərini geniş şəkildə müzakirə etdik. Bir daha görürük ki, Serbiya ilə Azərbaycan arasında olan əlaqələr dostluq və strateji tərəfdaşlıq üzərində qurulmuşdur. Biz bundan sonra da siyasi əlaqələrimizi gücləndirəcəyik və bütün sahələrdə tərəfdaşlığın möhkəmlənməsi işinə öz töhfəmizi verəcəyik.

Beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlığımız da çox müsbətdir. Bütün beynəlxalq təşkilatlarda biz bir-birimizə ənənəvi olaraq qarşılıqlı dəstək veririk və bu dəstək çox əhəmiyyətlidir. Xüsusilə ölkələrin ərazi bütövlüyü məsələlərində biz daim bir-birimizin yanındayıq. Azərbaycanın mövqeyi bundan ibarətdir ki,

bütün münaqişələr beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edilməlidir. Beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında həll edilməlidir. Heç bir ölkənin beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri o ölkənin razılığı olmadan dəyişdirilə bilməz. Əminəm ki, gələcək illərdə də – bu barədə biz Sizinlə bu gün bir daha öz fikirlərimizi bildirdik – biz qarşılıqlı surətdə bir-birimizi üzv olduğumuz beynəlxalq təşkilatlarda dəstəkləyəcəyik.

Beynəlxalq məsələlərə gəldikdə, deyə bilərəm ki, ölkəmiz üçün ən ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsi əfsuslar ki, öz həllini tapmır. Azərbaycan torpaqları uzun illərdir ki, Ermənistan tərəfindən işğal edilib. Bu işğal və xalqımıza qarşı törədilən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün şəraitində yaşayır. Baxmayaraq ki, torpaqlarımızın 20 faizi işğal altındadır, erməni işğalçı qüvvələri öz işğalçı siyasətini davam etdirir. Bütün mötəbər beynəlxalq təşkilatlar bu məsələyə dair öz qərarlarını vermişlər, qətnamələr qəbul edilmişdir. Onların içərisində, əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi xüsusi yer tutur. Bu qətnamələrdə erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması haqqında çox dəqiq ifadələr mövcuddur.

Avropa Parlamenti, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq təşkilatlar buna oxşar qərar və qətnamələr qəbul etmişlər. Yəni ki, məsələnin həlli üçün hüquqi baza kifayət qədər genişdir. Bu məsələ tezliklə beynəlxalq hüquq normalarına uyğun şəkildə və tarixi ədalət əsasında həllini tapmalıdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Əminəm ki, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa edəcək və beləliklə, bu ədalətsizliyə son qoyulacaqdır. Əlbəttə, bu məsələdə Azərbaycanın haqq işini dəstəkləyən bütün ölkələrə, o cümlədən Serbiyaya biz öz minnətdarlığımızı bildirmək istəyirik.

Onu da qeyd etmək istəyirəm ki, indicə imzaladığımız Birgə Bəyannamədə bu məsələ ilə bağlı və eyni zamanda, Kosovo

məsələsində Azərbaycanın Serbiyanı dəstəkləməsi haqqında kifayət qədər dəqiq ifadələr artıq vardır.

Biz eyni zamanda, iqtisadi sahədə əməkdaşlığı da geniş müzakirə etdik. Bu sahədə də artıq gözəl təcrübə vardır. Birinci layihə icra edilir. Əminəm ki, ondan sonra başqa layihələr də icra ediləcəkdir. Serbiya iqtisadiyyatı Azərbaycan investorları üçün çox cəlbedicidir. Əminəm ki, səfər zamanı əldə ediləcək razılaşmalar əsasında gələcəkdə həm Azərbaycan investisiyalarının daha da böyük həcmdə Serbiya iqtisadiyyatına qoyuluşu və digər birgə layihələr haqqında biz səylərimizi davam etdirəcəyik. Çox istərdim ki, yaxın aylarda yeni konkret layihələr üzərində iş aparılsın ki, bu layihələr də uğurla nəticələnsin.

Biz Sizinlə Azərbaycanın təşəbbüsü ilə başlanmış və uğurla icra edilən layihələr haqqında fikir mübadiləsi apardıq, Serbiyanın bu layihələrdə iştirakı haqqında danışdıq. Onların içində Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi və Trans–Anadolu qaz kəmərinin çəkilişi layihələri xüsusi əhəmiyyət daşıyır. Azərbaycan ilə Serbiya arasında nəqliyyat, energetika sahələrində əməkdaşlıq üçün çox gözəl imkanlar vardır. Digər sahələrdə – rabitə və kommunikasiya, turizm və infrastruktur sahələrində də əməkdaşlıq üçün gözəl imkanlar vardır.

Əlbəttə, ikitərəfli əlaqələrimiz üçün humanitar sahədə əməkdaşlıq da mühüm rol oynayır. Bu sahədə də, hesab edirəm ki, son illər ərzində böyük uğurlar əldə edilibdir. Xalqlarımızın görkəmli şəxsiyyətlərinin xatirəsinə ucaldılmış abidələr bunun bariz nümunəsidir. Bu gün Bakıda görkəmli serb alimi Nikola Teslanın şərəfinə abidənin açılışı gözlənilir. Mənim Serbiyaya səfərim zamanı ulu öndər Heydər Əliyevin və dahi bəstəkarımız Üzeyir Hacıbəylinin abidələri Serbiyada açılmışdır. Bu məsələlər, şübhəsiz, iki ölkəni bir-biri ilə daha da sıx birləşdirir.

Əminəm ki, aramızda olan dostluq, partnyorluq, tərəfdaşlıq əlaqələri Sizin səfərinizdən sonra yeni pilləyə qalxacaq və beləliklə, biz bundan sonra da dost və tərəfdaş kimi uğurla əməkdaşlıq edəcəyik.

Bir daha, hörmətli cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Bir daha Sizə «Xoş gəlmisiniz!» – deyirəm.

## Serbiya prezidenti Tomislav Nikoliçin bəyanatı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Zati-aliləri!

Əslində biz belə razılığa gəlmişdik ki, burada elə bir nəfər çıxış edə bilər. Çünki Sizin burada söylədiyiniz hər bir sözə mən şərik çıxıram və bu, əslində Azərbaycan ilə Serbiya arasında sarsılmaz dostluğun ünvanına söylənilən sözlərdir. Bu dostluq bir neçə il bundan öncə yaranmışdır. Biz Serbiyada hakimiyyətə gəldikdən sonra bu münasibətləri daha da möhkəmləndirmək fikrindəyik. Azərbaycan Serbiyanın dostudur. Qeyd etmək istəyirəm ki, həyat tərzinə, xalqlarına görə ölkələrimizin oxşarlıqları vardır.

Azərbaycan Serbiyanı dəstəkləyir. Bu bir daha onu sübuta yetirir ki, müxtəlif dinlərə malik olan xalqlar coğrafi məsafəyə baxmayaraq, insanlar arasında anlaşmanın möhkəmlənməsinə xidmət edə bilərlər. Biz Azərbaycana çox minnətdarıq, ölkəniz bizə dəstək verir ki, ədalət bərpa olunsun. Biz də Azərbaycanı dəstəkləyirik. Əgər söhbət ədalətdən gedirsə, digər maraqlar kənarda qalmalıdır. Biz tələb edirik ki, bütün başqa maraqlar kənara atılsın. Əgər söhbət Serbiyadan və Azərbaycandan gedirsə, ədalət bərqərar olunmalıdır. Biz bir çox hallarda mübarizə aparmışıq, itkilər olubdur. Lakin biz hər zaman bu sınaqlardan lazımi qaydada çıxmışıq.

Azərbaycan əhalisinə görə Serbiyaya yaxındır. O ki qaldı həyat standartlarına görə, Sizin əhaliniz daha yaxşı yaşayır. Biz də istərdik ki, həyatı eyni standartlarda təmin edək. Təbii, biz istərdik ki, həmçinin elə bir şərait qurulsun ki, bu hər iki xalqın maraqlarına cavab versin. Hətta belə fikir də söyləmək

istəyirəm ki, əgər işgüzar dairələr üçün cəlbedici şəhərlər varsa, məsafələr rol oynamır.

Cənab Prezident, biz gözəl anlayırıq ki, bu baxımdan Sizin başqa ölkələrin, o cümlədən Serbiyanın yardımına ehtiyacınız yoxdur. Lakin buna baxmayaraq, biz bu işi təmənnasız aparmaq istəyirik. Biz istərdik ki, insanlarımız işlə təmin olunsun, istehsalat baş tutsun. Onlar öz məhsullarını tədarük etsinlər və daha yaxşı yaşasınlar.

Qeyd etmək istəyirəm ki, hətta ölkənizin üzv olmadığı təşkilatlarda da biz Sizi dəstəkləyəcəyik. Bizim də olmadığımız təşkilatlarda əminəm ki, Azərbaycan bizi təmsil edəcək.

Bu yaxınlarda biz Azərbaycan ilə daimi əsaslarla işgüzar dairələr, həmçinin adi insanlar arasında təmasların qurulmasına nail olacağıq. Biz görəcəyik ki, bu, ikitərəfli əməkdaşlığımız üçün nə qədər vacibdir. Bu nəinki regionlarımız üçün, həmçinin bütövlükdə qitə üçün xeyirli olacaqdır. Bizim aramızda bu qədər yaxınlaşma çox yaxşı haldır. Əslində bu hələ biz müxalifətdə olan vaxtdan başlamışdır. Lakin indi biz hakimiyyətdəyik. Bu onu göstərir ki, bütün Serbiya Azərbaycanın tərəfindədir. Keçmiş müxalifət indi hakimiyyətdir. Biz istənilən məsələdə razılaşmaya bilərik. Amma Azərbaycana gəldikdə isə hər zaman ümumi mövqe nümayiş etdiririk.

Azərbaycanın zəngin dini və mədəni irsi vardır. Azərbaycan tərəfindən 2 layihə maliyyələşdirilibdir. Pravoslav kilsəsi və 1 məscid yenidən qurulubdur. Serbiya da bir dövlət kimi, eyni rol oynayır. Ölkəmizdə bütün dinlərin nümayəndələri, 30-dan artıq etnik azlığın təmsilçiləri yaşayır. Onlar universitetlərdə öz doğma dillərində dərs alırlar. Həmçinin bildirmək istəyirəm ki, biz həm öz vətəndaşlarımıza, həm digər dinlərin təmsilçilərinə eyni münasibət bəsləyirik.

Bilirsiniz, hakimiyyət dəyişir, insanlar bir-birini əvəz edir. Lakin istəyirəm ki, bizim xalqlar başladığımız bu işləri daha da irəli aparsınlar.

Çox sağ olun!

## BAKIDA GÖRKƏMLİ SERB ALİMİ NİKOLA TESLANIN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*8 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliç, xanımı Dragitsa Nikoliç fevralın 8-də Bakının mərkəzində serb xalqının böyük oğlu, görkəmli alim Nikola Teslanın abidəsinin açılışı mərasimində iştirak etmişlər.*

*Prezidentlər İlham Əliyev və Tomislav Nikoliç abidənin üzərindəki örtüyü götürdülər, önünə gül dəstələri qoydular.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Serbiyanın birinci xanımı Dragitsa Nikoliç də abidə önünə gül dəstələri qoydular.*

*Məlumat verildi ki, paytaxtın mərkəzində, Azadlıq prospekti və Süleyman Rəhimov küçələrinin kəsişməsində yerləşən parkda ucaldılmış abidənin müəllifləri Xalq rəssamı, heykəltəraş Ömər Eldarov və Əməkdar memar Sənan Salamzadədir. Bürüncdən hazırlanmış abidənin hündürlüyü postamentlə birlikdə 3,3 metrdir. Abidənin fonunda görkəmli alimin əsas ixtiralarından olan dəyişən cərəyan generatorunu əks etdirən dekorativ panno quraşdırılmışdır. Abidənin yerləşdiyi park abadlaşdırılmış, sakinlərin istirahəti üçün hərtərəfli şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və prezident Tomislav Nikoliç, xanımı Dragitsa Nikoliç abidə önündə xatirə şəkli çəkdirdilər.*

*Sonra Azərbaycan və Serbiya prezidentləri açılış mərasimində çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanım Nikoliç!

Hörmətli dostlar, əziz qonaqlar!

Bu gün Serbiya–Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür. Bu gün serb xalqının böyük oğlu, görkəmli alim Nikola Teslanın abidəsi Bakıda açılır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Mən çox şadam ki, artıq Bakıda da görkəmli alim, dünya miqyaslı ixtiraçı Nikola Teslanın abidəsi vardır. Nikola Tesla dünya elminə çox böyük töhfələr vermişdir və onun xatirəsi dünyada böyük hörmətlə yad edilir.

Bu gün bu mərasimdə Serbiyadan gəlmiş qonaqlar və Azərbaycan alimləri iştirak edirlər. Artıq bu yer, bu park Serbiya–Azərbaycan dostluğu parkıdır. Ümumiyyətlə, serb və Azərbaycan xalqlarının görkəmli nümayəndələrinin şərəfinə həm Serbiyada, həm Azərbaycanda ucaldılmış abidələr xalqlarımızı, ölkələrimizi daha da sıx birləşdirir. İl yarım bundan əvvəl Belqradda ulu öndər Heydər Əliyevin abidəsi və görkəmli serb yazıçısı Milorad Paviçin abidəsi ucaldılmışdır. Mən çox şadam ki, bu abidələrin yerləşdiyi ərazidə – məşhur Daşmeydan parkında Azərbaycan memarlarının izi artıq görünür. Novi Sad şəhərində isə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin büstü ucaldılmışdır. Mən Novi Sadda olarkən orada görülən işlərlə tanış olmuşdum və Azərbaycan tərəfindən bərpa edilmiş sahilyanı parkın gözəlliyinə vurğun olmuşdum.

Bir daha demək istəyirəm ki, bu əlamətdar hadisələr hər iki xalqın və dövlətin digər xalqın görkəmli nümayəndələrinə olan hörmətinin əlamətidir və Serbiya–Azərbaycan dostluğunun təzahürüdür. Nikola Teslanın abidəsinin Serbiya prezidentinin Azərbaycana rəsmi səfəri zamanı açılması bu hadisəyə əlavə məna verir.

Bu gün Serbiya–Azərbaycan əlaqələri öz inkişaf dövrünü yaşayır. Bu gün həmkarımla apardığım danışıqlar və fikir mübadiləsi bir daha göstərir ki, ölkələrimiz bir-birinə çox yaxındır. Biz tərəfdaşıq, dostuq və bu səfər dostluğumuzu daha da möhkəmləndirəcəkdir. Bizim ikitərəfli əlaqələrimizin gündəliyi çox genişdir, siyasi, iqtisadi və sosial məsələləri əhatə edir. Onların içində humanitar sahədə əməkdaşlığın da xüsusi yeri var. Mən çox istərdim ki, elm, mədəniyyət, incəsənət sahəsində də əməkdaşlığımız inkişaf etsin və hesab edirəm ki, bu abidənin Bakıda açılması bu istiqamətdə atılan mühüm addımdır. Bakı şəhərinin mərkəzində, Bakı şəhərinin bu qədim yerində yerləşən bu abidə və yaradılan bu park, əslində, Serbiya–Azərbaycan dostluğuna ucaldılmış bir abidədir. Əminəm ki, Bakıda yaşayan serblər və əlbəttə, yerli sakinlər buraya gələrkən bir-biri ilə daha da sıx dostluq münasibətlərini quracaqlar.

Əziz dostlar, bir daha hamımızı bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Sağ olun.

## Serbiya prezidenti Tomislav Nikoliçin çıxışı

Zati-aliləri cənab Prezident!
Hörmətli xanım Əliyeva!
Xanımlar və cənablar, əziz dostlar!

Serbiyaya müstəqillik, azadlıq və inam gətirən Hatt-ı Şərif Bəyannaməsi 1830-cu ildə Daşmeydan parkında oxunub. Məhz bu parkda Knyaz Miloş ölkəyə rəhbər elan edilib. Ən gözəl parkların birində belə bir tarixi irs ümummilli lider Heydər Əliyevin, eləcə də yazıçı Milorad Paviçin heykəlləri ilə zənginləşir. Həmin parkı təkrarolunmaz cazibəli fəvvarələr bəzəyir. Axşamlar bütün bu kompleksdə suyun, musiqinin və müxtəlif rənglərin oynaması böyük təəssürat bağışlayır. Göz qırpımında suyun möcüzəsi həmin məkana xüsusi yaraşıq verir. Məhz belə bir yerdə, belə bir şəraitdə həm Heydər Əliyevin, həm də Milorad Paviçin abidələri ucalır, Belqrad sakinləri hər zaman oraya toplaşırlar.

Dünya şöhrətli alimin abidəsinin açılışı ilə Azərbaycan xalqı elə bir şəxsiyyətə hörmətini izhar edir ki, o öz ixtiraları ilə gündəlik həyatımıza işıq saçan yenilikləri gətirmişdir. Bu şəxsiyyətin elmi nailiyyətləri bütün bəşəriyyətin nailiyyətidir. Onun işləri hər bir yerdə böyük serbin fəaliyyəti kimi dəyərləndirilir. Dost ölkədə onun rəhbəri ilə yan-yana xalqın ən tanınmış aliminin abidəsi qarşısında dayanmaqdan böyük şərəf ola bilməz. Böyük Nikola Teslanın həmvətəni olmaqdan böyük şərəf hissi duyaraq hamımız fəxr edirik ki, onun nailiyyətləri bütün bəşəriyyətə məxsusdur.

Bu xüsusiyyəti qəbul edən Azərbaycan böyük alimə və Serbiyaya hörmət əlaməti olaraq belə bir gözəl məkanda Nikola Teslanın abidəsini ucaltdı. İnanırıq ki, bu yer Bakı sakinlərinin sevimli yeri olacaq, necə ki, belqradlılar Heydər Əliyevin abidəsinin ucaldığı parka gəlirlər. Bu iki xalqın böyük oğullarına həsr olunan abidələr artıq müştərək tariximizin bir hissəsinə çevrilir. Serbiya vətəndaşları adından minnətdarlığımızı bildiririk.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*8 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından fevralın 8-də Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin və xanımı Dragitsa Nikoliçin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Serbiya prezidentini və nümayəndə heyətini bir daha Bakıda salamlayan prezident İlham Əliyev qarşılıqlı səfərlərin ikitərəfli əməkdaşlığın inkişafına və münasibətlərin yeni müstəviyə yüksəlməsinə təkan verəcəyini bildirdi. 2011-ci illə müqayisədə 2012-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin bir neçə dəfə artdığını bildirən dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Serbiyaya sərmayə qoyuluşunda yaxından iştirak edir və bu fəaliyyət iqtisadi əlaqələrin inkişafından xəbər verir. Bu səfər çərçivəsində imzalanan sənədlərin ikitərəfli əlaqələrin inkişafına zəmin yaratdığını deyən prezident İlham Əliyev Serbiya–Azərbaycan mədəni və humanitar əlaqələrinin inkişafının məmnunluq doğurduğunu diqqətə çatdırdı. Bildirdi ki, ölkələrimiz beynəlxalq və regional təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq edir.*

*Beynəlxalq terrorizmə qarşı mübarizədə, regionlarımızda sabitliyin möhkəmləndirilməsində və ərazi bütövlüyü məsələlərində mövqelərimizin üst-üstə düşdüyünü vurğulayan prezident İlham Əliyev dedi:*

– Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin, inkişafın və əməkdaşlığın tərəfdarıdır. Lakin regionun ən ağrılı problemi – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və 1 milyondan artıq

insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq normalara uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

*Yüksək qonaqpərvərliyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirən Serbiya dövlətinin başçısı Tomislav Nikoliç bu səfərin ölkələrimiz arasındakı münasibətlərin bütün sahələrdə dərinləşməsinə xidmət etdiyini bildirdi. İqtisadi sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini qeyd etdi. Serbiya dövlətinin başçısı ölkələrimiz arasında mədəni, elmi və digər sahələrdə münasibətlərin inkişafının vacibliyini bildirdi. Serbiyanın Azərbaycan ilə dialoq və əməkdaşlığın inkişaf etdirilməsində hər zaman maraqlı olduğunu qeyd etdi.*

**Tomislav Nikoliç:** Təmsil etdiyim ölkə üçün Azərbaycan dövlətlərimizin ərazi bütövlüyü məsələsində bizimlə eyni mövqeni paylaşan, son dərəcə vacib və yaxın bir tərəfdaşdır. Azərbaycan kimi, Serbiya da çətinliklərlə üz-üzə gəlməkdədir və bu çətinliklərə, habelə bölgəmizdə yerləşən bütün ölkələrə ardıcıl, konstruktiv, adekvat və dostyana tərzdə yanaşmağa çalışır. Biz də ölkəmizin ərazi bütövlüyünü, ləyaqətini və qanunlarını təhlükə altına qoya bilmərik. Dialoqun aparılmasına və bölgəmizdə mövcud olan ziddiyyətlərin ən mükəmməl və düzgün üsullarla həll olunmasına tam hazırıq.

*Serbiya prezidenti əmin olduğunu bildirdi ki, xalqlarımız və ölkələrimiz arasında qurulan münasibətlər qarşılıqlı anlaşma və dəstəyin davamlı təkmilləşməsinin nümunəsi olaraq qalacaqdır.*

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*8 fevral 2013-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliç və xanımı Dragitsa Nikoliç fevralın 8-də Heydər Əliyev Fondunda olmuşlar.*

*Qonaqları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Ali qonağa və xanımına Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verildi.*

*Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.*

*Tomislav Nikoliç və xanımı ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldular.*

*Fondla tanışlıq zamanı qonaqlara məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrəsidir.*

*Qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, xarici*

*ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdılar.*

*Serbiya prezidenti Tomislav Nikoliç Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Ali qonağa Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu. Serbiyanın prezidenti Tomislav Nikoliç və xanımı Dragitsa Nikoliç Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldılar.*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Litva Dövlətinin Bərpası Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan–Litva münasibətləri müvəffəqiyyətlə inkişaf etməkdədir. Xalqlarımızı birləşdirən möhkəm dostluq əlaqələri siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığımızın gündən-günə genişlənməsinə öz müsbət təsirini göstərir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın hərtərəfli inkişafı yolunda səylərimiz bundan sonra da xalqlarımızın rifahına, ölkələrimizin çiçəklənməsinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 fevral 2013-cü il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOMİSLAV NİKOLİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Serbiya arasındakı dostluq əlaqələrinin inkişafı, ikitərəfli qaydada və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığımızın daha da dərinləşməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu yaxınlarda Azərbaycana etdiyiniz səfərinizi məmnunluqla xatırlayıram. İnanıram ki, səfər zamanı Sizinlə görüşlərimiz, apardığımız danışıqlar, imzalanmış sənədlər, o cümlədən dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında bəyannamə ikitərəfli münasibətlərimizin inkişafı üçün yeni imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Serbiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 fevral 2013-cü il*

## LİVİYA DÖVLƏTİ ÜMUMMİLLİ KONQRESİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏL-MƏQARİFƏ

Hörmətli cənab Sədr!

Liviya Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Liviya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Liviya xalqına sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 fevral 2013-cü il*

# AZƏRBAYCAN ELMİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ MAHMUD KƏRİMOVUN SON MƏNZİLƏ YOLA SALINMASI MƏRASİMİ

*Azərbaycan Milli Elmlər Akademiyası*

*11 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də akademik Mahmud Kərimovun vida mərasimində iştirak etmək üçün AMEA-nın binasına gəlmişdir. Salonda Azərbaycan prezidenti İlham Əliyevin adından əklillər qoyuldu.*

*AMEA-nın binasının qarşısında da dövlət, hökumət və yaradıcılıq təşkilatları, ali təhsil ocaqları, müxtəlif kollektivlər, o cümlədən respublikanın elmi ictimaiyyəti adından əklillər düzülmüşdü.*

*Dövlətimizin başçısı görkəmli alimin ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verdi.*

*Sonra matəm mitinqi oldu.*

*Matəm mitinqini Baş nazirin müavini Elçin Əfəndiyev açaraq, görkəmli alimin həyat və yaradıcılığından danışdı, onun vəfatının Azərbaycan elmi üçün ağır itki olduğunu bildirdi. Qeyd olundu ki, böyük ziyalı və elm xadimi olan akademik Mahmud Kərimov ölkəmizdə ziyalılıq ənənələrini davam etdirən görkəmli alim idi. Mahmud Kərimov haqqında fikirləşəndə ilk növbədə, göz önündə sadə, mülayim, təmkinli, əsl ziyalı bir insanın surəti canlanır. Bütün bu yüksək insani keyfiyyətlər onun böyüklüyündən irəli gəlirdi.*

*Baş nazirin müavini qeyd etdi ki, akademik Mahmud Kərimovun ziyalılığı ulu öndərimiz Heydər Əliyevin də diqqətindən yayınmamışdır. Böyük alimin AMEA-ya rəhbərliyi dövründə Azərbaycan elmi yeni bir inkişaf mərhələsinə qədəm qoydu. AMEA-nın prezidenti kimi, bu görkəmli elm təşkilatçısının*

*fəaliyyəti Azərbaycan elminin inkişafında böyük iz qoymuş, bu qurumun beynəlxalq əlaqələrinin inkişafında mühüm rol oynamışdır. Akademik Mahmud Kərimov Azərbaycan elmini ölkəmizin hüdudlarından kənarda yüksək ləyaqətlə təmsil etmişdir.*

*Elçin Əfəndiyev Mahmud Kərimovun insani keyfiyyətlərindən, dostluğa, elmə, Vətənə sədaqətindən, gənc alimlərə qayğısından da söz açdı.*

*Akademik Vaqif Fərzəliyev çıxış edərək dedi ki, Mahmud Kərimov Akademiyaya rəhbərlik etdiyi 12 il ərzində ölkəmizdə fizika elminin inkişafında müstəsna xidmətlər göstərmiş, Azərbaycan dövlətinin elm siyasətinə böyük töhfələr vermişdir. Akademik Mahmud Kərimovun araşdırmalarının nəticələri Azərbaycanda və xaricdə nəşr edilmiş 200-ə yaxın elmi əsərdə əksini tapmışdır. O, elmi nailiyyətlərinə görə çoxsaylı patent və müəlliflik şəhadətnamələri almışdır. Alim mötəbər beynəlxalq simpozium, konfrans və forumlardakı çıxışları ilə Azərbaycan elmini layiqincə təmsil etmişdir. O, Azərbaycan elminin dünya elm strukturlarına sürətlə inteqrasiya olunmasına, xarici ölkələrlə əlaqələrin xeyli genişlənməsinə xidmət etmişdir.*

*Akademik Akif Əlizadə isə vurğuladı ki, tanınmış elm xadimi Mahmud Kərimovun Azərbaycanda elmin inkişafında və idarə olunmasındakı gördüyü işlər heç vaxt unudulmayacaqdır. Bildirildi ki, ölkəmizdə radiasiya fizikası və informatika sahələrinin yeni biliklərlə zənginləşməsində mühüm rol oynayan, dielektriklər fizikası ilə bağlı fundamental tədqiqatlar aparan Mahmud Kərimov radioekologiya və radiasiya materialşünaslığı istiqamətlərində də elmi araşdırmaları ilə məşhur olmuşdur. Alimin bir çox istiqamətlər üzrə müəyyən etdiyi metodlar və gəldiyi elmi nəticələr həmişə öz aktuallığı, fundamental-nəzəri və tətbiqi əhəmiyyəti ilə seçilmişdir. Onun uzun müddət rəhbərlik etdiyi Radiasiya Tədqiqatları Sektoru AMEA-nın nüfuzlu institutlarından birinə çevrilərək beynəlxalq aləmdə sanballı elmi qurum kimi qəbul olunmuşdur.*

Görkəmli alim Mahmud Kərimovun nəcib xüsusiyyətlərindən danışan akademik İsmayıl Hacıyev onun mənəvi keyfiyyətlərinin elm adamlarının qəlbində daim yaşayacağını bildirdi. Mahmud Kərimovun fəaliyyətinə nəzər salan İsmayıl Hacıyev MDB ölkələri və türkdilli dövlətlərin atom enerjisindən sülh məqsədi ilə istifadəsi üzrə komissiyalarının üzvü olan Mahmud Kərimovun Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının sədri kimi, dövlət qurumları və ali təhsil müəssisələrində elmi-tədqiqat proseslərinin səmərəli əlaqələndirilməsi prosesinə də mühüm töhfə verdiyini diqqətə çatdırdı.

Akademik bildirdi ki, ömrünün 40 ilini Azərbaycan elminin inkişafına həsr edən Mahmud Kərimov AMEA-ya rəhbərliyi dövründə dövlətin elm siyasətinin regionlarda da uğurla tətbiqinə çalışmışdır. Məhz onun bu quruma rəhbərlik etdiyi dövrdə AMEA-nın Naxçıvanda və Gəncədə bölmələri, Şəkidə və Lənkəranda isə regional bölmələri yaradılmışdır.

Akademik Əhliman Əmiraslanov Azərbaycan elminin inkişafında yorulmadan çalışan Mahmud Kərimovun elmi irsinin hər zaman gələcək nəsillər üçün mənbə olacağını söylədi. Bildirildi ki, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının İdarə Heyətinin sədri kimi fəaliyyət göstərən akademik Mahmud Kərimov Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə prezident İlham Əliyev tərəfindən «Şöhrət» ordeninə layiq görülmüşdür.

Qeyd edildi ki, 2 il əvvəl dövlətimizin başçısının iştirakı ilə keçirilən AMEA-nın illik yığıncağında Azərbaycan elminin inkişaf etdirilməsi istiqamətində Mahmud Kərimovun cəsarətlə qaldırdığı məsələlərin çoxu tezliklə həyata keçirilməyə başlanmışdır.

Böyük alimin Azərbaycan elminin inkişafındakı xidmətlərini xatırladan akademik Vasim Məmmədəliyev diqqətə çatdırdı ki, ürəyi hər zaman Vətəni ilə döyünən Mahmud Kərimov elmimizin tarixində böyük iz buraxmışdır. Bildirildi ki, Azərbaycanda fizika elminin inkişafında, bu sahədə sanballı,

uğurlu tədqiqatların aparılmasında böyük xidmətləri olan Mahmud Kərimovun AMEA-ya rəhbərlik etdiyi son dövr bu qurumun fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə nəticələnmişdir. Qeyd olundu ki, görkəmli alim, bacarıqlı elm təşkilatçısı, akademik Mahmud Kərimovun əziz xatirəsi heç zaman unudulmayacaq.

Sonra prezident İlham Əliyev mərhumun ailə üzvlərinə bir daha dərin hüznlə başsağlığı verdi, onlara Tanrıdan səbir dilədi.

## FRANSA RESPUBLİKASININ KEÇMİŞ BAŞ NAZİRİ VƏ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ VƏKİLİ DOMİNİK DE VİLLPEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Fransa Respublikasının keçmiş Baş naziri və ticarət məsələləri üzrə vəkili Dominik de Villpeni qəbul etmişdir.*

*Fransanın keçmiş Baş naziri və ticarət məsələləri üzrə vəkili Dominik de Villpen ölkəmizdə gedən yüksək inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. O, Azərbaycanın ilk süni peykinin orbitə çıxarılması münasibətilə dövlətimizin başçısını təbrik etdi. Əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı çoxlu birgə layihələrin olduğunu vurğulayan Dominik de Villpen ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksələcəyinə ümidvar olduğunu bildirdi. Fransalı qonaq «Eurovision» mahnı müsabiqəsindən sonra ilk Avropa oyunlarının Bakıda təşkilini mühüm addım kimi dəyərləndirdi. Dominik de Villpen Qərb ilə Şərq arasında körpü rolunu oynayan Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyadakı rolunun mühüm əhəmiyyətini qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycanın ilk süni peykinin orbitə çıxarılması ilə bağlı Fransanın informasiya texnologiyaları şirkətlərinin göstərdikləri dəstəyi yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Fransanın müxtəlif şirkətlərinin ölkəmizdəki fəaliyyətinin önəmini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Fransa arasında uzunmüddətli əməkdaşlıq layihələrinin əhəmiyyətini vurğuladı.*

## «AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2009–2013-cü İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»nın İCRASININ DÖRDÜNCÜ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK*

*Bakı Biznes Mərkəzi*

*12 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə fevralın 12-də Bakı Biznes Mərkəzində «Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.*

*Dövlətimizin başçısı mərkəzdə 2003–2012-ci illərdə respublikamızın sosial-iqtisadi inkişafı istiqamətində görülmüş işləri əks etdirən sərgi ilə tanış oldu.*

*Sərgidə Azərbaycan iqtisadiyyatı və ölkəmizin regionlarının 2003–2012-ci illərdə keçdiyi inkişaf yolu hərtərəfli əksini tap-*

---

* «Rеэионларын 2009–2013-ъц иллярдя сосиал-игтисади инкишафы Дювлят Програмы»нын иърасынын дюрдцнъц илинин йекунларына щяср олунмуш конфрансda Игтисади İнкишаф назири Шащин Мустафайев, Шяки Шящяр Иъра Щакимиййятинин башчысы Елхан Усубов, Аьдам Щейвандарлыг Комплексинин тясисчиси Фуад Яййубзадя, Масаллы Район Иъра Щакимиййятинин башчысы Рафил Щцсейнов, Оьуз Qарьыдалы емалы заводунун баш директору Вагиф Щцсейнов, Бярдя Район Иъра Щакимиййятинин башчысы Видади Исайев, Аьсу районундакы «Аз-Эраната» ММЪ-нин Ширя вя шяраб емалы заводунун иърачы директору Рювшян Фярщадов vя Аьстафа Район Иъра Щакимиййятинин башчысы Мящяррям Гулийев çıxış etdilər.

*mışdır. Məhz ötən illərdə aparılan məqsədyönlü və kompleks dövlət siyasəti nəticəsində Cənubi Qafqaz iqtisadiyyatının dörddə üçü respublikamızın payına düşür. İqtisadi İnkişaf naziri Şahin Mustafayev prezident İlham Əliyevə məlumat verdi ki, 2003-cü ildən bəri ümumi daxili məhsul 3 dəfə, qeyri-neft ümumi daxili məhsulu isə 2,4 dəfə artmışdır. Son 9 ildə Azərbaycanın strateji valyuta ehtiyatları 28,8 dəfə artaraq 46 milyard dolları ötmüşdür. Yoxsulluğun səviyyəsi 44,7 faizdən 6 faizə, işsizlik isə 5,2 faizə qədər azalmışdır. 2003–2012-ci illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən 128,3 milyard dollar investisiyadan 65,7 milyard dollarını daxili investisiyalar təşkil etmiş və xarici ticarət dövriyyəsi 6,4 dəfə artmışdır. Dünyanın ən nüfuzlu «Standard & Poors», «Fitch» və «Moodys» beynəlxalq agentliklərinin Cənubi Qafqazda investisiya reytinqinə layiq görülən ilk ölkə də məhz Azərbaycandır. «Qlobal Rəqabətlilik Hesabatı»nda ölkəmiz 144 ölkə arasında 46-cı, MDB məkanında isə ardıcıl olaraq 4 ildir ki, 1-ci yerdədir. Beynəlxalq imici durmadan yüksələn Azərbaycan «Yüksək insan inkişafı» və «Yuxarı orta gəlirli» ölkələr qrupuna daxildir.*

*Bildirildi ki, çoxşaxəli fəaliyyəti ilə seçilən Heydər Əliyev Fondu da regionların sosial-iqtisadi inkişafında yaxından iştirak edir. Fondun «Yeniləşən Azərbaycana yeni məktəb», «Uşaq evləri və internat məktəblərinin inkişafı», «Təhsilə dəstək», «Diabetli uşaqlara ən yüksək qayğı», «Talassemiyasız həyat naminə» proqram və layihələri çərçivəsində müxtəlif bölgələrdə silsilə tədbirlər reallaşdırılır. Respublikamızın bölgələrində Fondun xətti ilə sosial, infrastuktur, informasiya-kommunikasiya texnologiyaları, səhiyyə, təhsil, idman, mədəniyyət və digər sahələri əhatə edən yüzlərlə layihələr, çoxlu sayda xoşməramlı tədbirlər keçirilib.*

*Bildirildi ki, 2003-cü ildən bəri regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində Naxçıvan Muxtar Respublikası da sürətli və hərtərəfli inkişaf yolu keçmişdir. Muxtar respublikada ümumi daxili məhsul 12,5 dəfə, adambaşına düşən ümumi daxili məhsul isə 11 dəfə artmışdır.*

*Sənayedə artım 45,4 dəfə, kənd təsərrüfatında 4,4 dəfə, xarici ticarət dövriyyəsində isə 12,2 dəfə təşkil etmişdir. 2003–2012-ci illərdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən investisiyanın məbləği 15,5 dəfə çoxalmış, silsilə infrastruktur və sosial obyektlər tikilib istifadəyə verilmişdir.*

*Sənayeləşmə siyasəti başlıca prioritetlərdən olan ölkəmizdə 2003-cü ildən bəri sənaye istehsalı 2,6 dəfə artmış və kompleks tədbirlər hesabına yaxın illərdə bu artımın daha da yüksələcəyi gözlənilir.*

*Ölkədə həyata keçirilən infrastruktur layihələri də kifayət qədər çoxdur. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqinə və bu sahənin inkişafına görə artıq ölkəmiz öncül yerlərdədir, bu yaxınlarda Azərbaycanın ilk telekommunikasiya peyki orbitə çıxarılmışdır.*

*Hazırda aqrar sektorun inkişafı diqqət mərkəzindədir. 2003–2012-ci illərdə aqrar sektor 1,4 dəfə, heyvandarlıq məhsullarının istehsalı isə 3,4 dəfə artmışdır. Sahibkarlara Kömək Milli Fondunun xətti ilə 2003-cü ildən bəri 15 mindən çox sahibkara 936 milyon manat güzəştli kredit ayrılıb. Güzəştli kreditlər hesabına maliyyələşdirilmiş layihələrin reallaşdırılması 104 mindən çox yeni iş yerinin açılmasına imkan yaradıb.*

*Ötən müddətdə verilən kreditlərin məbləği 20,3 dəfə artmışdır. Ayrılan kreditlərin 43,4 faizi və ya 406,3 milyon manatı qaytarılan vəsaitlər hesabına təmin olunmuşdur. 496,8 milyon manat güzəştli kredit dövlətimizin başçısının tapşırığına müvafiq yeni texnologiyalara əsaslanan 248 investisiya layihələrinə yönəldilib. 1640 qadın, 1497 gənc və 892 məcburi köçkün sahibkar da güzəştli kreditlərlə təmin edilib. Ekoloji sahədə ölkəmiz beynəlxalq standartların tətbiqinə xüsusi diqqət yetirir və silsilə layihələr reallaşdırılır.*

*Ölkəmizdə turizm sahəsi də çox sürətlə inkişaf edir. 2003-cü ildən bəri turizm sektoru 8,5 dəfə, ölkəmizə gələn turistlərin sayı isə 3,3 dəfə artıb.*

*Paytaxtda olduğu kimi, respublikamızın regionlarında sosial infrastrukturun inkişafı da maksimum diqqətdə saxlanılır.*

*Sərgidə iqtisadi rayonların əsas sosial-iqtisadi göstəricilərini əks etdirən məlumat lövhələri və videoçarxlara da geniş yer verilib.*

*Videoçarxlarda dövlətimizin başçısının regionlara səfərləri və dövlət proqramları əsasında həyata keçirilən silsilə tədbirlər hərtərəfli əksini tapmışdır.*

*Sərginin Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, həmçinin Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyətindən bəhs edən bölmələri də zənginliyi ilə seçilir. Burada ölkədə istehsal olunan məhsulların elektron kataloqu, iqtisadi rayonların pasportları, eləcə də Sumqayıt Kimya Sənayesi və Balaxanı Sənaye parkları barədə İqtisadi İnkişaf Nazirliyi tərəfindən hazırlanan çap materialları və təqdimatlar da geniş yer alıb.*

*Ümumilikdə, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları ölkəmizin bölgələrinin simasını tanınmaz dərəcədə dəyişir, əhalinin güzəranı yaxşılaşır, sosial problemlər ardıcıllıqla həllini tapır və sahibkarlıq daha da inkişaf edir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransı giriş nitqi ilə açdı:*

– Bu gün biz ənənəvi olaraq, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını müzakirə edəcəyik və 2013-cü ildə qarşıda duran vəzifələri təhlil edib növbəti tövsiyələri verəcəyik.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı artıq 9 ildir ki, uğurla icra edilir. Hesab edirəm ki, proqramın qəbul olunması ölkə iqtisadiyyatı, sosial məsələlərin həlli üçün çox əhəmiyyətli idi. Proqramın icrası onu göstərir ki, 2004-cü ildə bəyan etdiyimiz niyyətimiz artıq reallığa çevrilir.

2004-cü ilin əvvəlində proqramın qəbul edilməsinin bir neçə səbəbi var idi. İlk növbədə, bölgələrin inkişafı, əlbəttə ki, diqqət mərkəzində duran vəzifə idi. Bölgələrin inkişafı üçün

infrastruktur layihələrinin icrası məsələləri qarşıda dayanmışdı. Sahibkarlığın inkişafı, dövlət dəstəyinin gücləndirilməsi və bütün bu məsələlərin bir-biri ilə əlaqəli şəkildə həll edilməsi də proqramın əsas mahiyyətini təşkil edirdi. Yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, iş yerlərinin yaradılması və beləliklə, yoxsulluğun, işsizliyin aradan qaldırılması məsələləri də böyük əhəmiyyət kəsb edirdi. Yəni regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı əslində, ölkəmizin uğurlu, dayanıqlı inkişafı, iqtisadiyyatımızın şaxələndirilməsi üçün ən vacib və ən əsas iqtisadi alətə çevrilmişdir.

Yadımdadır, 2004-cü ildə beşillik proqramı qəbul edərkən işsizliyin aradan qaldırılması üçün qarşımıza müəyyən hədəflər qoymuşduq. Çox şadam ki, birinci beşillik proqramın icrası nəticəsində iş yerlərinin açılması ilə bağlı əvvəldən verilmiş proqnozlar daha da nikbin olmuşdur, 600 mindən çox iş yerləri açılmışdır ki, bununla da biz 2004-cü ildə bəyan etdiyimiz hədəflərə çata bildik. Ancaq bu proses ondan sonrakı dövrdə də davam etmişdir. Bildiyiniz kimi, 2009-cu ildə ikinci Dövlət Proqramı qəbul edilmişdir. Bu ilin sonunda bu proqram başa çatacaqdır.

Əminəm ki, bu il qarşıda duran bütün vəzifələr uğurla icra ediləcək və beləliklə, ikinci beşillik proqramımız yerinə yetiriləcəkdir. Onu bu gün deməyə əsas verən bir neçə amil vardır ki, 2004-cü ildə hələ o amillər mövcud deyildi. Bu gün iqtisadiyyatımız çox güclü iqtisadiyyatdır. Bizim çox böyük valyuta ehtiyatlarımız vardır. Bizim neft-qaz sahəsində irəli sürdüyümüz bütün təşəbbüslər, demək olar ki, artıq reallaşır. 2004-cü ildə isə, sadəcə olaraq, biz öz niyyətimizi ortaya qoymuşduq və öz iradəmizi səfərbər etmişdik. 2004-cü ildə neft strategiyamızın tərkib hissəsi olan Bakı–Tbilisi–Ceyhan neft kəməri hələ tikilməmişdi. Hələ biz ölkə iqtisadiyyatına böyük həcmdə valyuta axınını təmin etməmişdik. Buna baxmayaraq, 2004-cü ildə hesab edirəm ki, bu cəsarətli və düşünülmüş addım iqtisadiyyatımızın hərtərəfli inkişafına təkan vermişdir.

Bu gün isə bu proqramı uğurla başa çatdırmaq üçün bizim bütün imkanlarımız vardır. Yenə də demək istəyirəm ki, güclü iqtisadi vəziyyətimiz vardır. Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Ölkəmiz bu baxımdan bütün mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Bizim artıq gözəl təcrübəmiz vardır. Hazırda Azərbaycanda müxtəlif layihələrdə iştirak edən yerli şirkətlərin sayı xeyli artmışdır. Son 9 il ərzində on minlərlə yeni müəssisə yaradılmışdır.

Beynəlxalq əlaqələrimiz daha da genişlənib. Əgər biz əvvəlki dövrdə layihələrin icrası üçün daha çox xarici maliyyə mənbələrindən asılı idiksə, bu gün belə deyil, Azərbaycan özü kredit verən ölkəyə çevrilib. Hətta Azərbaycan dövləti Beynəlxalq Maliyyə Korporasiyasına da – bu qurum Dünya Bankının tərkib hissəsidir – kredit ayırmışdır.

Şübhəsiz, bu illər ərzində ölkəmiz hər cəhətdən uğurla irəliyə getmişdir. Beləliklə, bu il proqramı uğurla başa çatdırmaq üçün mən heç bir əngəl, heç bir problem görmürəm. Sadəcə olaraq, yerli icra orqanları, yerli sahibkarlar və mərkəzi icra orqanları həmişə olduğu kimi, əlaqəli şəkildə işləməli və verilən bütün tapşırıqları vicdanla, şərəflə yerinə yetirməlidir.

Bizim iqtisadi islahatlarımız XX əsrin 90-cı illərinin ortalarında başlamışdır. O dövrdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə əsaslı, köklü və radikal iqtisadi islahatlar başlamışdır ki, bu da ölkə iqtisadiyyatının liberallaşmasına xidmət etmiş və ölkəyə investisiyanın cəlb edilməsinə kömək göstərmişdir. Şübhəsiz, ulu öndər tərəfindən başlanmış və bu gün uğurla icra edilən yeni neft strategiyası da bu sahədə bizə böyük dəstək olmuşdur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası üçün də, əlbəttə ki, neft strategiyamız öz rolunu oynamışdır. Maddi imkanlarımız artmış və maliyyə vəziyyətimiz yaxşılaşmışdır.

Ancaq bizim bütün uğurlarımızı neft amilinə bağlamaq səhv və sadəlövhlük olardı. Baxmayaraq ki, bir müddət bundan əvvəl, xüsusilə 2000-ci illərin ortalarında bəzi xarici təhlilçilər

və qurumlar uğurlarımızı yalnız neft-qaz amili ilə bağlayırdılar. Bəzi hallarda bilməyərəkdən, bəzi hallarda bizim uğurlu işlərimizə kölgə salmaq üçün sadəcə olaraq, deyirdilər ki, Azərbaycanda neft var, ona görə Azərbaycan inkişaf edir. O vaxt bu əsassız fikirlərə biz tutarlı cavablarımızı vermişdik. Bu gün də demək istəyirəm ki, dünyada bizdən qat-qat çox neft-qaz hasil və ixrac edən ölkələr vardır. Əgər o ölkələrin bəzilərinin maliyyə durumuna baxsaq görərik ki, neft-qaz hələ ölkənin uğurlu inkişafını təmin etmir. Düşünülmüş siyasət, siyasi və iqtisadi islahatlar, xalqla iqtidar arasında olan birlik, vəhdət, xalq tərəfindən ölkədə aparılan iqtisadi islahatlara dəstəyin verilməsi, liberal iqtisadiyyat və güclü hakimiyyət, sabitlik – budur bizim uğurlarımızı şərtləndirən əsas amillər.

Bu gün artıq əvvəlki illərdə səslənən fikirlərə də biz xarici mətbuatda rast gəlmirik ki, Azərbaycanı «neft lənəti» gözləyir, Azərbaycanda «holland sindromu» olacaqdır, ölkə birtərəfli şəkildə inkişaf edəcəkdir. Artıq bu əsassız fərziyyələr arxada qaldı və keçən ilin iqtisadi göstəriciləri bir daha onu göstərir ki, bizim seçdiyimiz yol düzgün yoldur. Çünki keçən il iqtisadiyyatımızın qeyri-neft sektoru təxminən 10 faiz artmışdır. Bu artım onu göstərir ki, apardığımız islahatlar öz səmərəsini verir.

Bütövlükdə, əgər 2004-cü ildən bu günə qədər keçən dövrü təhlil etsək, görərik ki, biz bütün işləri ardıcıllıqla aparmışıq və aparırıq. Ölkədə gedən proseslər müsbət istiqamətdə inkişaf edir. Bu fikri təsdiqləyən statistik rəqəmlər də vardır. Son 9 il ərzində ölkə iqtisadiyyatı 3 dəfədən çox artmışdır. Hesab edirəm ki, bu, dünya miqyasında analoqu olmayan göstəricidir. Sənaye istehsalı təxminən 3 dəfə artmışdır, ölkə iqtisadiyyatına təxminən 130 milyard dollar sərmayə qoyulmuşdur və keçən il sərmayə qoyuluşu rekord həddə çatmışdır – 22 milyard dollardan çox. Onlardan 13 milyardı yerli investisiyalar olmuşdur.

Beynəlxalq maliyyə qurumları Azərbaycanda gedən işləri yüksək qiymətləndirir və kredit reytinqlərinin təhlilini aparan əsas qurumlar Azərbaycanın kredit reytinqlərini artırmışdır. Baxmayaraq ki, Avropanın bəzi ölkələrinin kredit reytinqləri

aşağı düşmüşdür. Xüsusilə son bir neçə ilin təcrübəsi çox müsbətdir. Çünki hətta dünyanı bürümüş maliyyə və iqtisadi böhran illərində Azərbaycan iqtisadiyyatı inkişaf etmiş və beləliklə, ölkəmizin uğurlu inkişafı təmin edilmişdir.

Biz sosial məsələlərin həlli ilə də ciddi məşğuluq. Bizim iqtisadi sahədəki islahatlar güclü sosial siyasətlə tamamlanır. Əgər yenə də son 9 ilin statistikasına nəzər salsaq görərik ki, 2004-cü ildə Azərbaycanda orta əməkhaqqı təxminən 100 dollar səviyyəsində idi, bu gün 500 dollar səviyyəsindədir. Orta pensiya 20 dollar səviyyəsində idi, bu gün 200 dollar səviyyəsindədir. Əlbəttə, bu rəqəmlər də bizi qane etmir və mən hesab edirəm ki, orta pensiyanın, orta əməkhaqqının səviyyəsi artmalıdır və artacaqdır. Dövlət müəssisələrində çalışanların əmək haqları, pensiyaları artırılacaq, eyni zamanda, sahibkarlığın inkişafı üçün yaradılan şərait nəticəsində özəl sektorda çalışanlar da öz maliyyə vəziyyətini yaxşılaşdıracaqlar. Ancaq yenə də deyirəm, bu böyük fərq onu göstərir ki, biz sosial məsələlərin həllində də böyük nailiyyətlərə çata bilmişik.

Son 9 il ərzində 2500-ə yaxın məktəb, 500-dən çox tibb müəssisəsi, 35 Olimpiya İdman Kompleksi və digər sosialyönümlü obyektlər istifadəyə verilmişdir. İnfrastruktur layihələrinin icrası məsələləri daim diqqət mərkəzində olmuşdur. İnfrastruktur layihələri regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkib hissəsidir. Çünki biz bölgələrdə infrastruktur layihələrini, demək olar ki, sıfırdan başlamalı idik. Bölgələrdə çalışan sahibkarlar bunu yaxşı bilir. Elektrik enerjisi, qaz, içməli su ilə bağlı problemlər tədricən aradan qaldırılır. İndi biz kənd yollarının tikintisi ilə ciddi məşğuluq. Əlbəttə, biz bütün işləri, yenə də demək istəyirəm ki, ardıcıllıqla və prioritetlər çərçivəsində həll etməli idik.

Xüsusilə infrastruktur layihələrinə gəldikdə, ilk növbədə, magistral yolların tikintisi və təmiri aparılmalı idi. Ondan sonra kənd yollarının tikintisi aparılır. Yəni bu proses davam edir və bölgələrdə yaşayış səviyyəsinin yaxşılaşdırılması, iş yerlərinin açılması, infrastruktur, o cümlədən sosial infrastruktur

layihələrinin icrası bu gün reallıqdır. Bölgələr, şəhərlərimiz gözəlləşir, abadlaşır. Bölgələrdə yaşamaq üçün yeni şərait yaradılır.

Hələ ki, problemlər çoxdur. Biz bu problemləri bilirik və həll edirik. Əlbəttə ki, bu il ikinci Dövlət Proqramı başa çatandan sonra yeni proqramlar ortaya qoyulacaqdır. Dövlət üzərinə düşən bütün vəzifələri icra edir. Sahibkarlığın inkişafı üçün də əməli işlər görürük. Çünki hədəflərimizə çatmaq üçün dövlət və özəl sektor partnyorluğu xüsusi əhəmiyyət daşıyır.

Sahibkarlığın inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır. İlk növbədə, sahibkarlığın inkişafı üçün çox güclü siyasi iradə vardır, sahibkarlara yüksək səviyyədə, prezident səviyyəsində verilən dəstək, əlbəttə ki, onları ruhlandırır və onların bəzi hallarda rastlaşdığı problemləri də aradan qaldırır. Hələ ki, bu problemlər var – bürokratiya, müəyyən əngəllər, onların işlərinə əsassız müdaxilələr. Əlbəttə, prezident tərəfindən sahibkarlığın inkişafına, sahibkarlara verilən dəstək onların da biznes mühitinin yaxşılaşdırılmasına xidmət göstərir. Halbuki, bu sahədə hələ görüləsi işlər çoxdur, nöqsanlar da vardır.

Biz sahibkarlığın inkişafı ilə bağlı çox böyük addımlar atmışıq. Bayaq qeyd etdiyim kimi, bölgələrdə gedən böyük quruculuq işləri, infrastruktur layihələri sahibkarlıq üçün gözəl zəmin yaradır. Əgər şəhərdə işıq yoxdursa, yaxud da ki, fasilələrlə verilirsə, yollar, kommunal infrastruktur bərbad vəziyyətdədirsə, orada heç bir düz-əməlli müəssisə yaradıla bilməz. Ona görə dövlət tərəfindən qoyulan investisiyalar, o cümlədən sahibkarlığın inkişafına da xidmət göstərirdi və göstərir. Sahibkarlığın inkişafı üçün verilən dövlət maliyyə dəstəyi də mühüm rol oynayır. Son illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara güzəştli şərtlərlə 1 milyard 200 milyon manat kredit verilmişdir. Bu maliyyə dəstəyi, əlbəttə ki, sahibkarlığın inkişafına böyük təkan vermişdir. Bu kreditlər vasitəsilə icra edilən layihələr, əlbəttə, sahibkarların öz vəsaiti hesabına da icra edilir. Yəni biz burada da dövlətin və özəl sektorun tərəfdaşlığını görürük. Kreditlər

məqsədyönlü şəkildə verilir, ilk növbədə, ölkəmizin inkişafına lazım olan sahələrə, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün – bu məsələ ilə bağlı biz hələ danışacağıq – biz bir neçə il bundan əvvəl qarşıya məqsəd qoymuşuq ki, əsas ərzaq məhsulları ilə özümüzü təmin etməliyik və məqsədə tədricən yaxınlaşırıq.

Əlbəttə, həm bölgələrdə, həm böyük şəhərlərdə sahibkarlığın inkişafı ölkəmizin uğurlu inkişafını təmin edəcəkdir. Çünki seçdiyimiz yol bazar iqtisadiyyatı, liberal iqtisadiyyat yoludur. Biznes şəraiti, investisiya iqlimi Azərbaycanda yaxşıdır, daha da yaxşı ola bilər. Ancaq hesab edirəm ki, yaxşıdır. Belə olmasaydı, keçən il xaricdən 9 milyard dollar sərmayəni qəbul etməzdik. Sahibkarlığın qarşısında duran əngəllər də növbəti illərdə aradan qaldırılmalıdır.

Hesab edirəm ki, belə müşavirələrin hər il keçirilməsi çox əlamətdar hadisədir. Bir daha biz bütün işləri təhlil edirik, həm bugünkü toplantıda, həm toplantı ərəfəsində. Xüsusilə bu görüşdən sonra veriləcək göstərişlər əminəm ki, bölgələrdə işlərin daha da sürətlə getməsinə imkan yaradacaqdır.

Bu məsələlərlə bağlı bütün qurumlar əlaqəli şəkildə fəaliyyət göstərməlidir – yerli icra orqanları, sahibkarlar, mərkəzi icra orqanları. Çünki bu bizim ümumi işimizdir. Dəfələrlə demişdim, bu gün də demək istəyirəm ki, mənim üçün özəl şirkətlə dövlət şirkəti arasında heç bir fərq yoxdur. Hər ikisi Azərbaycan şirkətidir, hər ikisi Azərbaycanda çalışır, Azərbaycan naminə çalışır. Ona görə özəl şirkətlərə də, dövlət şirkətlərinə də göstərilən diqqət eyni olmalıdır və hesab edirəm ki, biz buna nail oluruq. Əgər sahibkarlığın, özəl sektorun ümumi daxili məhsuldakı payına nəzər salsaq görərik ki, artıq 80 faizdən çoxdur. Son rəqəmlərə görə ümumi daxili məhsulda özəl sektor 83 faiz təşkil edir. Cəmi 20 il ərzində bazar iqtisadiyyatı şəraitində yaşayan ölkə üçün, hesab edirəm ki, bu, böyük göstəricidir.

Bundan sonrakı illərdə iqtisadiyyatın şaxələndirilməsi, ərzaq təhlükəsizliyinin tam şəkildə təmin edilməsi, sənaye

potensialımızın gücləndirilməsi, ixrac potensialının artırılması, idxaldan asılılığın azaldılması, biznes mühitinin yaxşılaşdırılması istiqamətində işlər aparılacaq və bu günədək aparılmışdır. Ölkəmizin uğurlu inkişafı, iqtisadiyyatımızın şaxələndirilməsi və gözəl perspektivlər deməyə əsas verir ki, qalan problemlər, nöqsanlar, çatışmazlıqlar da aradan qaldırılacaqdır. Buna nail olmaq üçün, əlbəttə, hər bir vətəndaş – istər dövlət məmuru, istər sahibkar, ilk növbədə, öz məsuliyyətini dərk etməlidir. Çünki bizim məqsədimiz ölkəmizi inkişaf etdirməkdir, Azərbaycanı inkişaf etmiş ölkəyə çevirməkdir.

Enerji siyasətində atılan addımlar bizi daha da gücləndirir. Çünki bu sahədə aparılan işlər və irəli sürülən təşəbbüslər uzunmüddətli maliyyə mənbələrimizi təmin edəcək və biz bu imkanlardan çox səmərəli şəkildə istifadə edirik. Azərbaycan tərəfindən irəli sürülmüş yeni layihələr, yeni təşəbbüslər dünya birliyi tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycan artıq öz üzərinə çox böyük məsuliyyət götürür. Xarici tərəfdaşlarla həm Azərbaycanda, həm xaricdə birgə fəaliyyətimiz yeni pilləyə qalxır. Bu gün artıq Azərbaycan öz investisiyalarını xarici ölkələrə qoymağa başlayır. Bu bizim üçün yeni bir prosesdir. Ancaq biz buna hazırlaşmışıq və dünyada Azərbaycan çox etibarlı investor və artıq dost ölkə kimi tanınır. Əlbəttə, beynəlxalq əlaqələrimiz, xüsusilə dost ölkələrin sayının artması və yeni biznes layihələri bizim iqtisadi maraqlarımızı da təmin etməlidir. Bu barədə də biz danışacağıq.

Mən keçən müşavirədə də demişdim ki, xarici bazarlara çıxmaq üçün yeni imkanlar araşdırılmalıdır. Əlbəttə, xarici bazarlara çıxmaq üçün ilk növbədə, daxildə istehsal olunan məhsullar yüksək meyarlara cavab verməlidir. Çox şadam ki, son illər ərzində ən müasir standartlara cavab verən yeni müəssisələr artıq işə salınır və dövlət tərəfindən verilən kreditlər təkcə burada maliyyə məsələlərini həll etmir, həm də dövlət nəzarəti təmin edilir. Dövlət tərəfindən verilən tövsiyələr öz rolunu oynayır və beləliklə, ixracyönümlü məhsulların istehsalı da artmaqdadır. Çünki əgər biz gələcəkdə də kənd təsərrüfatını,

aqrar sektoru uğurla inkişaf etdirmək istəyiriksə, bu gün mütləq böyük ixrac imkanlarımızı təmin etməliyik, yeni bazarlara çıxmalıyıq. Baxmayaraq ki, Azərbaycan inkişaf edir və əhali artır, bizim bazarımız kifayət qədər məhdud bazardır.

Ancaq potensialımız çox böyükdür. Ona görə əgər xarici bazarlara çıxışımız olmasa, bu zaman müəyyən vaxtdan sonra bizim aqrar sektorda aparılan işlər yəqin ki, dondurulmayacaq, ancaq müəyyən səviyyəyə çatandan sonra o səviyyədən artıq inkişaf edə bilməz. Ona görə biz indidən bu işlərlə məşğuluq. Mən də və bizim digər qurumlar da xarici tərəfdaşlarla görüşlər əsnasında bu məsələləri müzakirə edirik. Xarici ölkələrə investisiya qoyuluşu ilk növbədə, bizim investisiya portfelimizi şaxələndirir. Eyni zamanda, biz investorlar kimi, bir çox ölkələrdə böyük etimad qazanırıq. Bu etimad nəticəsində gələcəkdə bizim o ölkələrə ixrac imkanlarımız da artacaqdır.

Burada özəl qurumlar dövlət qurumları ilə sıx əlaqədə olmalıdır. Çünki bəzi hallarda özəl qurumlar üçün xarici bazarlara çıxmaq o qədər də asan deyil, bəzi hallarda onlar heç maraqlı da deyillər. Ancaq yenə də deyirəm, ölkənin iqtisadi siyasəti vardır. Bu iqtisadi siyasət ilk növbədə, Azərbaycanın hərtərəfli inkişafını təmin etməlidir. Daxili resurslardan maksimum səmərəli şəkildə istifadə edilməlidir və biz xarici bazarlara daha da geniş şəkildə çıxmalıyıq.

## YEKUN NİTQİ

Bu ilin sonuna qədər ikinci Dövlət Proqramının icrası təmin ediləcəkdir. Beləliklə, 10 ili əhatə edən bir dövr arxada qalacaqdır. Ancaq artıq bu gün də demək olar ki, həm 2004-cü ildə, həm 2009-cu ildə qəbul edilmiş 2 Dövlət Proqramının icrası ölkəmizin inkişafı üçün çox böyük rol oynamışdır. Əgər bu proqramlar qəbul edilməsəydi, indi bölgələrdə gedən inkişafdan söhbət aparmaq belə, yersiz olardı. Məhz 2004-cü ildə qəbul edilmiş bu qərar ölkəmizin hərtərəfli, dayanıqlı və şaxələndirilmiş şəkildə inkişafını təmin etmişdir.

Birinci proqram artıqlaması ilə icra edilmişdir. Proqramda 2004-cü ildə nəzərdə tutulmayan məsələlər ondan sonrakı illərdə əlavə edilmişdir. 2009-cu ildə də qəbul edilmiş proqrama çoxsaylı əlavələr edilib. Çünki həyat yerində durmur, ölkə qarşısına yeni vəzifələr çıxır. Biz bu proqramların icrası əsnasında yeni məsələlərin həlli ilə bağlı təşəbbüslər irəli sürmüşük. Bir sözlə, bu proqram daim yenilənir. Beləliklə, bölgələrdən gələn təkliflər, sifarişlər, mənim bölgələrdə olduğum zaman yerli vətəndaşlarla görüşlər zamanı verilən təkliflər bu proqramlara əlavə edilir. Eyni zamanda, 2009-cu ildə ikinci proqram qəbul olunandan sonra Prezidentin ehtiyat fondundan bölgələrin inkişafına böyük həcmdə vəsaitin ayrılması təmin edilmişdir. Xüsusilə infrastruktur, nəqliyyat, kənd yollarının bərpası və abadlıq işlərinin görülməsi üçün.

Bu gün səslənən fikirlər və ümumiyyətlə, ölkədə gedən müsbət dəyişikliklər deməyə əsas verir ki, bu ilin sonuna qədər ikinci Dövlət Proqramının tam icrası təmin ediləcəkdir. Bu proqram artıqlaması ilə icra ediləcəkdir. Bu ilin sonuna qədər Dövlət İnvestisiya Proqramında və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapmalıdır.

Hesab edirəm ki, bu il ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi keçənilkindən az olmamalıdır. Keçən il 22,1 milyard dollar vəsait qoyulmuşdur. Bu il də hesab edirəm ki, bu

qədər vəsait qoyulmalıdır. Çünki həm dövlət xətti ilə və özəl sektorun fəaliyyəti nəticəsində hesab edirəm ki, biz bu rəqəmə çatacağıq. Bu da şübhəsiz, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla başa çatdırılmasına xidmət göstərəcəkdir.

İlk növbədə, infrastruktur layihələrinin davam etdirilməsi vacibdir. Bu istiqamətdə görülən işlər müsbət qiymətləndirilə bilər və davam etdirilməlidir. Xüsusilə magistral yolların tikintisi və tamamlanması, kənd yollarının təmiri və tikintisi məsələləri ön plandadır. Demək olar ki, kənd yollarının tikintisi indi bütün bölgələrdə geniş vüsət almışdır. Bölgələrdən gələn əhali tərəfindən verilən təkliflər, edilən xahişlər əsasında biz bu layihələri icra edirik. İlk növbədə, biz əhalinin sıx məskunlaşdığı bölgələrdə ən çox kəndləri birləşdirən yolları bərpa edirik. Qarşıya məqsəd qoyulubdur ki, bütün kənd yollarımız yüksək səviyyədə təmir edilsin, beləliklə, bu məsələ də öz həllini tapsın.

Elektrik enerjisinin təchizatı ilə bağlı son illər ərzində görülən işlər nəticəsində, demək olar ki, artıq qıtlıq hiss olunmur. Çünki son illərdə 1500 meqavat gücündə yeni elektrik stansiyalarının tikintisi təmin edilmişdir. Bu proses davam etdirilir. Bu il Şirvan şəhərində «Cənub» elektrik stansiyasının işə düşməsi nəticəsində biz təqribən 800 meqavata qədər yeni güclər əldə edəcəyik. «Şimal-2» elektrik stansiyasının tikintisi davam edir. Bu da təqribən 400 meqavata yaxındır. Yəni bu bizim enerji potensialımızı xeyli dərəcədə möhkəmləndirəcək. Eyni zamanda, su-elektrik stansiyalarının tikintisi davam etdirilir. Keçən il biz kiçik çaylarda bir neçə stansiyanın açılışını qeyd etdik. Eyni zamanda, böyük layihələrin icrası ilə paralel olaraq su-elektrik stansiyalarının və bərpa olunan alternativ enerji növlərinin yaradılması prosesi gedir. Mən onların arasında bu yaxınlarda Füzuli Su-Elektrik Stansiyasının açılışını qeyd edə bilərəm. 25 meqavat gücündə olan stansiya bərpa olunan enerji növüdür. Bakıda, Balaxanıda məişət tullantıları zavodunun tərkib hissəsi olan elektrik stansiyasının

tikintisi artıq başa çatmışdır. Biz orada da təqribən 20 meqavata yaxın elektrik enerjisi əldə edəcəyik.

Taxtakörpü su anbarı tikilir və bu il bu nəhəng infrastruktur layihəsi istifadəyə veriləcəkdir. 10 minlərlə hektar torpaq sahələri suvarılacaq və eyni zamanda, bu layihənin tərkib hissəsi olan 25 meqavat gücündə olan su-elektrik stansiyası da tikiləcəkdir. Yəni bizdə kifayət qədər enerji gücləri vardır.

Bildiyiniz kimi, Azərbaycan hazırda qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Ancaq ötürücü xətlərin vəziyyəti bizi qane edə bilməz. Bu məsələ ilə bağlı artıq göstərişlər verilmişdir. Bu ilin investisiya proqramında da ötürücü xətlərin yeniləşdirilməsi məsələsi nəzərdə tutulur. Biz bu məsələyə daha da ciddi fikir verməliyik və bütün ötürücü xətlərin vəziyyətini qısa müddət ərzində yaxşılaşdırmalıyıq. Bölgələrdə və Bakıda buna böyük ehtiyac vardır.

Bərpa olunan enerji növlərinin yaradılması ilə bağlı işlər başlamışdır. Ümid edirəm ki, bu istiqamət də çox perspektivli olacaqdır. Beləliklə, bizim zəngin qaz, neft yataqlarımız, ehtiyatlarımız var və bundan sonra ən azı 100 il ərzində Azərbaycanda daxili mənbələrlə, yəni enerji mənbələri ilə heç bir problem olmayacaqdır. Hesab edirəm ki, bərpa olunan enerji növlərinin yaradılması və bu prosesin genişləndirilməsi də zəruridir. İlk növbədə, bu bizə əlavə maliyyə imkanları yaradacaqdır. Digər tərəfdən, bu yeni texnologiyaların, bərpa olunan texnologiyaların, «yaşıl energetika»nın yaradılması hesab edirəm ki, dünyada gedən ekoloji problemlərin həllinə də bizim töhfəmiz olacaqdır.

İnfrastruktur layihələri arasında qazlaşdırma prosesi xüsusi əhəmiyyət daşıyır. Əminəm ki, əvvəlki dövrdə verdiyim tapşırıqlar yerinə yetiriləcək və bu ilin sonuna qədər Azərbaycanda qazlaşdırma 90 faizə çatacaqdır. Bu sahədə böyük investisiya layihələri icra edilir. Bütün bölgələrdə qazlaşdırma prosesi gedir. Biz rayonların əksəriyyətində qazlaşdırmanı 100 faizə çatdırmalıyıq və çatdıracağıq. Bəzi dağlıq rayonlarda isə təqribən ondan aşağı səviyyədə ola bilər. Ancaq yenə də bütün bölgələrdə, bütün kəndlərdə dayanıqlı

enerji növləri ilə bağlı öz işimizi görəcəyik. Əhalini dayanıqlı enerji ilə, qazla təmin edəcəyik.

İnfrastruktur layihələri arasında içməli su və kanalizasiya layihələrinin icrası xüsusi yer tutur. Keçən il Dövlət İnvestisiya Proqramı çərçivəsində bu məqsədlərə böyük həcmdə vəsait qoyulmuşdur. Bu il də təxminən 800 milyon manata yaxın, bəlkə ondan da çox vəsait nəzərdə tutulur. Yenə də biz məqsədi maksimum şəkildə götürürük ki, bütün yaşayış məntəqələrində – Bakıda, bütün şəhərlərdə və kəndlərdə dayanıqlı, təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su layihələri icra edilsin.

Bu işlər bütün bölgələrdə geniş vüsət almışdır. Bütün dövrlərdə qarşımızda duran bu böyük problem əminəm ki, yaxın illərdə öz həllini tapacaqdır. Onu da qeyd etmək istəyirəm ki, biz bu layihələri əhalinin artımını nəzərə almaqla elə qururuq ki, ən azı 2035-ci ilə qədər öz səmərəsini təmin etsin. Bu məsələ həll ediləndən sonra, demək olar ki, bütün bölgələrdə kommunal və infrastruktur layihələri icra olunacaqdır.

İnvestisiya Proqramında böyük yer tutan layihələrdən biri də meliorasiya layihələridir. Bu layihələr bilavasitə kənd təsərrüfatının inkişafı ilə bağlıdır. Ölkəmizdə 2 nəhəng, bəlkə də qeyri-neft sektoruna qoyulan ən böyük investisiyatutumlu layihə – Taxtakörpü və Şəmkirçay su anbarları layihələri icra edilir. Bayaq qeyd etdiyim kimi, Taxtakörpü su anbarı bu il, Şəmkirçay su anbarı isə yəqin ki, 2 ildən sonra istifadəyə verilməlidir. Bu 2 əvəzolunmaz layihənin icrası nəticəsində 10 minlərlə hektar yeni torpaq sahələri dövriyyəyə buraxılacaqdır. Giriş sözümdə dediyim kimi, bu həm ərzaq təhlükəsizliyimizin təmin edilməsi üçün çox vacibdir, eyni zamanda, əlavə ixrac potensialı da yaradacaqdır. Bu layihələrin icrası nəticəsində dövriyyəyə buraxılacaq 10 minlərlə hektar torpaq sahələrində aqrotexniki tədbirlərin görülməsi üçün biz indidən öz planlarımızı tutmalıyıq. Əlavə texnika alınmalıdır. Biz bir neçə ildir ki, «Aqrolizinq» xətti ilə dövlət büdcəsindən ayrılan vəsait hesabına texnikanın alınması ilə məşğuluq və texnika əhaliyə,

fermerlərə icarə şərtləri ilə verilir. Yəqin ki, əlavə texnika, gübrələr alınmalı və digər tədbirlər görülməlidir ki, fermerlər dövriyyəyə buraxılacaq bu yeni torpaqlardan səmərəli şəkildə istifadə etsinlər.

Yeni suvarılacaq torpaqları su ilə və digər lazımi avadanlıqlarla təmin etmək üçün kompleks tədbirlər planı olmalıdır. Hesab edirəm ki, bu işlər indidən başlanmalıdır. Düzdür, müvafiq göstərişlər verilmişdir. Amma hesab edirəm ki, yaxın aylarda mənə İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən daha konkret təkliflər verilməlidir. Yeni suvarılacaq torpaqların hüdudları meliorasiya şirkəti ilə bərabər müəyyən edilməlidir ki, biz artıq bütün yeni torpaqların becərilməsinə hazır olaq və beləliklə, vaxt itirməyək.

İri fermer təsərrüfatlarının yaradılması prosesi başlamışdır. Bildiyiniz kimi, mən bu tapşırığı bir neçə il bundan əvvəl vermişdim. Ancaq keçənilki müşavirədə öz iradlarımı bildirdim. Baxmayaraq ki, göstərişlər verilib, amma heç bir iş görülmür. İndi hesab edirəm ki, keçən il ərzində görülən işlər bu prosesə də təkan vermişdir. Artıq 5 min hektara qədər torpaq sahələri ayrılıb, Ağcabədi və Beyləqan rayonlarında iri fermer-taxılçılıq təsərrüfatlarının yaradılması təmin edilibdir. Biz, əlbəttə, o sahələrdən bol məhsul gözləyirik. Hesab edirəm ki, orada məhsuldarlıq da yüksək olmalıdır. Bu layihələrin icrası nəticəsində biz taxılla özümüzü təmin etmək üçün çox ciddi addım atmış oluruq. Mən özümüzü təminetmə sahəsində gedən işlərə indi toxunacağam. Verilən məlumata görə, ən azı 50 böyük fermer-taxılçılıq təsərrüfatları yaradılmalıdır ki, biz özümüzü taxılla tam şəkildə təmin edək. Özümüzü təmin etmək niyyətimiz bir neçə səbəbə söykənir. İlk növbədə, ərzaq təhlükəsizliyi məsələləri! Ərzaq təhlükəsizliyi məsələləri son illərdə artıq gündəliyə çıxan məsələlərdir. Daha əvvəl biz ən çox enerji, nəqliyyat təhlükəsizliyi məsələləri ilə məşğul idik və deyə bilərəm ki, bu məsələlərin həllində böyük uğurlar əldə etmişik.

Azərbaycan tərəfindən nəqliyyat və enerji sahələrində irəli sürülmüş təşəbbüslər və layihələr nəinki bizim maraqlarımızı və bölgə maraqlarını, qitə maraqlarını təmin edir və edəcəkdir. Azərbaycan artıq bu sahələr üzrə əvəzolunmaz tərəfdaşa çevrilibdir. Deyə bilərəm ki, Avropa ölkələrinin bəzilərinin enerji balansında Azərbaycan neftinin payı 30–40 faizə çatır. Beləliklə, artıq biz neft resurslarımızla bəzi ölkələrin enerji təhlükəsizliyini təmin edirik. Bizim təşəbbüsümüzlə başlanan TANAP layihəsi isə Azərbaycan qazının müxtəlif ölkələrə nəql olunmasını təmin edəcəkdir. Beləliklə, Azərbaycan qaz sahəsində də enerji təhlükəsizliyi məsələlərinin həlli işində əvəzolunmaz tərəfdaşa çevriləcəkdir. O cümlədən Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinin başa çatması nəticəsində biz yeni, daimi dəhliz yaradırıq. Bu dəhlizdən istifadə edəcək ölkələrin sayı artacaqdır. Artıq aparılan ikitərəfli danışıqlar əsnasında biz bir çox yerlərdən bu layihəyə marağı görürük. Onu da qeyd etmək istəyirəm ki, bu layihənin başlanması Azərbaycan dövlətinin iradəsinə söykənir. Əlbəttə, biz bu layihənin təşəbbüskarı kimi üzərimizə böyük məsuliyyət götürmüşük. Çox şadam ki, bizimlə bərabər bu layihənin icrasında iştirak edən qonşu ölkələr də öz dəyərli səylərini, töhfələrini verirlər.

Ərzaq təhlükəsizliyi məsələləri isə nisbətən yeni bir anlayışdır. Bu anlayış kimi yeni deyilsə də, amma problem kimi, son illər ərzində yaranmışdır. Bunun bir neçə səbəbi vardır. Mən bu barədə çox danışmaq istəmirəm. Bəzi hallarda inhisarçılıq, bəzi hallarda quraqlıq, bəzi hallarda alternativ yanacağın istehsalı üçün bitkilərdən istifadə edilməsi və əkin sahələrinin istiqamətinin dəyişdirilməsi. Hər halda, biz özümüz də bir neçə il bundan əvvəl bu problemlə üzləşmişdik. Yəqin hamımızın yadındadır ki, bağlanmış kontraktların icrası da, yəni idxalla bağlı icrası da artıq sual altına düşmüşdü. Çünki bəzi istehsalçı ölkələrdə quraqlıq baş vermişdi. Onlar taxılla öz daxili tələbatlarını ödəyə bilmirdilər. Biz, əlbəttə ki, bu vəziyyətdən də çıxdıq, çıxılmaz vəziyyət yoxdur. Ancaq bu bizim üçün bir

siqnal idi. Özünütəmin məsələlərinə bir daha baxdıqda gördük ki, burada inkişaf üçün çox böyük yer vardır.

Əlbəttə, Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır, biz dünya iqtisadiyyatına çoxdan inteqrasiya etmişik və bazar iqtisadiyyatı prinsiplərinə sadiqik. Hesab edirəm ki, hər bir ölkədə, xüsusilə təbii iqlim şəraiti imkan verdikdə əsas ərzaq məhsulları ilə özünütəmin məsələləri həll edilməlidir. Biz də son illər ərzində bu istiqamətdə böyük işlər görmüşük. Mən bu barədə bir qədər sonra bəzi rəqəmləri diqqətinizə çatdıracağam.

Mən kənd təsərrüfatının inkişafı ilə bağlı əvvəlki müşavirədə də demişdim, bu gün də təkrar etmək istəyirəm. Çünki hesab edirəm ki, bu sahədə hələ ki, çox ciddi işlər görülməmişdir. Rayonlar arasında və rayonlar üzrə ixtisaslaşma aparılmalıdır. Hər bir rayonun öz xüsusiyyətləri, öz təbiəti, iqlimi vardır. Bu iqlim şəraiti nəzərə alınmalıdır. Hər rayon üzrə ixtisaslaşma layihələri icra edilməlidir. Göstərişlər verilmişdir. Ancaq mən hələ ki, konkret nəticələri görmürəm. Hesab edirəm ki, yaxın zamanda mənə hər rayon üzrə konkret təkliflər verilməlidir. Hansı rayonda hansı kənd təsərrüfatı məhsullarını daha da çox istehsal etməliyik və bunu etmək üçün hansı əlavə tədbirlər görülməlidir. Çünki biz ümumi göstərişlər veririk. Məsələn, hər bir kənd təsərrüfatı məhsulunun Azərbaycanda istehsalı hesabına daxili tələbatı ödəmək, ixrac imkanlarını artırmaq üçün ümumi göstərişlər verilir. Amma bunlar bu rayonlar arasında necə bölünür, yəqin ki, bu məsələ ilə bağlı daha dəqiq təkliflər verilməlidir.

Hesab edirəm ki, aqrar sahədə yeni texnologiyaların tətbiqi üçün artıq vaxt yetişib. Bildiyiniz kimi, ümumiyyətlə, yeni texnologiyaların, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi Azərbaycanda geniş vüsət almışdır. Biz bu sahədə bölgədə birinci yerlərdəyik. Ümumiyyətlə, dünya miqyasında reytinq siyahılarında qabaqcıl yerlərdəyik. Aqrar sahədə də İKT məsələlərinin həlli hesab edirəm ki, vacibdir. Onların arasında fermerlərin elektron qeydiyyat sisteminin yaradılması məsələsi dayanır. Bu layihə bir neçə məqsədi güdəcəkdir. Həm subsidiyaların səmərəsini artıracaq və həm də pay torpaqlarının

sərhədləri bir daha dəqiqləşdiriləcəkdir. Buna da böyük ehtiyac var və ümumiyyətlə, biz müasir texnologiyaları kəndlərə də gətirməliyik. Artıq bu sahədə böyük layihə icra edilməyə başlayır. Biz bütün şəhərlərə genişzolaqlı internet xətləri çəkəcəyik. Bu bir neçə milyon manat dəyərində olan layihədir. Əhəmiyyəti nəzərə alınaraq bu layihə Dövlət Neft Fondunun xətti ilə və Rabitə və İnformasiya Nazirliyinin nəzarəti altında birbaşa maliyyələşdirilir. Yəni biz genişzolaqlı interneti hər kəndə gətirməliyik və gətirəcəyik. Bu bizim niyyətimizdir. Paralel olaraq kənd təsərrüfatının inkişafında informasiya texnologiyalarından istifadə etməliyik. Elektron hökumət layihəmiz vardır. Hesab edirəm ki, kəndlərdə də bu məsələ öz həllini tapmalıdır.

Bayaq qeyd etdiyim kimi, biz keçən il iri fermer təsər-rüfatlarının yaradılması ilə məşğul olmağa başlamışıq və artıq nəticələr vardır. Bu təşəbbüs sırf ərzaq təhlükəsizliyi məsələlərinin həllini nəzərdə tutur. Burada xüsusi dövlət dəstəyi verilmişdir. Bu da təbiidir, çünki ərzaq təhlükəsizliyi məsələləri ön planda dayanmalıdır. Ancaq biz bilməliyik ki, kənd təsərrüfatı istehsalının mütləq əksəriyyətini təmin edən xırda fermer təsərrüfatlarıdır. Əlbəttə, onlar da yaddan çıxmır və çıxmayacaqdır. Son 9 il ərzində bölgələrdə, xüsusilə kənd təsərrüfatı və emal sahələrində aparılan işlər və verilən dəstək məhz xırda fermer təsərrüfatlarına verilən dəstək olmuşdur. Bu sahə daim diqqət mərkəzində olmalıdır.

Bildiyiniz kimi, biz kənd təsərrüfatını stimullaşdırmaq, ərzaq təhlükəsizliyini təmin etmək və bölgələrdə işsizliyin aradan qaldırılması üçün kompleks tədbirlər görürük. Hələ ulu öndər Heydər Əliyev tərəfindən XX əsrin 90-cı illərinin ortalarından kəndlərdə köklü iqtisadi islahatlar başlanılmışdır. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilmişlər və bu gün də biz bu güzəştləri qüvvədə saxlayırıq. Baxmayaraq ki, artıq 20 ilə yaxın vaxt keçir və fermerlər də artıq ayağa durublar, böyük imkanlara malikdirlər. Azərbaycan da çox

böyük inkişaf yolu keçmişdir. Ancaq biz bu güzəştləri qüvvədə saxlayırıq, hesab edirəm ki, bu, düzgün siyasətdir.

Hər bir dövlət fermerləri dəstəkləməlidir. Hər bir dövlət subsidiyaları verməlidir. Biz də bunları edirik. Bizim verdiyimiz subsidiyalar, həm də kreditlər çoxşaxəlidir. Mən qeyd etdim, 1 milyard 200 milyon manat güzəştli şərtlərlə kredit verilmişdir. Onlardan 83 faizi bölgələrin aqrar sektoruna ödənilmişdir. Texnikanın alınması, aqrolizinqin yaradılması bizim təşəbbüsümüz olmuşdur. Maldarlığın inkişafı – dövlət xətti ilə damazlıq mal-qara gətirilir. Dünən növbəti sərəncam imzalanmışdır. Dövlət, hökumət tərəfindən metodik tövsiyələr verilir. İqtisadi İnkişaf Nazirliyinin bu sahədə artıq gözəl təcrübəsi vardır. Fermerlərə hətta metodik qaydada göstərilir ki, nə qədər vəsaitlə hansı işləri görmək mümkün olacaqdır. Əlbəttə, subsidiyalar, yəni maddi təminat. Bu subsidiyaları biz veririk. Amma əfsuslar olsun ki, biz bəzi hallarda bu sahədə şəffaflığa nail ola bilmirik. Subsidiyalar ya ünvana çatmır, ya kimsə onları mənimsəyir, özünə götürür. Bəzi hallarda fermerə çatacaq subsidiyaların bir hissəsi dövlət məmurlarının cibinə gedir. Bəzi hallarda, ümumiyyətlə, istehsal olunan məhsulun həcmi, torpaq sahələri artırılır ki, subsidiyalar daha çox götürülsün. Bəzi hallarda xaricdən lazım olan avadanlıqlar və digər vasitələr yüksək qiymətlə gətirilir. Yəni bu sahədə biz tam şəffaflığı təmin etməliyik. Dövlət kəndlisinə öz dəstəyini verir və verəcəkdir. Elə etmək lazımdır ki, bu təminat fermerlərə maksimum dərəcədə – 100 faiz çatsın.

Ona görə hesab edirəm ki, yaxın aylarda subsidiyaların verilməsində birinci növbədə, əldə edilmiş təcrübə bir daha təhlil edilsin, təkliflər verilsin, müsbət tərəfləri ilə yanaşı, nöqsanlar da aydınlaşdırılsın. Bu işlərdə mən xüsusilə fermerlərə müraciət edirəm, onlar öz təkliflərini versinlər Prezident Administrasiyasına, hökumətə, İqtisadi İnkişaf Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə və yerli icra orqanlarına. Təklifləri versinlər ki, biz daha dəqiq bilək onları narahat edən məsələlər nədir. Mən bilirəm ki, burada problemlər var, şəffaflıq lazımi

səviyyədə təmin edilməyibdir. Bu nöqsanlar tezliklə aradan qaldırılmalıdır. Fermerə nə qədər çatmalıdır, o qədər də almalıdır. Heç kim onun puluna gözünü dikməsin!

Özümüzü təminetmə ilə bağlı bir neçə rəqəmi səsləndirmək istəyirəm. Biz əsas ərzaq məhsulları üzrə aşağıdakı səviyyəyə çatmışıq. Ət və ət məhsulları ilə biz keçən il özümüzü 92 faiz səviyyəsində təmin etmişik, bu il 95 faiz səviyyəsində təmin edəcəyik. Quş əti – 88 faiz, bu ilin sonuna qədər olacaq 93 faiz. Yumurta 96 faiz, bu il verilən proqnoza görə 100 faiz olacaqdır. Bitki yağları 70 faiz, qalxacaqdır 75 faizə. Kərə yağı 50 faiz, bu il olacaq cəmi 52 faiz. Bu çox aşağı göstəricidir. Bu barədə düşünmək lazımdır. Süd və süd məhsulları ilə özümüzü 73 faiz səviyyəsində təmin edirik. Bu ilin sonunadək 78 faiz olacaqdır. Taxıl 65 faiz, olacaqdır 70 faiz və dediyim kimi, 50 iri fermer təsərrüfatlarının yaradılması nəticəsində biz 100 faizə çatacağıq. Üzüm 94 faiz, 96 faiz olacaqdır. Kartof istehsalı təxminən 100 faizdir. Bu səviyyədə də qalacaqdır. Bostan məhsulları 100 faiz. Artıq bu ildən böyük ixrac imkanları yaranacaqdır, faizin səviyyəsi 104 olacaqdır. Meyvə və giləmeyvə – 126 faiz, olacaq 130 faiz. Yəni böyük ixrac imkanlarımız vardır. Tərəvəz 99 faiz, olacaq 108 faiz. Duz 71 faiz, olacaqdır 75 faiz. Şəkər və şəkərdən hazırlanan məhsullar – burada biz bilməliyik ki, cəmi 12 faiz yerli xammal ilə təmin olunur. Ancaq idxal edilən digər xammallar ilə təmin olunan şəkər və şəkər məhsulları 180 faiz olacaqdır.

Bu cədvəl ilk növbədə, bu sahədə görülən işləri göstərir. Çünki misal üçün, əgər biz bəzi pozisiyalar üzrə 2009-cu illə müqayisə aparsaq görərik ki, quş əti o vaxt 66 faiz idi, bu il olacaq 93 faiz. Ət 84 faiz idi, olacaqdır 95 faiz. Bu da nəyin hesabına – Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə verilən kreditlərin hesabına. Çünki 2 il bundan əvvəl biz görəndə ki, quşçuluq bizdə bir qədər az inkişaf edir, o istiqaməti götürdük və quş fabriklərinin yaradılması prosesi geniş vüsət aldı.

Bu cədvəl onu göstərir ki, bəzi pozisiyalar istisna olmaq şərtilə biz ərzaq təhlükəsizliyi məsələlərini həll edə bildik. Bu

da böyük və tarixi nailiyyətdir. Bundan sonrakı illərdə, harada ki hələ biz özümüzü təmin edə bilmirik, o sahələrə xüsusi diqqət verilməlidir, İqtisadi İnkişaf Nazirliyi bunu bilir. O sahələrə verilən kreditlərin həcmi artmalıdır və elə etməliyik ki, yaxın illərdə Azərbaycan özünü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etsin və bu, tarixi nailiyyət olacaqdır. Bayaq qeyd etdiyim kimi, biz ixrac imkanlarını da araşdırmalıyıq və xarici bazarlara ixrac məhsulları ilə çıxmalıyıq.

Heyvandarlıq, südçülük, bağçılıq, üzümçülük – bu sahələrin inkişafı üçün çox böyük imkanlar vardır, məhsuldarlığın artırılmasına da nail olacağıq. Son illər yaradılan, yaxud da ki, yaradılmaqda olan yeni müəssisələr məhz ona hesablanıbdır. Orada yeni texnologiyalar, bütün məsələlər kompleks şəkildə həll olunur. Yeni fermer təsərrüfatlarında məhsuldarlıq, məsələn, taxılda 40–50 sentnerə çatmalıdır. İndi biz orta hesabla hər hektardan 27 sentner məhsul əldə etmişik ki, bu da əvvəlki illərə nisbətən yaxşı göstəricidir. Ancaq inkişaf etmiş ölkələrdə hektardan 50, 60, bəzi yerlərdə 70 sentner götürülür. Biz də o səviyyəyə çatmalıyıq. Bizdə artıq həm təcrübə, həm imkanlar, həm iradə, həm də vəsait vardır. Onları yönəltməliyik ki, məhsuldarlığı biz böyük dərəcədə artıraq. Ona görə yeni əkin sahələrinin dövriyyəyə buraxılması prosesi gedəcəkdir. Meliorativ tədbirlər nəticəsində dediyim kimi, 10 minlərlə hektar əkin sahələri dövriyyəyə buraxılacaqdır. Amma biz bilməliyik ki, sərhədlərimizin hüdudları vardır. Biz daim əkin sahələrini artıra bilmərik. Ona görə intensiv metod üstünlük təşkil etməlidir və dediyim kimi, ixrac imkanlarını da biz artırmalıyıq, yeni bazarlara çıxmalıyıq. Yəqin ki, bu sahədə də yeni bazarlara çıxmaq üçün ikitərəfli xarici əlaqələr öz rolunu oynayır və oynayacaqdır. İstehsal olunan məhsulların tədarükü ilə bağlı yeni sistem də təşkil edilməlidir. Mən hesab edirəm ki, dövlət bu məsələ ilə bağlı yalnız öz dəstəyini verməlidir, öz istiqamətini göstərməlidir və tədarüklə məşğul olan qurumlar – özəl şirkətlər olmalıdır. Hesab edirəm ki, logistika və tədarük mərkəzlərinin yaradılması növbəti mərhələdə prioritet kimi qəbul edilməlidir,

həm Azərbaycanda, həm də məhsul ixrac edəcəyimiz ölkələrdə Azərbaycanın investisiyalarının qoyuluşu nəticəsində o ölkələrdə logistika və tədarük bazaları tikilməlidir. Artıq bu məsələ ilə bağlı müəyyən işlər görülür.

Hesab edirəm ki, bu il bu məsələ ilə bağlı müvafiq ölkələrlə, onların dövlət qurumları ilə ciddi danışıqlar aparılmalıdır ki, biz bu işləri də təşkil edək. Çünki məhsulların satışı ilə də bağlı problemlər var və bu problemlər öz həllini tapmalıdır. Əvvəlki illərdə istehsal aşağı səviyyədə olduğu üçün problem yox idi. İndi istehsal artır, məhsullar bəzi hallarda satılmır. Biz gərək fermerlərə kömək edək.

Kreditlərə gəldikdə, bu il Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 250 milyon manat kredit veriləcəkdir. Bu vəsaitin böyük hissəsi əvvəlcə verilmiş kreditlərin qaytarılması hesabına olacaqdır. Bu da çox gözəl göstəricidir. Onu göstərir ki, kreditləri alan sahibkarlar bu məsələyə çox məsuliyyətlə yanaşırlar. Demək olar ki, verilmiş bütün kreditlər vaxtında qayıdır. Sahibkarlara dəstək üçün yerli icra orqanlarının daha da ciddi fəaliyyəti olmalıdır.

Mən bir daha demək istəyirəm ki, sahibkarlığa dəstək ölkəmizin uğurlu inkişafını təmin edəcəkdir. Mən daim sahibkarlarla görüşürəm, həm Bakıda, həm bölgələrdə açdığım müəssisələrin sayı bəlkə də indi yüzlərlə, minlərlə ölçülür. Ancaq hər bir yerdə yerli icra orqanlarının rəhbərləri, icra başçıları, vəzifəli şəxslər sahibkarlara kömək göstərməlidirlər. Onların fəaliyyətinə dəstək verməlidirlər, onları incitməməlidirlər, onların işinə müdaxilə etməməlidirlər, qanunsuz tələblər irəli sürməməlidirlər. Belə hallar vardır. Deyə bilmərəm ki, bu belə geniş vüsət alıbdır, amma var və buna son qoyulmalıdır. Sahibkarlığın inkişafı dövlət siyasətidir və yerli icra başçısı yerlərdə dövlət siyasətini aparan şəxsdir və o, dövlət siyasətindən kənarda heç bir iş görə bilməz. Ona görə bir daha deyirəm, bütün icra başçıları bilsinlər, sahibkarları incidən cəzalandırılacaqdır. Onlardan qanunsuz tələbdə olan şəxslər öz

cəzasını alacaqdır. Onlara yalnız kömək etmək lazımdır ki, öz işlərini daha da səmərəli şəkildə qura bilsinlər.

Sahibkarların sosial məsuliyyəti məsələsi vardır. Keçən il də mən müşavirədə bu barədə danışmışam. Mən sahibkarların bu sosial məsuliyyət məsələlərinə olan diqqətini alqışlayıram. Bilirəm ki, bir çox yerlərdə sahibkarlar öz təşəbbüsləri ilə sosial layihələri icra edirlər – məktəblər, bağçalar tikirlər. Bütün bunlar çox gözəl, təqdirəlayiq hallardır. Ancaq bütün bu işlər könüllü şəkildə öz həllini tapmalıdır. İcra başçıları sahibkarları məcbur etməməlidirlər. Belə hallar da vardır. Onlara abadlıq işləri gördürürlər, sonra pulunu vermirlər. Hər bir rayonun öz büdcəsi vardır. Hər bir rayona mütəmadi qaydada dövlət tərəfindən, Prezidentin ehtiyat fondundan vəsait ayrılır və o vəsaitlə iş görmək lazımdır. Sahibkarları bu işlərə cəlb etmək lazım deyildir. Kim istəyir kömək etsin. Amma bəzi hallarda onları məcbur edirlər, onlar böyük həcmdə xərc çəkirlər, sonra da pulunu vermirlər. Belə olmaz. Əgər kimsə fikirləşir ki, mənə bu məlumatlar çatmır, səhv edir. Bütün məlumatlar çatır və buna son qoyulmalıdır.

Sahibkarların sosial məsuliyyəti onların könüllü təşəbbüsüdür. Mən bunu alqışlayıram, amma heç kimi məcbur etmək olmaz. Bunu hər kəs bilsin.

Bütövlükdə bölgələrdə işlər müsbət istiqamətdə gedir, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri öz vəzifə borclarını yerinə yetirirlər. Bölgələrdə gedən işlər dövlət siyasətinin təzahürüdür. Yerli icra orqanları səmərəli, fəal işləyirlər. Əksər hallarda sahibkarlarla yerli orqanlar arasında münasibətlər sağlam zəmində qurulur, ancaq dediyim kimi, elə hallar vardır ki, biz bu hallardan çox ciddi narahatlıq keçiririk. Çünki bəzi hallarda yerli icra orqanlarının hərəkətləri, addımları dövlət siyasətimizə tamamilə ziddir.

Yerli icra orqanları, icra başçıları öz məsuliyyətlərini dərk etməlidirlər, dövlət siyasətini aparmalıdırlar. Dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Hər şeyi biz Azərbaycan vətəndaşı üçün edirik. Budur bizim məqsədimiz.

Biz xalq üçün çalışırıq, qururuq, yaradırıq, ölkəmizi gücləndiririk. Biz istəyirik ki, Azərbaycan qüdrətli dövlətə çevrilsin. Hamımız istəyirik, hər bir normal vətənpərvər adam bunu istəyir ki, mövqemiz daha da möhkəm olsun, gücümüz də artsın. Nəyə görə?! Ona görə ki, insanlar daha da yaxşı yaşasınlar. Budur əsas məqsəd. Bizim dövlətimiz nə qədər güclü olsa, insanlar da özlərini o qədər rahat hiss edəcəklər, təhlükəsizlik şəraitində yaşayacaqlar. Hiss edəcəklər və edirlər ki, onların arxasında güclü Azərbaycan dövləti var və bu dövlət onları heç vaxt darda qoymaz, bütün zamanlarda onlara dəstək olacaqdır.

İnsan amili, insan kapitalı! Mən hələ bunu 2003-cü ildə demişəm, biz neft kapitalını insan kapitalına çevirməliyik. Bunu deyəndə təkcə elmə, texnologiyalara, təhsilə qoyulan vəsaitdən söhbət getmir. Söhbət ondan gedir ki, Azərbaycan vətəndaşına hər yerdə hörmət olmalıdır, dövlət qurumları tərəfindən normal rəftar edilməlidir, təhdid edilməməlidir, incidilməməlidir. Belə hallar var?! Var! Kim bunu edir?! Dövlət məmurları! Kim incidə bilər vətəndaşı?! Dövlət məmurları! Mən yenə də deyirəm, bütövlükdə bölgələrdə icra nümayəndələrinin fəaliyyəti müsbətdir, ancaq belə hallar da vardır. Buna yol vermək olmaz. Hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir. Hər bir icra başçısını mən vəzifəyə təyin edərkən, onu qəbul edərkən ona bir neçə əsas istiqaməti göstərirəm: inkişaf, quruculuq, səmərəli iş, təvazökarlıq və insanlara xidmət! Hər birinə, burada oturan bütün icra başçılarına. Hamısını mən təyin etmişəm. Bəzi rayonlarda bir neçə dəfə dəyişmişəm. Nəyə görə?! Çünki etimadımı doğrultmurlar. Hər birinə demişəm ki, gedin, insanlara arxa durun, gedin, köməklik göstərin. Gedin, hörmət edin insanlara. Amma bəzi hallarda mən bunu görmürəm. Görməyəndə də tədbirlər görürəm. Bəzi hallarda məmurlar vətəndaşlara yuxarıdan aşağı baxırlar, onları saymırlar, onları təhqir edirlər, qudurğanlıq edirlər. Bütün bu hallar var, bunlar aradan götürülməlidir.

Hər bir dövlət məmuru öz vəzifə borcunu şərəflə yerinə yetirməlidir, insanlara qulluq etməlidir və təvazökar olmalıdır. Ancaq bəzi hallarda təvazökarlıqdan, ümumiyyətlə, söhbət

getmir. Özləri üçün böyük məclislər, təmtəraqlı toylar, yubileylər düzəldirlər. Yaraşırmı bu, dövlət məmuruna?! Mən öz 50 illiyimi Ağcabədidə köçkünlərlə keçirmişəm. Bu mənim təbiətimdir, ikincisi, bununla bir yol göstərirəm. Belə olmaq lazımdır. Təmtəraqlı toylar, ad günləri, yubileylər, bahalı hədiyyələr – bunu yığışdırın, bəsdirin! Kim bunu edir, kimi mən nəzərdə tuturam bilir. Bu həm yerli icra orqanlarına, həm də mərkəzi icra orqanlarının rəhbərlərinə aiddir. Hesab edirəm ki, bu sözlərdən sonra özlərini yığışdıracaqlar, özləri və onların ailə üzvləri, uşaqları.

Bir neçə il əvvəl mən göstəriş vermişdim ki, maşınların hamısının plyonkaları sökülsün və buna son qoyulsun. Özüm demişəm ki, mən Prezidentəm, mənim maşınımda plyonka yoxdur. Hansısa üçüncü, dördüncü dərəcəli məmurun maşınını plyonka ilə bağlayırlar. Kimdən gizlənirlər?! Ya qorxurlar ki, kimsə onları görəcək?! İndi camaat onları görsə nə olar?! Əriyərlər onlar?! Nə olacaq?!

Mən demişəm, o vaxt tədbirlər görüldü, söküldü. Bu gün səhər buraya gəlməzdən əvvəl maraqlandım, Daxili İşlər naziri deyir ki, təkcə keçən il 24 min plyonka sökülüb. Bu 24 min adamın qulağı yoxdur?! Onlar eşitmir ki, mən nə deyirəm?! Yaxud da ki, onların yadından çıxır?! Bu bəlkə o qədər də böyük məsələ deyil. Amma bu bir göstəricidir. Bu nə ayrı-seçkilikdir cəmiyyətdə?! Sənin vəzifən var, pulun var, sən özünü fərqləndirirsən?! Sən get özünü öz işin ilə, öz əməlin ilə, ağlın ilə, ölkəyə verdiyin töhfə ilə fərqləndir, plyonka ilə, bahalı əşyalarla yox! Ona görə mən deyirəm – bu gün də Daxili İşlər nazirinə dedim – bir də eşitsəm, bilsəm ki, plyonkalı maşın var, o maşın müsadirə edilməlidir. İndi bilmirəm qanunvericilikdə hansı düzəlişlər etmək lazımdır, onu edərik. Belə olmaz! Harınlayırlar, qudururlar, heç kimi saymırlar! Vəzifəli şəxslərin uşaqları qudurğanlıq edirlər, insanları təhqir edirlər, özlərini apara bilmirlər. Kim onlara bu statusu verib cəmiyyətdə?! Onların güvəndiyi adamları mən təyin etmişəm vəzifəyə, mən də çıxaracağam lazım bildikdə. Əgər bir də bilsəm ki, kiminsə

ailə üzvü haradasa xuliqanlıq edir, nadanlıq edir, özünü apara bilmir, o adam həbs ediləcək, atası işdən qovulacaqdır. Bunu hamı bilsin! Şəhər küçələrini yarış meydanına çevirənlər də bilsinlər! Hamısı həbs ediləcək! Vəssalam! Daxili İşlər naziri hər gün mənə məlumat verəcəkdir. Avtoxuliqan, özünü apara bilməyən, ictimai asayişi pozan, qanunlara əməl etməyən, adət-ənənələrimizi yerə vuran hər bir kəs cəzalandırılacaqdır. Bunu hamı bilsin!

Mən hesab edirdim ki, bu barədə bir neçə dəfə dediyim sözlər hamıya çatdı. Amma görürəm ki, sonra unudulur. Bu, son xəbərdarlıqdır. Cəmiyyətdə normal davranış qaydaları var, olmalıdır. Bizi millət kimi saxlayan bizim ənənələrimizdir, adətimizdir, davranış qaydalarıdır. İndi bunu pozmaq istəyənlər öz cəzasını alacaqdır.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə gücləndirilməlidir. Hesab edirəm ki, biz bu işlərdə istədiyimizə nail ola bilməmişik. Baxmayaraq ki, mübarizə gedir və gedəcəkdir. Ancaq əfsuslar olsun ki, bu mübarizə lazımi səviyyədə deyildir. Korrupsiya böyük bəladır. Biz doğrudan da inkişaf etmiş ölkəyə çevrilmək istəyiriksə, korrupsiyanı aradan götürməliyik. Bunu etmək üçün bir neçə amil lazımdır və onların hamısı Azərbaycanda vardır. Güclü siyasi iradə və beynəlxalq təcrübə. Biz bu təcrübəni öyrənirik, cəza tədbirləri, sistem xarakterli islahatlar mütləq olmalıdır və olacaqdır. Biz bu məsələyə kompleks şəkildə yanaşırıq, müəyyən işlər görülübdür. Ancaq demək istəyirəm ki, bu işlər məni qane etmir. Korrupsiyaya qarşı mübarizə daha da ciddi olmalıdır, bunun daha da ciddi nəticələri olmalıdır. Ancaq bəzi hallarda korrupsiya xəstəliyinə yoluxmuş insanlar həbs edildikdə onların 10-larla müdafiəçisi meydana çıxır. Müdafiə edirlər, komitələr yaradırlar, müraciətlər edirlər. Hər kəs qanun qarşısında cavab verməlidir və qanun qarşısında hər kəs eyni hüquqa malikdir. Ona görə bütün orqanlar, hüquq mühafizə orqanları daha da ciddi mübarizə aparmalıdırlar. Sistem xarakterli islahatlar daha ciddi şəkildə aparılmalıdır. Onların arasında elektron xidmət,

«ASAN xidmət», «Elektron hökumət» təşəbbüsü – bunlar korrupsiyaya qarşı ciddi bir alət olacaqdır. «ASAN xidmət» proqramı artıq tətbiq edilir. İlin sonuna qədər ən azı Bakı, Bakının bütün rayonları, Gəncə, Sumqayıt şəhərləri tam şəkildə əhatə olunacaqdır. Ən azı! Ola bilər, başqa şəhərlər də ilin sonuna qədər bu sistemlə təmin ediləcəkdir. Növbəti illərdə ölkəmizin bütün şəhərlərində bu sistem tətbiq edilməlidir. Biz bunun gözəl nəticələrini görürük.

Bir neçə digər məsələ ilə bağlı fikirlərimi demək istəyirəm. Sənaye istehsalı ilə bağlı biz düzgün istiqamət seçmişik. Sənayeləşmə gedir. Keçən ilin göstəriciləri də bunu sübut edir. Qeyri-neft sektorunda sənaye istehsalı artmışdır, sənaye parkları tikilir. Yüksək texnologiyalar parkı – nəzərə alsaq ki, bu il «İnformasiya-kommunikasiya texnologiyaları ili»dir– İnformasiya Texnologiyaları Universiteti yaradılacaqdır. Orada hazırlanan kadrlar həmin yüksək texnologiyalar parkında işləyəcəklər. Digər sahələrdə də sənaye istehsalı daha da sürətlə getməlidir.

İnşaat materialları sahəsində. Biz inşaat materialları ilə özümüzü tam şəkildə təmin etməliyik. Ümid edirəm ki, yeni istifadəyə verilmiş sement zavodu və tikilməkdə olan digər sement zavodları bir neçə ildən sonra sementlə özümüzü təmin etmək üçün bizə imkan yaradacaqdır. Alüminium istehsalı artıq müasir əsaslarla başlamışdır. Qarşıda metallurgiya sənayesinin dirçəldilməsi məsələləri dayanır. Onları da biz həll etməliyik. Bütövlükdə sənaye istehsalının artırılması ilə bağlı düşünülmüş proqramımız vardır. Texnoparklarda xüsusi maliyyə və vergi rejimləri tətbiq edilir və dövlət yenə də öz tərəfindən sənayenin inkişafının dərinləşməsi üçün töhfəsini verəcəkdir.

Texnoparklar artıq yaradılır. Hesab edirəm ki, aqroparkların yaradılması üçün şərait artıq yetişib. Bu məsələlərlə bağlı artıq bir neçə ay bundan əvvəl müvafiq göstərişlər verilib, başqa ölkələrin təcrübəsi də öyrənilə bilər, harada ki, bu aqroparklar mövcuddur. Hesab edirəm ki, bu da müasir bir yanaşma və kənd təsərrüfatının inkişafı üçün növbəti bir təkan olacaqdır.

Ölkəmizdə demoqrafik vəziyyət müsbətdir. Birinci proqram qəbul olunandan bu günə qədər əhalimizin sayı 1 milyon 86 min nəfər artıbdır. 2003-cü ildə əhalimiz 8 milyon 270 min, 2012-ci ildə 9 milyon 356 min olmuşdur. Yəni bu da çox müsbət göstəricidir. Ölkəmizin ümumi inkişafını göstərir və mən çox şadam ki, Azərbaycanda əhali artır, çox istərdim ki, daha da sürətlə artsın. Hər halda, görülən işlər, ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq, ictimai-siyasi asayiş, iqtisadi inkişaf, bölgələrin inkişafı – bu amillər bu müsbət meyilləri daha da gücləndirəcəkdir.

Bölgələrdə gedən işlərlə bağlı eyni zamanda, turizmin inkişafını da qeyd etmək istəyirəm. Nəinki Bakıda, bölgələrdə də müasir turizm kompleksləri yaradılır. Əlbəttə, bu komplekslər bölgələrdə yeni iş yerlərinin açılmasını, yeni infrastrukturun yaradılmasını təmin edəcəkdir. Mən şadam ki, artıq bu istiqamətdə işlər yüksək səviyyədə aparılır və bölgələrdə yaradılan yeni turizm obyektləri dünya səviyyəsindədir, yəni dünya səviyyəsindən aşağı deyildir.

İnvestisiya qoyuluşu. Bəlkə də bu bilavasitə regionların inkişafı ilə bağlı olan məsələ deyildir. Ancaq onu da qeyd etmək istəyirəm ki, biz xaricə qoyulan investisiyaların coğrafiyasını genişləndiririk. Biz regiondan başlamışıq – biz ən çox investisiyaları region ölkələrinin iqtisadiyyatına qoymuşuq. Ondan sonra investisiyaların bir hissəsini artıq Avropa ölkələrinə qoymağa başlamışıq. Hazırda, hesab edirəm ki, investisiya qoyuluşu üçün perspektivli olan bölgə Asiya qitəsidir. Asiya ölkələri ilə bütövlükdə bizim münasibətlərimiz çox uğurla, çox müsbət inkişaf edir. Bu münasibətlər bütövlükdə qarşılıqlı hörmət, etimad, bir-birinin işinə qarışmamaq, bir-birinə dərs oxumamaq prinsipləri əsasında qurulubdur. Ona görə bu güclü siyasi əlaqələri nəzərə alaraq, biz Asiya ölkələri ilə iqtisadi əməkdaşlığı daha da dərinləşdirməliyik. İlk növbədə, o bölgə investisiya qoyuluşu baxımından çox cəlbedicidir və hesab edirəm ki, bizim üçün çox münasibdir. Asiya ölkələri şirkətlərinin Azərbaycanda

fəaliyyətlərinin genişləndirilməsi üçün yeni imkanlar açılır və mən bunu alqışlayıram.

Biz bütün ölkələrlə səmərəli, işgüzar münasibətlərə malikik. Bizim yeganə istəyimiz ondan ibarətdir ki, hər bir ölkə Azərbaycan ilə öz münasibətlərini bərabərhüquqlu tərəfdaş kimi qursun. Biz bunu istəyirik, bunu tələb edirik və buna nail oluruq. Biz bütün ölkələrlə onların ölçüsündən asılı olmayaraq bərabərhüquqlu münasibətlər qururuq. Bundan kənarda heç bir münasibət ola bilməz. Heç bir ölkə qarşısında heç bir öhdəliyimiz yoxdur, ola da bilməz, heç kim bizə dərs deyə bilməz. Üzv olduğumuz beynəlxalq təşkilatlar qarşısında götürülmüş öhdəlikləri yerinə yetiririk. Üzv olmadığımız beynəlxalq təşkilatların haqqı yoxdur ki, bizə hansısa irad tutsun. Bunu hamı bir daha eşitsin, siz və kimə aiddir onlar da. Yəni investisiya portfelimizin şaxələndirilməsi işində hesab edirəm ki, Asiya, Latın Amerikası istiqamətləri hazırda cəlbedici görünür.

Gələcək planlarımızla bağlı deyim ki, artıq bu ilin sonunda ikinci Dövlət Proqramı başa çatır. Yenə də demək istəyirəm, əminəm ki, proqram uğurla başa çatacaqdır. Ancaq biz gələcəyə baxmalıyıq və baxırıq. Hesab edirəm ki, artıq üçüncü Dövlət Proqramının hazırlanması ilə bağlı işlər başlanılmalıdır. Əminəm ki, 2014-cü ildə üçüncü Dövlət Proqramı – beşillik proqram qəbul ediləcəkdir. O proqramda edə bilmədiyimiz, yəni çatdıra bilmədiyimiz məsələlər öz əksini tapacaqdır və beləliklə, ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin ediləcəkdir.

Azərbaycan düzgün yoldadır, bizim xarici siyasətimiz də çox müsbətdir. Biz dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasının üzvüyük, rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 46-cı, MDB məkanında 1-ci yerdəyik. Biz böyük maliyyə imkanlarına malikik. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuzun 70 faizini təşkil edir. Bu, dünya miqyasında çox yüksək göstəricidir. Yoxsulluq 6 faizə düşüb, işsizlik aradan qaldırılır və biz gələcəyə baxırıq. Bir neçə gün bundan əvvəl birinci Azərbaycan telekommuni-

kasiya peykinin kosmosa buraxılması tarixi hadisədir və Azərbaycanın ümumi inkişafını göstərir. Əminəm ki, bu inkişaf bundan sonra da uğurlu və dayanıqlı olacaqdır. Bu inkişafı təmin etmək üçün bütün qurumlar, vəzifəli şəxslər öz məsuliyyətini dərk etməli və ölkənin inkişafı üçün daha da səmərəli işləməlidirlər.

Sağ olun.

## «SOS – KİNDERDORF İNTERNATİONAL» TƏŞKİLATININ PREZİDENTİ SİDDHARTHA KAUL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də «SOS – Kinderdorf İnternational» təşkilatının prezidenti Siddhartha Kaulu qəbul etmişdir.*

*Görüşdə ölkəmiz ilə «SOS – Kinderdorf İnternational» təşkilatı arasında uzunmüddətli uğurlu əməkdaşlıq məmnunluqla qeyd olundu, təşkilatın Azərbaycanda həyata keçirdiyi layihələrin önəmi vurğulandı, əməkdaşlığımızın gələcək illərdə daha da genişlənəcəyinə əminlik ifadə edildi.*

## KÜVEYT DÖVLƏTİ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ŞEYX SABAH ƏL-XALİD ƏL-HAMAD ƏL-SABAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Küveyt Dövləti Baş nazirinin müavini, Xarici İşlər naziri Şeyx Sabah əl-Xalid əl-Hamad əl-Sabahın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Küveyt arasında ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Küveyt Dövləti Baş nazirinin müavini, Xarici İşlər naziri Şeyx Sabah əl-Xalid əl-Hamad əl-Sabahın Azərbaycana səfərinin ölkələrimiz arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət və mədəni sahələrdə daha da gücləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Küveyt arasında mövcud tərəfdaşlıq əlaqələrinin gələcək illərdə də uğurla inkişaf edəcəyini əminliklə qeyd etdi.*

*Baş nazirin müavini, Xarici İşlər naziri Şeyx Sabah əl-Xalid əl-Hamad əl-Sabah Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın salamlarını və məktubunu dövlətimizin başçısına çatdırdı. Qonaq ölkələrimiz arasında əməkdaşlığın genişlənməsində Azərbaycan–Küveyt hökumətlərarası birgə Komissiyanın fəaliyyətinin əhəmiyyətini qeyd etdi. O, Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizin gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində ölkəsinin Azərbaycanın ərazi bütöv-*

*lüyünü dəstəklədiyini deyən qonaq münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsinin vacibliyini qeyd etdi. Şeyx Sabah əl-Xalid əl-Hamad əl-Sabah ölkələrimizin özəl strukturları arasında da əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın salamlarına və məktubuna görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveyt Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi. Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahla görüşünü məmnunluqla xatırladan prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğuladı.*

*Görüşdə parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi bildirildi, birgə infrastruktur layihələrinin əhəmiyyəti qeyd olundu, ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək vermələrinin önəmi vurğulandı və bu əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

## İTALİYA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MARTA DASSUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də İtaliya Respublikası Xarici İşlər nazirinin müavini xanım Marta Dassunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi, əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, əlaqələrimizin daha da möhkəmləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASININ VI QURULTAYINA

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Ağsaqqallar Şurasının VI qurultayının keçirilməsi münasibətilə səmimi-qəlbdən təbrik edir, ali toplantınızın işinə uğurlar arzulayıram.

Azərbaycanda tarixin bütün mərhələlərində ağsaqqallar yüksək hörmət və nüfuz sahibi olmuş, cəmiyyətdə özünəməxsus yer tutmuşlar. Respublikamız müstəqillik qazandıqdan sonra ölkə həyatının bütün sahələrində onların rolu daha da artmışdır. Bu gün inamla qeyd etmək olar ki, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, davamlı ictimai-siyasi sabitliyin bərqərar olmasında, elm, təhsil və mədəniyyətimizin inkişafında, gənc nəslin yetişməsi və formalaşmasında ağsaqqalların müstəsna xidmətləri vardır.

Son illər Azərbaycan özünün mühüm inkişaf dövrünü yaşayır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasət, həyata keçirilən ardıcıl islahatlar ölkə iqtisadiyyatının dinamik inkişafını, nəhəng infrastruktur layihələrinin reallaşdırılmasını, Azərbaycanın sürətlə müasirləşməsini və əhalinin rifah halının yüksəldilməsini təmin etmişdir.

Fərəhli haldır ki, respublikamızın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında ağsaqqallar yaxından iştirak edir, dəyərli təşəbbüslər irəli sürürlər. Biz paytaxt və regionlarda genişmiqyaslı quruculuq işlərini həyata keçirərkən onların rəy və təkliflərini nəzərə alır, müdrik tövsiyələrinə istinad edirik. Yeniyetmə və gənclərin Vətənə məhəbbət, milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində də ağsaqqalların böyük rolu vardır.

Hesab edirəm ki, VI qurultayda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar Ağsaqqallar Şurasının fəaliyyətinin genişlənməsinə, qurumun Azərbaycan cəmiyyətindəki

nüfuzunun daha da artmasına, dövlət orqanları ilə əməkdaşlığının dərinləşməsinə yeni təkan verəcəkdir.

Sizi bir daha qurultayınızın işə başlaması münasibətilə təbrik edir, hər birinizə uzun ömür, cansağlığı və ictimai fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 fevral 2013-cü il*

**BRUNEY-DARÜSSALAMIN SULTANI**
**ƏLAHƏZRƏT**
**HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Bruney-Darüssalam arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bruney-Darüssalamın dost xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 fevral 2013-cü il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da möhkəmlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişləndirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 fevral 2013-cü il*

## KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasındakı ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 fevral 2013-cü il*

**KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ ŞAHZADƏ ŞEYX NƏVVAF ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Küveyt arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Küveyt xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 fevral 2013-cü il*

## İRAN İSLAM RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ SƏİD CƏLİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də İran İslam Respublikasının Milli Təhlükəsizlik Şurasının katibi Səid Cəlilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz və xalqlarımız arasında mövcud olan tarixi, mədəni, dini əlaqələrin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. Əlaqələrimizin bütün istiqamətləri əhatə etdiyini bildirən prezident İlham Əliyev təhlükəsizlik sahəsində də əməkdaşlığımızın inkişafının xüsusi əhəmiyyət daşıdığını dedi və bu sahədə vaxtaşırı məsləhətləşmələrin aparılmasının zəruriliyini vurğuladı. Ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd edən dövlətimizin başçısı İİR Milli Təhlükəsizlik Şurasının katibi Səid Cəlilinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi baxımından mühüm addım olacağına əminliyini bildirdi.*

*Ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə edən cənab Səid Cəlili Azərbaycanın onun üçün həmişə dost ölkə olduğunu dedi. Xalqlarımız arasında tarixi dostluq əlaqələrinin mövcud olduğunu vurğulayan Səid Cəlili münasibətlərimizin inkişafında hər iki ölkənin rəsmilərinin həmişə yüksək siyasi iradə nümayiş etdirdiklərini qeyd etdi. İranlı qonaq ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən təhlükəsizlik sahəsində daha da inkişaf etdirilməsi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİYEVƏ

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Azərbaycan və Bolqarıstanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Ümidvaram ki, ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 fevral 2013-cü il*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ DİREKTORU HENRİ KERALİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Dünya Bankının Cənubi Qafqaz regionu üzrə direktoru Henri Keralini qəbul etmişdir.*

*Azərbaycanın ilk süni peykinin orbitə buraxılması münasibətilə dövlətimizin başçısını təbrik edən Dünya Bankının Cənubi Qafqaz regionu üzrə direktoru Henri Kerali bunun ölkəmiz üçün çox böyük hadisə olduğunu vurğuladı. Henri Kerali ölkəmizdə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ASAN xidmət mərkəzlərinin fəaliyyətə başlamasını da yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı informasiya-kommunikasiya texnologiyaları və eləcə də vətəndaşlara nümunəvi sosial xidmət göstərilməsi sahələrində ölkəmizdə görülən işlərin ardıcıl olaraq həyata keçiriləcəyini bildirdi.*

*Görüşdə Dünya Bankı ilə ölkəmizdə, xüsusilə regionlarda həyata keçirilən birgə layihələrin önəmi vurğulandı, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MDB DÖVLƏT İNFORMASİYA AGENTLİKLƏRİ RƏHBƏRLƏRİ ŞURASININ XVI İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının XVI iclasının iştirakçılarını qəbul etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev qonaqları salamladı:*

– Xoş gəlmisiniz! Sizi görməyimə şadam! Çox şadam ki, MDB informasiya agentlikləri rəhbərlərinin iclası bu dəfə də Bakıda keçirilir. Düşünürəm ki, tədbir uğurla keçəcəkdir. Fikrimcə, bu tədbir böyük maraq doğuran məsələlərlə yanaşı, qonaqlarımız üçün bir daha şəhərimizlə yaxından tanış olmaq imkanı da yaradacaqdır. Bütövlükdə isə hesab edirəm ki, bu cür əməkdaşlıq formatı çox müsbət haldır və dost ölkələr arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən informasiya siyasəti və informasiya təhlükəsizliyi sahələrində əməkdaşlığın inkişaf etməli olduğu bugünkü dünyanın gerçəkliklərini əks etdirir. Bugünkü dünyada bu məsələlər həmişəkindən daha çox əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, informasiya təhlükəsizliyi məsələləri bu gün enerji, ərzaq təhlükəsizliyi və bütövlükdə təhlükəsizlik məsələləri ilə yanaşı müzakirə olunur. Bu yaxınlarda Bakıda internetin idarə olunması ilə bağlı Ümumdünya Forumu keçirilmişdir. Həmin tədbirdə informasiya təhlükəsizliyi məsələləri çox kəskin şəkildə qoyulmuşdu. Əlbəttə ki, hər bir dövlət üçün bu məsələlər çox böyük əhəmiyyət kəsb edir. Xüsusilə də bizim yaşadığımız informasiya əsri şəraitində.

Hazırda informasiya-kommunikasiya texnologiyaları hər bir evə daxil olur. Azərbaycanda bu istiqamətdə böyük işlər görülüb. Müstəqillik illərində bütün kütləvi informasiya vasitələrinin sərbəst

fəaliyyəti üçün hər cür şərait yaradılıb. Bizdə yüzlərlə qəzet nəşr olunur, onlarla informasiya agentlikləri, telekanallar fəaliyyət göstərir. Yəqin ki, azərbaycanlı həmkarlarınız son zamanlar ölkəmizdə bu sahədə görülən işlər barədə sizə daha ətraflı məlumat verəcəklər. Hərçənd ki, müstəqilliyin bütün dövrləri bu sahədə islahatlarla müşayiət olunmayıb. Deməliyəm ki, müstəqilliyin ilk illərində Azərbaycanda senzura mövcud idi. Həmin qurum prezident Heydər Əliyevin qərarı ilə ləğv olundu. Mən deyərdim ki, məhz bu tarixi qərardan sonra Azərbaycanın həyatında kütləvi informasiya vasitələri sahəsində köklü islahatlar başladı. Bu gün Azərbaycanda bütün kütləvi informasiya vasitələrinin sərbəst işləməsi üçün hər cür şərait, tam fəaliyyət, söz, fikir ifadə azadlığı, sərbəst internet mövcuddur. Mən bunu da nailiyyətlərimizdən biri hesab edirəm. Sərbəst internetin mövcudluğu ilə yanaşı, sevindirici haldır ki, Azərbaycan əhalisinin 70 faizindən çoxu internet istifadəçisidir.

Tamamilə dövlət tərəfindən maliyyələşdirilən «İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı haqqında Dövlət Proqramı» nəticəsində yaxın bir neçə ildə biz dövlət hesabına Azərbaycanın hər bir şəhərinə genişzolaqlı internet çəkəcəyik. Gələcəkdə isə genişzolaqlı internetin hər bir yaşayış məntəqəsinə, hər bir kəndə çatdırılması üçün özəl qurumların iştirakına ümid edirik. Düşünürəm ki, bununla da şəhərdə, yaxud ucqar kənddə yaşamasından asılı olmayaraq, ölkəmizin hər bir sakini üçün obyektiv informasiya almaq imkanı kimi mühüm məsələ həll olunacaqdır. Bunun üçün hazırda hər bir şərait vardır. Hesab edirəm ki, bu istiqamətdə Azərbaycanın siyasəti ölkəmizdə baş verən proseslərin həm mahiyyətini əks etdirir, həm də müasir dünyanın meyillərinə müvafiqdir.

Əlbəttə ki, hərtərəfli informasiya almaq hər bir vətəndaşın toxunulmaz hüququdur. Bu halda yəqin ki, kütləvi informasiya vasitələrinin informasiyanın mötəbərliyi və onun obyektivliyinə görə məsuliyyəti haqda məsələ daha kəskin dayanacaqdır. Yəqin razılaşarsınız, təəssüf ki, həmişə belə olmur. Bəzən siyasi prioritetlərə, dünyagörüşünə, siyasi məqsədlərə görə

informasiya ya təhrif olunmuş, ya da birtərəfli şəkildə verilir. Nümunə üçün uzağa getmək lazım deyildir. Düşünürəm ki, dünya ictimaiyyətinin diqqətini cəlb edən informasiyalar və onların bəzi kütləvi informasiya vasitələri tərəfindən çatdırılması üsulları dediklərimə əyani sübut ola bilər. Buna görə də bu gün bizim vətəndaşlara nəinki təkcə düzgün və mötəbər informasiya, həm də müxtəlif mənbələrdən obyektiv informasiya lazımdır. İnformasiya həqiqətə tam uyğun ola bilər, eyni zamanda da birtərəfli təqdim edilə bilər.  O, müəyyən məqsədlərə xidmət edə bilər. Bəzən bir sıra ölkələrdə kütləvi informasiya vasitələri müəyyən baxışların fəal carçısı və təbliğatçısı kimi çıxış edir. Bu cür şəraitdə, əlbəttə ki, tam, ətraflı və mötəbər informasiyaya çıxış çox əhəmiyyətlidir. Ona görə ki, dünyada və cəmiyyətdə kütləvi informasiya vasitələrinin rolu daim artacaqdır. Bu, obyektiv prosesdir və əlbəttə ki, bu informasiyanı əhaliyə çatdıranların çiyinlərinə böyük məsuliyyət düşür. Bununla əlaqədar dost ölkələrin informasiya agentlikləri arasında fəal əməkdaşlıq həm informasiya fonunda, həm gerçəkliklərin obyektiv işıqlandırılması fonunda, həm də təcrübə və informasiya mübadiləsi fonunda xüsusi əhəmiyyət kəsb edir. Düşünürəm ki, uzun illər ərzində mövcud olan MDB İnformasiya Agentlikləri Rəhbərləri Şurasının formatı bu məqsədlərə cavab verir.

Əlbəttə ki, müasir dünyada hadisələrə operativ reaksiya vermək zəruridir və vətəndaşlara lazım olan informasiyanı operativ rejimdə çatdırmaq üçün çox sıx tərəfdaşlıq münasibətləri qurmaq lazımdır. Çünki biz hamımız bir ölkədə yaşamışıq, tarixi əlaqələr qorunur. Bizi həmçinin qonşularımızla ünsiyyət saxladığımız rus dili birləşdirir. Buna görə də dost, qonşu ölkələrdə baş verən hadisələr barədə daha mötəbər informasiya almaq üçün bütün imkanlar vardır. Düşünürəm ki, bu da müzakirə, hər hansı bir təklif mövzusu olmalıdır. MDB məkanında baş verənlərin həm Azərbaycana, həm də Azərbaycan gerçəkliklərinin qonşularımıza çatdırılması üçün biz öz tərəfimizdən bu istiqamətdə işləməyə hazırıq.

Deməliyəm ki, 2013-cü il Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan olunub. Bu sahə Azərbaycanın inkişafı üçün prioritet sahələrdən biridir. Bu sahə bizə yeniləşmə və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində daha fəal irəliləməyə imkan verəcəkdir. İKT sahəsi bir neçə aspekti, ilk növbədə, informasiyanı, yeni texnologiyaları, biznesi əhatə edir. Belə ki, bu sahə biznes mühiti üçün də çox cəlbedicidir. Eləcə də bu, yeniləşmə, informasiya və bilik deməkdir. Bu il, bu ayın əvvəlində ölkəmizin həyatında mühüm hadisə baş verdi. Fevralın 8-də Azərbaycanın ilk «Azərspace-1» telekommunikasiya peyki kosmosa buraxılıb və artıq öz yerini tutub. Beləliklə, Azərbaycan kosmik sənayesi olan ölkələr klubuna daxil olub. Bir neçə il əvvəl «Azərkosmos» Dövlət Şirkəti yaradılmışdı və biz həmçinin bu sahəni inkişaf etdirməyi nəzərdə tuturuq. Əlbəttə, birinci peyklə məsələ məhdudlaşmayacaq. Bu gün yaxın 2-3 il ərzində Azərbaycanın 2-ci və 3-cü peyklərini buraxmaq üzərində də işlər aparılır. Beləliklə, biz bu sahədə müəyyən nailiyyətlər əldə etmişik.Həmçinin yaxın zamanlarda «Texnopark» adlanan yüksək texnologiyalar parkı yaradılmağa başlanılacaqdır. Həmin parkda bu istiqamətdə işlərə daha güclü təkan vermək üçün İKT sahəsində çalışan yerli və xarici iri şirkətlərin fəaliyyətini cəmləşdirməyi planlaşdırırıq. Bu yaxınlarda mən Azərbaycanda kadrların hazırlanması üçün İnformasiya Texnologiyaları Universitetinin yaradılması haqqında fərman imzalamışam. Çünki hazırda həmin peykin idarə olunması ilə məşğul olan bütün kadrlar – idarəetmə mərkəzi isə Bakıda və Naxçıvanda yerləşir – mütəxəssislərin əksəriyyəti xaricdə təhsil alıb. Buna görə də düşünürəm ki, həmin universitetin Azərbaycanda yaradılması ölkənin yeniləşdirilməsi ilə bağlı strateji planlarımıza cavab verəcəkdir.

Həmçinin biz hesab edirik ki, İKT sahəsinin inkişafı iqtisadiyyatın şaxələndirilməsi üçün daha bir imkandır. Bu istiqamətdə də böyük uğurlar əldə olunub. Biz iqtisadiyyatın neft-qaz sektorundan asılılığını xeyli azaltmağa müvəffəq olmuşuq. Hətta ötən ilin yekunlarına görə, Azərbaycanda məhz

texnologiyalar, innovasiyalar, iqtisadiyyatın qeyri-neft sektoruna qoyulan investisiyalar hesabına qeyri-neft-qaz sektorunda iqtisadi artım 10 faizə yaxın olub. Beləliklə, bu sahə, artıq dediyim kimi, bizim üçün mühüm prioritetlərdəndir. Söhbətimin əvvəlinə qayıdaraq bir daha demək istərdim ki, informasiya texnologiyaları, eləcə də informasiya münasibətləri, jurnalistika əməkdaşlığı sahələrində biz tam açığıq və tərəfdaşlarımızla çox sıx əlaqələrimiz var. İlk növbədə, bizim İTAR–TASS-la ənənəvi əlaqələrimizi qeyd etmək istərdim. Vitali Nikitiç İqnatenko və həmyerlimiz Mixail Solomonoviç Qusmanın rəhbərliyi altında İTAR–TASS dünyamiqyaslı informasiya agentliyinə çevrilib. Çox şadıq ki, bizim qurumlarla İTAR–TASS arasında sıx əlaqələr mövcuddur. MDB-nin digər ölkələrinin informasiya agentlikləri ilə də bizim çox yaxşı əlaqələrimiz var. Düşünürəm ki, Şuranın Bakıda keçirilən iclası da hər nöqteyi-nəzərdən – əlaqələrin, dostluğun möhkəmləndirilməsi, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və əməkdaşlıq cəhətdən çox faydalı, əhəmiyyətli olacaqdır. Bilirəm ki, bir azdan sizin iclasınız başlayacaqdır. Vaxtınızı çox almaq istəmirəm. Sizi bir daha salamlamaq və uğurlu iş arzulamaq istəyirəm.

*MDB-nin üzvü olan ölkələrin Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının – MDB İnformasiya Şurasının sədri, İTAR–TASS-ın kollegiya sədri Vitali İqnatenko çıxış etdi:*

– Hörmətli İlham Heydər oğlu! İcazənizlə, bir neçə kəlmə demək istərdim. İlk növbədə, səmimi qəbula və çox maraqlı çıxışınıza görə sağ olun. Əslində, Siz məni iclasda çıxış etmək imkanından məhrum etdiniz. Sizin ifadə etdiyiniz ideyalar son dərəcə peşəkarcasına təqdim olundu. Bizim üçün çox vacibdir ki, Şuranın 16 iclasından 4-ü Bakıda keçirilmişdir. Moskvada İnformasiya Şurasının yaradılmasından sonra ilk iclası Bakıda keçirmişik və ölkənin lideri Heydər Əliyev gözəl nitqlə çıxış etmişdi. Biz indiyə qədər bu çıxışı xatırlayırıq. Biz Azərbaycan ilə əlaqələrimizi çox dəyərləndiririk. Demək istəyirəm ki, həqiqətən, biz bir yerdə çalışmaqla ölkələrimiz haqqında

mötəbər informasiyanın maneəsiz yayılması üçün üzərimizə düşən məsuliyyəti anlayırıq. Bu istiqamətdə hələ çox iş görülməlidir.

Mən səmimi-qəlbdən həmkarım Aslan Aslanova çoxillik səmərəli əməkdaşlığa, görüşlərimizin gözəl təşkilinə görə təşəkkür etmək istəyirəm. Həmçinin demək istəyirəm ki, biz hamımız böyük dövlətlərin kosmik klubuna daxil olmağınız münasibətilə Sizi təbrik edirik. MDB məkanında internetə çıxışın ən yüksək səviyyəsi Sizin ölkənizdədir. Bu çox əhəmiyyətlidir. Hesab edirəm ki, bizim işimizin əhəmiyyəti getdikcə artır, yüksək internetə getdikcə daha da yaxınlaşırıq. Amma bütün bunları insanlar həyata keçirir. Bizim birgə işləməyimiz çox vacibdir. Şuramızın yarandığı 17 il ərzində aramızda bir dəfə də olsun informasiya müharibəsi olmayıb. Əksinə, biz qəzetçilərə, televiziya və radio işçilərinə ümumi məqsədlər naminə dostluq şəraitində necə işləməyin nümunəsini göstəririk.

Bir daha Sizə səmimi-qəlbdən təşəkkür edirəm. Bu gün biz MDB İnformasiya Agentlikləri Rəhbərləri Şurasının yeni sədrini seçəcəyik, onu Sizə təqdim etmək istəyirəm. Bu, İTAR–TASS-ın yeni baş direktoru Sergey Vladimiroviç Mixaylovdur. Düşünürəm ki, səsvermə zamanı hamı məni dəstəkləyəcəkdir. Biz ona uğurlar arzulayacağıq. Yaxşı ki, bu Sizin iş kabinetinizdə baş verir.

*İnformasiya agentlikləri arasında əməkdaşlığın bütövlükdə həmin ölkələr arasında münasibətlərin göstəricisi olduğunu vurğulayan İTAR–TASS informasiya agentliyinin baş direktoru Sergey Mixaylov dedi:*

– Hörmətli İlham Heydər oğlu! Mən ilk növbədə, Azərbaycan üçün səciyyəvi olan ənənəvi səmimi qəbula görə təşəkkür etmək istəyirəm. Deyilənlərə əlavə etmək istəyirəm ki, informasiya agentliklərimiz arasındakı münasibətlər 2 damla su kimi, ölkələrimiz, xalqlarımız arasındakı qarşılıqlı səmimi münasibətləri əks etdirir. Əminəm ki, dövlət başçısının peşəkar, dərin nitqi ilə başlayan iclas beləcə də davam edəcəkdir.

## XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİ

*26 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Bakının Xətai rayonunda Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir.*

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər.*

*Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.*

*Abidənin yanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.*

*Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.*

*Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.*

*Sonra dövlətimizin başçısına abidənin yerləşdiyi parkda və onun ətrafında görülmüş abadlıq və yenidənqurma işləri barədə məlumat verildi.*

*Xocalı soyqırımının 21-ci ildönümünün qeyd olunması bir daha sübut edir ki, həmin qanlı gecədə erməni təcavüz-*

*karlarının törətdikləri vəhşilik və cinayətin dəhşətləri yaddaşlardan heç zaman silinməyəcəkdir. Çünki Xocalıda baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyil, bəşəriyyət, insanlıq əleyhinə törədilmiş qanlı cinayətdir. «Böyük Ermənistan» dövləti yaratmaq kimi xəstə xülyanın əsiri olmuş erməni millətçilərinin xalqımıza qarşı törətdikləri bu növbəti kütləvi qırğın 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoymuşdur. Bir gecədə 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər 2 valideynini itirmişdir. Faciə zamanı 487 nəfər yaralanmış, 1275 dinc sakin əsir götürülmüş, 155 nəfər itkinin taleyi hələ də məlum deyildir. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülmüş, 3 nəfər diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları və başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilmişdi. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.*

*Dünyanın sülhsevər insanları, sivil dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları, beynəlxalq ictimaiyyət bu acı həqiqəti bilməli, insanlığa qarşı törədilən bu cinayət öz hüquqi qiymətini almalıdır. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görməmişdir.*

*Lakin xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə ilk dəfə olaraq hüquqi-siyasi qiymət verilmişdir. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul etmişdir.*

*Məhz o dövrdən başlayaraq dünya azərbaycanlıları və Azərbaycan hökuməti erməni millətçilərinin xalqımıza qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, onun soyqırımı*

kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Bu, Xocalı şəhidləri qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

Hər il bu dəhşətli faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və dost xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur. Bu il dünyanın müxtəlif ölkələrində Xocalı faciəsi qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər nümayiş olunur. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radio kanallarında verilişlər hazırlanır.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri vardır. Xocalı faciəsinin 21-ci ildönümü ilə bağlı Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin birgə layihəsi çərçivəsində Azərbaycan həqiqətlərini, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində mühüm işlər görülmüşdür. Xocalı soyqırımının ildönümü ərəfəsində dünyanın 25 ölkəsində keçiriləcək aksiyalara dəstək məqsədi ilə xüsusi hazırlanmış ekspozisiya və ingilis dilində bukletlər göndərilmişdir. Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri vasitəsilə ABŞ, Cənubi Afrika Respublikası, Koreya Respublikası, Belarus, Çexiya, Fransa, Gürcüstan, İndoneziya, İsveç, İngiltərə, İsrail, İordaniya, Kanada, Qətər, Qazaxıstan, Özbəkistan və Yaponiyada təqdim olunan 17 ekspozisiya və nəşrlərlə yanaşı, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, İran, İspaniya, Macarıstan, Səudiyyə Ərəbistanı, Türkiyə və Türkmənistan ictimaiyyəti də Xocalıda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qanlı cinayət və vandalizm aktları barədə geniş məlumat əldə etmişdir. Heydər Əliyev Fondunun həyata keçirdiyi «Qarabağ həqiqətləri» silsiləsi və işğal olunan ərazilərdə mədəni-tarixi abidələrin dağıdılması ilə bağlı ingilis dilində nəşr olunan kitab və bukletlər də xaricdə yayımlanmışdır.

*Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən «Xocalıya ədalət!» beynəlxalq kampaniyası çərçivəsində dünya ölkələrində mitinqlər, yürüşlər və tədbirlər təşkil olunmuşdur. Kampaniyanın əsas məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır.*

*Yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü artıq ifşa olunur. Artıq dünya ictimaiyyəti Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Artıq Pakistan, Meksika, Kolumbiya, Çexiya və Rumıniya parlamentləri, eləcə də ABŞ-ın 6 ştatı Xocalı soyqırımını tanıyır.*

*Xalqımız, o cümlədən Azərbaycanın 48 rayonunda məskunlaşan xocalılılar Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, işğal olunmuş torpaqlarımızın azad edilərək ölkəmizin ərazi bütövlüyünün bərpası ümidi ilə yaşayır və o günün uzaqda olmadığına inanırlar. Xalqımız inanır ki, Xocalı soyqırımının günahkarları layiqli cəzalarını alacaqlar. Çünki bu dəhşətli cinayət cəzasız qala bilməz.*

## BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ, HƏMÇİNİN KAMERUN MİLLİ OLİMPİYA VƏ İDMAN KOMİTƏSİNİN PREZİDENTİ HAMAD KALKABA MALBOUM İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Beynəlxalq Hərbi İdman Şurasının, həmçinin Kamerun Milli Olimpiya və İdman Komitəsinin prezidenti Hamad Kalkaba Malboumu qəbul etmişdir.*

*Hamad Kalkaba Malboum Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Beynəlxalq Hərbi İdman Şurasının Bakıda keçiriləcək çempionatının əhəmiyyətini qeyd edən Hamad Kalkaba Malboum yarışlarda 16 ölkənin milli hərbi komandasının və 100-ə yaxın nümayəndənin iştirak edəcəyini vurğuladı. O, 2019-cu ildə hərbçilər arasında növbəti yay oyunlarının Azərbaycanda keçirilməsi ilə bağlı Beynəlxalq Hərbi İdman Şurasının təklifini dövlətimizin başçısına çatdırdı.*

*Dövlətimizin başçısı Bakıda keçiriləcək çempionatın yüksək səviyyədə təşkil ediləcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev ölkəmizdə nüfuzlu beynəlxalq idman yarışlarının keçirilməsi üçün müasir idman infrastrukturunun yaradılması istiqamətində işlərin ardıcıl olaraq davam etdirildiyini dedi.*

*Görüşdə Beynəlxalq Hərbi İdman Şurası ilə Azərbaycanın müvafiq qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*27 fevral 2013-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin fevralın 27-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvili və xanımı Sandra Elizabet Rulofsu qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Gürcüstan prezidentinə raport verdi.*

*Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Gürcüstan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Mixeil Saakaşviliyə, Gürcüstanın nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2013-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq bildirildi. Ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2013-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda görməyə şadam. Xoş gəlmisiniz! Biz indicə ikitərəfli münasibətlərin mühüm məsələləri və regional problemlər barədə fikir mübadiləsi apardıq. İndi müzakirələrimizi geniş tərkibdə davam etdirəcəyik.

Əvvələn, demək istəyirəm ki, Sizi ölkəmizdə yenidən görməyə çox şadam. Sizin Azərbaycana rəsmi səfəriniz münasibətlərimizin inkişafında çox mühüm mərhələdir. Son 9 ildə biz Bakıda, Tbilisidə, Batumidə və başqa şəhərlərdə tez-tez görüşmüşük. Şadam ki, bu əlaqələrimiz davam edir və bizim münasibətlərin indiki mərhələsində Gürcüstan ilə Azərbaycan arasında strateji tərəfdaşlığın tam varisliyini təmin etmək zəruridir. Şadam ki, Siz səfərə bu cür nüfuzlu nümayəndə heyəti ilə gəlmisiniz. Onların əksəriyyətini çoxdan tanıyıram. Əminəm ki, sizin Bakıda olmağınız həmkarlar arasında əlaqələr baxımından da faydalı olacaqdır.

Bizim münasibətlər çox sınaqlardan keçmiş, ən yüksək səviyyəyə çatmışdır, bundan yüksəyini təsəvvür etmək yəqin ki, çətindir. Konkret layihələr həyata keçirilir, onlar ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırır. Gələcək üçün də yaxşı perspektivlər vardır. Bunu təmin etmək üçün inamlı inteqrasiya kursunu, beynəlxalq sahədə səylərimizin əlaqələndirilməsini davam etdirmək lazımdır. Sizinlə başladığımız konkret iqtisadi

və infrastruktur layihələrinin uğurla başa çatdırılması da regionda sabitliyə və xalqlarımızın rifahına şərait yaradacaqdır.

Gündəliyimiz həmişəki kimi, çox genişdir. Bizim gündəlikdə müxtəlif xarakterli çoxlu məsələlər vardır. Vacibdir ki, onların hamısı müsbət və səmərəli həll edilir. Güman edirəm ki, Sizin budəfəki səfərinizin yekunlarına əsasən, biz əməkdaşlığın daha da möhkəmləndirilməsinin konkret yollarını da müəyyən edəcəyik.

Bir daha xoş gəlmisiniz!

**Mixeil Saakaşvili:** Çox sağ olun, cənab Prezident! Əvvələn, bizim üçün doğma olan Bakıya gəlmək böyük şərəf və həmişə sevindiricidir. Həqiqətən, Bakı regionun ən mühüm mərkəzi olmaqla bərabər, həm də dünyanın ən məftunedici və maraqlı şəhərlərindən biridir. Mən ilk dəfə prezidentlik müddətimin başlanğıcında Sizin andiçmə mərasiminə gəlişimdən sonra Bakının necə tərəqqi etdiyini gördüm. O vaxt Bakı yenicə inkişaf etməyə başlayırdı. Mən dünyada Azərbaycan kimi sürətlə inkişaf edən başqa ölkə tanımıram, ola bilsin ki, bir-iki daha zəngin və daha böyük ölkə vardır. Zənnimcə, bu həm Sizin, həm də xalqınızın xidmətidir.

Bizim münasibətlərimiz də inkişaf edir. Bu münasibətlərin təməli ulu öndər Heydər Əliyevin uzaqgörən strateji siyasəti nəticəsində qoyulmuşdur. O, Azərbaycanın hansı istiqamətdə irəliləməli olması barədə tam qəti kurs müəyyən etmişdir. Məhz bu qətiyyət, strateji uzaqgörənlik, bütün bu tədbirlərin həyata keçirilməsində dəqiq ardıcıllıq Sizin siyasətinizdə də davam etmiş və Azərbaycanı bugünkü səviyyəyə çatdırmışdır. Mənim bütün həmvətənlərim və güman edirəm ki, dünyanın, ən azı bu regionun bütün düşünən, məlumatlı adamları Sizə heyrandır, vurğundur. Ona görə bu mənada biz bu əməkdaşlığın nəticələrinə bir növ yekun vururuq. Şadam ki, Gürcüstanın Baş naziri də hökumət nümayəndə heyəti ilə burada olmuşdur. Mən başa düşürəm, Gürcüstanda hakimiyyətdə kim olur-olsun, onlar Azərbaycanın əhəmiyyətini bilirlər, onlar başlanmış fəaliyyət kursunu davam etdirməyə bilməzlər. Bu kurs Gürcüstanda icra

hakimiyyətinin başında kimin dayanmasından asılı deyildir. Çünki bu, iki xalq arasındakı kursdur. Bu kursun alternativi yoxdur. Ölkələrimiz arasında sadə vətəndaşlar, biznes, hökumətlər, prezidentlər, baş nazirlər səviyyəsində çox dərin strateji tərəfdaşlığın inkişaf etdirilməsindən fərqli heç bir inkişaf variantı yoxdur. Ona görə bu mənada biz Sizə çox minnətdarıq.

# GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*27 fevral 2013-cü il*

*Fevralın 27-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvili mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, hörmətli qonaqlar!

Mən bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Siz Azərbaycanın böyük dostusunuz. Biz Sizinlə son 9 il ərzində dəfələrlə görüşmüşük – həm Gürcüstanda, həm Azərbaycanda, həm də başqa ölkələrdə. Bugünkü görüş və Sizin rəsmi səfəriniz əvvəlki görüşlərin məntiqi davamıdır.

Bu illər ərzində Gürcüstan–Azərbaycan əlaqələri böyük və uğurlu yol keçmişdir. Bu əlaqələr çox möhkəm təməl üzərində qurulubdur. Bizim xalqlarımız əsrlər boyu bir yerdə olub, bir-birinə arxa-dayaq durub və biz müasir münasibətləri bu möhkəm tarixi zəmin üzərində qururuq. Müstəqillik dövründə Gürcüstan və Azərbaycan strateji müttəfiqlər səviyyəsinə çatmışlar. Bu gün bu müttəfiqlik münasibətləri inkişaf edir və möhkəmlənir. Əminəm ki, bu əlaqələrin gələcək illərdə də inkişafı həm Gürcüstan, həm Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyan amil olacaqdır. Çünki bizim uğurlu inkişafımız yalnız birlikdə mümkün ola bilər. Bu birliyi, əməkdaşlığı möhkəmləndirmək üçün son illər ərzində çox böyük işlər görülmüşdür. Bu gün biz bu barədə Sizinlə fikir mübadiləsi aparmışıq. Müxtəlif layihələr icra edilir. Energetika, nəqliyyat sektorlarında layihələr həm bizim ölkələri gücləndirir,

xalqlarımızın rifah halının yaxşılaşdırılmasına xidmət edir, həm də bölgədə gedən proseslərə müsbət təsir göstərir. Bölgədə sabitliyin, sülhün, əməkdaşlığın dərinləşməsi üçün bizim bərabər icra etdiyimiz layihələr xüsusi məna daşıyır. Bu gün bizim ölkələri və regionu, Avropa qitəsini bərabər icra etdiyimiz layihələrsiz təsəvvür etmək mümkün deyildir. Biz Sizinlə bərabər enerji məsələlərinin həlli üçün çox böyük səylər göstərmişik, böyük uğurlara nail olmuşuq. Neft-qaz kəmərlərinin çəkilişi və enerji təhlükəsizliyi məsələlərinin həlli – bütün bunlar bizim birgə səylərimiz nəticəsində mümkün olan məsələlərdir.

Hazırda biz yeni və böyük layihənin icrası ilə məşğul olmağa başlamışıq. Əminəm ki, TANAP layihəsi Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa üçün yeni böyük imkanlar açacaqdır. Nəqliyyat məsələlərinin həllində də böyük işlər görülmüşdür. Əminəm ki, Bakı–Tbilisi–Qars dəmir yolu uğurla başa çatdırılacaq və həm Gürcüstan, həm Azərbaycan, həm də bölgə və dünya üçün böyük əhəmiyyətə malik bir məsələ olacaqdır.

Beynəlxalq əməkdaşlığımız da artır. Biz bir-birimizi beynəlxalq təşkilatlarda daim dəstəkləyirik. Xarici siyasət məsələləri ilə bağlı daim müxtəlif səviyyələrdə məsləhətləşmələr aparılır və bu da çox uğurlu təşəbbüsdür. Bu təşəbbüsün çox gözəl nəticələri vardır. Onlar bundan ibarətdir ki, bütün beynəlxalq təşkilatlarda biz bir-birimizi daim dəstəkləyirik və müdafiə edirik. Bu da ölkələr arasındakı əlaqələrə çox müsbət təsir göstərir.

Bütün digər məsələlərlə bərabər, bu gün bir daha biz bu məsələləri nəzərdən keçirdik. Görürük ki, Gürcüstan və Azərbaycan iki dost, qardaş və tərəfdaş ölkələr kimi irəliyə uğurla gedirlər. Gürcüstanda son illər ərzində Sizin rəhbərliyinizlə çox böyük işlər və islahatlar aparılmışdır. Gürcüstan böyük dərəcədə inkişaf etmişdir. Həm siyasi proseslər müsbət istiqamətdə gedir, həm də infrastruktur layihələrinin icrası ilə bağlı Sizin çox böyük uğurlarınız vardır. Tbilisi şəhəri gündən-günə gözəlləşir. Batumi də, həmçinin gündən-günə gözəlləşir.

Bu gün mənə göstərdiyiniz yeni layihələrin fotoşəkilləri bir daha onu göstərir ki, nə qədər böyük işlər görülmüşdür. Son illər ərzində Gürcüstanda müxtəlif istiqamətlərdə aparılan islahatlar nəinki MDB məkanında, eyni zamanda, digər bölgələrdə də öyrənilir və bu islahatların həyata keçirilməsində Sizin xüsusi əməyiniz, zəhmətiniz olubdur. Bu islahatlar Sizin təşəbbüsünüzlə irəliyə aparılıbdır. Əlbəttə ki, bu islahatlar gələcəkdə Gürcüstanın inkişaf etmiş ölkəyə çevrilməsində də öz rolunu oynayacaqdır. Bir daha demək istəyirəm ki, son illər ərzində biz Sizinlə dəfələrlə görüşmüşük və həmişə çox səmimi fikir mübadiləsi aparılmışdır. Bu görüşlər zamanı qəbul edilmiş qərarlar nəticə etibarilə həm Gürcüstanı, həm Azərbaycanı xeyli gücləndirmişdir. Əminəm ki, bu müsbət meyillər gələcək illərdə də davam edəcək, iki dost və qardaş ölkə – Gürcüstan və Azərbaycan həmişə olduğu kimi, bir yerdə olacaqlar, bir istiqamətdə inkişaf edəcəklər və ölkə daxilində olan bütün prosesləri, bütün məsələləri uğurla həll edəcəklər.

Bir daha xoş gəlmisiniz, bir daha bütün qonaqları səmimiyyətlə salamlayıram.

**Gürcüstan prezidenti Mixeil Saakaşvilinin bəyanatı**

Çox təşəkkür edirəm, cənab Prezident! Mənim üçün böyük şərəfdir ki, yenidən Bakıya səfər edirəm. Gürcüstana dost ölkədə səfərdə olmaq mənim üçün çox əhəmiyyətlidir. Cənab İlham Əliyev bu gün mənə çox maraqlı söhbətlər etdi. Hesab edirəm ki, atasının layiqli davamçısı olan Azərbaycan dövlətinin başçısı öz fəaliyyətini uğurla həyata keçirir. Heydər Əliyev tərəfindən təməli qoyulmuş bu kurs cənab prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz Sizin fəaliyyətiniz nəticəsində Azərbaycan dövlətçiliyi gücləndirilmişdir. Bu isə ən başlıca amildir.

Bu gün Bakının inkişafı, ölkədə həyata keçirilən infrastruktur layihələri və Azərbaycan xalqının rifahının artırılması çox vacibdir. Çünki Azərbaycan həm regionda, həm qlobal müstəvidə

vacib bir dövlətdir və bir sıra strateji təşəbbüslərin müəllifidir. İstər regionda, istər geniş Avrasiya məkanında müsbət ab-havanın yaranmasında Azərbaycanın müstəsna xidmətləri vardır. Azərbaycan bizim müstəqilliyimizin, inkişafımızın təminatçısıdır və hər birinizə öz təşəkkürümü bildirirəm, xüsusilə də cənab Prezident, Sizə. Gürcüstanda həyata keçirilmiş islahatlar barədə söylədikləriniz məni çox təsirləndirdi. Biz öz səfərlərimizi çox gözəl xatırlayırıq, Bakının küçələrini dəfələrlə gəzmişik. Bir sıra ideyalar və fikirlər məhz Azərbaycana səfərlərimiz nəticəsində meydana gəlmişdir. Mən ümid edirəm ki, bir gün bizim də ölkəmizdə Sizin inkişaf öz əksini tapacaqdır. Təbii ki, bu rəqabətdə biz bir balaca zəif tərəf kimi çıxış edirik. Amma mən yenə də ümid edirəm ki, inkişaf davam etdiriləcəkdir.

Gürcüstanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq əminəm ki, Azərbaycanın bizim ölkə ilə dostluğu davam edəcəkdir. Gürcüstana Azərbaycandan yaxın olan dövlət tapmaq mümkün deyildir. Bu, sadəcə bəyanat, sadəcə sözlər deyildir. Son 10 il ərzində dünyada heç bir ölkə Gürcüstan üçün Azərbaycanın etdiyini etməmişdir, bizə bu qədər dəstək verməmişdir. Bizim çoxsaylı tərəfdaşlarımız, dostlarımız vardır. Ancaq heç bir ölkə Gürcüstana Azərbaycan qədər yardım etməmişdir. Bu isə, cənab Prezident, bilavasitə Sizin xidmətinizdir. Mən çox şadam ki, Gürcüstanın da Baş naziri Azərbaycana səfər etmişdir və öz gözü ilə buradakı inkişafın şahidi olmuşdur. Bu da bizə imkan verir ki, bu dostluq bundan sonra da davam etsin.

İnqilabi layihə olan Bakı–Tbilisi–Qars layihəsinin də başa çatdırılması çox vacibdir. Mən ümid edirəm ki, yaxın illərdə bu layihə başa çatdırılacaqdır. Bu hər iki ölkə üçün tarixi bir şansdır, bizim Avropaya açılan qapımızdır, Avropa qitəsinə çıxışımızdır. Ona görə də mən ümid edirəm ki, bu layihənin həyata keçirilməsinə istənilən maneələrin törədilməsi bizim milli maraqlarımıza ziddir. Bu bir fəlakət ola bilər. Ona görə də bu layihənin sual altına alınması bir cinayətdir. Hesab edirəm ki, bu layihənin heç bir alternativi yoxdur. Bunun əksi bizim milli

maraqlarımıza xəyanət ola bilər. Ona görə də mən şübhə etmirəm ki, bu layihə bizim Avropaya, NATO-ya istiqamətlənmiş yolumuzdur və bu layihə sıx əməkdaşlıq şəraitində başa çatdırılacaqdır. Bizim tərəfdaşımız və dostumuz olan Türkiyə də burada mühüm rol oynayır. Mən şübhə etmirəm ki, bu layihənin icrası başa çatdırılacaqdır.

Bu gün Gürcüstanın iqtisadi təhlükəsizliyi Azərbaycan tərəfindən təmin edilmişdir. Bu soyuq qış aylarında Azərbaycanın fədakarlığı bizi xilas etmişdir və bu, gürcü millətinin, Gürcüstan dövlətçiliyinin bir növ xilas edilməsi olmuşdur. Bir daha vurğulamaq istərdim ki, Gürcüstanın ərazi bütövlüyü də Azərbaycan qədər heç bir ölkə tərəfindən dəstəklənməmişdir. Ərazi bütövlüyü məsələsi çox mühüm bir məsələdir. Bütün Qafqaz haqqında danışanda ərazi bütövlüyü fundamental prinsipdir və bu, başlıca əhəmiyyət daşımalıdır. Bizim bu istiqamətdə siyasətimiz aydındır. Neft və qaz kəmərləri sayəsində Gürcüstanın strateji, iqtisadi əhəmiyyəti vardır və bir daha onu vurğulamaq istəyirəm ki, bu bilavasitə Azərbaycanın sayəsində baş tutmuşdur.

Təbii ki, hazırda Gürcüstanda siyasi vəziyyət mürəkkəbdir. Lakin bir daha qeyd etmək istəyirəm ki, heç bir amil Gürcüstan–Azərbaycan dostluğuna mane ola bilməz. Bir daha vurğulamaq istəyirəm ki, Azərbaycansız Gürcüstanın gələcəyi, Gürcüstan dövlətçiliyinin inkişafı mümkün deyildir. Bunu bir daha xüsusi vurğulamaq istəyirəm. Məhz keçmişdə müstəqilliyimizi o səbəbdən itirmişdik ki, biz yaxından əməkdaşlıq edə bilməmişdik. Lakin son illərdə biz dostluğumuzu o qədər gücləndirmişik, o qədər güclü təməl üzərində qurmuşuq ki, artıq bu dostluq sarsılmazdır və əbədidir. Cənab Prezident, bir daha xüsusilə Sizin rolunuzu qeyd etmək istərdim. Sizin sayənizdə biz bu haqda danışa bilirik və əminəm ki, gələcək nəsillər də buna layiqli qiymət verəcəkdir. Mən buna şübhə etmirəm.

Bir daha, cənab Prezident, Sizə və Azərbaycan xalqına təşəkkür edirəm. Diqqətinizə görə çox sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*27 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından fevralın 27-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin və xanımı Sandra Elizabet Rulofsun şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Mərasimdə çıxış edən prezident İlham Əliyev bildirdi ki, Gürcüstan prezidentinin Azərbaycana səfəri bir daha ölkələrimiz arasında həyata keçirilən qarşılıqlı səfərlərin və görüşlərin davamlı xarakter aldığını göstərir.*

*Xalqlarımızın ortaq tarixə və mədəni dəyərlərə malik olduğunu deyən dövlətimizin başçısı hazırda ölkələrimizin strateji tərəfdaşlığa əsaslanan əlaqələrinin uğurla davam etdiyini diqqətə çatdırdı. «Bu gün Gürcüstan və Azərbaycan təkcə özünü doğrultmuş müstəqil dövlətlər deyil, həm də dinamik inkişaf edən, öz seçimini qoruyan, öz müstəqil inkişaf yolu ilə gedən, həm regional, həm də qlobal xarakterli məsələlərdə fəal iştirak edən dövlətlərdir» – deyən prezident İlham Əliyev müstəqilliyin ilk illərində ərazi bütövlüyünün pozulması, separatizm halları ilə üzləşən ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin mövqeyini yüksək səviyyədə müdafiə etdiyini bildirdi.*

*İqtisadi sahədə əməkdaşlığın səmərəli olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında həyata keçirilən iri layihələrin əhəmiyyətindən danışaraq dedi:*

– Ölkələrimizdə islahatların həyata keçirilməsində, yeniləşmədə, iqtisadi inkişafda ümumi və oxşar cəhətlər çoxdur. Bizi region çərçivəsindən kənara çıxan qlobal xarakterə malik layihələr də birləşdirir. Gürcüstan və Azərbaycan qlobal xarakter daşıyan enerji və nəqliyyat layihələrinin fəal iştirakçıları kimi, qitənin enerji və nəqliyyat təhlükəsizliyi

məsələlərində mühüm rol oynayırlar. Ölkələrimiz nə qədər yaxın olsalar, bu rol regionun ümumi inkişafına bir o qədər müsbət təsir göstərəcəkdir. Regionda təhlükəsizlik, sabitlik və əmin-amanlıq cəmiyyətlərin və ölkələrin rifahından daha çox asılıdır. Bu cəhətdən təşəbbüs göstərdiyimiz və uğurla həyata keçirilən layihələr ölkələrimizin həqiqətən müstəqil dövlətlər kimi möhkəmlənməsində mühüm rola malikdir.

*Prezident İlham Əliyev son illərdə Gürcüstanda həyata keçirilən islahatların əhəmiyyətinə toxundu. Ölkələrimiz arasında tarix boyu yaranıb formalaşan dostluq əlaqələrinin və səmərəli əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini ifadə edərək dedi:*

– Azərbaycan üçün Gürcüstan qardaş dövlət və strateji tərəfdaş olmaqla yanaşı, həm də təbii müttəfiqdir. Bunu başa düşmək üçün xəritəyə baxmaq kifayətdir. Azərbaycan Gürcüstan üçün, həmçinin iqtisadi, investisiya və enerji layihələri nöqteyi-nəzərindən də böyük əhəmiyyət kəsb edir.

*Çıxışına «Mənim üçün Bakıya hər səfər bayramdır» sözləri ilə başlayan prezident Mixeil Saakaşvili qeyd etdi ki, Azərbaycan ilə Gürcüstan ortaq tarixi və dəyərləri olan ölkələrdir. Gürcüstan dövlətinin başçısı bir neçə il öncə soyuq qış günlərində qazsız və elektriksiz qalan ölkəsinə Azərbaycandan gələn dost yardımını xatırlatdı, bununla bağlı qərarına görə bir daha prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkür etdi. BMT Təhlükəsizlik Şurasının üzvü olan Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuza malik olduğunu deyən Mixeil Saakaşvili bildirdi ki, Azərbaycan–Gürcüstan dostluğu dünyada qonşuluq münasibətlərinə bir nümunədir. Gürcüstanın dövlət başçısı son illərdə prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin böyük inkişaf yolu keçdiyini diqqətə çatdırdı:*

– Hətta böyük ehtiyatları olan heç bir ölkə Azərbaycanın elədikləri ilə müqayisəyə gələ bilməz. Niyə? Çünki Azərbaycanın dəqiq kursu, öz müstəqilliyinin dəqiq yolu, istiqaməti, aydın üfüqləri vardır. Düşünürəm ki, tarixi şəxsiyyətlərsiz tarixi

qərarlar ola bilməz. Bunun ən gözəl nümunəsi də Azərbaycan dövlətidir.

*Gürcüstan prezidenti xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan dövlətinin yaranıb formalaşmasındakı müstəsna xidmətlərini xatırlatdı, dahi şəxsiyyətin layiqli davamçısı prezident İlham Əliyev tərəfindən bu gün ölkəmizdə həyata keçirilən quruculuq və inkişaf proseslərinin önəmini vurğulayaraq bildirdi:*

– Fikrimcə, Azərbaycan Avrasiyanın mühüm dövlətlərindən və ən tanınmış ölkələrindən biri olacaqdır. Bakı şəhəri bunu aşkar sübut edir. Bakının nə qədər maraq doğurduğunu artıq hamı etiraf edir.

*Sonda Gürcüstan prezidenti bir daha yüksək qonaqpərvərliyə görə prezident İlham Əliyevə təşəkkür etdi.*

# QƏBƏLƏ RAYONUNA SƏFƏR

*28 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də təyyarə ilə Qəbələ rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, parkda əhalinin istirahəti üçün hər cür şərait yaradılıb.*

## Qəbələ Mədəniyyət Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Qəbələ Mədəniyyət Mərkəzinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, nəhəng ağ royal formasında tikilmiş bina ətraf ərazi ilə ahəngdar mühit yaradır. Binanın alt qatında avtomobillər üçün xüsusi qaraj inşa olunub. Mərkəzin foyesi genişliyi və müasirliyi ilə diqqəti cəlb edir. Burada Mədəniyyət Mərkəzinin hazırkı görünüşü və gələcək layihələrlə bağlı maketlər də vardır. Foyedə, həmçinin ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə mədəniyyətin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə də yaradılıb. Mərkəzdə teatr tamaşalarının, konsert proqramlarının, yeni texnologiya ilə təqdim olunan kinofilmlərin nümayişi və digər müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür imkan mövcuddur.*

Bildirildi ki, 3 qrim, 1 məşq otağının fəaliyyət göstərdiyi mərkəzdəki 400 yerlik əsas tamaşa salonu nümunəvi tərtibatı ilə diqqəti cəlb edir. İkinci mərtəbədə müşavirə zalı, 2 VİP, 3 dərnək, rejissor və aktyorların istirahəti, həmçinin teatr kostyumlarını saxlamaq üçün otaqlar yerləşir. Bu binanı fərqləndirən cəhət daxili divarların ekoloji baxımdan təmiz və nəfis şəkildə işlənmiş taxta materiallarla üzlənməsidir. Bina ən müasir akustik texnologiya və dünya standartlarına uyğun teatr üçün texniki avadanlıqlarla, Avropanın aparıcı şirkətlərinin istehsalı olan üzlük və tamamlama materialları ilə, məxsusi çıraq və mebellərlə təchiz edilib. Tikinti zamanı müasir texnologiyadan, yüksək keyfiyyətli tikinti materiallarından istifadə olunması binanın xarici və daxili görünüşünü daha cəlbedici edib.

Diqqətə çatdırıldı ki, Qəbələdə tez-tez mədəniyyət tədbirlərinin keçirilməsi və rayonda bir çox incəsənət kollektivinin fəaliyyət göstərməsi nəzərə alınaraq yeni binada rejissor, qrim, istirahət otaqları, dekorasiya və tikiş sexləri də yaradılıb. Burada xüsusi qazanxana, transformator yarımstansiyası, mühafizə və yanğınsöndürmə sistemləri quraşdırılıb, su anbarı tikilib. Mərkəzin yerləşdiyi ərazi Qəbələnin ümumi görkəminə uyğun olaraq abadlaşdırılıb.

Görülən işlərdən razılığını bildirən prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

## QƏBƏLƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 fevral 2013-cü il*

Sizi ürəkdən salamlayıram. Qəbələ Mədəniyyət Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Çox gözəl, möhtəşəm binadır. Çox gözəl memarlığa malikdir. Burada bütün tədbirlərin keçirilməsi üçün çox gözəl şərait vardır. Keçən dəfə Qəbələdə olarkən mərkəzin tikintisi ilə tanış olmuşdum və bu gün biz bu gözəl mərkəzin açılışında bərabər iştirak edirik.

Bu doğrudan da gözəl hadisədir. İlk növbədə, Qəbələdə müasir mədəniyyət, incəsənət mərkəzinin tikilməsinə böyük ehtiyac var idi, digər tərəfdən bu, ölkəmizin ümumi inkişafını göstərir. Çünki belə gözəl, həm memarlıq, həm funksional cəhətlərdən çox gözəl binaların tikilməsi onu göstərir ki, Azərbaycan dövləti uğurla inkişaf edir. Biz bu inkişafı Qəbələ rayonunun timsalında açıq-aydın görürük. Çünki burada həm sosial, həm də mədəniyyət, infrastruktur layihələri uğurla icra edilir. Bir müddət bundan əvvəl biz Qəbələ Beynəlxalq Aeroportunun açılışını qeyd etdik. O vaxt müəyyən fikirlər var idi ki, bu aeroport necə işləyəcək, işləyəcəkmi, yoxsa yox? Ancaq o vaxt mən demişdim ki, əgər biz Qəbələdə müasir turizm obyektlərini yaratmaq istəyiriksə, mütləq beynəlxalq aeroport olmalıdır. Artıq buradan xarici ölkələrə uçuşlar təşkil edilir. Bu uçuşların sayı getdikcə artacaqdır. Qəbələ rayonunun sakinləri və ətraf rayonlarda yaşayan soydaşlarımız da bundan istifadə edirlər. Xarici qonaqlar da Qəbələyə indi rahat gələ bilirlər. Yəni aeroportun tikilməsi, mədəniyyət ocaqlarının, hotellərin yaradılması – bütün bunlar reallıqdır və bu, son illərin reallıqlarıdır.

Bu gün Qəbələ ölkəmizin mədəniyyət və turizm mərkəzlərindən birinə çevrilibdir. Bakıdan, digər yerlərdən, digər şəhərlərdən, başqa ölkələrdən buraya gələnlərin sayı getdikcə

artır. Turizmin inkişafı gələcəkdə yəqin ki, Qəbələ rayonunun iqtisadi inkişafının müəyyən faizini öz üzərinə götürəcəkdir. Bu elə bir sahədir ki, bu sahə daim inkişafda olur və iş yerlərinin yaradılmasına kömək, rayonun inkişafına və ölkəmizin dünyada tanınmasına xidmət edir. Bu gün müasir hotellər, turizm kompleksləri, istirahət zonaları açılır. Əlbəttə, belə gözəl mədəniyyət mərkəzinin açılışı görülən bütün bu işlərə əlavə dəstək verəcəkdir.

Qəbələ artıq dünyada çox məşhur şəhərə çevrilibdir. Qəbələ Musiqi festivalları artıq gözəl ənənədir. Dünyanın aparıcı musiqi kollektivləri bu festivalda iştirak etmək üçün Qəbələyə gəlirlər. Bilirəm ki, bir dəfə gələnlər sonra da gəlmək istəyirlər. Bu da çox gözəl əlamətdir. Çünki burada görülən işlər, qonaqlara göstərilən qonaqpərvərlik, yaradılan şərait, hotellər və ümumiyyətlə, gözəl nadir ab-hava Qəbələyə turistləri daha da çox cəlb edəcəkdir. Buraya gələn hər bir xarici qonaq öz ölkəsinə qayıtdıqdan sonra, əlbəttə ki, Qəbələ haqqında, Azərbaycan haqqında tanışlarına və dostlarına məlumat verir.

Beləliklə, vaxt keçdikcə Qəbələ haqqında dünyada daha da dolğun məlumat əldə edilir və bu da çox sevindirici haldır. Çünki ölkəmizin inkişafı bölgələrin inkişafından keçir. 9 il bundan əvvəl regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilməsi ilə o vaxtdan bu günə qədər regionlarda çox böyük işlər görülüb. Regionlarla paytaxt arasındakı fərq azalır. Baxmayaraq ki, paytaxt da sürətlə inkişaf edir. Bu fərqi azaltmaq o qədər də asan məsələ deyildir. Ancaq hər bir şəhərdə yaşayış üçün normal şəraitin yaradılması bizim son illərdə apardığımız siyasətin əsas istiqaməti olmuşdur. Hər bir yerdə iş yerləri, gözəl şərait, yüksək səviyyədə tibbi xidmət olmalıdır, təhsil müəssisələri təmir edilməlidir. Qəbələnin inkişafı bunu göstərir. Əvvəlki illərdə gözəl Diaqnostika Mərkəzi tikilmişdir, məktəblər təmir olunur.

Yenə də deyirəm, turizm infrastrukturu yaradılır. Qəbələdə dağ xizəyi mərkəzi yaradılır. Bu da son illərin reallıqlarıdır. Çünki Azərbaycanda turizm üçün müxtəlif imkanlar vardır – Xəzər dənizi, meşələr, dağlar. Ancaq heç vaxt dağ xizəyi mərkəzləri

olmamışdır. Sovet dövründə qonşu respublikalarda olub, Azərbaycanda olmayıb. Ancaq təbii şəraitimiz, iqlimimiz buna imkan verir və qərar qəbul edilmişdir ki, Azərbaycanda turizm də inkişaf etsin. Artıq bir neçə aydır ki, Qusar rayonundakı Şahdağ turizm xizək mərkəzi fəaliyyətə başlamışdır. Bu yaxınlarda mənə verilən məlumata görə, şənbə-bazar günlərində 2 min insan, turist gəlir, bu imkanlardan istifadə edir. Bu, Qusar rayonunun inkişafına böyük bir dəstəkdir, orada gedən bütün işlərə böyük təkan verəcəkdir.

Eyni qaydada Qəbələdə də xizək mərkəzi yaradılır. Yəqin ki, gələn ildən, bəlkə də artıq bu ilin sonundan fəaliyyətə başlayacaqdır. Bu da əlavə turistlərin cəlb edilməsinə şərait yaradacaqdır. Buraya gəlmək üçün artıq beynəlxalq aeroport var, gözəl yollar çəkilir, infrastruktur layihələri icra edilir. Onların içində bildiyiniz kimi, indi əsas prioritet içməli su layihələridir. Bu layihələr Qəbələdə də həyata keçirilir, yaxın zamanlarda başa çatacaqdır. Qazlaşdırma istiqamətində işlər gedir, kənd yolları bərpa olunur, ən yüksək texnologiyalara uyğun şəkildə yeni sənaye müəssisələri, heyvandarlıq fermaları yaradılır. Bax, bu hərtərəfli inkişaf hər bir yerdə getməlidir. Sosial, iqtisadi məsələlər, sənaye, infrastruktur obyektlərinin və mədəniyyət ocaqlarının, tarixi, dini abidələrimizin bərpası və tikilməsi – biz bütün bu işləri kompleks şəkildə aparırıq. Qəbələdə bu səpkili məsələlər uğurla icra edilir. Qəbələliləri bütün bu uğurlar münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, cansağlığı arzulayıram.

**Şirin Şirinov** *(rayon sakini):* Möhtərəm cənab Prezident, Qəbələyə xoş gəlmisiniz! Sizi Qəbələnin bütün ictimaiyyəti adından salamlayıram.

Cənab Prezident, bu gün Azərbaycanımızın çox yüksək sürətli inkişafı, onun əldə etdiyi uğurlar qəlbimizi dağa döndərir. Bu Sizin apardığınız siyasətin, Heydər Əliyev siyasətinin bəhrəsidir. Bu siyasətin nəticəsində Azərbaycanımız yüksək sürətlə inkişaf edir. Rayonlarımız, şəhərlərimiz gündən-günə gözəlləşir, abadlaşır, insanların normal yaşaması üçün yaxşı şərait yaradılır. Biz ziyalılar, həm də ağsaqqallar hələ də

fevralın 12-də keçirilən müşavirədə Sizin tarixi nitqinizin təsiri altındayıq. Bizim hamımızı qəlbən sevindirən odur ki, Siz adamların çətinliklərini, onların problemlərini çox gözəl bilirsiniz və onları həll edirsiniz.

Cənab Prezident, bu gün bizə aydın oldu ki, insan amili, insan həyatı, insanların normal yaşayışı, onların həyata baxışı Sizin həyata keçirdiyiniz siyasətin ana xəttini təşkil edir. Siz hər addımda Azərbaycan vətəndaşlarının qanuni hüquqlarını qoruyursunuz, Azərbaycan dövlətinin inkişafı üçün əsaslı tədbirlər həyata keçirirsiniz. Bütün bunlar üçün, cənab Prezident, mən Sizə bir daha təşəkkür edirəm, «Çox sağ olun!» – deyirəm.

Cənab Prezident! Müstəqil Azərbaycanımızda Qəbələ şəhəri bu gün mədəniyyət, turizm sahələrində inkişaf etmiş mərkəzlərdən birinə çevrilmişdir. Bu gün burada istifadəyə verilən zavodlar, fabriklər, istehsalat müəssisələri, hotellər, digər obyektlər – bunların hamısı xalqın istifadəsindədir. Bunlar hamısı yeni iş yerləridir, həyatımızın sosial təminatının və adamların maddi rifahının yaxşılaşdırılmasına xidmət edir. Cənab Prezident, biz ona görə çox sevinirik ki, bütün bu obyektlərin istifadəyə verilməsi bizim gələcək nəsillərimiz üçün çox böyük təminatdır. Biz arxayınıq. Arxayınıq ki, onlar üçün gələcəkdə də daimi iş yerləri olacaqdır. Böyük sevinc hissi ilə qeyd etmək istəyirəm ki, Qəbələnin inkişafında çox mühüm rol oynayan əsas sahələrin – heyvandarlığın, bitkiçiliyin, üzümçülüyün inkişafında da istifadəyə verilən həmin obyektlərin çox böyük payı vardır. Bütün bunların hamısı Sizin əməyinizin bəhrəsidir.

Cənab Prezident! Bu gün Qəbələ öz tarixi görkəmini saxlamaqla yenidən qurulur. Bugünkü Qəbələ yalnız xarici və yerli turistlərin istirahət mərkəzi deyil, o həm də beynəlxalq əhəmiyyətli görüşlərin, mötəbər idman və incəsənət tədbirlərinin həyata keçirildiyi böyük bir mərkəzə çevrilmişdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə son 4 ildə Qəbələdə keçirilən beynəlxalq musiqi festivalları dünyanın mötəbər mədəniyyət tədbirləri

sırasına daxil olmuşdur. Mən fürsətdən istifadə edərək, milli musiqi mədəniyyətimizin hamisi Mehriban xanım Əliyevaya bütün qəbələlilər adından dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Bu gün burada açılışında iştirak etdiyimiz bu gözəl mədəniyyət ocağı da Sizin tərəfinizdən qəbələlilərə çox böyük töhfədir. Çox sağ olun, cənab Prezident! Buna görə də, Qəbələyə göstərdiyiniz sonsuz diqqət və qayğıya görə də təkrarən Sizə minnətdarlığımızı bildirirəm, cansağlığı arzulayıram. Ailənizə və özünüzə böyük xoşbəxtlik arzu edirəm. Biz qəbələlilər həmişə Prezidentimizə, dövlətimizə səmimi və sadiq olmuşuq. Biz Sizi çox sevirik, Sizinlə fəxr edirik, həmişə Sizin apardığınız siyasəti dəstəkləyirik, bu günümüzü, gələcəyimizi yalnız və yalnız Sizinlə görürük. Tanrı Sizi qorusun! Bir daha deyirəm, Qəbələyə xoş gəlmisiniz!

### Şəhər məscidinin yeni binasının açılışı mərasimi

*Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Qəbələ şəhər məscidinin yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, məscidin tikintisinə 2010-cu ilin may ayında başlanılmışdır. Heydər Əliyev Fondunun sifarişi ilə tikilən məscid binasının layihəçisi «Konstruktor MMC», binanın podratçısı isə «Gilan inşaat» MMC-dir. Binanın tikinti sahəsi 715 kvadratmetr, minarənin hündürlüyü isə 25 metrdir. İnşaat işləri zamanı yerli tikinti materiallarından geniş istifadə olunmuşdur. Məscidin həyətində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin milli-mənəvi və dini dəyərlərimizə qayğılarını əks etdirən fotoguşə yaradılıb.*

*Məscidlə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, burada eyni vaxtda 450 kişi, 150 qadın olmaqla, ümumilikdə 600 nəfər mömin ibadət edə bilər. Məscidin müqəddəs Qurani-Kərimdən surələr yazılmış divarları və sütunları Azərbaycan*

*nəqqaşlıq məktəbinin və Şərq ornamentlərinin nadir nümunələrindən istifadə olunmaqla dini rəmzlərlə bəzədilib. Dini ocağın həyatində kiçik memarlıq üslubunda 2 fəvvarə də inşa edilib. Məscidin həyatində, həmçinin axund, dərs, kitabxana, mərasim, qadın və kişilər üçün dəstəmaz otaqları və köməkçi tikililər inşa olunub. Binanın həyəti yaşıllaşdırılıb, dekorativ ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.*

*Prezident İlham Əliyevə Qurani-Kərim hədiyyə olundu.*

*Dövlətimizin başçısı məsciddə yaradılan şəraitdən razılığını bildirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Atıcılıq klubunun inşası başa çatdırılan birinci mərhələsinin açılışı mərasimi

*Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələ atıcılıq klubunun inşası başa çatdırılan birinci mərhələsinin açılışında iştirak etmişdir.*

*Azərbaycan Atıcılıq Federasiyasının vitse-prezidenti Rasim Rzayev dövlətimizin başçısına məlumat verdi ki, Qəbələ atıcılıq klubunun layihəçisi Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin «Azərinşaatlayihə» Dövlət Baş Layihə-Konstruktor və Texnoloji İnstitutudur.*

*Klubun inzibati binasının foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Xüsusi memarlıq üslubunda inşa olunan binada qeydiyyat bölməsi, iclas və məşğələ otaqları, atəş zonasındakı nəticələri müşahidə etmək üçün xüsusi zal yaradılıb. Binada ayrıca tibb məntəqəsi də fəaliyyət göstərəcəkdir. Kluba gələnlər elektromobillərlə atəş zonasına daxil olacaqlar. Burada idman silahlarından istifadə etmək üçün xüsusi qaydalar da müəyyən edilib. Atəş zonasında silahlar boşaldıldıqdan sonra təhvil alınacaqdır. Təhlükəsizliyin təmin olunması və yanğından mühafizə məqsədi ilə klubun ərazisində*

*müşahidə kameraları və yanğından mühafizə məntəqələri qurulub. Ərazidə ayrıca bayraq meydançası da yaradılıb.*

*Prezident İlham Əliyev elektromobillə atəş zonasına gəldi. Atəş zonasında idmançılar saniyədə 15–42 metr sürətlə uçan hədəfləri nişan almalıdırlar. Bu məqsədlə ərazidə bir neçə uçan hədəf aparatları yerləşdirilib.*

*Prezident İlham Əliyev uçan hədəflərə bir neçə sərrast atəş açdı. Qeyd edildi ki, klubda atıcılıq idmanının daha çox yayılan və Olimpiya oyunlarına daxil edilən stend atıcılığına da xüsusi yer ayrılıb. Klubun ərazisində Olimpiya yarışlarında tətbiq edilən və bütün texniki inventarlarla təchiz olunan sahə də yaradılıb. Burada yarışların izlənilməsi üçün ayrıca tamaşaçı bölməsi qurulub, nəticələri qeydə alan elektron tablo yerləşdirilib. Bundan əlavə, klubun ərazisində 1200 kvadratmetr sahədə 10 metrlik, 3 min kvadratmetr sahədə isə 25 metrlik tirlər quraşdırılıb. Burada uşaq və yeniyetmələr üçün tədris mərkəzi də yaradılıb. Ümumilikdə 300 kvadratmetr sahədə silah anbarı, 4,5 hektar ərazidə 5 dairəvi və səngər stend atıcılığı meydançası, 4 min kvadratmetr sahədə 8 sporting meydançası inşa edilib. Dairəvi və səngər stend atıcılığı avadanlığı Fransadan, sporting avadanlığı İngiltərədən, tir avadanlığı İsveçrədən, elektron tablo isə İtaliyadan gətirilib. Burada idman-ovçuluq ləvazimatı mağazasının fəaliyyət göstərməsi klubun özəlliklərindən biridir. Mağazada atıcılıq idmanında tətbiq olunan ən son texniki avadanlıqlar, idman silahları, geyim növləri və digər vasitələr satışa çıxarılacaqdır. Klubda balıqçılıqla maraqlananların da istəkləri nəzərə alınıb.*

*Diqqətə çatdırıldı ki, ümumilikdə növbəti mərhələdə görüləcək işlər nəticəsində klubun ərazisində 45 atıcılıq yeri üçün 50 və 25 metrlik, 30 atıcılıq yeri üçün 10 metrlik tirlər, 8 dairəvi səngər, 7 meydança, 25–50 metr məsafələrdə ox atmaq üçün sahə, elektromobilləri yükləmək və saxlamaq üçün otaq və sahə, istirahət məkanları tam şəkildə istifadəyə veriləcəkdir.*

*Prezident İlham Əliyev Qəbələ atıcılıq klubunun inşası başa çatdırılan birinci mərhələsində görülən işlərdən razılığını*

*bildirdi, sonrakı mərhələdə həyata keçiriləcək tədbirlərlə bağlı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Konqres Mərkəzində inşaat işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Qəbələ rayonuna səfəri çərçivəsində tikilməkdə olan Konqres Mərkəzində inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı mərkəzin planı və gələcək görüntülərini əks etdirən stendlərə baxdı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 2,8 hektar ərazidə yerləşəcək mərkəzdə 1200 yerlik ikimərtəbəli konfrans zalı fəaliyyət göstərəcəkdir. Mərkəzin ərazisində avtomobil dayanacağı da yaradılacaqdır.*

*Mərkəzin binasında daş hörgü və beton işləri başa çatdırılmış, metal konstruksiyalar quraşdırılmışdır. Hazırda binanın damı örtülür.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bu yeni sosial obyektə gedən yol çay yatağından keçir. Buraya gediş-gəlişi asanlaşdırmaq üçün həmin çay üzərində yeni körpü salınır. Bütövlükdə, müasir memarlıq üslubunda inşa olunan və ümumi sahəsi 10 min 200 kvadratmetr olacaq Konqres Mərkəzində yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev tikinti işlərinin keyfiyyətlə və vaxtında başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.*

## «Tufan» Dağ-Xizək yay-qış istirahət kompleksinin tikintisi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Qəbələdə «Tufan» Dağ-Xizək yay-qış istirahət kompleksinin tikintisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, dağlıq ərazidə yerləşən, istirahət üçün bütün əlverişli şəraitə malik olan bu rekreasiya-turizm obyekti Qəbələ şəhərindən təxminən 4 kilometr aralıda yerləşir. Kanat yolu və xizəkçilik kompleksi 8 stansiyadan ibarət olacaqdır. Birinci stansiya dəniz səviyyəsindən 950 metr, sonuncu stansiya isə 1920 metr hündürlükdədir. Artıq 5 stansiyada quraşdırma işləri başa çatmışdır. Bir-birindən 1414 metr məsafədə və dəniz səviyyəsindən 1250 metr və 1650 metr hündürlükdə olan stansiyalarda quraşdırma işləri aparılıb.*

*Prezident İlham Əliyev kanat lifti ilə kompleksin ərazisini gəzdi. Bildirildi ki, hazırda inşa edilən dağ-xizək idmanı bazasının bilavasitə yaxınlığında yerləşən «Qafqaz Resort» hotel kompleksi 3 hotel binasından, SPA mərkəzindən, əyləncə parkından ibarət olmaqla, yay istirahəti üçün bütün imkanlara malikdir. Belə şəraitdə «Qafqaz Resort» hotel kompleksində qış istirahət məkanının yaradılması, yəni hotelin yaxınlığında dağ-xizək idman növləri üçün kompleksin inşa edilməsi bütün fəsillərdə ekskursiya və digər fəal istirahət imkanlarının mövcudluğu ilə yanaşı, hotel yaxınlığında həm də qış idman növləri ilə məşğul olmağa imkan verəcəkdir. «Trassa» sistemi hər bir qonağın onun üçün məqbul olan enmə zolağı, maillik və çətinlik dərəcəsini seçməsi üçün nəzərdə tutulub. Yamaclar «Everest» markalı xüsusi təyinatlı kipləşdirici qurğuların köməyi ilə möhkəmləndirilir. Dağ yamaclarının kənarı ilə və ya düzənlik sahələrdə enmə marşrutunun yaradılmasında bu texnikadan istifadə edilməsi səmərəli üsul olmaqla yanaşı, xizək sürənlərin təcrübə toplamasına xidmət edəcəkdir. İnşası*

nəzərdə tutulan 10 enmə zolağının ümumi uzunluğu 18 min metr təşkil edir. Dağ-xizək liftləri hava şəraiti – küləyin sürəti və istiqaməti, yamacdan enmə, həmçinin xizək sürənlərin digər trassalardan aralı hərəkət etmə imkanları nəzərə alınmaqla, qonaqların seçilən ərazinin əlçatan yerlərinə ən məqbul üsullarla çatdırılması üçün nəzərdə tutulub. Bütün dağ-xizək trassasının enmə zolaqlarının süni qaryaratma generasiya sistemi ilə təchiz edilməsi qərara alınıb. Kompleksin ərazisində xizəklə eniş zolaqlarının qar örtüyünün təmin edilməsi məqsədilə burada 223 süni qaryaratma qurğusunun yerləşdirilməsi planlaşdırılıb. Bu istirahət mərkəzi gün ərzində 3 min nəfərə xidmət göstərmək imkanına malik olacaqdır.

Prezident İlham Əliyevə «Golf Resort» idman və istirahət mərkəzinin layihəsi ilə bağlı da məlumat verildi. Azərbaycanda qolfun populyarlaşdırılması və bu idman növünə marağın artırılması məqsədilə ölkənin ən dilbər guşələrindən birində – Qəbələ rayonunda qolf idman meydançasının, habelə Qolf Akademiyası və klubunun yaradılması qərara alınıb. Layihəyə əsasən, Qəbələ rayonu ərazisindən keçən Dəmiraparan çayı ilə ətrafdakı dağ massivinin arasındakı 80 hektarlıq ərazidə qolf meydançasının, qolf-klubun, hotel binasının, villaların və müvafiq infrastruktur obyektlərinin inşası nəzərdə tutulur. Mövsümi yağıntıların və dağlarda qar örtüyünün əriməsi nəticəsində Dəmiraparan çayında baş verə biləcək daşqın hallarının qarşısını almaq, bununla da qolf meydançasının mühafizəsini təmin etmək məqsədilə çayın sahilində istinad divarları tikiləcəkdir. Klassik forma və üslubda inşa ediləcək bu mərkəzdə klub üzvlərinin və qonaqların səmərəli istirahəti üçün hər cür şərait yaradılacaqdır.

Prezident İlham Əliyev həm «Tufan» Dağ-Xizək yay-qış istirahət kompleksinin, həm də «Golf Resort» idman və istirahət mərkəzinin tikinti işlərinin yüksək keyfiyyətlə aparılması ilə bağlı tapşırıqlarını verdi.

## Heyvandarlıq-südçülük kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Qəbələyə səfəri çərçivəsində heyvandarlıq-südçülük kompleksinin açılışında iştirak etmişdir.*

*Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində ölkənin müxtəlif bölgələrində yeni istehsal sahələri istifadəyə verilir, rayon və kəndlərdə əhalinin sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Qəbələ heyvandarlıq-südçülük kompleksi də belə müəssisələrdən biridir. Müəssisənin ümumi dəyəri 12,9 milyon manatdır. Bu layihənin də inşasında dövlətin güzəştli kreditlərindən istifadə olunmuşdur. İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kompleksin inşasına 3 milyon manat güzəştli kredit ayrılmışdır. Kompleksdə tikinti işlərinin aparılmasına və avadanlıqla təchiz edilməsinə 2011-ci ilin sonunda başlanılıb. Bu ilin fevral ayında isə işlər tam başa çatdırılmışdır.*

*Müəssisə ilə tanışlıq zamanı məlumat verildi ki, kompleks sağmal inəklər üçün fermalar, yem təsərrüfatı, avtopark və digər köməkçi sahələrdən ibarətdir. Müəssisə ABŞ-ın «Bou-Matic» şirkətinin ferma avadanlığı, avtomatik yönləndirmə və yemləmə sistemləri, birdəfəyə 40 baş inək tutumlu «Paralel» tipli sağım avadanlığı, soyutma sistemləri və digər avadanlıqlarla təchiz edilib. Hər biri gündəlik 25 litrdən çox südvermə qabiliyyətinə malik 500 baş «Holstein Friesian» cinsindən olan inək gətirilib. Hazırda sağmal heyvanların sayı 660 başa çatdırılıb, onlardan 150 bala alınıb. Gələcəkdə kompleksdə sağmal inəklərin sayının 1000 başa çatdırılması nəzərdə tutulur.*

*Qeyd olundu ki, hər inəkdən bir ildə 8 min 500 litr, ümumi fermada isə gündəlik təqribən 15 ton süd sağımı proqnozlaşdırılır. İstehsal olunan süd Qəbələ Süd emalı zavoduna göndərilir. Burada «Jalə» brendi ilə ağartı məhsulları istehsal olunur. Kompleks üçün Qəbələ rayonu ərazisində mövcud əkin sahələri*

*hesabına yem təsərrüfatı yaradılıb. Bütün aqrotexniki normalara riayət etməklə aparılan növbəli əkin hesabına təsərrüfatda yüksək məhsuldarlığa nail olunur. Nəticədə müəssisənin yemə olan tələbatı tam ödənilir.*

*Komplekslə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, layihənin icrası nəticəsində 95 nəfər iş yeri ilə təmin olunub. Tətbiq olunan müasir texnologiyanın istifadəsi, cins heyvanların yemlənməsi və bəslənməsi, kənd təsərrüfatı texnikalarından istifadə qaydalarının daha dərindən mənimsənilməsi və dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsi məqsədi ilə burada çalışan mütəxəssislərin bir hissəsi Hollandiyada xüsusi kurs keçmişdir. Gələcəkdə təcrübələrinin artırılması üçün digər işçilərin də kurs və seminarlara göndərilməsi nəzərdə tutulur.*

*Komplekslə tanışlıqdan sonra prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

* * *

*Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq Qəbələnin Vəndam qəsəbəsində isə «Gilan Holdinq»in «Aqro Kompleks Qəbələ» heyvandarlıq kompleksi formalaşır. 20 hektar ərazidə inşa olunan kompleks 2 inək və 2 buzov fermalarından və doğuş zalından ibarətdir. Bu layihənin də inşasına İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 14 milyon manat güzəştli kredit verilmişdir. Kompleks Almaniyanın məşhur «Delovan», «Qruber», «Vestvalya», «Dea» şirkətləri ilə sıx əməkdaşlıq şəraitində yaradılıb. Sağım sexi dünyanın ən mütərəqqi «Karusel» tipli avadanlığı, soyutma sistemləri və digər köməkçi avadanlıqlarla təchiz edilib. Yeni texnologiya hər inəkdən sağılan südün həcminin, yağlılıq dərəcəsinin və digər keyfiyyət göstəricilərinin ayrı-ayrılıqda qeydiyyatının aparılmasına imkan verir. Kompleks üçün ilkin olaraq Almaniyadan 620 baş «Simmental» cinsindən olan südlük-ətlik istiqamətli cins düyələr alınıb. Mart ayında əlavə 160 baş heyvanın gətirilməsi təmin ediləcəkdir. Gətirilən*

*heyvanlar artıq yerli iqlimə uyğunlaşmış və orta hesabla ildə 5000–6000 litr yüksək yağlılıq göstəricilərinə malik süd verəcəkdir. Kompleksin yemlə təmin edilməsi məqsədi ilə rayonda 1554 hektar ərazisi olan yem təsərrüfatı yaradılıb. Artıq bu ərazilərdə müxtəlif yem bitkiləri əkilib. Müəssisənin xüsusi yem sexi və 5 silos quyusu vardır. Bundan başqa, 200 hektar ərazidə müasir suvarma sistemləri quraşdırılıb. Görülən işlər hesabına kompleksin yem təchizatı tam təmin olunacaqdır. Əlavə olaraq 20 hektar alma bağı salınmış və burada hər hektarın məhsuldarlığının 30–40 tona çatacağı gözlənilir. Əkin-biçin işlərinin aparılması və əkin sahələrinə aqrotexniki qulluq göstərilməsi məqsədi ilə Avropanın lider şirkətlərindən 88 maşın və texnika alınıb. Həmin texnika 4 qarajdan ibarət avtoparkda saxlanılır. Tikintisi davam etdirilən ət emalı fabrikində heyvanların kəsilməsindən ət məhsullarının qablaşdırılmasınadək bütün proseslər gigiyenik normalar gözlənilməklə həyata keçiriləcəkdir.*

*Prezident İlham Əliyevin heyvandarlığın inkişafının təmin edilməsi ilə bağlı verdiyi tapşırıqların icrası nəticəsində 2015-ci ilədək kompleksdəki inəklərin sayı 2400-ə, heyvanların ümumi sayı isə 4800-ə çatdırılacaqdır. Beləliklə, bu kompleks Avropanın ən nəhəng heyvandarlıq müəssisələrindən biri olacaqdır.*

*Burada çalışan aparıcı mütəxəssislər Hollandiyada və Almaniyada ixtisasartırma kursu keçmişlər. Hazırda kompleksdə 80 nəfər işlə təmin edilib.*

## «ASPİ Winery» üzüm emalı zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Qəbələ rayonuna səfəri çərçivəsində «ASPİ-Aqro» MMC-nin «ASPİ Winery» üzüm emalı zavodunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, digər bölgələrdə olduğu kimi, Qəbələ rayonunda da sahibkarlığın inkişafı diqqət mərkəzindədir.*

*Rayonun Qaradeyn kəndi ərazisində «ASPİ-Aqro» MMC-nin «ASPİ Winery» üzüm emalı zavodunun fəaliyyətə başlaması həmin tədbirlərin davamlılığından xəbər verir. Zavodun təsisçisi olan «ASPİ Agro» MMC-nin əsas məqsədi respublikada geniş yayılmış və qədim tarixə malik şərabçılıq sahəsinin əvvəlki şöhrətinin bərpa edilməsi və Azərbaycan süfrəsinin dünyanın ən gözəl, yüksək keyfiyyətli üzüm növləri və şərab çeşidləri ilə təmin olunmasıdır. Müəssisə öz fəaliyyətində müasir texnologiyanın tətbiqinə və Azərbaycan şərabçılarının ənənələrinə əsaslanaraq, üzümün yetişdirilməsindən yüksək keyfiyyətli şərab və konyak məhsullarının buraxılışınadək tam bir istehsal prosesini özündə birləşdirir.*

*«ASPİ-Aqro» MMC üzümçülük tingləri istehsalı və satışı üzrə dünyanın ən qabaqcıl şirkətləri olan İtaliyanın «VİVAİ Cooperativi Rauscedo» Vcr və Fransanın «Gontard Freres» şirkətləri ilə sıx əlaqə yaradaraq, Qəbələ rayonunda nadir iqlim şəraitinə malik, vaxtilə şərab sənayesinin çiçəkləndiyi yerdə – Böyük Qafqaz dağlarının ətəklərində, Savalan vadisində geniş üzüm sahələri salmışdır. Ərazinin təbii şəraiti, dəniz səviyyəsindən 400 metr yüksəklikdə yerləşməsi, illik yağıntıların miqdarı, illik temperatur göstəriciləri və müxtəlif yerlərdən götürülmüş torpaq nümunələrinin İtaliya və Fransa şirkətlərinin laboratoriyalarında aparılmış analizləri bu yerdə yüksək keyfiyyətli nadir üzüm növlərinin yetişdirilməsinin mümkünlüyünə əsas verir. Bu göstəricilərə əsasən ərazidə əkiləcək üzüm növləri və onların kök sistemləri seçilmişdir. Seçilmiş növlər üzrə yüksək keyfiyyətli üzüm tingləri gətirilmiş və onlar mövcud normativlər əsasında lazımi aqrotexniki tədbirlərin həyata keçirilməsi yolu ilə əkilmişdir. Üzüm bağlarında əkin və becərmə işləri aparmaq üçün xüsusi texnika da alınmışdır. Bu amillər ixrac qabiliyyətli yüksək keyfiyyətli məhsul istehsalına təminat verir. Diqqətə çatdırıldı ki, müəssisədə ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq ümummilli liderin Azərbaycanda kənd təsərrüfatının, o cümlədən üzümçülüyün inkişafındakı xidmətlərini və prezident İlham Əliyevin müxtəlif illərdə Qəbələ rayonuna səfərlərini əks etdirən fotoguşələr yaradılmışdır.*

*Dövlətimizin başçısı müəssisənin avtoparkında üzüm plantasiyalarında əkin, becərmə və məhsul toplanışında istifadə üçün nəzərdə tutulmuş texnika, maşın və avadanlıqla tanış oldu.*

*Daha sonra prezident İlham Əliyev üzümün qəbulu prosesi ilə maraqlandı. Prezident İlham Əliyev müəssisənin ayrı-ayrı istehsal sahələrini gəzdikdən sonra qablaşdırma sexində zavodu işə saldı və istehsal prosesini izlədi.*

*Qeyd edildi ki, «ASPİ Winery» üzüm emalı müəssisəsinin illik istehsal gücü 1000 tondur. Zavod İtaliyanın ən məşhur şirkətlərinin avadanlığı ilə təchiz olunub. Hazırda burada 7 növ məhsul istehsal olunur. Gələcəkdə 11 növ məhsulun istehsalı planlaşdırılır.*

*Bildirildi ki, «Savalan» şərablarını məşhurlaşdıran hər şeydən əvvəl ideal coğrafi və iqlim şəraitidir. Belə şəraitdə yetişmiş üzüm özünəməxsus xüsusiyyətlərə malik autentik şəraba çevrilir. Bu, əsrlərlə formalaşan ənənələrin və müasir şərabçılıq meyillərinin ahəngidir.*

*Konyak istehsalı sexində Prezidentə məlumat verildi ki, zavodda bütün məhsullar yüksək ixtisaslı xarici mütəxəssislərin rəhbərliyi ilə istehsal olunur və yoxlanılır. Şərablar bütün müəyyən olunmuş normalara riayət edilməklə zirzəmidə palıd çəlləklərdə saxlanılır ki, bu da ona əlavə ətir verir. İstehsal olunan şərab məhsulları Rusiyaya ixrac olunur. Şərabların gələcəkdə Ukrayna, İtaliya, İsveç kimi ölkələrə ixrac edilməsi də planlaşdırılır.*

*Prezident İlham Əliyev müəssisədə şərab anbarına baxdı. Anbarda minimum silkələnmə, ciddi şəkildə müəyyənləşdirilmiş temperatur, rütubət və işıqlandırma, zəruri mikromühit mövcuddur. Məhsullar Fransadan və İtaliyadan alınan yüksək keyfiyyətli palıd çəlləklərdə və çənlərdə saxlanılır. Məhsulun belə çəlləklərdə saxlanması bərk zərrəciklərin çəlləyin dibinə çökməsinə səbəb olur ki, onları da oradan təmizləmək asanlaşır. Bundan əlavə, palıd çəlləklərdə saxlanılan əksər şərablar sadə içkini nəfis şəraba çevirməyə qadir xüsusi ətir verir.*

Dövlətimizin başçısı burada çalışan xarici mütəxəssislərlə söhbət etdi. Məlumat verildi ki burada muzey də fəaliyyət göstərir. Muzeydə «Qədim Qəbələ», «Azərbaycanda qədim şərabçılıq» və «Şərabçılığın xronologiyası» posterləri, Qəbələdə arxeoloji qazıntılar zamanı aşkar olunan eksponatlar vardır. Burada ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyev haqqında fotolar və sənədlər, həmçinin üzümçülük və şərabçılığın tarixi ilə bağlı kitablar və stendlər də nümayiş etdirilir, emal olunan məhsullar sərgilənir.

Prezident İlham Əliyev muzeydə üzümçülüklə bağlı sənədli filmə baxdı. Bildirildi ki, zavodda ən müasir avadanlıqla təchiz edilən laboratoriya yaradılıb. İstehsal olunan məhsullar İngiltərədən alınan və MDB məkanında yalnız bu müəssisədə quraşdırılan lazer analiz aparatı ilə yoxlanılır. Bu aparat kimyəvi preparatlarsız işləyir və bir dəqiqə ərzində şərabın və ya üzüm şirəsinin 24 parametrini maksimal dəqiqliklə müəyyən etməyə imkan verir. Standart laboratoriyalarda bu cür analizlər 2 həftədən çox vaxt aparır.

Məlumat verildi ki, «ASPİ Winery» üzüm emalı müəssisəsi hazırda layihə gücünün 20–30 faizi həddində fəaliyyət göstərir. «ASPİ-Aqro»ya məxsus 340 hektar üzüm sahəsində İtaliyadan gətirilən 22 şərab sortu, 14 süfrə sortu üzümləri əkilmişdir. Həmin sahədə 200 nəfər mövsümi işlə təmin edilib. Ən başlıcası isə bu müəssisə Qəbələ rayonunda əhalinin məşğulluğunun təminatında əhəmiyyətli rol oynayacaqdır.

Prezident İlham Əliyev dequstasiya otağı ilə də tanış oldu, kollektivə uğurlar arzuladı, müvafiq tapşırıq və tövsiyələrini verdi.

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Əziz analar və bacılar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan qadını mənəvi təbiətinə sadiq qalaraq, zərifliyin, ülviliyin və gözəlliyin rəmzi olan adının ucalığını həmişə layiqincə qoruyub saxlamışdır. Tarix boyu o özünün müdrikliyi, işgüzarlığı və saflığı ilə keçmişimizə parlaq səhifələr yazmışdır. Milli-əxlaqi dəyərlərimiz, mədəni-tarixi irsimiz və xalq adət-ənənələri xəzinəmiz məhz dilimizin saflığı keşiyində şərəflə dayanan nənələrin, anaların sayəsində mürəkkəb dövrlərin təqib və sınaqlarına qalib gələrək, bu günədək yaşamaqdadır. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçib-seçilmək hüququ əldə etməsi də, mədəniyyətin, incəsənətin və elmin müxtəlif sahələrində ilk addımları atması da Azərbaycan qadınının mədəni səviyyəsinin və intellektual potensialının aydın təzahürüdür. Fərəhləndirici haldır ki, gənc xanım və qızlarımız bu nailiyyətlərin layiqli davamçıları kimi, nəsillərin varisliyini təmin edirlər.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycanın qazandığı bütün böyük uğurlarda qadınların misilsiz xidmətləri vardır. Respublikamızda bir an belə ara verməyən hazırkı quruculuq işlərində ölkə xanımları tariximizin hər bir mərhələsində olduğu kimi, bu gün də çox yaxından iştirak edir, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərin fəal iştirakçısı olaraq vətənimizin yüksəlişinin təmin edilməsinə töhfələrini əsirgəmirlər. Bu bayramın xalqımızın həyatında mühüm hadisəyə çevrilməsi Azərbaycan qadınının

cəmiyyətimizin müasir simasının müəyyənləşməsində əhəmiyyətli yerinin və ictimai mövqeyinin nəticəsidir.

İnanıram ki, sürətli dəyişikliklərin baş verdiyi indiki qlobal dünyada siz daim mədəni-mənəvi zənginliklərimizin yaşadılması üçün çalışacaq, ölkəmizin gələcək inkişafı naminə gənc nəslin qədim ənənələrimizə, milli məfkurə və dövlətçilik ideallarına sədaqət ruhunda tərbiyəsinə bundan sonra da xüsusi diqqət yetirəcəksiniz.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 mart 2013-cü il*

## AZƏRBAYCAN DÖVLƏT XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN YENİ İNŞA OLUNMUŞ «GƏMİ TƏMİRİ VƏ GƏMİQAYIRMA» İSTEHSALAT BİRLİYİNİN AÇILIŞI MƏRASİMİ

*4 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Dövlət Xəzər Dəniz Gəmiçiliyinin yeni inşa olunmuş «Gəmi təmiri və gəmiqayırma» İstehsalat Birliyinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işləri ardıcıl olaraq davam etdirilir. Ölkə həyatının bütün sahələrində ayrı-ayrı infrastruktur layihələri uğurla icra olunur. Paytaxtda və regionlarda sosial layihələrlə yanaşı, ölkəmizin iqtisadi imkanlarının genişləndirilməsinə xidmət edən ayrı-ayrı sənaye müəssisələri inşa edilir, yeni-yeni istehsalat sahələri yaradılır. Bütün bunlar qeyri-neft sektorunun inkişafını sürətləndirməklə yanaşı, həm də yeni iş yerlərinin açılması baxımından olduqca əhəmiyyətlidir. Digər sahələrdə olduğu kimi, dövlətimizin başçısının göstərişi ilə Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də mühüm işlər görülmüşdür. Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin yeni inşa olunmuş «Gəmi təmiri və gəmiqayırma» İstehsalat Birliyinin müasir tələblər səviyyəsində tikilib istifadəyə verilməsi bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində atılan mühüm addımlardan biridir.*

*Sənaye müəssisələrinin paytaxtın mərkəzindən köçürülməsi ilə bağlı Dövlət Proqramına uyğun olaraq «Paris Kommunası» adına Gəmi təmiri zavodu və İlham Allahverdiyev adına Gəmi təmiri və gəmiqayırma zavodunun bir hissəsi sökülmüş, Zığ şosesi yaxınlığında «Gəmi təmiri və gəmiqayırma» İstehsalat*

*Birliyi adlanan yeni müəssisə inşa olunmuşdur. İnşaat işləri 2011–2012-ci illərdə həyata keçirilmişdir. Dövlətimizin başçısı Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin yeni inşa olunmuş «Gəmi təmiri və gəmiqayırma» İstehsalat Birliyi ilə tanış oldu.*

*Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi Aydın Bəşirov yeni müəssisədə yaradılan şərait və istehsal prosesi barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, müəssisədə gövdə-qaynaq, mexaniki emal, metaləritmə, çilingər, ağac emalı, elektrikquraşdırma və gəmilərin təmiri ilə bağlı ayrı-ayrı sahələrdə lazımi işləri aparmaq üçün ən müasir dəzgahlar, avadanlıqlar və ləvazimatlar alınaraq quraşdırılmışdır.*

*Prezident İlham Əliyev düyməni basaraq müəssisəni işə saldı. Dövlətimizin başçısı müəssisənin ayrı-ayrı sexlərində oldu. Bildirildi ki, 2,2 hektar sahədə 6 sex binası inşa olunmuş, müvafiq kommunikasiya xətləri çəkilmiş, lazımi infrastruktur yaradılmışdır. Bundan başqa, ərazidə böyük həcmdə sahilbərkitmə işləri görülmüş, ümumi uzunluğu 1400 metrə yaxın olan yanalma körpüləri və dalğaqıran inşa edilmişdir. Bu körpülərdə eyni zamanda iriölçülü 8 gəminin təmirə dayana biləcəyi bildirildi.*

*Prezident İlham Əliyev «Gəmi təmiri və gəmiqayırma» İstehsalat Birliyinin ayrı-ayrı sahələrini gəzdi, yaradılan şəraitlə yaxından tanış oldu.*

# AVSTRİYA RESPUBLİKASI MİLLİ ŞURASININ İKİNCİ PREZİDENTİ FRİTZ NEUGEBAUERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Avstriya Respublikası Milli Şurasının ikinci prezidenti Fritz Neugebauerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında ikitərəfli əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Avstriya prezidenti Hayntz Fişerin Azərbaycana səfərini və səfər zamanı aparılan müzakirələri məmnunluqla xatırladan prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün qarşılıqlı marağın yüksək səviyyədə olduğunu qeyd etdi. Əlaqələrimizin inkişafında parlamentlərarası əməkdaşlığın önəmini vurğulayan dövlətimizin başçısı Avstriya Respublikasının Milli Şurasının ikinci prezidenti Fritz Neugebauerin ölkəmizə səfərinin uğurlu olacağına və əməkdaşlığımızın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Avstriya Respublikasının Milli Şurasının ikinci prezidenti Fritz Neugebauer prezident Hayntz Fişerin salamlarını dövlətimizin başçısına çatdırdı. Son 20 ildə ölkələrimiz arasında münasibətlərin yüksək templərlə inkişaf edərək hazırkı səviyyəyə qalxdığını vurğulayan qonaq 2010-cu ildə Avstriyanın Azərbaycanda səfirliyinin açılmasını və 2011-ci ildə prezident Hayntz Fişerin böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etməsini bunun bariz nümunəsi kimi dəyərləndirdi. Fritz*

*Neugebauer ikitərəfli münasibətlərimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

*Görüşdə Avstriya şirkətlərinin Azərbaycanda həyata keçirilən müxtəlif layihələrdə iştirakının önəmi qeyd olundu, ölkələrimiz arasında iqtisadi, enerji, informasiya və kommunikasiya texnologiyaları, turizm, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanların olduğu vurğulandı, əlaqələrimizin sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksələcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı prezident Hayntz Fişerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avstriya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## VENESUELA BOLİVAR RESPUBLİKASININ VİTSE-PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAS MADURO MOROSA

Hörmətli cənab Vitse-prezident!

Venesuela Bolivar Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Uqo Rafael Çaves Friasın vəfatı xəbərindən son dərəcə kədərləndim.

Uqo Rafael Çaves Frias həm ölkəsinin inkişafı və xalqının rifahının yüksəlməsi, həm də Latın Amerikası dövlətlərinin həmrəyliyi istiqamətində mühüm işlər görmüşdür. İnanıram ki, onun əziz xatirəsi Venesuela xalqının yaddaşında əbədi qalacaqdır.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 mart 2013-cü il*

## LİTVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ LİNAS LİNKYEVİÇYUSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Litva Respublikasının Xarici İşlər naziri Linas Linkyeviçyusun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*2013-cü ildə Avropa İttifaqına sədrlik edəcək Litva Respublikasının Xarici İşlər naziri Linas Linkyeviçyus Avropa İttifaqının genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Fülenin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, Azərbaycanın Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində əməkdaşlığı ilə bağlı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Avropa İttifaqının genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ştefan Füleyə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN XXIV BAŞ MƏCLİSİNƏ

Hörmətli qurultay nümayəndələri!

Sizi salamlayır və növbəti ali toplantınızın işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

Respublikamızın müasir ictimai və sosial həyatında Qızıl Aypara Cəmiyyəti özünəməxsus yer tutur, humanizm və könüllülük prinsiplərinə əsaslanaraq qayğıya ehtiyac duyan insanlara lazımi yardım göstərir.

Davamlı inkişaf dövrünü yaşayan Azərbaycan Respublikasında əhalinin sosial rifah halının təmin olunması hökumətin başlıca vəzifələrindən birini təşkil edir. Son illərdə sosial müdafiəyə ehtiyacı olan vətəndaşların, müharibə əlilləri və şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin və rifahının yaxşılaşdırılması istiqamətində əsaslı işlər görülmüşdür. Eyni zamanda, məruz qaldığımız təbii fəlakətlər – daşqın və zəlzələ nəticəsində ölkəmizdə təsərrüfatlara dəymiş ziyanın aradan qaldırılması, dağılmış yaşayış məntəqələrinin bərpası və yenidən qurulması sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilir. Biz bu problemləri kənardan heç bir yardım almadan, dövlətimizin yaratdığı iqtisadi potensiala arxalanaraq həll edirik. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də imkanları daxilində müəyyən sosial çətinliklərlə üzləşən vətəndaşlara maddi və mənəvi dəstək göstərir, bu sahədə üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışır.

Hazırda Qızıl Aypara Cəmiyyətinin respublikamızdakı səmərəli fəaliyyəti üçün zəruri qanunvericilik bazası və əlverişli şərait yaradılmışdır. Qurumun nəcib məqsədlərinə və əməli fəaliyyətinə hörmət əlaməti olaraq Azərbaycan prezidentinin sərəncamı ilə hər il martın 10-u ölkəmizdə Qızıl Aypara Günü kimi qeyd olunur.

Ümidvaram ki, bugünkü Baş Məclisdə qəbul olunacaq qərarlar Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinə

yeni imkanlar açacaq, həm ölkə, həm də beynəlxalq miqyasda təşkilatın işini daha da gücləndirəcəkdir. Qurultay iştirakçılarına, Azərbaycanın bütün qızıl ayparaçılarına uğur lar, uzun ömür və möhkəm cansağlığı arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2013-cü il*

# BEYNƏLXALQ VALYUTA FONDUNUN YAXIN ŞƏRQ VƏ MƏRKƏZİ ASİYA DEPARTAMENTİNİN DİREKTOR MÜAVİNİ YUHA KAHKÖNEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Beynəlxalq Valyuta Fondunun Yaxın Şərq və Mərkəzi Asiya departamentinin direktor müavini Yuha Kahköneni qəbul etmişdir.*

*Təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlıqda maraqlı olduğunu bildirən Yuha Kahkönen Azərbaycan iqtisadiyyatının dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olduğunu məmnunluqla vurğulayaraq ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsinin önəmini də qeyd etdi.*

*İqtisadiyyatın neft-qaz sektorundan asılılığının azaldılması istiqamətində böyük işlərin görüldüyünü vurğulayan prezident İlham Əliyev ötən il qeyri-neft sektorunun 10 faiz artdığını qeyd edərək, bunu ölkəmizdə informasiya və kommunikasiya texnologiyaları, sənaye, kənd təsərrüfatı və digər sahələrdə həyata keçirilən uğurlu proqramların nəticəsi kimi dəyərləndirdi.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASININ İSTİFADƏYƏ VERİLMİŞ YENİ KORPUSUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*7 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının istifadəyə verilmiş yeni korpusunda yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısının göstərişi ilə ölkə həyatının bütün sahələrində abadlıq və quruculuq tədbirləri ardıcıl olaraq həyata keçirilir, genişmiqyaslı infrastruktur layihələri reallaşdırılır. Respublikamızın hər yerində yeni-yeni elm, təhsil, səhiyyə, mədəniyyət və incəsənət obyektləri inşa olunur, mövcud binalar isə əsaslı şəkildə yenidən qurulur.*

*Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yeni korpusu da ən müasir standartlara uyğun olaraq inşa edilmişdir. Bu akademiya 2002-ci ildə Prezidentin fərmanı ilə yaradılmışdır. Akademiya orta ixtisas məktəbləri, ali məktəb və ali məktəbdən sonrakı səviyyələrdə olan tədris proqramlarını həyata keçirən və ali rəssamlıq təhsilinin tələblərinə uyğun məzmun və keyfiyyət hazırlığını təmin edən, respublikada bütün təsviri sənət növləri üzrə peşəkar kadrlar hazırlayan yeganə ali təhsil müəssisəsidir. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində təsviri sənət, memarlıq və dizayn, sənətşünaslıq fakültələri, qrafika, rəngkarlıq, heykəltəraşlıq, dizayn, memarlıq, geyim dizaynı, dekorativ tətbiqi sənət, humanitar və ictimai fənlər, təsviri incəsənətin tarixi və nəzəriyyəsi kafedraları fəaliyyət göstərir. Akademiyada təcrübəli və peşəkar pedaqoji kollektiv çalışır.*

*Akademiyanın rektoru Ömər Eldarov prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, üçmərtəbəli yeni korpusun*

*ümumi sahəsi 6500 kvadratmetrdir. Yeni korpus yüksək standartlara uyğun olaraq müasir memarlıq üslubunda inşa edilib. Binanın daxili tərtibatı da xüsusi zövqlə işlənilib. Yeni korpusda 128 sinif otağı, müxtəlif fənn kabinetləri, laboratoriya və emalatxanalar yaradılıb. Sinif otaqları, kabinetlər və təcrübə laboratoriyaları ən müasir avadanlıqlar və ləvazimatla təchiz olunub.*

*Dövlətimizin başçısı yeni binanın ayrı-ayrı otaqlarını və təcrübə emalatxanalarını gəzdi, yaradılan şəraitlə yaxından tanış oldu.*

*Sonra prezident İlham Əliyev Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının pedaqoji kollektivi ilə görüşdü.*

*Akademiyanın rektoru Ömər Eldarov pedaqoji kollektiv adından prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yeni korpusunun istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etdi.*

**İlham Əliyev**: Mən sizi təbrik edirəm!

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yeni binasının açılışı çox gözəl hadisədir. Akademiyanın yaradılması haqqında ulu öndər Heydər Əliyev hələ 2002-ci ildə qərar vermiş, fərman imzalamışdır və akademiya fəaliyyətə başlamışdır.

Bildiyiniz kimi, akademiya əvvəlcə buradakı köhnə binada yerləşirdi. Sonra yeni bina tikilmişdir. Ancaq o bina tikiləndən sonra gördük ki, bu bizim standartlara o qədər də cavab vermir. Bu binanı biz tamamilə yenidən qurduq. Ondan sonra akademiyanın rəhbərliyi müraciət etdi ki, binanın davamı da olmalıdır. Biz akademiyanın binasını xeyli genişləndirə bilmişik. İndi bina həm memarlıq baxımından çox gözəldir, həm də daxili tərtibatı göz oxşayır. Belə də olmalıdır. Çünki bu, Rəssamlıq Akademiyasıdır, incəsənət mərkəzidir. Burada gələcək incəsənət ustadlarımızın təhsili ilə bağlı böyük işlər görülür. Ona görə burada həm daxili vəziyyət, həm də xarici görünüş yüksək səviyyədə olmalıdır.

Akademiyanın çox böyük əhəmiyyəti, çox böyük rolu vardır. Mən sizə – müəllimlərə, professorlara dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki incəsənət bizim milli sərvətimizdir. Əsrlər boyu bizi bir millət kimi qoruyub saxlayan incəsənətimiz olubdur – ədəbiyyat, ana dili, musiqi, incəsənət, xalçaçılıq, rəssamlıq sənəti.

Bu gün biz bu gözəl ənənələri qorumalı və Azərbaycan xalqının nə qədər istedadlı olduğunu bütün dünyaya çatdırmalıyıq. Son illər ərzində bu istiqamətdə çox böyük işlər görülübdür. Aparıcı dövlətlərdə Azərbaycan sərgiləri keçirilir, Azərbaycan incəsənət xadimlərinin əl işləri nümayiş etdirilir. Bu sərgilərin keçirilməsi ilə biz öz mədəniyyətimizi təbliğ edirik, dünyaya çatdırırıq. Bütün dünyaya göstəririk ki, Azərbaycan qədim dövlətdir. Burada qədim dövrlərdə incəsənət, ədəbiyyat, mədəniyyət inkişaf etmişdir. Biz öz mədəniyyətimizlə haqlı olaraq fəxr edirik. Əlbəttə, bu bilikləri, bu imkanları gələcək nəsillərə ötürmək üçün sizdən çox şey asılıdır.

Bu gün mən maraqlandım ki, gənclər bizim ənənəvi incəsənət sahələrinə necə münasibət bəsləyirlər, bu işlərə necə maraqla cəlb olunurlar. Əlbəttə ki, maraq vardır. Amma hesab edirəm ki, bu marağı daha da stimullaşdırmaq və gələcəkdə akademiyanın məzunlarını işlə təmin etmək üçün biz daha konkret işlər görməliyik. Xüsusilə xalçaçılıqla bağlı, çünki Azərbaycan xalçanın vətənidir. İndi Bakıda Müasir Xalça Muzeyi tikilir, yaxın zamanlarda istifadəyə veriləcək. Azərbaycan xalçaçılıq sənətini dünya miqyasında təqdim etmək üçün biz təbliğat işlərini düzgün qurmalıyıq, daha da fəal olmalıyıq, artıq gənc nəsil də bu işlərə cəlb olunmalıdır.

Gənclər ola bilər ki, hansısa başqa incəsənət növlərinə daha çox meyil göstərsinlər. Sizdə dizayn ixtisası vardır. Əlbəttə ki, müasir dövr üçün, Azərbaycanın müasir inkişafı üçün memarlıq sənəti bəlkə daha da cəlbedicidir. Çünki bu qədər tikinti, quruculuq işləri aparılır, şəhərlərimiz gözəlləşir, abadlaşır. Bu sənətdə imkanlar kifayət qədər genişdir və getdikcə artacaqdır.

Bu, başa düşüləndir. Ancaq xalçaçılıq elə bir sənət növüdür ki, bu, Azərbaycan xalqının canıdır, ürəyidir. Biz bu sənəti yaşatmalıyıq. Siz və bizim tələbələrimiz. Ona görə bütün məsələlərin uğurla həlli üçün, əlbəttə ki, çox düşünülmüş siyasət aparılmalıdır.

Azərbaycanda bütövlükdə mədəniyyət məsələləri ilə bağlı bu siyasət aparılır. Şadam ki, nəinki Bakıda, həmçinin bölgələrdə, rayonlarda rəsm qalereyaları açılır. Əlbəttə, regionların iqtisadi inkişafı ilə bağlı birinci mərhələdə biz daha çox tikinti, quruculuq, infrastruktur layihələri ilə məşğul idik. Ancaq son illərdə bölgələrdə olarkən görürəm ki, hər bir şəhərdə rəsm qalereyaları açılır, orada yerli rəssamların, digər incəsənət xadimlərinin əsərləri nümayiş etdirilir. Bu məni çox sevindirir. Bu onu göstərir ki, Azərbaycan hərtərəfli inkişaf edir. Hərtərəfli inkişaf üçün mütləq incəsənətin bütün növləri dövlət tərəfindən dəstəklənməlidir. Bu dəstək vardır, gələcək illərdə bundan da artıq olacaqdır. Belə gözəl təhsil mərkəzlərinin açılması bir daha onu göstərir ki, bu sahəyə çox böyük diqqət vardır.

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MONSEF MƏRZUKİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Tunis münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edərək xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 mart 2013-cü il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Pakistan Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Pakistan arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan möhkəm dostluq və sıx əməkdaşlıq münasibətləri mövcuddur. Əminəm ki, əlaqələrimizin hazırkı yüksək səviyyəsini qoruyub saxlamaq və daha da inkişaf etdirmək məqsədilə bundan sonra da birgə səylərimizi davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 mart 2013-cü il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Yunanıstan əlaqələrinin, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına daim firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 mart 2013-cü il*

## XORVATİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*11 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Xorvatiya Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Xorvatiya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Zaqreb Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Xorvatiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Zaqreb*

*11 mart 2013-cü il*

*Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 11-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Prezident sarayının qarşısında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Xorvatiya prezidenti İvo Yosipoviç Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Xorvatiyanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya əsgərlərini salamladı.*

*Xorvatiyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Xorvatiya prezidenti İvo Yosipoviçə təqdim olundu.*

# XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ İVO YOSİPOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Zaqreb*

*11 mart 2013-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin martın 11-də təkbətək görüşü olmuşdur.*

*İkitərəfli əlaqələrin siyasi, iqtisadi və mədəni sahələrdə uğurlu inkişafından məmnunluğun ifadə edildiyi görüşdə Azərbaycan prezidenti İlham Əliyevin Xorvatiyaya budəfəki rəsmi səfərinin münasibətlərin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı. Qeyd olundu ki, bu səfər əməkdaşlığın perspektivlərinin müəyyən edilməsi baxımından önəmlidir.*

*Görüşdə beynəlxalq və regional məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

# GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Zaqreb*

*11 mart 2013-cü il*

*Təkbətək görüş başa çatdıqdan* sonra *martın 11-də Azərbaycan prezidenti İlham Əliyevin və Xorvatiya prezidenti İvo Yosipoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Xorvatiya prezidenti İvo Yosipoviç əlaqələrimizin* siyasi, iqtisadi, *mədəni sahələrdə uğurla inkişaf* etdiyini bildirdi. *İqtisadi sahədə əlaqələrimizin inkişafı üçün yaxşı potensialın olduğunu deyən* prezident *İvo Yosipoviç* enerji, *mədəniyyət və* turizm *sahələrində münasibətlərin genişləndirilməsinin* vacibliyini *vurğuladı.*

*İvo Yosipoviç Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həllinin Xorvatiya tərəfindən dəstəkləndiyini* bildirdi.

*Azərbaycana səfərini məmnunluqla xatırladan İvo* Yosipoviç *xalqımızın qədim tarixə və zəngin mədəniyyətə* malik olduğunu bildirdi *və həmin səfərdən zəngin təəssüratlarla ayrıldığını* qeyd *etdi.*

Prezident *İlham Əliyev* bildirdi ki, *Azərbaycan–*Xorvatiya *əməkdaşlığı* siyasi, iqtisadi *və digər sahələrdə inkişaf* edir. *Dövlətimizin başçısı ölkələrimiz arasında* iqtisadi *əlaqələrin genişləndirilməsinin və əməkdaşlığın yeni sahələrinin müəyyən edilməsinin önəmini vurğuladı.*

Enerji *sahəsində fəal əməkdaşlığın olduğunu deyən* prezident *İlham Əliyev* qeyd etdi ki, *Avropanın* enerji *təhlükəsizliyinə töhfə verən Azərbaycan ilə* Xorvatiya *arasında* bu *sahədə əlaqələrin genişləndirilməsi* vacibdir.

*Nəqliyyat sahəsində əlaqələrin perspektivlərinin yüksək olduğunu deyən* prezident *İlham Əliyev mədəniyyət və* turizm

sahələrində əməkdaşlığın inkişaf etdiyini və yeni layihələrin həyata keçirilməsinin planlaşdırıldığını bildirdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verən prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzünün davam etdiyini bildirdi, beynəlxalq hüquq normalarına məhəl qoymayan Ermənistanın münaqişənin həlli ilə bağlı qeyri-konstruktiv mövqe nümayiş etdirdiyini söylədi.

Prezident İlham Əliyev qarşılıqlı investisiyaların qoyulması baxımından ölkələrimiz arasında fəal əməkdaşlığın olduğunu dedi və gələcəkdə konkret layihələrin həyata keçirilməsinin vacibliyini vurğuladı.

Görüşdə ikitərəfli əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə edildi.

## STRATEJİ TƏRƏFDAŞLIQ VƏ DOSTLUQ MÜNASİBƏTLƏRİ HAQQINDA ZAQREB BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİ

*Zaqreb*

*11 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında strateji tərəfdaşlıq və dostluq münasibətləri haqqında Zaqreb Bəyannaməsi imzalanmışdır.*

*Bəyannaməni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviç imzaladılar.*

# XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ İVO YOSİPOVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Zaqreb*

*11 mart 2013-cü il*

*Zaqreb Bəyannaməsinin imzalanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyev və Xorvatiya prezidenti İvo Yosipoviç mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Xorvatiya prezidenti İvo Yosipoviçin bəyanatı

Cənab prezident Əliyev!

Xanımlar və cənablar!

İlk öncə, bir daha qeyd etmək istəyirəm ki, mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və onu müşayiət edən nümayəndə heyətini burada səmimi-qəlbdən salamlayıram.

Bu gün biz prezidentlərin bəyannaməsinə imza atdıq ki, bu da dövlətlərimiz arasında gözəl münasibətlərin olmasından xəbər verir. Biz xüsusən iqtisadi münasibətlərimizin daha da gücləndirilməsinə dair istəyimizi ifadə etdik. Bunun üçün böyük potensial mövcuddur. Hər iki tərəf bu məsələdə maraqlıdır və iqtisadi münasibətlərimizin gələcək inkişafı üçün yaxşı perspektivlər vardır. Bu baxımdan enerji, infrastruktur layihələri, turizm və kənd təsərrüfatı sahəsində imkanlar mövcuddur. Bununla bərabər, elm, təhsil kimi digər sahələr də vardır. Bizim hökumətlərimiz arasında bu gün imzalanacaq razılaşmalar və memorandum bəyannamənin praktiki həyata keçirilməsinin göstəriciləridir. Bu münasibətlə də Sizi təbrik edirəm. Eyni zamanda, Xorvatiyanın öz daimi diplomatik nümayəndəliyini Bakıda açması olduqca vacibdir ki, bu da hər

iki ölkənin şirkətlərinin uğurlu fəaliyyətinə bilavasitə təsir edəcəkdir.

Çox şadam ki, prezident Əliyevin və mənim Azərbaycanda işləməkdə maraqlı olan xorvat iş adamları ilə görüşmək imkanımız olacaqdır. Prezident Əliyevi Azərbaycanın biznes icmasının nümayəndələri müşayiət edirlər və inanıram ki, bu görüş iqtisadi əməkdaşlığımızı möhkəmləndirmək üçün yaxşı imkandır. Bütün bu şirkətlərin üstünlük verdikləri sahələrdə səlahiyyətləri, müvafiq beynəlxalq təcrübələri və mühüm biznes uğurları vardır.

İmzalanan sazişlər çox vacibdir. Xüsusilə, iqtisadi əməkdaşlığa dair sazişi vurğulamaq istərdim. Bir sıra sazişlər imzalanıb ki, onlar da bizim vətəndaşlarımız arasında daha sıx və möhkəm əlaqələr yaradacaq və bir-birimizi daha da yaxından tanımağa kömək edəcəkdir.

Təbii ki, biz yerləşdiyimiz regiondakı vəziyyəti də müzakirə etdik. Həm Azərbaycan, həm Xorvatiya ciddi problemlərin mövcud olduğu regionda yerləşir. Hər 2 dövlət həm Qafqazda, həm də Xorvatiyanın cənub-şərqində sabitlik və təhlükəsizliyin bərqərar olmasında maraqlıdır. Xorvatiya Dağlıq Qarabağ və digər ərazilərin işğalı ilə bağlı münaqişələrin sülh yolu ilə həllini dəstəkləyir. Biz beynəlxalq hüquq normalarının tətbiqinin və sülh yolu ilə həllin tərəfdarıyıq. Buna görə biz konstruktiv olmağa səylər göstəririk, biz dialoq, kompromis və regional əməkdaşlıq tərəfdarıyıq. Bu cür yanaşma ilə biz vəziyyətin gələcəkdə daha da sabitləşməsinə töhfəmizi vermək istəyirik.

Həmçinin bildirmək istəyirəm ki, Avropa İttifaqının genişləndirilməsi prosesi Xorvatiya üçün çox vacibdir. Biz qonşularımızı hərtərəfli dəstəkləyirik. Biz həmçinin Azərbaycanı mühüm dost, tərəfdaş və Xorvatiyanın daha yaxından əməkdaşlıq etmək istədiyi ölkə kimi görürük.

Cənab Prezident, Xorvatiyaya səfərinizə görə təşəkkür edirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli mətbuat nümayəndələri!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Mən yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Çox şadam ki, son illər ərzində Xorvatiya uğurla inkişaf edir. Mən burada birinci dəfə 2005-ci ildə olmuşam. O dövrdən bu günə qədər Sizin ölkəniz böyük və uğurlu yol keçmişdir, yaxın aylarda Avropa İttifaqına üzv olacaqdır.

Biz bu gün əməkdaşlığımızın bütün istiqamətlərini geniş müzakirə etdik. Bir daha görürük ki, Xorvatiya ilə Azərbaycan arasındakı əlaqələr çox uğurla və sürətlə inkişaf edir. Sizin Azərbaycana keçən il etdiyiniz səfər və səfərin nəticələri, bu gün keçirdiyimiz danışıqlar və indicə imzalanmış bu mühüm sənəd bir daha bu əlaqələrin strateji xarakterini vurğulayır. Bizim aramızda çox intensiv siyasi dialoq aparılır. Bizim siyasi əlaqələrimiz mükəmməldir. Bu səfər və bu gün apardığımız danışıqlar bunu bir daha təsdiqləyir. Biz belə gözəl zəmin üzərində mütləq güclü iqtisadi tərəfdaşlıq da qurmalıyıq. Bu istiqamətdə artıq mühüm addımlar atılır. Əminəm ki, gələcək illərdə daha da geniş iqtisadi əməkdaşlıq mümkün olacaqdır.

İqtisadi əməkdaşlığın əsas istiqamətlərindən biri olan enerji məsələləri də uğurla öz həllini tapır. Azərbaycan Xorvatiyanı xam neftlə təmin edən ölkələrdən biridir. Bizim sizin bazarınızdakı payımız getdikcə artır. Gələcəkdə Azərbaycanın zəngin qaz resurslarının Avropa qitəsinə çatdırılması nəticəsində Xorvatiya bu sahədə də mütləq bizim tərəfdaşımız olacaqdır.

Bildiyiniz kimi, bizim zəngin resurslarımız vardır. Azərbaycan tərəfindən irəli sürülmüş layihələr, xüsusilə TANAP

layihəsi və onun uğurlu icrası Azərbaycan qazının Avropa məkanına gətirilməsinə şərait yaradacaqdır. Təbii, Xorvatiya bu istiqamətdə də bizim yaxın tərəfdaşımız olacaqdır.

Azərbaycan investisiyalarının Xorvatiyaya yatırılması məsələləri də bu gün müzakirə olundu. Əminəm ki, gələcək aylarda konkret nəticələr olacaqdır. Bu gün imzalanacaq sənədlərin arasında birgə hökumətlərarası Komissiyanın yaradılması da nəzərdə tutulur. Gələcək illərdə bu komissiya çərçivəsində bütün iqtisadi məsələlər öz həllini tapacaqdır.

Bu gün eyni zamanda, turizm, nəqliyyat, yüksək texnologiyalar sektorundakı əməkdaşlıq haqqında fikir mübadiləsi aparılmışdır. Hər bir istiqamət üzrə çox gözəl imkanlar vardır. Təbii ki, humanitar sahədəki əməkdaşlıq da mühüm yer tutur. Mədəniyyət sahəsində əməkdaşlığa hər iki tərəfdən çox böyük maraq vardır. Əminəm ki, bu sahədəki əməkdaşlıq ümumi əməkdaşlıq mənzərəsini tamamlayacaqdır.

Regional məsələlər, regional təhlükəsizlik məsələləri, o cümlədən Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları da müzakirə edildi. Fürsətdən istifadə edib, cənab Prezident, Xorvatiya dövlətinə bu məsələ ilə bağlı göstərdiyi mövqeyə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu mövqe bu gün imzalanan sənəddə də öz əksini tapıb. Bütün beynəlxalq hüquq normaları tətbiq edilməlidir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qeyd-şərtsiz icra edilməlidir və Azərbaycan torpaqları işğalçılardan azad olunmalıdır. Ölkələrin suverenliyi və ərazi bütövlüyü bu məsələnin həllində üstünlük təşkil edir. Münaqişənin həlli ancaq bu prinsiplər üzərində mümkündür.

Biz bir daha görürük ki, bütün məsələlərdə mövqemiz üst-üstə düşür. Xorvatiya–Azərbaycan əlaqələri eyni zamanda, Azərbaycan–NATO əməkdaşlığının bir tərkib hissəsidir. Bu əlaqələr də uğurla icra edilir. NATO–Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün gözəl perspektivlər vardır və Xorvatiya bu məsələlərdə Azərbaycanı daim dəstəkləyir.

Bir sözlə, səfər zamanı apardığım danışıqlar və imzalanmış ciddi siyasi sənəd və bu gün imzalanacaq digər sənədlər əla-

qələrimizi daha da möhkəmləndirəcəkdir. Xorvatiya–Azərbaycan əlaqələrinin çox gözəl gələcəyi vardır. Biz bu möhkəm zəmin üzərində gələcəyə çox nikbinliklə baxırıq və uğurla gedəcəyik.

Bir daha, cənab Prezident, göstərdiyiniz qonaqpərvərliyə və diqqətə görə Sizə minnətdaram.

* * *

*Sonra prezidentlər jurnalistlərin suallarını cavablandırdılar.*

**S u a l** *(Azərbaycan Televiziyasının müxbiri Yunis Orucov):* **Sualım hər iki prezidentədir. Cənab Prezidentlər, siz qarşılıqlı investisiyaların qoyulması ilə bağlı məsələni qeyd etdiniz. Bilmək olarmı ki, ölkələrimiz arasında yaxın gələcəkdə investisiyaların qoyulması ilə bağlı hansı konkret layihələrin həyata keçirilməsi planlaşdırılır?**

**İ l h a m Ə l i y e v:** Bu gün biz, əlbəttə, bu barədə danışdıq və gələcəkdə daha da konkret danışıqlar aparılacaqdır. İlk növbədə, turizm infrastrukturuna Azərbaycan investisiyalarının qoyulması nəzərdə tutulur. Bu sahədə artıq ilkin araşdırmalar aparılmışdır. Xorvatiyanın çox zəngin turizm imkanları, çox gözəl təbiəti vardır və əlbəttə ki, bu sahə çox cəlbedicidir.

Ancaq bu gün danışıqlar əsnasında biz belə fikrə gəldik ki, gərək fəaliyyətimizi təkcə bu sahə ilə məhdudlaşdırmayaq. Digər sahələrə Azərbaycan investisiyalarının qoyuluşu, hesab edirəm ki, çox vacib ola bilər. Xüsusilə yüksək texnologiyalara investisiyaların qoyuluşu nəzərdə tutula bilər. Çünki Azərbaycanda da bu sahə indi çox sürətlə inkişaf edir. Sənaye istehsalının inkişafına, daşınmaz əmlaka investisiyalar qoyula bilər. Əlbəttə, enerji sektoruna, xüsusilə bayaq qeyd etdiyim kimi, Azərbaycan qazını Avropaya nəql etmək üçün icra olunan layihələrin nəticəsi buna imkan yaradacaqdır. Yəni bir çox sahələrə Azərbaycan investisiyaları qoyula bilər və bütün bu məsələlər, yenə də demək istəyirəm ki, yaranmaqda olan birgə hökumətlərarası Komissiyanın işi olacaqdır və bu investisiyalar qarşılıqlı razılıq əsasında qoyulacaqdır.

**İ v o  Y o s i p o v i ç:** Prezident Əliyevin dedikləri ilə tam razıyam. Əlavə etmək istərdim ki, Xorvatiya enerji və infrastruktur sahələrində əməkdaşlıqda olduqca maraqlıdır. Eyni zamanda, Xorvatiyanın Azərbaycana çoxlu təklifləri vardır. Buraya ilk növbədə, bizim gəmiqayırma və gəmi təmiri zavodlarımız daxildir ki, bu sahədə imzalanan sazişlərin tezliklə icrası başlanacaqdır. Digər tərəfdən, dəmir yolu əlaqəsinə dair infrastruktur layihələri vardır. Xorvatiya çox gözəl vaqonlar istehsal edir. Bu da bizim danışıqlarda mövzulardan biri olub. İstərdim qeyd edim ki, bu görüş və xorvat parlamentində təşkil olunan görüş, həmçinin işgüzar dairələrin görüşü üçün hazırlıqlar zamanı böyük həcmdə iş aparılıb. Zəngin proqram hazırladıqlarına görə hökumətlərə və nazirliklərə minnətdarlığımı bildirirəm. Əminəm ki, bu proqram əməkdaşlığın konkret istiqamətləri üzrə səmərə verəcəkdir.

**S u a l** *(Azad Avropa Radiosunun müxbiri Eni Sebiç):* **Sualım hər iki prezidentədir, ilk növbədə, Azərbaycan Prezidentinə. Azərbaycan Xorvatiyada böyük həcmdə sərmayələrlə təmsil olunur. Avropanın bu regionuna sərmayə qoyuluşu nöqteyi-nəzərindən Azərbaycanın əsas marağı nədən ibarətdir?**

**İ l h a m  Ə l i y e v:** Mən hesab edirəm ki, birinci suala cavab verərkən bu suala da qismən cavab verdim. Yenə də demək istəyirəm ki, Azərbaycan investisiyaları bu gün həm ölkə daxilinə, həm də ölkə xaricinə qoyulur. Əgər Azərbaycana qoyulan investisiyaların həcminə nəzər salsaq görərik ki, son bir neçə il ərzində bu investisiyalar təqribən 15–20 milyard dollar ətrafındadır. Keçən il Azərbaycan iqtisadiyyatına 22 milyard dollar sərmayə qoyulmuşdur, onlardan 15 milyardı daxili investisiyalardır.

Azərbaycanın indi öz investisiyalarını başqa ölkələrə qoyması üçün çox işlək və mükəmməl vasitə vardır. Bu da Azərbaycan Dövlət Neft Fondudur. Deyə bilərəm ki, Azərbaycan Dövlət Neft Fondu suveren fondlar arasında ən yüksək diqqətə və qiymətə layiqdir, ən şəffaf Fonddur və bütün beynəlxalq təşkilatlar bunu qeyd edir. Bu Fond vasitəsilə artıq

Azərbaycan müxtəlif ölkələrə öz investisiyalarını qoymağa başlamışdır. Bu investisiyalar da çoxşaxəlidir. Onların arasında daşınmaz əmlaka, şirkətlərin səhmlərinə və sənaye müəssisələrinin yaradılmasına qoyulan investisiyalar vardır.

O ki qaldı Xorvatiyaya qoyulan və qoyulacaq investisiyalarla bağlı məsələlərə, bu məsələlər indi araşdırılır. Qeyd etdiyim kimi, turizm, infrastruktur, yüksək texnologiyalar, sənaye istehsalı sahələri diqqəti cəlb edir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan investisiyaları dost ölkələrə göndərilir. Bu bizim siyasətimizdir. Hər bir ölkə yəqin ki, eyni mövqe sərgiləyir və Xorvatiya bizim üçün dost ölkədir, dostluğumuz möhkəmdir. Hər iki tərəfin razılığı ilə investisiyalar qoyulacaqdır. Əminəm ki, gələcək illərdə bu investisiyalar böyük həcmlərlə ölçüləcəkdir.

## XORVATİYA PARLAMENTİNİN SƏDRİ YOSİP LEKO İLƏ GÖRÜŞ

*Zaqreb*

*11 mart 2013-cü il*

*Xorvatiya Respublikasında rəsmi səfərdə* olan *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Xorvatiya parlamentinin Sədri Yosip Leko ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə* olundu, *qarşılıqlı səfərlərin önəmi vurğulandı.* Bildirildi ki, *Azərbaycan* prezidenti *İlham Əliyevin Xorvatiyaya bu səfəri əlaqələrimizin* daha *yüksək səviyyəyə çatdırılmasına töhfəsini verəcəkdir. Həmçinin parlamentlərarası əməkdaşlığın və* dostluq *qruplarının fəaliyyətinin ikitərəfli əlaqələrin möhkəmlənməsinə təkan* verdiyi *vurğulandı.*

*Diqqətə çatdırıldı* ki, *Azərbaycan ilə* Xorvatiya *arasında* iqtisadi *əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı* potensial *vardır.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın* bundan sonra *da inkişaf etdiriləcəyinə əminlik ifadə* olundu.

## XORVATİYANIN BAŞ NAZİRİ ZORAN MİLANOVİÇ İLƏ GÖRÜŞ

*Zaqreb*

*11 mart 2013-cü il*

*Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də bu ölkənin Baş naziri Zoran Milanoviç ilə görüşmüşdür.*

*Prezident İlham Əliyevi Xorvatiyanın Baş naziri Zoran Milanoviç qarşıladı.*

*Azərbaycan prezidenti İlham Əliyev Fəxri qonaqlar kitabını imzaladı.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin mövcud səviyyəsindən məmnunluq ifadə olundu, Azərbaycan Prezidentinin səfərinin əməkdaşlığımızın perspektivləri baxımından önəmi vurğulandı.*

*Enerji sahəsində yaxşı perspektivlərin olduğunun bildirildiyi görüşdə qeyri-enerji, nəqliyyat, turizm, qarşılıqlı investisiyaların qoyulması və digər sahələrlə bağlı layihələrin əhəmiyyətindən danışıldı. Bu səfərin həmin layihələrlə əlaqədar səmərəli müzakirələrin aparılması və konkret nəticələrin əldə olunması ilə bağlı əhəmiyyəti diqqətə çatdırıldı.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin və Xorvatiyanın Baş naziri Zoran Milanoviçin işçi naharı oldu.*

## İŞ ADAMLARI İLƏ GÖRÜŞ

*Zaqreb*

*11 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviç martın 11-də iş adamları ilə görüşmüşlər.*

*Xorvatiya İqtisadiyyat Palatasının prezidenti Nadan Videseviç görüşü açaraq dedi:*

– Zati-aliləri prezident Yosipoviç, prezident Əliyev, cənab nazirlər, Azərbaycan nümayəndə heyətinin üzvləri, biznes dairələrinin nümayəndələri və onların xorvatiyalı həmkarları!

Əvvəlcə, indiyədək həyata keçirilən və gələcək üçün planlaşdırılan ikitərəfli əməkdaşlığa göstərdikləri dəstəyə görə cənab Prezidentlərə təşəkkür etmək istərdim. Hazırda burada Xorvatiyanın 19 şirkəti təmsil olunur. Bu şirkətlər müxtəlif sahələr üzrə yüksək səviyyəli xidmətlər, məhsullar təklif etmək iqtidarındadır. Vaxtınızı çox almayacağam, lakin bir xahişim olacaqdır. Burada Xorvatiyanın 19 şirkəti təmsil olunur, amma Xorvatiya tərəfinin Azərbaycan ilə əməkdaşlıq niyyəti daha böyükdür. Bizim iş adamlarından ibarət nümayəndə heyətimizə bu ilin sonunda və ya gələn ilin əvvəlində Azərbaycana səfər etməyə icazə versəniz, Sizə minnətdar olarıq. Çünki burada iştirak etməyən bir çox şirkətlər ölkənizə səfər etməyə və müxtəlif sahələrdə öz imkanlarını təqdim etməyə hazırdırlar.

Biz prezident Yosipoviçin Bakıya səfərindən Sizin buraya səfərinizə qədər keçən bir il ərzində bir çox irəliləyişə nail olmuşuq. Bunu davam etdirmək lazımdır. Vaxtınızı çox almaq istəmirəm. İcazənizlə, prezident Yosipoviç, Sizdən xahiş edirəm ki, prezident İlham Əliyevə söz verəsiniz və sonra həmkarlarımdan qısa olaraq özlərini təqdim etməyi və

gördükləri işlər barədə danışmağı xahiş edəcəyəm. Çox təşəkkür edirəm.

**İ v o  Y o s i p o v i ç:** Cənab prezident Əliyev!

Xanımlar və cənablar!

Qısa danışmağa çalışacağam, çünki vaxt əsasən Sizin üçün ayrılmışdır. Vurğulamaq istərdim ki, Xorvatiya ilə Azərbaycan arasında yaxşı siyasi münasibətlər mövcuddur. İqtisadi əməkdaşlıq da əsas şərtdir. Düşünürəm ki, qarşıda daha vacib və əlverişli imkanlar vardır.

Cənab Əliyev, mən bu gün apardığımız danışıqlardan və Sizin səfəriniz zamanı Xorvatiya iş adamları ilə belə bir görüşün təşkilindən çox məmnunam. Bu görüş təkcə maraqları ifadə etmir, həm də əməkdaşlığımızı daha da konkretləşdirmək üçün yeni imkandır.

Xorvatiyanın Azərbaycanda daimi diplomatik nümayəndəliyinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. İnanıram ki, bu bizim əməkdaşlığımıza dəstək olacaq və Xorvatiya iş adamlarının sizin şirkətləriniz və rəsmilərinizlə əlaqə qurmasına kömək edəcəkdir.

Cənab Prezident, bilirəm ki, Siz Xorvatiyanın iqtisadi imkanlarından və xorvat şirkətlərinin sizin bazarda daha fəal olmaq cəhdlərindən xəbərdarsınız. Görüşdə iştirak edən şirkət təmsilçilərindən öz ideyalarını və layihələrini çox qısa və konkret şəkildə təqdim etmələrini xahiş edirəm. Bu şirkətlər dünya bazarında xüsusi əhəmiyyətə və beynəlxalq ticarətdə böyük təcrübəyə malik olan şirkətlərdir. Hesab edirəm ki, onlar üçün özlərini təqdim etmək imkanı çox əhəmiyyətlidir və belə bir imkanın mövcudluğu məni məmnun edir. Buradakı bəzi şirkətlərin, məsələn, «Prinacro», «Duro Dakoviç» kimi şirkətlərin Azərbaycan bazarında xeyli təcrübəsi vardır.

Beləliklə, hörmətli cənab prezident Əliyev, hörmətli iştirakçılar, hər birinizə xoş gün arzulayıram və ümidvaram ki, görüşümüz məhsuldar olacaqdır. Təşəkkür edirəm, cənab Əliyev.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Təşəkkür edirəm, hörmətli Prezident, hörmətli İqtisadiyyat Palatasının prezidenti.

Cənab Prezident, qonaqpərvərliyinizə görə Sizə bir daha təşəkkür etmək istərdim. Bu gün səhər tezdən fəal şəkildə işləyirik. Bu gün cənab Prezidentlə keçirdiyimiz bütün görüşlərdən məmnunam. Biz ümumi münasibətlərimiz barədə geniş müzakirələr apardıq. Ümumi fikrimiz belədir ki, siyasi münasibətlərimiz çox yaxşıdır, əladır. İqtisadi sahə də daxil olmaqla, bütün sahələrdə əməkdaşlığı genişləndirmək üçün güclü qarşılıqlı niyyət vardır. Bundan başqa, mən həmçinin cənab Baş nazirlə və parlamentdə spikerlə danışıqlar zamanı əsasən iqtisadi məsələlərin müzakirəsini davam etdirdik və indi də Xorvatiya iş adamları ilə görüşdəyik.

Düşünürəm ki, səfərim zamanı ikitərəfli münasibətlərimizin bütün vacib aspektlərini əhatə edə biləcəyəm. Ən vacib məsələ isə odur ki, hər iki ölkə bütün sahələrdə əməkdaşlığın gələcək inkişafı üçün lazım olan potensialı görür.

Cənab Prezidentin qeyd etdiyi kimi, bu həqiqətən güclü iqtisadi əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir. Biznes əlaqələrini inkişaf etdirmək üçün qarşılıqlı marağı, gələcək illər üçün nəzərdə tutulan nailiyyətləri və birgə biznes fəaliyyətindəki təcrübəmizi nəzərə alsaq, hesab edirəm ki, bu görüş yeni imkanlar açacaqdır.

Azərbaycanda Xorvatiyanın daimi diplomatik nümayəndəliyinin açılması ilə yanaşı, ən vacib məsələlərdən biri də birgə iqtisadi əməkdaşlıq üzrə komissiyanın fəaliyyətə başlamasıdır. Düşünürəm ki, bu komissiya ən uyğun investisiya sahəsi və əlaqələri tapmaqda işgüzar dairələr üçün bir bələdçi və təşkilatçı olmalıdır. Çox güman ki, komissiya biznes dairələrini bir araya gətirmək, hər iki ölkənin potensialını və investisiya imkanlarını təqdim etməsi və hər iki ölkədə həyata keçiriləcək konkret layihələr məsələsini diqqətdə saxlayacaq və bununla da biz ticarət dövriyyəsinin həcmini artıra və şaxələndirilmiş

ticarət dövriyyəsinə nail ola biləcəyik. Çünki demək olar ki, hazırda mal dövriyyəsinin 100 faizini neft təşkil edir. Bu çox yaxşıdır, lakin biz iqtisadi əməkdaşlığımızda daha yeni sahələr görmək istəyirik.

Azərbaycan birbaşa xarici investisiya imkanları baxımından cəlbedici ölkədir. Son 15 ildə Azərbaycana 130 milyard dollardan çox investisiya qoyulub və investisiya mühiti çox yaxşıdır. Biz ölkəmizdə podratçı təşkilat kimi fəaliyyət göstərən daha çox xorvat şirkəti görmək istərdik.

Azərbaycanda çoxlu layihələr həyata keçirilir. Tikinti, infrastruktur layihələri, nəqliyyat infrastrukturuna dair layihələrlə əlaqədar Xorvatiyadan olan şirkətlərin bizimlə tərəfdaşlığından məmnun olarıq. Əlbəttə, bu formatda ünsiyyət çox səmərəlidir. İndi Xorvatiyanın işgüzar dairələrinin ideyalarını və Azərbaycanda hansı işləri görmək imkanları barədə fikirlərini dinləyəcəyik. Azərbaycanda iqtisadi vəziyyət çox sabitdir, iqtisadi artım çox sürətlidir və investisiya mühiti çox yaxşıdır. Ötən il ölkə iqtisadiyyatına 8 milyard dollar xarici investisiya və təxminən 15 milyard dollar yerli investisiya qoyulub. İnvestisiyalar qorunur və həm də, bildiyiniz kimi, indi Azərbaycana qoyulan investisiya çoxşaxəli xarakter daşıyır. Bunlar əvvəllər olduğu kimi, yalnız enerji sektoru deyil, əsasən infrastruktur, xidmət və informasiya texnologiyaları sahələridir.

Biz birgə biznes qurmaq üçün böyük imkanlar əldə edə bilərik. Onlardan biri nəqliyyat infrastrukturudur. Bizim gəmiqayırma, dəmir yolu tikintisi layihələrində yaxşı təcrübəmiz vardır. Nəzərə alsaq ki, Azərbaycana informasiya texnologiyaları sahəsinə fəal şəkildə investisiya qoyulur, bu sektor da əməkdaşlığın ümidverici sahəsi ola bilər.

Qeyd etdiyim kimi, Azərbaycanda müxtəlif tikinti layihələri həyata keçirilir və gələcəkdə reallaşacaq layihələr Xorvatiya biznes dairələrinə təqdim ediləcəkdir. Biz indiyədək bir sıra biznes-forumlar keçirmişik və həmin tədbirlərdə praktik layihələr müzakirə olunmuşdur. Xorvatiyada Azərbaycan investorları üçün 50-dən artıq konkret layihə vardır və bu

layihələr nəzərdən keçirilir. Əlbəttə, Azərbaycan öz imkanlarını təqdim edəcək və ölkədə həyata keçirilən layihələrin təqdimatını keçirəcəkdir.

Ümidvaram ki, burada iştirak edən şirkətlərin təmsilçiləri Azərbaycan barədə məlumatlıdırlar. Əks halda, onlar burada olmazdılar. Amma yəqin ki, bu prosesi sürətləndirmək üçün bugünkü görüşün praktiki nəticələrini araşdırmalı və dəqiqləşdirməliyik. Ən vacib məsələ isə bir-birimizə münasibətdə güclü qarşılıqlı marağın və dostluq hisslərinin mövcud olmasıdır.

Bizim ölkələr dostdur, tərəfdaşdır və bu gün cənab Prezidentlə strateji tərəfdaşlıq üzrə bəyannamə imzalamışıq. Belə bir bəyannamə hər hansı bir ölkə üçün qonşu və tərəfdaşlarla münasibətdə ən önəmli sənəddir. Mövcud möhkəm təməli nəzərə alaraq biz bu imkandan istifadə etməliyik və qarşıdakı illər üçün daha sıx işgüzar münasibətlər qurmalıyıq. Təşəkkür edirəm.

*Xorvatiyanın «Ulyanik» gəmiqayırma sənayesinin prezidenti Anton Braykeviç Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi ilə əlaqələrdən danışdı:*

– Biz gəmiqayırma sahəsində fəaliyyət göstəririk. Son illər Xəzər Dəniz Gəmiçiliyinə də gəmilər satmışıq. Bir neçə ay əvvəl böyük həcmdə gəmi satışını reallaşdırmışıq. Biz çox məmnun olduq ki, Siz şəxsən həmin gəmilərə baxdınız. Bizim niyyətimiz Xəzər Dəniz Gəmiçiliyi kimi böyük və təcrübəli qurum üçün gəmi istehsalını davam etdirməkdir. Təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Sizin qeyd etdiyiniz əməkdaşlıqdan xəbərdaram. Mən həmin gəmilərə baxdım. Onlar yüksək keyfiyyətə malikdir. Şadam ki, bu əməkdaşlıq davam edir və ümidvaram ki, gələcəkdə də davam etdiriləcəkdir. Çünki bizim daha çox gəmi, bərə və tankerlərə ehtiyacımız vardır. Azərbaycan ərazisindən müxtəlif növ yüklərin, o cümlədən neft daşınmasının həcminin artması gəmilərə tələbatı artırır. Biz hazırda Xəzər dənizində ən böyük liman tikirik. Eyni

zamanda, Azərbaycanın ərazisindən keçən və Asiya ilə Avropanı birləşdirən dəmir yolu xəttinin tikintisini başa çatdırmaq üzrəyik. Bu səbəbdən yük daşımalarını həyata keçirmək üçün əlavə gəmilərə ehtiyacımız olacaqdır. Sizin şirkətin Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi ilə əməkdaşlığı çox yaxşı səviyyədədir. Ümid edirəm ki, bu əməkdaşlıq davam edəcəkdir. Təşəkkür edirəm.

*Daha sonra Xorvatiyanın tanınmış şirkətlərinin rəhbərləri və nümayəndələri təmsil etdikləri müəssisələr haqqında məlumat verdilər. Bildirildi ki, bu şirkətlər əsasən neft sənayesində geniş istifadə olunan avtomatik yanğınsöndürmə cihazları istehsalı, hərbi sənaye, nəqliyyat, yükdaşımalar, sənaye avadanlığı, körpü inşası, bərpa olunan enerji, elektrik avadanlığı, informasiya texnologiyaları sektoru, elektron hökumət, qida sənayesi, neft qazma qurğuları, tibb avadanlığı, gəmiqayırma, naviqasiya, turizm, qaz nəqli və reklam sahəsində fəaliyyət göstərirlər.*

*İş adamları Azərbaycan ilə yeni əməkdaşlıq münasibətləri qurmaqda və mövcud qarşılıqlı fəaliyyətin genişlənməsində maraqlı olduqlarını bildirərək, birgə müəssisələrin yaradılması təklifləri ilə də çıxış etdilər, Azərbaycan şirkətləri ilə təcrübə mübadiləsinə hazır olduqlarını bildirdilər.*

*İştirakçılar Azərbaycanın sürətli inkişafı ilə bağlı prezident İlham Əliyevə təbriklərini çatdırdılar və respublikamızın biznes nöqteyi-nəzərindən də çox maraqlı ölkə olduğunu vurğuladılar.*

*Ölkəmizdə fəaliyyətlərindən məmnunluqla söhbət açan xorvatiyalı iş adamları Azərbaycan xalqına və əməkdaşlıq etdikləri yerli şirkətlərə minnətdarlıqlarını bildirdilər. Onlar azərbaycanlı həmkarları ilə əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə böyük ümid bəslədiklərini söylədilər.*

*Görüşdə Azərbaycanda hasil olunan təbii qazın Xorvatiya ərazisindən Avropaya nəqlinə dair təkliflər də səsləndi. Qeyd olundu ki, Xorvatiyanın işgüzar dairələri təkcə iqtisadi əməkdaşlığa deyil, mədəni mübadiləyə də töhfə verə bilərlər. Hazırda bəzi xorvat şirkətlərinin iri humanitar layihələr həyata*

*keçirdikləri, Azərbaycanın zəngin mədəniyyətini Xorvatiyada və regionda təbliğ etdikləri vurğulandı.*

**İ l h a m Ə l i y e v:** Çıxışlarınıza görə təşəkkür edirəm, hörmətli dostlar. Eşitdiklərim həqiqətən, məndə böyük təəssürat doğurdu. Çünki mən bəzi Xorvatiya şirkətlərinin Azərbaycanda fəaliyyət göstərdiyini bilirdim, amma səmimi deyirəm, bilmirdim ki, buradakı şirkət təmsilçilərinin çoxu Azərbaycanda olub, bəzi şirkətlər ölkəmizdə iş qurublar. Bu həqiqətən, əməkdaşlığın yaxşı əlamətidir. Bu, Azərbaycanı xarici investorlar və yaxşı xidmətlər təklif edən şirkətlər üçün cəlbedici etmək istiqamətində illərdən bəri nail olmaq istədiyimiz müvəffəqiyyətdir. Çünki bizim iqtisadiyyatımız və iqtisadi artımımız əsasən neftin, daha sonra isə qazın hesabına olub. Amma iqtisadi siyasətimizin əsas məqsədi iqtisadiyyatın şaxələndirilməsidir. Hesab edirəm ki, yaxşı nailiyyətlərimiz vardır. Belə ki, ötən il iqtisadiyyatın qeyri-neft sektorunda 10 faiz artım olub və hökumətimizin diqqət mərkəzində olan sektorlar məhz sizin çıxışlarınızda qeyd etdiyiniz sahələrdir.

Mən sizin indiyədək həyata keçirdiyiniz bütün işləri dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəyəm. Ölkəmizdə ofisləri, biznes nümayəndəlikləri və biznesləri olan şirkətlərə işlərini davam etdirmək və genişləndirmək üçün Azərbaycan dövləti hər cür dəstək göstərəcəkdir. Hər hansı ideya və layihə ilə ölkəmizə gəlməyi planlaşdıran şirkətlərlə dövlət səviyyəsində işləyəcəyik.

Düşünürəm ki, yaranmaqda olan birgə iqtisadi əməkdaşlıq üzrə komissiya əlaqələndirmə üçün vacib vasitə olacaqdır. Əlbəttə, komissiya şirkətlərin gündəlik fəaliyyətinə qarışmayacaq, sadəcə, əlaqələndirmə, əlaqələr qurmaq, işləri asanlaşdırmaq, bürokratiyadan qorunmaq və tərəfdaşlar arasında əlaqələri sadələşdirmək məsələlərinə baxacaqdır. Hesab edirəm ki, bunlar komissiyanın əsas məqsədləri olacaqdır.

İnformasiya-kommunikasiya texnologiyaları, əczaçılıq, gəmiqayırma, qida məhsulları, qazma və neft platformaları, vaqon istehsalı, yol, körpü və tunel tikintisi, çirkli ərazilərin,

məsələn, neftlə çirklənmiş suların təmizlənməsi, müdafiə sənayesi kimi artıq müəyyən edilmiş sahələr və haqqında indi eşitdiyim və hazırlanmaqda olan hərbi xəstəxana layihəsi bizim diqqət mərkəzində saxladığımız sahələrdir.

Memarlıq sahəsində layihənin reallaşdırıldığı barədə eşitdiklərim məni məmnun etdi. Çünki Bakı da Zaqreb kimi, qədim memarlıq üslubu olan şəhərdir və məqsədimiz bu qədim üslubu qoruyub saxlamaq və orijinalda olduğu kimi bərpa etməkdir. Bu səbəbdən, mədəniyyət xarakterli layihələr də prioritetdir.

Düşünürəm ki, əməkdaşlığımızın şaxələndirmə xarakterli olmasının daha bir göstəricisi odur ki, biz yalnız görüşün sonunda enerji sahəsinin təmsilçilərinin çıxışını dinlədik. Əvvəllər Azərbaycan və Azərbaycan iqtisadiyyatı əsasən neftlə bağlı idi və əsas sərmayə neft sektoruna qoyulurdu. Sonra biz nəhəng qaz yataqları kəşf etdik və indi Azərbaycan Avropanın enerji təhlükəsizliyində, xüsusilə qaz paylanmasında önəmli rol oynayır. Amma bugünkü görüşdə müzakirə etdiyimiz təxminən 15–20 sahədən yalnız biri enerji ilə bağlı oldu. Bu bizim ölkəmiz üçün yaxşı əlamətdir. Çünki biz iqtisadiyyatı şaxələndirməyə nail olmuşuq. Azərbaycan Dövlət Neft Şirkəti ilə Xorvatiyanın Qaz Şirkəti arasında imzalanmış memorandum enerji sektorunda əməkdaşlıq üçün geniş imkanlar açır. Bu gün cənab Prezidentlə görüş zamanı aydın oldu ki, Xorvatiyanın istehlak etdiyi neftin 25 faizi və bəlkə də daha çox hissəsi Azərbaycandan gəlir. Əminəm ki, biz Avropaya qaz paylanması şəbəkəsini işləyib sona çatdırana qədər Xorvatiyanın qaz istehlakının təxminən yarısı Azərbaycandan gələn qaz hesabına ödəniləcəkdir.

Azərbaycan və Avropa İttifaqı üçün strateji əhəmiyyət daşıyan bu məsələlər – Xorvatiya da artıq Avropa İttifaqının tərkib hissəsidir – bizim əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Əlbəttə, haqqında söhbət gedən bu məsələlərin diqqətdə saxlanması və mövcud layihələrin icrası, eləcə də hazırlıq mərhələsində olan layihələrin nəzərdə saxlanması prioritet olmalıdır.

Mən bütün ideyaları dəstəkləyirəm, çünki bütün ideyalar bizim hərtərəfli inkişaf strategiyamız, eləcə də iqtisadiyyatımızın inkişafı

ilə uzlaşır. Son 10 ildə biz iqtisadiyyatımızı 3 dəfə – yəni 300 faiz artırmağa nail olmuşuq. Qarşıdakı 10 ildə biz dost ölkələrin təcrübəsindən istifadə etməklə, əlavə gəlir gətirən xidmət sahələrinə sərmayə cəlb etməklə iqtisadiyyatımızın qeyri-neft sahəsini 2 dəfə artırmağı planlaşdırırıq. Bu baxımdan ölkəmizə olan marağınız üçün sizə təşəkkür edirəm. İqtisadiyyat Palatasına və onun prezidentinə bu görüşü təşkil etdiyinə görə təşəkkür edirəm. Mən çox məmnunam və ölkəmizdəki fəaliyyətinizə görə təşəkkür edirəm. Ümidvaram ki, gələcəkdə daha tez-tez görüşəcəyik.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*Zaqreb*

*11 mart 2013-cü il*

*Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin adından martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Xorvatiya prezidenti İvo Yosipoviçin çıxışı

Hörmətli prezident Əliyev!

Azərbaycan Respublikasının hörmətli nümayəndələri!

Xanımlar və cənablar!

Sizi Zaqrebdə qonaq qəbul etməkdən məmnunluq hissi keçirirəm və Xorvatiyada hərarətlə salamlayıram.

Bu səfər Xorvatiya ilə Azərbaycan arasında daha yaxşı siyasi və iqtisadi əlaqələrə söykənən möhkəm dostluq tellərini gücləndirmək üçün növbəti imkandır. Bu şübhəsiz ki, ölkələrimiz arasında qarşılıqlı anlaşma və dostluğa töhfəsini verəcəkdir. Vətəndaşlarımızın marağı hər zaman səylərimizin mərkəzində durur.

Biz Azərbaycanın möhtəşəm inkişaf və tərəqqisini böyük maraqla izləyirik. Azərbaycan bu əsrdə bir çox çətinliklərin öhdəsindən uğurla gələn zəngin və şanlı keçmişə malik ölkədir. Bütün milli məqsədlərinə çatmaq üçün güclü zəmin yaradan ölkədir.

Mənim Bakıya keçənilki səfərimlə bağlı gözəl xatirələrim vardır. Mən Azərbaycanın öz gələcəyini formalaşdırmaq istiqamətində göstərdiyi əsas səylərini görmək imkanı əldə etdim.

Mən xüsusilə ölkələrimiz arasındakı əlaqələrdə davamlı inkişafı görməkdən məmnunam. Bu, gələcəkdə də ən yüksək səviyyəli

müntəzəm görüşlərə ehtiyac olduğunu təsdiq edir. Həm Azərbaycan, həm də Xorvatiya hələ də əsas çətinliklərlə üzləşən regionların bir hissəsidir. Biz həm Qafqazda, həm də Cənubi-Şərqi Avropada sabit və təhlükəsiz mühitin olmasında çox maraqlıyıq. Buna görə də biz konstruktiv və açıq dialoqa sadiqik, eləcə də regional əməkdaşlığa səy göstərir və bu yanaşma ilə öz qonşuluğumuzun daha da sabitləşməsinə və inkişafına töhfə veririk.

Hörmətli prezident Əliyev, xanımlar və cənablar!

Avropa İttifaqına qəbul olmaqla Xorvatiya NATO-ya üzvlüyünün ardınca əsas milli maraqlarından sonuncusunu yerinə yetirmiş olacaqdır. Bu yeni mərhələ bizə, eləcə də tərəfdaşlarımıza və dostlarımıza öhdəsindən gəlməli olacağımız yeni çətinliklər və yeni imkanlar gətirəcəkdir. Mən səmimiyyətlə inanıram ki, Xorvatiya və Azərbaycan bu imkanları dəyərləndirəcək və qarşılıqlı olaraq daha zəngin və səmərəli əməkdaşlığı inkişaf etdirəcəkdir.

Sizin səfəriniz və ikitərəfli münasibətlərimizin intensivləşməsindəki davamlı yüksəliş mənim inamımın sübutudur. İki dövlət arasındakı əla siyasi əlaqələri iş adamlarımız, elm və mədəniyyət nümayəndələri, hər şeydən əvvəl vətəndaşlarımız arasında əməkdaşlığı təmin etməyi mümkün qədər tez və daha çox görmək istərdik.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Zəngin tarixi və mədəniyyəti, füsunkar təbiəti ilə seçilən dost ölkənizi ikinci dəfə ziyarət etməyimdən çox məmnunam.

Mənim Xorvatiya Respublikasına 2005-ci ildə etdiyim səfər yaxşı yadımdadır. Keçən müddət ərzində ölkənizin sosial, iqtisadi, mədəni sahələrdə böyük nailiyyətlər əldə etməsi bizi sevindirir.

Sizin 2012-ci ildə Azərbaycana səfəriniz zamanı keçirdiyimiz görüşləri və apardığımız danışıqları da məmnuniyyətlə xatırlayıram. İnanıram ki, belə qarşılıqlı səfərlər ölkələrimiz arasında mövcud olan ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafına və münasibətlərimizin yeni müstəviyə yüksəlməsinə təkan verəcəkdir.

Biz Xorvatiya ilə əməkdaşlığın bütün sahələrdə genişləndirilməsində maraqlıyıq. Ölkələrimiz arasında gəmiqayırma, energetika, nəqliyyat, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın inkişafı üçün yaxşı potensial mövcuddur. Əminəm ki, Sizinlə apardığımız danışıqlar, qarşılıqlı maraq doğuran məsələlər ətrafındakı fikir mübadiləsi, əldə olunan razılaşmalar və imzalanan sənədlər ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişafına zəmin yaradacaqdır.

Azərbaycan ilə Xorvatiya, həmçinin beynəlxalq və regional təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edir. BMT, ATƏT, Avropa Şurası çərçivəsində əməkdaşlığımız məmnunluq doğurur. Bu baxımdan tezliklə Avropa İttifaqına üzv olacağı gözlənilən Xorvatiya ilə münasibətlərimiz həm ikitərəfli, həm də regional çərçivədə mühüm əhəmiyyət kəsb edir.

Regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına da öz töhfəsini verir. Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasının tərəfdarıyıq və müxtəlif layihələr üzərində işləyirik. Artıq uğurla həyata keçirdiyimiz böyük layihələr Azərbaycanın etibarlı tərəfdaş olduğunu bir daha sübut edir. Biz bundan sonra da bütün maraqlı tərəflərlə əməkdaşlıq etməyə hazırıq.

Azərbaycan regionda təhlükəsizlik, sabitlik və qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün səylərini əsirgəmir. Lakin regionun ən ağrılı problemi – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi, tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafdakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və 1

milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, Azərbaycanın və Xorvatiyanın müstəqil dövlətçilik tarixinə nəzər saldıqda xalqlarımız və ölkələrimiz arasında bir çox oxşarlıqların olduğunu görürük. Ölkələrimiz müxtəlif mədəniyyətlərin və dinlərin təmsilçilərinin dinc yanaşı yaşaması, tolerantlığı ilə seçilir. Dəniz sahilində və dağların əhatəsində yerləşən hər iki ölkə yay və qış turizmi üçün əlverişli məkandır. İqtisadiyyatın müxtəlif sahələrində də bir-birini tamamlaya biləcək potensial imkanlarımız mövcuddur. Fikrimcə, Azərbaycan və Xorvatiya Xəzər və Adriatik hövzəsi arasında birləşdirici körpü ola bilər.

Hörmətli cənab Prezident, Xorvatiyaya səfər etməyimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri martın 12-də başa çatmışdır.*

*Zaqreb Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Xorvatiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*Azərbaycan Respublikasının Prezidenti Monteneqroya rəsmi səfərə yola düşdü.*

## MONTENEQRODA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Podqoritsa*

*12 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Monteneqroya rəsmi səfərə gəlmişdir.*

*Podqoritsa Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin rəsmi qarşılanma mərasimi oldu.*

*Beynəlxalq aeroportda Azərbaycan Respublikası Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Monteneqro prezidenti Filip Vuyanoviç qarşıladı.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Monteneqronun dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Monteneqronun dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Monteneqro prezidenti Filip Vuyanoviçə təqdim olundu.*

# MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Çetinye*

*12 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 12-də Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviç ilə Çetinye şəhərindəki prezident iqamətgahında təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə edildi.*

*Dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsi baxımından önəmli olduğunun vurğulandığı görüşdə Azərbaycan prezidenti İlham Əliyevin bu səfərinin əlaqələrimizin möhkəmlənməsi işinə xidmət edəcəyinə əminlik bildirildi.*

*Azərbaycan ilə Monteneqro arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinin vurğulandığı görüşdə beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Çetinye*

*12 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviçin nümayəndə heyətlərinin iştirakı ilə martın 12-də Çetinye şəhərində geniş tərkibdə görüşü olmuşdur.*

Görüşdə Azərbaycan ilə Monteneqro arasında dostluq əlaqələrinin inkişafından məmnunluq ifadə olundu, ölkələrimizdə həyata keçiriləcək birgə iqtisadi layihələrin əhəmiyyəti qeyd edildi. Azərbaycanın Monteneqroda müxtəlif istiqamətlər üzrə birgə iqtisadi layihələrin reallaşdırılması perspektivləri baxımından bu səfərin önəmi vurğulandı. Ölkəmizin Monteneqroya investisiya qoyuluşunun iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi.

Energetika, turizm, infrastruktur və digər sahələrdə əməkdaşlığımızın yaxşı potensialı olduğunun vurğulandığı görüşdə əlaqələrimizin bundan sonra da genişləndiriləcəyinə əminlik bildirildi.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Çetinye*

*12 mart 2013-cü il*

*Nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviçin iştirakı ilə martın 12-də Monteneqro–Azərbaycan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası və Monteneqro Hökuməti arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında Bəyannamə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviç imzaladılar.*

*«Azərbaycan Respublikası və Monteneqro Hökuməti arasında beynəlxalq kombinə edilmiş daşımalar haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Monteneqronun Baş nazirinin müavini, Xarici İşlər və Avropaya İnteqrasiya naziri İqor Lukşiç imzaladılar.*

*«Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Monteneqro İnsan Resurslarının İdarə Edilməsi üzrə İdarəsi arasında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Monteneqronun Baş nazirinin müavini, Xarici İşlər və Avropaya İnteqrasiya naziri İqor Lukşiç imzaladılar.*

*«Azərbaycan Respublikası və Monteneqro Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya»nı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Monteneqronun Maliyyə naziri Radoye Juqiç imzaladılar.*

# MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Çetinye*

*12 mart 2013-cü il*

*Martın 12-də Azərbaycan prezidenti İlham Əliyev və Monteneqro prezidenti Filip Vuyanoviç mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Monteneqro prezidenti Filip Vuyanoviçin bəyanatı

Hörmətli prezident Əliyev!

Hörmətli nazirlər, hörmətli nümayəndə heyətinin üzvləri!

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin Monteneqroya rəsmi səfəri çərçivəsində Sizi, cənab Prezident və rəhbərlik etdiyiniz nümayəndə heyətinin üzvlərini burada görməkdən böyük şərəf hissi duyuram. Artıq bildirmişik ki, aramızda çox gözəl münasibətlər vardır. Coğrafi məsafə baxımından ölkələrimiz bir-birinə o qədər yaxın olmasalar da, ölkələrimiz yaxın dostdur və bu səbəbdən aramızda gözəl əlaqələr mövcuddur. Dövlətlərimiz arasında bu cür çoxşaxəli münasibətlərin olması iqtisadi sahədə də müəyyən nailiyyətlərin əldə olunması üçün şərait yaratmışdır və qarşılıqlı əməkdaşlıq üçün də imkanlar açmışdır. Qarşılıqlı sərmayə qoyuluşu prosesi də gedir. Bu məsələlər sırasında Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin ölkəmizə yatırdığı sərmayələr xüsusi əhəmiyyət kəsb edir. Məsələn, keçmişdə hərbi məqsədlər üçün istifadə olunan yerlər, kazarmalar hazırda müasir turizm infrastrukturuna çevrilmişdir. Biz həmçinin Azərbaycanın Monteneqroda əlavə sərmayə qoymaq potensialını da müzakirə etdik. Bu məqsədlə bir çox sahələrə

maraq göstərilir. Əməkdaşlıq və sərmayələr üçün xüsusilə maraqlı və cəlbedici sahələrə gəldikdə, bu sahədə yol infrastrukturunun tikintisi, enerji sektoru və turizmi qeyd etmək olar. Biz dövlətlərarası əməkdaşlıq komissiyasının rolunu da xüsusi qeyd edirik ki, yeni sərmayə sahələrinin müəyyən edilməsində bu, vacib alətdir. Əlavə maraq olarsa bu, yeni müqavilələrin imzalanmasına imkan yaradacaq və iqtisadi sahədə qarşılıqlı əməkdaşlığı daha da genişləndirəcəkdir.

Monteneqro ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında bəyannaməni məmnunluqla prezident Əliyevlə imzaladıq. Bu sənəd gələcək münasibətlərimizin əsasını təşkil edəcəkdir. Biz həmçinin digər sazişləri də bu gün imzaladıq. Onlardan biri gəlir vergisi üzrə ikiqat vergitutmanın aradan qaldırılması haqqında razılaşmadır. Biz mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlıq imkanlarını da müzakirə etdik. Bu sahələrdə də əməkdaşlıq üçün geniş imkanların olduğunu qeyd etdik.

Mən Monteneqro xalqı adından prezident Əliyevə, Azərbaycan dövlətinə və onun vətəndaşlarına Monteneqroya göstərdiyi yardıma görə dərin təşəkkürümü bildirirəm. Bildiyiniz kimi, bu yardım Bielo-Pole şəhərində uşaq bağçasının tikintisi üçün göstərilmişdir. Bu layihə Bielo-Pole üçün olduqca vacib layihə idi. Biz bu gün, həmçinin Azərbaycan tərəfinin yardımı ilə parkın salınması məsələsini müzakirə etdik və təqdimata baxdıq. Təqdimata baxdıqdan sonra belə bir qənaətə gəldik ki, bu parkın salınması əməkdaşlığımızı daha da genişləndirəcəkdir. Mən şəxsən cənab prezident Əliyevə Monteneqro ilə bu cür gözəl dost münasibətlərinin sabit vəziyyətdə qalması və inkişaf etdirilməsində göstərdiyi səylərə görə dərin təşəkkürümü bildirirəm.

Prezident Əliyev ölkələrimiz arasında iqtisadi münasibətlərin daha da canlanması üçün çox fəal çalışıb və Azərbaycan sərmayədarlarının marağının təşviq olunması üçün böyük səylər göstərib. Bununla mən cənab prezident Əliyevə dərin təşəkkürümü bildirirəm ki, məhz onun gərgin fəaliyyəti

nəticəsində bizim birbaşa apardığımız iqtisadi əməkdaşlığımız, ikitərəfli münasibətlərimiz daha da inkişaf etmişdir.

Çox sağ olun.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizin gözəl ölkənizdə olmağımdan çox məmnunam. Sizi və bütün Monteneqro xalqını müstəqillik dövründə əldə etdiyi uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizin ölkəniz qısa müddət ərzində böyük uğurlara imza atıbdır. Hətta böhranlı illərdə Sizin iqtisadiyyatınız sabitlik nümayiş etdiribdir. İndi Monteneqronun beynəlxalq aləmdə çox böyük hörməti və nüfuzu vardır. Onu da qeyd etmək istəyirəm ki, Sizin ölkəniz Avroatlantik strukturlara sürətlə inteqrasiya edir və bu da Sizin siyasətinizin uğurlarından biridir.

Mən çox şadam ki, Monteneqro–Azərbaycan əlaqələri də çox uğurla inkişaf edir. Sizin, cənab Prezident, 2 il əvvəl Azərbaycana etdiyiniz rəsmi səfər bu əlaqələrə çox güclü təkan vermişdir. 2 il ərzində nəinki yüksək səviyyədə qarşılıqlı rəsmi səfərlər həyata keçirilmiş, eyni zamanda, biz iqtisadi sahədə böyük irəliləyişə nail ola bilmişik. Bu gün bizim iqtisadi əməkdaşlıqla bağlı mövqemiz 100 faiz üst-üstə düşür. Monteneqroda yaradılmış gözəl investisiya iqlimi Azərbaycan investorlarını da ruhlandırmışdır. Mən çox şadam ki, həm sosial sahə ilə bağlı, eyni zamanda, turizm infrastrukturunun yaradılması ilə əlaqədar Monteneqroya artıq Azərbaycan investisiyaları qoyulmağa başlayır. Mən hesab edirəm ki, bunlar birinci, amma böyük addımlardır.

Bu gün əməkdaşlığımızın müxtəlif aspektlərini müzakirə etdik və belə fikrə gəldik ki, biz Azərbaycan investisiyalarını Monteneqroya daha da böyük həcmdə qoymalıyıq və iqtisadi əməkdaşlığı dərinləşdirməliyik.

Bank sektoruna böyük maraq göstərilir və biz bu sahədə uğurlu əməkdaşlıq edə bilərik. Enerji sektorunda əməkdaşlıq üçün çox gözəl imkanlar vardır. Bu gün biz Azərbaycanın icra etdiyi böyük nəqliyyat layihələrini də müzakirə etdik. Xüsusilə enerji daşıyıcılarının Avropa qitəsinə çatdırılması ilə əlaqədar məsələlər müzakirə edildi və bu məsələlərlə bağlı Monteneqro–Azərbaycan əməkdaşlığı çox uğurlu ola bilər.

Sizin gözəl ölkəniz haqqında əvvəllər çox eşitmişəm. Bu gün isə özüm görürəm ki, doğrudan da Sizin ölkəniz çox böyük və uğurlu yol keçmişdir. Bütün bu uğurlar münasibətilə Sizi bir dost kimi, ürəkdən təbrik edirəm.

## ÇETİNYE ŞƏHƏRİNDƏKİ KRAL NİKOLAY SARAYI İLƏ TANIŞLIQ

*Çetinye*

*12 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Monteneqroya rəsmi səfəri çərçivəsində martın 12-də Çetinye şəhərindəki Kral Nikolay sarayı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı sarayda yaradılan muzeyə baxdı.*

*Monteneqro prezidenti Filip Vuyanoviç əvvəlcə Çetinye şəhərində son illərdə həyata keçirilən infrastruktur layihələri və görülən işlər barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, XIII əsrdə əsası qoyulan Çetinye şəhəri Monteneqronun qədim paytaxtı hesab edilir. Maraqlı və zəngin tarixi olan Çetinyedə çoxlu muzeylər və saraylar vardır. Bu şəhərdəki binalar orijinal arxitekturası ilə seçilir.*

*Kral Nikolay sarayı ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, saray Kral Nikolayın dövründə 1863-cü ildə tikilib və orijinal memarlıq üslubu ilə diqqəti cəlb edir. İndi muzey kimi fəaliyyət göstərən sarayda son illərdə yenidənqurma işləri aparılmış, binanın tarixi görkəmi bərpa edilmişdir.*

*Muzeyin ekspozisiyası ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada Monteneqro tarixinin mühüm mərhələlərini əks etdirən qiymətli eksponatlar saxlanılır. Muzeydə qədim silahların kolleksiyaları toplanmışdır. Sarayda bir çox rəssamların müxtəlif illərdə yaratdığı qiymətli əsərlər də sərgilənir. Muzeyin qiymətli eksponatları arasında qədim pullar, bayraqlar, keçmişdə və indi istifadə olunan hərbi geyimlər nümayiş olunur. Monteneqronun milli sərvəti olan bu eksponatlar və əşyalar ölkənin tarixi zənginliyindən xəbər verir. Burada toplanan eksponatların müxtəlifliyi ölkəyə gələn turistlərdə də böyük maraq doğurur.*

*Sonda prezident İlham Əliyev muzeyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## MONTENEQRO PARLAMENTİNİN SƏDRİ RANKO KRİVOKAPİÇ İLƏ GÖRÜŞ

*Podqoritsa*

*12 mart 2013-cü il*

*Monteneqroya rəsmi səfəri çərçivəsində Azərbaycan prezidenti İlham Əliyev «Villa Qoritsa» dövlət iqamətgahında parlamentin Sədri Ranko Krivokapiç ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Bu səfərin Azərbaycan ilə Monteneqro arasında gələcək əməkdaşlığın inkişafı baxımından əhəmiyyəti vurğulandı. Parlamentlərarası əlaqələrin, həmçinin dostluq qruplarının ikitərəfli münasibətlərin inkişafındakı rolu qeyd edildi.*

*Həmçinin görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığı üçün yaxşı imkanların olduğu bildirildi.*

## MONTENEQRONUN BAŞ NAZİRİ MİLO DUKANOVİÇ İLƏ GÖRÜŞ

*Podqoritsa*

*12 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Monteneqroya rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Milo Dukanoviç ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Monteneqro arasında iqtisadi sahədə əməkdaşlığın inkişafı üçün yaxşı imkanların olduğu bildirildi.*

*Azərbaycan prezidenti İlham Əliyevin bu səfərinin iqtisadi əlaqələrimizin perspektivlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd edildi. Azərbaycanın Monteneqroya investisiya yatırmasının önəmi diqqətə çatdırıldı.*

*Monteneqro ilə Azərbaycan arasında turizm, infrastruktur, nəqliyyat, bank sistemi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunun bildirildiyi görüşdə iqtisadi əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCAN TƏRƏFİNDƏN MONTENEQRODA HƏYATA KEÇİRİLƏCƏK LAYİHƏLƏRLƏ TANIŞLIQ

*Podqoritsa*

*12 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Monteneqronun Baş naziri Milo Dukanoviç ilə görüşdən sonra bu ölkədə Azərbaycan tərəfindən həyata keçiriləcək layihələrlə tanış olmuşdur.*

*Podqoritsa şəhərinin meri Miomir Muqoşa Azərbaycan dövlətinin başçısına məlumat verdi ki, Monteneqroda fəaliyyət göstərən «AzMont» Azərbaycan–Monteneqro İqtisadi və Mədəni Mərkəzi və Azərbaycan Respublikasının Monteneqrodakı diplomatik nümayəndəliyi şəhərin mərkəzi küçələrindən birinə «Bakı» adının verilməsi barədə Podqoritsa şəhər meriyası qarşısında məsələ qaldırıb.*

*Bu məsələ ilə bağlı Monteneqro Hökuməti, Mədəniyyət, Xarici İşlər və Avropaya İnteqrasiya nazirlikləri, Podqoritsa meriyası və şəhər parlamentinin üzvləri ilə aparılmış müzakirələr nəticəsində şəhər parlamenti 2013-cü il fevralın 12-də paytaxtın mərkəzi küçələrindən birinə «Bakı» adının verilməsinə dair müvafiq qərar qəbul edib. Qərara əsasən, Podqoritsanın Mixail Laliç bulvarından Studentska küçəsinə uzanan Meşe Selimoviç küçəsinin davamı olan küçəyə «Bakı» adı verilib. Hazırda küçədə təmir işləri aparılır və «Bakı» sözü yazılmış lövhələr quraşdırılır.*

*Bundan başqa, Azərbaycan xalqının görkəmli şairi və dramaturqu Hüseyn Cavidin xatirəsinin Avropa ölkəsində əbədiləşdirilməsinin vacibliyini nəzərə alaraq, «AzMont» Azərbaycan–Monteneqro İqtisadi və Mədəni Mərkəzi və Azərbaycan Res-*

*publikasının Monteneqrodakı diplomatik nümayəndəliyi Podqoritsa şəhərində böyük ədibin büstünün ucaldılması təşəbbüsü ilə çıxış edib.*

*Monteneqro Hökuməti, Mədəniyyət, Xarici İşlər və Avropaya İnteqrasiya nazirlikləri, Podqoritsa meriyası və şəhər parlamentinin üzvləri ilə aparılmış müzakirələr nəticəsində 2012-ci il dekabrın 26-da şəhər parlamentində paytaxtın «Kral parkı»nda dahi Azərbaycan ədibi Hüseyn Cavidin büstünün qoyulmasına dair mütləq səs çoxluğu ilə qərar qəbul olunmuşdur. «Kral parkı» şəhərin mərkəzində – Prezident Administrasiyasının, Parlamentin, Nazirlər Kabinetinin və Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin binalarının yaxınlığında yerləşir. Layihəyə əsasən, parkda Hüseyn Cavidin büstünün qoyulması, giriş qapısında Azərbaycan və Monteneqro gerblərinin vurulması, xalqımızın milli memarlıq üslubundan geniş istifadə olunması nəzərdə tutulur.*

*Podqoritsa şəhər parlamentinin qərarına əsasən, Hüseyn Cavidin bürüncdən büstü ağ mərmər postamentin üzərində qoyulacaqdır.*

## AZƏRBAYCAN HÖKUMƏTİNİN MALİYYƏ DƏSTƏYİ İLƏ MONTENEQRODA İNŞA EDİLƏN UŞAQ BAĞÇASININ LAYİHƏSİ İLƏ TANIŞLIQ

*Bielo-Pole*

*12 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Monteneqronun Bielo-Pole şəhərində Azərbaycan hökumətinin maliyyə dəstəyi ilə inşa etdirilən uşaq bağçasının layihəsi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə uşaq bağçasının inşası ilə bağlı görülən işlər barədə məlumat verildi və son nəticəni əks etdirən layihələr və şəkillər nümayiş etdirildi.*

*Azərbaycan dövlətinin başçısı yeni park layihəsinə də baxdı.*

*Daha sonra Bielo-Pole şəhərinin meri Aleksandr Juliç prezident İlham Əliyevə üzərində şəhərin rəmzi əks olunan xatirə lövhəsi təqdim etdi.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*Çetinye*

*12 mart 2013-cü il*

*Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviçin adından martın 12-də Çetinye şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Monteneqro prezidenti Filip Vuyanoviçin çıxışı

Zati-aliləri prezident Əliyev!

Hörmətli nazirlər!

Zati-aliləri səfirlər!

Xanımlar və cənablar!

Prezident Əliyev, bu axşam Sizi və hörmətli nümayəndə heyətinizi qədim Çetinyedəki Hökumət evində qonaq qəbul etmək mənim üçün şərəfdir və bundan məmnunluq hissi keçirirəm. Divarları Monteneqronun Petroviç sülaləsindən olan hökmdarların portretləri ilə bəzədilmiş bu tarixi bina bir sıra ölkə başçılarının səfərlərinin şahidi olub. Cənab Prezident, əlbəttə, Sizin səfəriniz ən vacib səfərlərdən biri – Monteneqronun böyük dostunun səfəri kimi yadda qalacaqdır.

Əvvəlcə, prezident Əliyev, Monteneqro vətəndaşları adından Sizin rəsmi səfərinizdən məmnunluğumu bildirirəm. Bu səfər dövlətlərimiz və xalqlarımız arasında səmimi dostluq və yaxınlıq əlaqələrinin göstəricisidir, dövlətlərimizin gələcək ikitərəfli və çoxtərəfli əməkdaşlığının təsdiqidir. Həmçinin səfəriniz geniş mənada Xəzər dənizi və Aralıq dənizi arasında – bu mühüm

geosiyasi əhəmiyyətə malik bölgədə yerləşən xalqlarımızın dostluq və əməkdaşlığı naminə sabitlik missiyasıdır.

Monteneqro–Azərbaycan əlaqələrinin tarixi dövlətlərimizin aid olduğu geosiyasi məkanların dostluq münasibətlərinin seqmentinə əsaslanır. Fəxrlə deyə bilərəm ki, coğrafi baxımdan uzaq məsafədə yerləşməyimizə baxmayaraq, əlaqələrimiz daim dostluq və qarşılıqlı hörmətlə müşayiət olunur. Dövlətlərimizin suverenliyi tam bərpa ediləndən bəri bizim dostluq və əməkdaşlığımız yüksələn xətlə inkişaf etməkdədir. Böyük məmnuniyyət hissi ilə qeyd etmək istərdim ki, bu gün yetişməkdə olan nəsillərin ehtiyaclarını və bəşəriyyətin üzləşdiyi qlobal çağırışlara cavabları başa düşən dövlətlərimiz arasında yaxın münasibətlər qlobal müstəvidə əməkdaşlığın bariz nümunəsidir.

Bizim müştərək siyasətimiz sülh və sabit tərəqqidir. Biz dialoqu dünyada mövcud olan aktual problemlərin həlli vasitəsi kimi görürük. Monteneqro Avropa İttifaqının beynəlxalq əlaqələr sahəsində yanaşmasını əsas götürərək, BMT-nin və ATƏT-in qətnamələrinin birmənalı tətbiqində təkid edərək, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşılması istiqamətində səy göstərir. Bu yanaşma dünyada sabitlik və tərəqqinin əsasıdır.

Prezident Əliyev, Monteneqro vətəndaşları və öz adımdan şəxsən Sizə və Azərbaycan hökumətinə qarşılıqlı əməkdaşlığımıza verdiyiniz böyük töhfələrə görə səmimi minnətdarlığımı bildirirəm. Bu gün Azərbaycan Monteneqro iqtisadiyyatının strateji investoru və sosial inkişaf layihələrinin sərmayədarı kimi çıxış edir. Bununla ölkəniz qarşılıqlı inam, dövlətlərimizin inkişafı və xalqlarımızın rifahının təmin olunması naminə müştərək yanaşmamızın uzunmüddətli perspektivlərinə hazır olduğunu nümayiş etdirir. Əminəm ki, qarşılıqlı maraqlarımıza cavab verən səmərəli iqtisadi əməkdaşlıq üçün geniş imkanlar mövcuddur.

Monteneqro Avropa İttifaqının gələcək üzvü və Adriatik regionunun nadir geosiyasi bölgəsində, Balkan yarımadasının və

Mərkəzi Avropanın qonşuluğunda yerləşən ölkə olaraq qlobal müstəvidə investisiya və ticarət üçün təbii məkan kimi tanınmaqdadır. Turizm imkanlarımız ölkəmizin təbii gözəllikləri və xalqımızın qonaqpərvərliyi sayəsində daim inkişaf etməkdədir. Fəxr edirik ki, Azərbaycan artıq bu imkanları anlayaraq bizim resurslarımızdan qarşılıqlı istifadə etməyə hazır olduğunu təsdiq edib.

Səylərimizi artırmalı olduğumuz əməkdaşlıq sahələrindən biri isə mədəniyyətdir. Əminəm ki, bu sahənin inkişafı xalqlarımızın daha da yaxınlaşması və əbədi dostluğumuzun dərinləşməsinə töhfə verəcəkdir. Sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, səfər zamanı mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Son zamanlar iki ölkə arasında qarşılıqlı səfərlərin intensivləşməsi məmnunluq doğurur. Siz son 2 ildə Azərbaycana 2 dəfə səfər etmisiniz. Bu il isə mən ölkənizə ilk səfərimi həyata keçirirəm. Səfərlər çərçivəsində aparılan danışıqlar və fikir mübadiləsi onu deməyə əsas verir ki, ölkələrimiz arasında energetika, informasiya texnologiyaları, turizm, kənd təsərrüfatı, səhiyyə, ekologiya, mədəniyyət, idman, təhlükəsizlik və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanlar vardır. Əldə olunmuş razılaşmaların imzalanan mühüm sənədlərin qısa müddətdə öz nəticələrini verəcəyinə inanıram.

Ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələr inkişaf etməkdədir. Artıq Monteneqroda mədəni və iqtisadi əlaqələr üzrə Azərbaycan–Monteneqro Mərkəzi fəaliyyət göstərir. Azərbaycan investorlarının dəstəyi ilə Monteneqronun Bielo-Pole şəhərində uşaq bağçasının inşa edilməsi və Azərbaycan investorlarının Monteneqroda turizm kompleksinin inşası üzrə

tenderdə qalib gəlməsi əməkdaşlığımızın digər konkret nümunələridir.

Yeri gəlmişkən, Podqoritsa şəhərində Azərbaycan xalqının görkəmli şairi və dramaturqu Hüseyn Cavidin büstünün qoyulması və mərkəzi küçələrindən birinə «Bakı» adının verilməsi ilə bağlı qərarlara görə təşəkkürümü bildirir və bu addımları mədəni əlaqələrimizin inkişafına töhfə hesab edirəm.

Ölkələrimiz arasında, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkanlar mövcuddur. BMT, ATƏT, Avropa Şurası kimi təşkilatlar bu sahədə olduqca əlverişli platforma təşkil edir.

Monteneqronun gənc müstəqil dövlət kimi əldə etdiyi uğurlar bizi sevindirir. 9 ay bundan əvvəl Monteneqronun Avropa İttifaqına üzvlüyü ilə əlaqədar danışıqlara start verilməsi əhəmiyyətli hadisədir.

Azərbaycanın xarici siyasətində Avroatlantik strukturlarla əlaqələr mühüm yer tutur. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Azərbaycan bu istiqamətdə etibarlı tərəfdaş ölkə olduğunu nümayiş etdirmişdir. Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasında maraqlıyıq və müxtəlif layihələr üzərində işləyirik. Regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunması üçün bundan sonra da öz töhfəsini verməyə hazırdır.

Yuxarıda qeyd edilənlərlə yanaşı, regionun inkişafı üçün ən böyük təhlükə mənbəyi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öz həllini tapmamasıdır. Bildiyiniz kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafdakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa

Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, Monteneqroya səfər etməyimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

## MONTENEQRONUN «POBJEDA» QƏZETİNƏ MÜSAHİBƏ

*12 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Monteneqronun «Pobjeda» qəzetinin baş redaktoru Srdan Kusovaça müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, Monteneqroya səfərinizdən nə gözləyirsiniz?**

**C a v a b:** Bu mənim Monteneqroya ilk rəsmi səfərimdir. Bildiyiniz kimi, Monteneqronun prezidenti cənab Filip Vuyanoviç Azərbaycanda səfərdə olmuşdur. Müxtəlif səviyyədə digər qarşılıqlı səfərlər də həyata keçirilmişdir. Əlaqələrimizin inkişafında yüksək səviyyəli səfərlər xüsusi əhəmiyyət daşıyır. Mənim Monteneqroya bu səfərim də ümid edirəm ki, ikitərəfli münasibətlərimizin genişləndirilməsi baxımından önəmli olacaqdır. Hesab edirəm ki, dövlət başçıları səviyyəsində aparılan danışıqlar və heyət üzvləri arasında keçirilən görüşlər, o cümlədən imzalanacaq sənədlər ölkələrimizin mövcud əlaqələrinin daha da möhkəmləndirilməsi və əməkdaşlığımızın yeni sahələrinin müəyyənləşdirilməsi işinə təkan verəcəkdir.

**S u a l: Ölkənizin bu regiona marağı böyükdür. Son 2 ildə Monteneqro, Serbiya və Xorvatiya prezidentləri Azərbaycana səfər edib. Bu necə baş verdi, regiona belə böyük maraq nədən qaynaqlanır?**

**C a v a b:** Bəli, qeyd etdiyiniz kimi, Monteneqro ilə yanaşı, Serbiya və Xorvatiya prezidentləri də Azərbaycanda səfərdə olmuşlar. Bosniya və Herseqovina, Sloveniya, Makedoniya prezidentləri də Azərbaycanda olmuşlar. Dövlət başçılarının ölkəmizə bu səfərləri Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə olan marağın göstəricisidir. Əlbəttə ki, Azərbaycan üçün də bu regionun ölkələri ilə müxtəlif sahələrdə əlaqələrin gücləndirilməsi önəmlidir. Regionun lider dövləti olan Azərbaycan

ilə bu ölkələrin əlaqələrinin möhkəmləndirilməsi həm ikitərəfli münasibətlərin inkişafına, həm də regional əməkdaşlığa öz töhfəsini verə bilər.

**S u a l: Ölkələrimiz arasında müxtəlif sahələrdə olan ikitərəfli əlaqələrin inkişafını necə dəyərləndirərdiniz?**

**C a v a b:** Ölkələrimiz arasında ikitərəfli əlaqələr müxtəlif sahələrdə dinamik şəkildə inkişaf etməkdədir. Siyasi əlaqələrimizin səviyyəsi razılıq doğurur. Hökumətlər arasında imzalanan sənədlər əməkdaşlığımızın genişləndirilməsi üçün möhkəm hüquqi baza yaratmışdır. Ümid edirəm ki, ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində hökumətlərarası birgə komissiyanın fəaliyyəti əhəmiyyətli olacaqdır. Münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin də rolu qeyd olunmalıdır. İqtisadi əlaqələrimiz də uğurla inkişaf edir. İqtisadiyyatın müxtəlif istiqamətlərində, o cümlədən enerji və turizm sahələrində birgə layihələr uğurla həyata keçirilir. Monteneqro hökuməti tərəfindən Azərbaycanın dövlət və özəl şirkətlərinin fəaliyyəti üçün bu ölkədə əlverişli investisiya mühiti yaradılmışdır. Azərbaycan investorlarının həyata keçirdiyi turizm layihəsi bunun bariz nümunəsidir. Humanitar sahədə də əməkdaşlığımız yaxşı səviyyədədir. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanlar vardır.

**S u a l: Ölkəniz təkcə Monteneqroya deyil, həmçinin regionun digər ölkələrinə həm mədəni, həm də dini abidələrin yenidən qurulması layihələrinə sərmayə qoyur. Azərbaycan, həmçinin monteneqrolu idmançıları da dəstəkləyir. Bu cür sərmayələrin məqsədi nədir?**

**C a v a b:** Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı son illər sürətlə inkişaf edir və hazırda dünyada ən dinamik inkişaf edən iqtisadiyyatlardan biridir. Həyata keçirilən uğurlu islahatlar nəticəsində ölkəmiz regionun lider dövlətinə çevrilmişdir. Ölkəmiz enerji sahəsində böyük nailiyyətlər qazanmışdır. Azərbaycan qlobal iqtisadi və enerji layihələrində fəal iştirak edir. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin

olunmasına öz töhfəsini verir. Dünyada mövcud olan ağır maliyyə böhranı illərində belə, bizim iqtisadi inkişafımız davam etmişdir. Son illər ümumi daxili məhsulu 3 dəfə, yəni 300 faizdən çox artıra bilmişik. İqtisadiyyatın şaxələndirilməsinə nail olmuşuq. Qeyri-neft sektorunun inkişafı dövlətin daim diqqət mərkəzindədir. Bu sektor keçən il 9,7 faiz artmışdır.

Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sektoru prioritet sahələrdən biridir. Bu il ölkəmizin ilk süni peyki orbitə buraxılmışdır. Azərbaycan artıq kosmik ölkələr sırasına daxil olmuşdur. İqtisadiyyatımızın inkişafı mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət- qabiliyyətliliyinə görə 46-cı, MDB məkanında isə 1-ci yerdədir. Bu gün Azərbaycan xarici ölkələrə investisiya qoymağa başlayır. Bu bizim üçün yeni bir prosesdir. Biz ən çox investisiyaları region ölkələrinin iqtisadiyyatına qoyuruq. Azərbaycan Türkiyəyə, Gürcüstana böyük həcmdə sərmayələr yatırıb. Biz xaricə qoyulan investisiyaların coğrafiyasını genişləndiririk. Artıq investisiyaların bir hissəsini Avropa ölkələrinə qoymağa başlamışıq. Əlbəttə ki, investisiya qoyuluşu iqtisadi əlaqələri möhkəmləndirir və bu əlaqələrin uzunmüddətli olması baxımından böyük rol oynayır. Hesab edirəm ki, Azərbaycanın Monteneqro iqtisadiyyatına investisiya qoyması üçün yaxşı potensial vardır. Ümid edirəm ki, bu səfərim ölkənizə sərmayə qoyuluşu üçün də yeni imkanlar açacaqdır.

**S u a l: Sizin ölkənizin bir hissəsi olan, işğal altındakı Dağlıq Qarabağ regionu ilə bağlı heç bir dəyişiklik yoxdur. Üstəlik 2 azərbaycanlı əsgər ötən ay həlak olub. Bu regionun gələcəyi necə olacaq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını necə görürsünüz?**

**C a v a b:** Bildiyiniz kimi, Ermənistanın Azərbaycana təcavüzü uzun müddətdir ki, davam edir. Bu təcavüz nəticəsində yaranan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsi regionda sülhə və sabitliyə ən böyük təhlükə olmaqla yanaşı, həm də regionun inkişafı üçün ciddi maneədir. Münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti həyata keçirilmişdir. İşğal olunmuş ərazilərdə bütün infrastruktur dağıdılmış, xalqımızın tarixi, dini abidələri, qədim maddi mədəniyyət nümunələri, qəbiristanlıqlar tamamilə məhv edilmişdir.

Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi nəticəsində danışıqlar prosesində hər hansı irəliləyişə hələ də nail olunmayıb, təmas xəttində ermənilər tərəfindən atəşkəsin tez-tez pozulması halları baş verir və bu da Azərbaycanın həm hərbçiləri, həm də mülki əhalisi arasında itkilərə səbəb olur. İşğalçı qüvvələrin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə və digər nüfuzlu beynəlxalq təşkilatların qərar və qətnamələrinə, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri rəhbərlərinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində status-kvonun qəbuledilməzliyi ilə bağlı verdikləri bəyanata Ermənistan indiyə qədər məhəl qoymur. Hesab edirəm ki, beynəlxalq birlik bu münaqişənin ədalətli həll olunması istiqamətində səylərini daha da artırmalıdır. Bizim qəti mövqemiz ondan ibarətdir ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini tapa bilər. Yalnız bundan sonra regionda uzunmüddətli sabitlik və əməkdaşlığa nail olmaq olar.

## Səfər başa çatdı

*Martın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Monteneqroya rəsmi səfəri başa çatmışdır.*

*Podqoritsa Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Monteneqronun yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*Dövlətimizin başçısı martın 13-də Bakıya qayıtdı.*

**İRLANDİYA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAYKL HİGGİNSƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müqəddəs Patrik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İrlandiya arasındakı dostluq və əməkdaşlıq münasibətləri daha da inkişaf edərək xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 mart 2013-cü il*

## «MÜLKİ MÜDAFİƏ VƏ ƏHALİNİN FƏLAKƏT RİSKİNİN QARŞISININ ALINMASINA HAZIRLANMASI» MÖVZUSUNDA QƏBƏLƏDƏ KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də «Mülki müdafiə və əhalinin fəlakət riskinin qarşısının alınmasına hazırlanması» mövzusunda Qəbələdə keçirilmiş Beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.*

*Ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın önəmini qeyd edən prezident İlham Əliyev Azərbaycanda «Mülki müdafiə və əhalinin fəlakət riskinin qarşısının alınmasına hazırlanması» mövzusunda keçirilən konfransı bu əlaqələrin mühüm göstəricilərindən biri kimi qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimizdə fövqəladə hallarla məşğul olan müvafiq qurumların bir-birinə qarşılıqlı dəstək vermələrinin vacibliyini vurğuladı. Fövqəladə Hallar nazirliklərinin təhlükələrin, fəlakətlərin qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması baxımından çox mühüm vəzifəni yerinə yetirdiyini qeyd edən prezident İlham Əliyev əhalini mümkün risklərin qarşısının alınmasına hazırlamağın hər bir cəmiyyət üçün mühüm amil olduğunu dedi.*

*Ölkəmizdə son bir neçə ildə baş vermiş təbii fəlakətlərə, daşqınlara və zəlzələlərə toxunan dövlətimizin başçısı qeyd etdi ki, daşqınlar zamanı 10 minlərlə insan evsiz-eşiksiz, 100 min hektardan çox ərazi isə sel suları altında qaldı. Fövqəladə Hallar Nazirliyinin peşəkar fəaliyyəti sayəsində həmin hadisələr zamanı sakinlər fəlakət zonasından köçürüldü, operativ şəkildə müvəqqəti yaşayış məntəqələri salındı və orada səhiyyə, iaşə və*

digər xidmətlər təşkil olundu. Ən başlıcası isə insan tələfatına yol verilmədi. Azərbaycanın şimal bölgələrində baş vermiş zəlzələ zamanı 3 mindən çox evin, çoxlu sayda məktəbin və digər obyektlərin dağıldığını deyən dövlətimizin başçısı fəlakətdən dərhal sonra zəlzələ zonasında genişmiqyaslı tikinti işlərinə başlandığını və dağılmış bütün evlərin, sosial obyektlərin dövlət vəsaiti hesabına tikildiyini, bu prosesin davam etdirildiyini vurğuladı.

Təbii fəlakətlər zamanı ölkələrin müvafiq qurumlarının əlaqəli şəkildə işləmələrinin vacibliyini vurğulayan prezident İlham Əliyev bu cür hadisələr zamanı Fövqəladə Hallar nazirliklərinin birgə fəaliyyət göstərmələrinin önəmini xüsusi qeyd etdi.

Ölkəmizdə Fövqəladə Hallar Nazirliyi yaradılarkən qarşıya qoyulan məqsədin həm Azərbaycanda baş verən fəlakətlərin aradan qaldırılması, həm də qonşu və dost ölkələrə yardım göstərilməsindən ibarət olduğunu vurğulayan dövlətimizin başçısı son illər bir sıra ölkələrdə baş vermiş fövqəladə hadisələr zamanı xilasetmə, bərpa və yardım işlərində Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin yaxından iştirak etdiyini diqqətə çatdırdı. Bu konfransın Azərbaycanda keçirilməsinin tədbir iştirakçılarının ölkəmizlə daha yaxından tanış olması baxımından əhəmiyyətini də qeyd etdi.

Azərbaycan hökumətinin dəvəti ilə ölkəmizə səfər etmələrindən məmnunluğunu ifadə edən Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi Navaf əl-Sleybi yüksək qonaqpərvərliyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Prezident İlham Əliyevin dəstəyi ilə Fövqəladə Hallar Nazirliyinin ən yaxşı modellərindən birinin Azərbaycanda yaradıldığını vurğulayan Navaf əl-Sleybi bu təcrübədən istifadə etməyin önəmini diqqətə çatdırdı. Azərbaycanın Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə fəal əməkdaşlıq etdiyini deyən qonaq Qəbələdə yüksək səviyyədə təşkil olunmuş konfransın əməkdaşlığın perspektivlərini müzakirə etmək baxımından yaxşı fürsət yaratdığını dedi.

Sonda Navaf əl-Sleybi dövlətimizin başçısına Beynəlxalq Mülki Müdafiə Təşkilatının xatirə hədiyyəsini təqdim etdi.

## RUMİNİYA DEPUTATLAR PALATASININ SƏDRİ VALERİU ZQONEANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Rumıniya Deputatlar Palatasının Sədri Valeriu Zqoneanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında güclü siyasi əlaqələrin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycan ilə Rumıniya arasında ikitərəfli dostluq və strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi.*

*Münasibətlərimizin daha da möhkəmləndirilməsində parlamentlərarası əməkdaşlığın əhəmiyyətini vurğulayan prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək vermələrinin önəmini qeyd etdi. Azərbaycan xalqının rumın xalqına böyük hörmətlə yanaşdığını deyən dövlət başçısı müxtəlif məsələlərlə bağlı Rumıniyanın ölkəmizə göstərdiyi dəstəyə görə təşəkkür etdi, bu səfərin uğurlu olacağına əminliyini bildirdi.*

*Ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında sənəd imzalandıqdan sonra dostluq əlaqələrimizin çox yaxşı səviyyədə olduğunu deyən qonaq Azərbaycan ilə Rumıniya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişafının razılıq doğurduğunu və bu əlaqələrin genişləndirilməsində parlamentlərarası əməkdaşlığın əhəmiyyətini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Rumıniya arasında enerji sahəsində əməkdaşlıq, investisiya qoyuluşu, Avropa strukturları və beynəlxalq regional təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYANIN XARİCİ VƏ İTTİFAQ MƏSƏLƏLƏRİ ÜZRƏ OFİSİ KATİBİNİN DAİMİ MÜAVİNİ VƏ DİPLOMATİK XİDMƏTİN RƏHBƏRİ SAYMON FREYZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Böyük Britaniyanın Xarici və İttifaq Məsələləri üzrə Ofisi katibinin daimi müavini və diplomatik xidmətin rəhbəri Saymon Freyzerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, enerji sahəsində əməkdaşlığın önəmi qeyd edildi, bp-nin Azərbaycandakı uzunmüddətli uğurlu fəaliyyəti vurğulanaraq, neft-qaz sənayesində yaradılan şəffaflıq yüksək qiymətləndirildi.*

*Görüşdə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişaf perspektivləri, ölkələrimizin Avroatlantik strukturlarda təhlükəsizlik sahəsində səmərəli əməkdaşlığı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının Sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz tarixi köklərə malik Azərbaycan–Çin əlaqələrinə böyük əhəmiyyət veririk. Dövlətlərarası münasibətlərimizin hazırkı yüksəksəviyyəsi siyasi, iqtisadi və humanitar sahələrdə genişformatlı və faydalı əməkdaşlığımız üçün mühüm amildir. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı münasibətləri xalqlarımızın qarşılıqlı mənafeyi naminə daha da genişləndirmək və inkişaf etdirmək üçün yaxşı imkanlar var.

Əminəm ki, ənənəvi dostluq münasibətlərimizin daim möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylərimiz bundan sonra da ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Çin xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 mart 2013-cü il*

## ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Roma Papası seçilməyiniz münasibətilə Sizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Zəngin tolerantlıq ənənələrinə malik Azərbaycan müxtəlif din və etiqadlara mənsub insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşadığı bir ölkədir. Ümidvaram ki, dünyada sülhün, sabitliyin qorunub saxlanması, insanlar arasında qarşılıqlı anlaşma, dəstək və həmrəyliyin bərqərar olmasına yönəlmiş səmimi dialoqumuzu bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu baxımdan Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı sivilizasiyalar və dinlərarası dialoqun, tolerantlığın təşviqinə yönəlmiş əməkdaşlığımızın hazırkı səviyyəsi məmnunluq doğurur.

Sizə möhkəm cansağlığı, uzun ömür, ümumbəşəri dəyərlərin təntənəsi və müqəddəs amallar naminə qarşıdakı ali missiyanızda uğurlar, həmməzhəblərinizə əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 mart 2013-cü il*

## ATƏT-in BAŞ KATİBİ LAMBERTO ZANNİERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ATƏT-in baş katibi Lamberto Zannierin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri «Terrorçuluğun qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi» mövzusunda Beynəlxalq konfransın Bakıda yüksək səviyyədə təşkil olunmasına verdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. Konfransda 50 ölkəni və 20 beynəlxalq təşkilatı təmsil edən nümayəndələrin iştirakının önəmini vurğulayan Əbdüləziz bin Osman əl-Tüveycri Azərbaycanın bu cür beynəlxalq tədbirlər keçirməkdə yaxşı təcrübəsi olduğunu məmnunluqla qeyd etdi.*

*Dövlətimizin başçısı «Terrorçuluğun qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi» mövzusunda Bakıda təşkil edilən Beynəlxalq konfransa olan böyük marağı yüksək qiymətləndirdi. Prezident İlham Əliyev konfransda müzakirə olunacaq məsələlərin terrorçuluğun qarşısının alınması istiqamətində birgə səylərin daha da artırılması işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Görüşdə Azərbaycan ilə İSESKO arasında əməkdaşlığın gələcəkdə daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BAKIDA «TERRORİZMİN QARŞISININ ALINMASINDA ƏMƏKDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİ» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN AÇILIŞINDA İŞTİRAK

*18 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Bakıda Azərbaycan Hökumətinin, BMT-nin və İSESKO-nun təşkilatçılığı ilə «Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi» mövzusunda keçirilən beynəlxalq konfransın açılışında iştirak etmişdir.*

*BMT-nin Narkotik və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotov çıxış edərək dedi:*

– Zati-aliləri cənab Prezident, möhtərəm nazirlər, səfirlər, hörmətli iştirakçılar, xanımlar və cənablar.

Mən BMT-nin Narkotik və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotovam.

Mən Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevi təqdim etməkdən şərəf hissi duyuram. Cənab Prezident «Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi» mövzusunda Bakıda keçirilən Beynəlxalq konfransı açıq elan edəcəkdir. Prezident Əliyev xeyirxahlıq göstərərək bu tədbiri BMT-nin Narkotik və Cinayətkarlıq üzrə İdarəsi və İSESKO ilə birgə təşkil etmək qərarını qəbul etdi. Mən prezident İlham Əliyevi təqdim edərək, Azərbaycanın beynəlxalq məsələlərdə oynadığı mühüm rola və bu ölkənin beynəlxalq təşkilatlarla sıx əməkdaşlığına görə dövlət başçısına təşəkkürümü bildirirəm. Cənab Prezident, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi, qlobal sülh və sabitliyin qorunub saxlanmasına xüsusi olaraq fəal töhfə verir. Azərbaycan, həmçinin BMT-nin Narkotik və Cinayətkarlıq üzrə

İdarəsinin narkotiklərə nəzarət siyasətinin, çirkli pulların yuyulmasına, terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin aparılması və digər məsələləri əhatə edən qlobal və regional layihələrin fəal iştirakçısıdır.

İndi isə mən konfransı açıq elan etmək üçün zati-aliləri Prezident İlham Əliyevi məmnuniyyətlə dəvət edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əvvəlcə, sizin hamınızı Azərbaycanda salamlamaq və belə bir mühüm konfransda iştirak etmək üçün yaradılmış fürsətə görə minnətdarlığımı bildirmək istəyirəm. Belə bir mühüm təşəbbüsün irəli sürülməsi və bu konfransın Bakıda keçirilməsinə görə mən BMT-nin narkotiklərə nəzarət ofisinə və İSESKO-ya təşəkkürümü bildirirəm.

Fikrimcə, terrorçuluğa qarşı konfransın Azərbaycanda keçirilməsi böyük rəmzi xarakter daşıyır. Çünki Azərbaycan keçmişdə beynəlxalq terrorçuluqdan əziyyət çəkib və hazırda ölkəmiz terrorçuluğun dünya səviyyəsində qarşısının alınmasına böyük töhfə verir. Təəssüf ki, ölkəmiz XX əsrin 90-cı illərinin əvvəllərində erməni terror təşkilatlarının törətdiyi terror aktlarının hədəfinə çevrilmişdi. Azərbaycan vətəndaşlarına qarşı çoxlu sayda terror aktları törədilmişdir, 2 min günahsız insan qətlə yetirilmiş və təxminən bir o qədər də insan xəsarət almışdır. Azərbaycan təcavüzdən, işğaldan əziyyət çəkir. Bildiyiniz kimi, bir çox hallarda bu hadisələr təcavüzkar separatçılıqla müşayiət olunurdu. Azərbaycana qarşı təcavüzkar separatçılıq aktları və terror hücumları ölkənin beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizinin işğalı ilə nəticələndi. Həmçinin, Azərbaycan etnik təmizləmə siyasətinə məruz qaldı, 1 milyondan artıq azərbaycanlı doğma yurd-yuvalarından didərgin düşdü.

Bildiyiniz kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə və təhlükəsizliyə ən böyük

hədələrdən biridir. Bu, dünyada ən böyük ədalətsizliklərdən biridir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazisindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir. ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, NATO və digər beynəlxalq təşkilatlar da qətnamə və qərarlar qəbul etmişlər. Təəssüf ki, bütün bu qətnamələr kağız üzərində qalır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri 20 ildən artıqdır ki, işğal altındadır.

Artıq qeyd etdiyim kimi, bu məsələ beynəlxalq, həmçinin regional sabitliyə və təhlükəsizliyə ən böyük hədə yaradır. Bu məsələ beynəlxalq hüquq normaları, Helsinki Yekun Aktı əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Münaqişənin həlli yalnız beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır. Biz münaqişənin dinc yolla həllinə göstərdiyimiz səyləri davam etdiririk. Lakin əfsuslar olsun ki, Ermənistan status-kvonun mümkün qədər uzun müddət saxlanmasına və bacardığı qədər münaqişənin dondurulmasına çalışır. Lakin bu mümkün olmayacaqdır. Çünki dünya dəyişir, regional tarazlıq dəyişir. Azərbaycan siyasi və iqtisadi inkişaf baxımından güclənir, Azərbaycanın qlobal miqyasda oynadığı rol artır. Buna görə mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna mümkün qədər tez nail olmaq istəyirik. Çalışırıq ki, bunu sülh yolu ilə edək.

Azərbaycan xalqı XX əsrin ən böyük faciələrindən birini – Xocalı soyqırımını yaşamışdır. 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri Xocalı şəhərinin sakinlərinə hücum etmişlər. Belə bir vəhşi hücumun nəticəsində 613 günahsız vətəndaş qətlə yetirilmişdir. Onların arasında 100-dən artıq qadın, 63 uşaq olmuşdur. Artıq 4 ölkənin parlamenti Xocalı faciəsini rəsmən soyqırımı kimi tanımışdır. Xocalı hadisələrinin soyqırımı kimi tanınması prosesi digər ölkələrdə də gedir.

Azərbaycan, həmçinin terrorçuluğa qarşı mübarizəyə fəal şəkildə töhfə verir. Biz qəti şəkildə hesab edirik ki, beynəlxalq

ictimaiyyət əvvəlcə beynəlxalq terrorçuluğun aydın tərifini verməlidir. Azərbaycan öz siyasi addımları və praktiki fəaliyyəti ilə terrorçuluğa qarşı aparılan qlobal mübarizəyə fəal şəkildə töhfə verməyə çalışır. Qəti surətdə inanırıq ki, beynəlxalq ictimaiyyətin bütün səylərinin birləşdirilməsi sayəsində biz bu mübarizədə qələbə qazana bilərik.

Səbəblərindən asılı olmayaraq, terrorçuluğa haqq qazandırılması haqqında söhbət belə gedə bilməz. Terror aktlarının kimə qarşı törədilməsindən asılı olmayaraq, terror təşkilatları arasında fərq qoyulmamalıdır. Buna görə hesab edirəm ki, səylərin geniş şəkildə birləşdirilməsi və terrorçuluğa qarşı hərtərəfli əməkdaşlığın aparılması bu mübarizədə bizə yardımçı olacaq və uğurumuzu təmin edəcəkdir.

Düşünürəm ki, bu gün keçirilən konfransda müzakirə edilən mövzulardan biri terrorçuluğa qarşı mübarizənin aparılmasında beynəlxalq ictimaiyyətin hansı şəkildə daha səmərəli fəaliyyət göstərməsi ilə bağlı olacaqdır. Çünki tarixdən və müasir dövrdən bilirik ki, istənilən bir ölkə nə qədər güclü müdafiə olunsa belə, təkbaşına terrorçuluğa qarşı təsirli mübarizə apara və terror aktlarından 100 faiz sığortalana bilməz.

Dünya dəyişir. Əfsuslar olsun ki, müasir texnologiyalar bədniyyətli insanlar tərəfindən də istifadə olunur. Hesab edirəm ki, səylərin səfərbər olunması terrorçuluğa qarşı mübarizənin aparılmasında və onun qarşısının alınmasında ən səmərəli alətlərdən biri ola bilər. Terrorçuluq beynəlxalq ictimaiyyətə, ölkələrin ərazi bütövlüyünə, iqtisadi, demokratik inkişafa təhlükədir. Fikrimcə, belə bir mühüm məsələnin qlobal gündəlikdə saxlanması addım-addım səylərimizi gücləndirməkdə və bu mübarizədə bizə kömək edəcəkdir. Azərbaycan əlindən gələni edir ki, beynəlxalq ictimaiyyət bu məsələni daim diqqət mərkəzində saxlasın. Bu konfransın Bakıda keçirilməsi bu cür nümunələrdən biridir. Eyni zamanda, Azərbaycan BMT Təhlükəsizlik Şurasında ötən ilin mayında ilk sədrliyini terrorçuluğa qarşı mübarizənin aparılması mövzusuna həsr etmişdir. 2012-ci ilin may ayında Azərbaycan tariximizdə

ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasına sədrlik etdi. Biz terrorçuluğa qarşı mübarizə üzrə aparılan müzakirələri açıq elan etdik. Biz bu mövzunu gündəlikdə olan bütün digər məsələlər siyahısından seçdik. Çünki hesab etdik ki, diqqətin məhz bu mövzuya yönəldilməsi daha vacibdir.

Terrorçuluğa qarşı təsirli və çox fədakar mübarizə olmadan biz qarşımızda duran məsələlərdən heç birini həll edə bilməyəcəyik. Müstəqilliyimizin ilk illərini xatırlayırıq. Həmin vaxt ermənilər Bakıda və digər yerlərdə vətəndaşlarımıza qarşı terror hücumuna keçmişdilər. Sabitlik mövcud deyildi. Sabitlik olmayan yerdə inkişaf da ola bilməz. Biz bunu öz təcrübəmizdən çox yaxşı bilirik. Yalnız keçən əsrin 90-cı illərinin ortalarından etibarən Azərbaycanda siyasi sabitlik yaradıldı. Biz inkişaf etməyə, sərmayələr cəlb etməyə, iqtisadiyyatımızı və siyasi sistemimizi müasirləşdirməyə və Azərbaycanda demokratik sistemin yaradılmasına başladıq.

Beynəlxalq terrorçuluğa məruz qalmış ölkələrdə, əfsuslar olsun ki, terrorçuluq gündəlik fəaliyyətə çevrilir. Bu halda heç kəs inkişaf haqqında danışa bilməz. Belə halda nə sərmayələr qoyulur, nə islahatlar aparılır. Demokratik inkişaf getmir. Çünki beynəlxalq terrorçuluğa məruz qalan ölkələr öz mübarizəsi ilə cavab tədbirlərini görməlidirlər. Bu isə çox təhlükəli nəticələrə aparır. Buna görə də terror hədələrinin aradan qaldırılması və yaxud onların azaldılması inkişaf üçün ilkin əsas şərtdir. Bu səbəbdən biz bu mövzunu beynəlxalq gündəlikdə dayanan bütün digər vacib mövzular içindən seçdik və Təhlükəsizlik Şurasının sessiyasında onu geniş şəkildə qaldırdıq. Təşəbbüsümüzün nəticəsi olaraq, çox əhəmiyyətli bəyannamə qəbul edildi. Hesab edirəm ki, bu bəyannamə səylərin səfərbər olunmasına yardım edir və edəcəkdir. Səylər birləşdirilmədən heç bir ölkə terrorçuluğa qarşı mübarizədə uğur əldə edə bilməz.

Çox şadam ki, bu gün Azərbaycana 50-dən artıq ölkənin, beynəlxalq təşkilatların nümayəndələri və ekspertləri gəliblər. Beynəlxalq ictimaiyyət məhz budur. Budur bizim belə mühüm beynəlxalq məsələyə münasibətimiz. Bu bizim töhfəmizdir.

Fikrimcə, biz bu məsələyə müxtəlif baxış bucaqlarından yanaşmalıyıq. Biz terrorçuluğa qarşı mübarizəyə verdiyimiz praktiki töhfəmizi gücləndirməliyik. Azərbaycan terrorçuluğa qarşı beynəlxalq səviyyədə aparılan mübarizəyə əlindən gələn töhfəni verir və hətta bundan artığını da edir. Biz bu məsələni hər zaman gündəliyimizdə saxlamalıyıq, müxtəlif beynəlxalq forumlarda qaldırmalıyıq. Eyni zamanda, terrorçuluğun yaranmasına xidmət edən şəraitlərin aradan qaldırılması üçün mümkün mexanizmlərdən istifadə etməliyik. Biz terror təşkilatlarının fəaliyyət dairələrini daraltmalıyıq. Biz insanların, xüsusən də təhsili olmayanların terror təşkilatları tərəfindən öz sıralarına cəlb edilməsi üçün şərait yarada biləcək boşluqların doldurulması istiqamətində birgə işləməliyik.

Burada biz digər mühüm məsələyə gəlib çıxırıq. Bu isə xalqların sülh şəraitində dinc yanaşı yaşaması məsələsidir. Əfsuslar olsun ki, biz beynəlxalq mətbuatı oxuyanda görürük ki, bəzən terrorçuluğu islamla bağlamaq cəhdləri vardır. Artan islamofobiya ilə bağlı müsəlman aləmində müəyyən narahatlıq vardır. Fikrimcə, beynəlxalq ictimaiyyət, xüsusən də media nümayəndələri, qeyri-hökumət təşkilatları daha məsuliyyətli davranmalıdırlar və bütün dünyada 100 milyonlarla müsəlmanın hisslərinə toxunmamalıdırlar.

Terrorçuluğun nə dini, nə də milliyyəti vardır. Milli, eləcə də dini mənsubiyyətlərindən asılı olmayaraq, bəşəriyyət terrorçuluqdan əziyyət çəkir. Fikrimcə, bu daim diqqətdə qalmalı mühüm məsələdir. Biz səylərimizi birləşdirmədən bu məsələni lazımi şəkildə həll edə bilməyəcəyik.

Terrorçuluğa qarşı qlobal mübarizənin mühüm elementlərindən biri də multikulturalizm ideyalarının inkişaf etdirilməsidir. Hesab edirəm ki, beynəlxalq münasibətlərin bugünkü inkişaf səviyyəsi baxımından bu məsələ hər zaman diqqət mərkəzimizdə olmalıdır. Azərbaycan multikulturalizm əhval-ruhiyyəsinin hər zaman gündəlikdə saxlanmasına çalışır. Biz Azərbaycanda çoxsaylı beynəlxalq tədbirlər, konfranslar, forumlar keçirmişik və multikulturalizmi, onun müsbət

təcrübəsini müzakirə etmişik. Bilirik ki, hazırda müxtəlif cəmiyyətlərdə, siyasi dairələrdə fərqli ideyalar eşidilir. Deyirlər ki, multikulturalizm baş tutmadı və yaxud da uçuruma gedir. Fikrimcə, biz belə bir qiymətin verilməsində çox diqqətli olmalıyıq. Çünki bu gün qloballaşan dünyada multikulturalizmin alternativi yoxdur. Hətta multikulturalizmin alternativinin nədən ibarət olmasını təsəvvür belə etmək çətindir. Əsrlər boyu bəşəriyyət inkişaf etmiş, nəsillər dəyişmişdir, lakin multikulturalizmin inkişaf etməsi tarixin daha çox müasir dövrünə aiddir. Buna görə də biz artıq əldə etdiyimiz nəticələrdən geriyə çəkilə bilmərik.

Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin sülh və dostluq şəraitində yaşadığı bir ölkədir. Bu, multikulturalizmin uçuruma getməməsinin çox yaxşı nümunəsidir. Multikulturalizm güclənir. Xüsusən də xatırlatmaq vacibdir ki, tarixi keçmişdə biz digər ölkələrin tərkibində yaşamışıq. Həmin ölkələr, imperiyalar daxilində müxtəlif millətlərə və dinlərə mənsub olan insanlarla ünsiyyətimiz olmuşdur. Sovet İttifaqının tərkibində olarkən, hətta ondan əvvəlki vaxtlarda da bu ideyalara sadiqlik təbii hal idi. Lakin 20 ildən artıqdır ki, Azərbaycan müstəqil ölkədir. Fikrimcə, multikulturalizm ideyaları və Azərbaycanda baş verənlərin mahiyyəti müstəqillik illərindən başlayaraq dövlət siyasətimizin, cəmiyyətimizin əhval-ruhiyyəsinin bariz nümunəsidir.

Bu nəticələrə yalnız müvafiq dövlət siyasəti ilə nail olmaq mümkün deyildir. Bizə gəldikdə, çox xoşbəxtik ki, cəmiyyətdə olan əhval-ruhiyyə və hökumətin siyasəti eyni məqsədlərə xidmət edir. Sülh şəraitində inkişaf, Azərbaycanda bütün millətlərin və dinlərin nümayəndələri arasında dostluq bu məqsədlərdəndir. Ölkəmiz burada yaşayan insanların hamısının vətənidir. Bu bizim siyasətimizdir, bu siyasət davam edəcək və gələcəkdə daha da güclənəcəkdir. Əminəm ki, bu sahədə əldə etdiyimiz uğurlar nəinki Azərbaycana təsir göstərəcəkdir, artıq göstərir, hətta onun hüdudlarından kənara da çıxır.

Terrorçuluğa qarşı təsirli mübarizənin aparılmasında əsas məsələlərdən biri təhsildir. Çünki əvvəldə qeyd etdiyim kimi, terror təşkilatları savadsız şəxslərdən istifadə edirlər. Onlar oxuya və yaza bilməyən gənclərdən istifadə edirlər və onların beyinlərini doldururlar, təbliğat aparırlar, gənc nəsli səhv yola çəkirlər. Təəssüf ki, dünyanın bəzi yerlərində biz təhsildə və sosial məsələlərin həllində inkişaf yox, geriləməni görürük. Bəzi hallarda sosial ədalətsizlik də terrorçuluq və terror təşkilatları üçün təkandır. Beynəlxalq terror təşkilatları cəmiyyətdəki bütün çatışmazlıqlardan istifadə edir və öz cərgələrinə mümkün qədər çox insanı cəlb etməyə, onların beyinlərini doldurmağa çalışırlar. Buna görə, təhsil terrorçuluğa qarşı mübarizənin aparılmasında ən böyük meyarlardan biridir. Azərbaycan təhsil sahəsinə çox böyük əhəmiyyət və diqqət verir. Ölkəmizdə savadlılıq 100 faiz səviyyəsindədir. Gənclərimiz təhsil alır, biliklərə malikdirlər. Biz dünyaya açığıq, bizdə media azadlığı və bütün digər azadlıqlar mövcuddur. Bizdə azad internet vardır. Dünya ölkələrinin heç də hamısı senzurasız internetin olması ilə öyünə bilməz. Azərbaycanda internet istifadəçilərinin sayı hazırda 70 faizdən çoxdur.

Biz informasiya-kommunikasiya texnologiyaları sahəsinə çoxlu sərmayə yatırırıq. Hazırda genişzolaqlı internetin hər bir şəhərə çatdırılması üçün Dövlət Proqramının icrasına başlanılmışdır. Bu proqram bir neçə il ərzində həyata keçiriləcəkdir. Fevral ayında Azərbaycan özünün ilk telekommunikasiya peykini fəzaya buraxdı və kosmos sənayesinə malik ölkələr qrupuna daxil oldu. Həmçinin təhsil, müasir texnologiyalar, müxtəlif ölkələrin gəncləri arasında ünsiyyət mühüm rol oynaya bilər.

Əlbəttə ki, yoxsulluğun azaldılması məsələsi də vardır. Bu amil nəinki terrorçuluğa qarşı mübarizənin aparılmasında, xüsusən də yoxsul ölkələrdə həmin məsələnin aradan qaldırılmasında vacibdir. Yenə də öz təcrübəmizə gəldikdə, deyə bilərəm ki, biz yoxsulluğun azaldılmasında çox böyük irəli-

ləyişə nail olmuşuq. Ümumiyyətlə, son 10 ildə Azərbaycanın iqtisadi inkişafı çox böyük təəssürat bağışlamışdır. Son 10 il ərzində iqtisadiyyatımız dünyada ən sürətlə artan iqtisadiyyatlardan biri olmuşdur. Ümumi daxili məhsul 3 dəfə artmış, yoxsulluq 10 il əvvəlki 50 faizdən 2012-ci ilin statistik göstəricilərinə görə 6 faizə düşmüşdür. Azərbaycanda 1 milyon 100 mindən artıq iş yeri açılmışdır, iqtisadi durum, həmçinin maliyyə durumumuz sabitdir. İqtisadi böhran illərində iqtisadiyyatımız artmaqda davam etmişdir. Hazırda ümumi daxili məhsulun strukturu təqdirəlayiqdir. Ümumi daxili məhsulda qeyri-enerji sektorunun payı sürətlə artır – ötən il bu, 10 faiz olmuşdur. Xarici borc isə ümumi daxili məhsulun cəmi 7 faizini təşkil edir. Beynəlxalq reytinq agentlikləri, onlardan əsas üçü – «Fitch», «Moodys», «Standard & Poors» bəzi inkişaf etmiş ölkələrin reytinqini aşağı saldığı halda, Azərbaycanın kredit reytinqini artırmışdır. Yoxsulluğun və işsizliyin azaldılması son 10 ildə Azərbaycanın ümumi inkişafının əsas elementlərindən biri olmuşdur. Əminəm ki, gələn illər ərzində biz yoxsulluğun bir sosial amil kimi tam həllinə nail olacağıq.

Beləliklə, hesab edirəm ki, bu məsələlərin lazımi şəkildə həllinə gəldikdə, hər bir cəmiyyətdə və ölkədə, öncə qeyd etdiyim kimi, biz sosial ədalət prinsipini yaddan çıxarmalı deyilik. Sosial ədalət və qanunun aliliyi hər bir cəmiyyətin rahatlığı deməkdir. Bütün bunlar terror əhval-ruhiyyəsini yaradan ilkin şərtlərin aradan qaldırılmasında mühüm elementlərdir. Azərbaycanda son illərdə həyata keçirdiyimiz siyasətdə müstəqilliyimizin möhkəmləndirilməsinə, hüquq-mühafizə orqanlarının gücləndirilməsinə səylər göstərmişik. Biz Azərbaycanın daxilində praktiki olaraq bütün potensial terror hədələrini aradan qaldırmışıq. Buna görə də biz hazırda sərhəd infrastrukturunun gücləndirilməsinə böyük sərmayə yatırırıq.

Qeyd etdiyim kimi, heç bir ölkə bu təhlükədən 100 faiz sığortalana bilməz. Bu xüsusən də ada olmayan, qonşuların əhatəsində olan və sülh şəraitinin o qədər də mövcud olmadığı regionda yerləşən ölkələrə aiddir. Buna görə də sərhəd

infrastrukturuna sərmayənin qoyuluşu, təsirli sərhəd nəzarəti bizim üçün regionumuzda terrorçuluğa qarşı mübarizədə bir nömrəli məsələdir. Çünki ölkəmizdə narahatlıq doğura biləcək terrorçuluğun daxili ocaqları yoxdur.

Əminəm ki, bu gün bu mübarizənin daha səmərəli qurulması ilə və dünyanı daha təhlükəsiz etməklə bağlı bir çox müzakirələr aparılacaq, rəylər söylənləcək, təcrübə mübadiləsi baş tutacaqdır.

Mən bir daha bütün qonaqları salamlayıram. Ümidvaram ki, Azərbaycanda vaxtınızı səmərəli keçirəcəksiniz. Konfransın işinə uğurlar arzulayıram. Çox sağ olun.

* * *

*BMT-nin Narkotik və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotov BMT-nin baş katibi Pan Gi Munun konfrans iştirakçılarına müraciətini çatdırdı.*

*Müraciətdə Azərbaycanın mühüm toplantıya ev sahibliyi etməsi ilə bağlı minnətdarlıq ifadə olunmuşdur.*

*«Bizim ən böyük silahımız səfərbərliyimizdir» – deyən Yuri Fedotov Bakı konfransının terrorizmə qarşı mübarizə yollarının tapılması, bu istiqamətdə əməkdaşlığın gücləndirilməsinin müzakirəsi üçün əla fürsət olduğunu söylədi, konfransa ev sahibliyi edən Azərbaycanın nümayiş etdirdiyi qonaqpərvərliyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri də konfransın Azərbaycan prezidentinin dəstəyi sayəsində ərsəyə gəldiyini söylədi və buna görə də dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*«İslam dini məsum insanların öldürülməsini böyük günah sayır. Ona görə də terrorizm hər hansı dinə məxsus deyildir. Bu cinayətdir» – deyən İSESKO-nun baş direktoru ümumi hədəfin daha sağlam əməkdaşlığın qurulmasından ibarət olduğunu, əsas səylərin təhsil, elm və mədəniyyətə yönəldilməsinin vacibliyini vurğuladı.*

*Əbdüləziz* bin Osman *əl-Tüveycri əmin*-*amanlığın və* tole-rantlığın *mövcud olduğu Bakı şəhərində keçirilən* konfransın *işinə uğurlar arzuladı.*

# GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MAYA PANCİKİDZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Gürcüstan Respublikasının Xarici İşlər naziri xanım Maya Pancikidzeni qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin intensiv xarakter daşıdığı qeyd olundu, beynəlxalq və regional əməkdaşlığın önəmi vurğulandı, «Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi» mövzusunda Bakıda təşkil olunan Beynəlxalq konfransın əhəmiyyəti yüksək qiymətləndirildi, Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ İRAKLİ ALASANİYA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Gürcüstan Respublikasının Müdafiə naziri İrakli Alasaniyanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində yaxşı səviyyədə olduğunu vurğuladı. Ölkələrimiz arasında əməkdaşlığın istər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində yaxşı ənənələrə malik olduğunu deyən prezident İlham Əliyev bu əməkdaşlığın müdafiə sahəsində daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğuladı.*

*Gürcüstanın Müdafiə naziri kimi, Azərbaycana səfərindən məmnunluğunu bildirən İrakli Alasaniya səfərinin müdafiə sahəsində əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi baxımından önəmli olduğunu vurğuladı.*

## MƏRAKEŞ KRALLIĞININ DAXİLİ İŞLƏR NAZİRİ MOHANED LANSER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Mərakeş Krallığının Daxili İşlər naziri Mohaned Lanseri qəbul etmişdir.*

*Daxili İşlər naziri Mohaned Lanser Mərakeş kralı VI Məhəmmədin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Mohaned Lanser «Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi» mövzusunda Bakıda keçirilən Beynəlxalq konfransın yüksək səviyyədə təşkil olunmasına görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. 2006-cı ildə ölkəmizə səfər etdiyini xatırladan qonaq ötən dövr ərzində paytaxtımızda böyük inkişafın şahidi olduğunu dedi.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığının və bir-birilərini daim dəstəkləməsinin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev kral VI Məhəmmədin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Mərakeş kralına çatdırmağı xahiş etdi.*

## ASİYA İNKİŞAF BANKININ VİTSE-PREZİDENTİ KSİAO JAO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Asiya İnkişaf Bankının vitse-prezidenti Ksiao Jaonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında həyata keçirilən uğurlu layihələrin önəmi vurğulandı, əmək-daşlığımızın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı mə-sələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*İçərişəhər*

*19 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva martın 19-da İçərişəhərdə təşkil olunmuş Novruz şənliklərində iştirak etmişlər.*

*Xalqımızın ən qədim və əziz bayramı Novruz yurdumuza qədəm qoyur. Əcdadlarımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən bu bayram münasibətilə martın 19-da Bakıda ümumxalq şənliyi keçirilmişdir. Əsrlərin şahidi qədim Qız qalasının qarşısındakı meydanın ətrafındakı binalar Novruzun gəlişini tərənnüm edən al-əlvan plakatlarla bəzədilmişdi. İzdihamlı meydanda Novruzun rəmzi olan nəhəng səməni də var idi.*

*Novruz xalqımızın mədəniyyətini, milli-mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır. Xalqımızın yüksək zövqü və bədii təfəkkürü bu xalq bayramının el şənliklərində və rəngarəng əyləncələrində özünü aşkarlayır, onun mənəvi dünyasının təzahürünə, aynasına çevrilir. Azərbaycan xalqının mənəvi dünyasını, milli düşüncə tərzini, məfkurəsini, qədim mifik görüşlərini, folklorunu, milli varlığını Novruz qədər bütün zənginliyi ilə özündə ifadə edən ikinci bir bayram təsəvvür etmək çətindir.*

*Novruz bütün türk dünyasına xas olsa da, Azərbaycanda daha möhtəşəm qeyd edilir. Novruz bayramının təşəkkül tapmasında, inkişaf etməsində xalqımızın mühüm töhfəsi, payı vardır. Sovet hakimiyyəti illərində Novruz bayramının keçirilməsinə sərt qadağalar qoyulsa da, xalqımız bu əziz bayramı həmişə qeyd etməyə can atmışdır. Azərbaycana rəhbərliyinin*

*birinci dövründə ulu öndər Heydər Əliyev sovet hakimiyyətinin qadağalarına baxmayaraq, milli ruhun yüksəlişinə təkan verən amillərə xüsusi hörmətlə yanaşmışdır. Milli adət-ənənələrimizə, o cümlədən Novruz bayramına yüksək qiymət verən ulu öndər Heydər Əliyev bu bayram haqqında demişdir: «Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi, keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir».*

*Təbiət bayramı – Novruzun ölkəmizdə dövlət səviyyəsində qeyd edilməsi həm də ulu əcdadlarımızın xatirəsinə dərin ehtiramın əlamətidir. Bu, keçmişimizi bu günümüzlə bağlamaq, onu qoruyaraq gələcəyə aparmaq deməkdir. Novruzu milli-mənəvi dəyərlərimizin təcəssümü adlandıran prezident İlham Əliyevin hər il bayram şənliklərinə qatılması, əhali ilə bayramlaşması, Bakının qədim meydanındakı tonqalı alovlandırması bayram ovqatını daha da artırmaqla yanaşı, xalqla iqtidar arasında sıx vəhdəti də sübut edir. «Novruz gələcəyə inam hissi aşılayır, könüllərdə ən ali duyğuları oyadır, insanları daha xeyirxah, mərhəmətli və mehriban olmağa çağırır» – deyən prezident İlham Əliyev onun insanlarda qurub-yaratmaq əzmi aşılayan bayram olduğunu da qeyd etmişdir.*

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyləri nəticəsində xalqımızın bu əziz el bayramı da artıq YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. 2010-cu il fevralın 23-də isə BMT Baş Məclisi 21 mart tarixini Beynəlxalq Novruz günü elan etmişdir.*

*Zəngin mənəvi dəyərlərimizə söykənərək insanlar arasında qarşılıqlı hörmət, səmimiyyət və mehribanlıq münasibətlərini bərqərar edən Novruz bayramı xalqda gələcəyə nikbinliklə, ümidlə baxmaq hissləri doğurur.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər. Meydana toplaşmış şəhər sakinləri, paytaxtın qonaqları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Milli geyimli qız Azərbaycan Prezidentinə bayram xonçası təqdim etdi.*

*İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.*

*Dədə Qorqud xeyir-dua verərək, Bahar bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.*

*Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.*

*Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.*

*Sonra dövlətimizin başçısı, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Dənizkənarı Milli Parka gəldilər.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev bayram şənliyində nitq söylədi:*

– Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizi və bütün Azərbaycan xalqını Novruz bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulamaq istəyirəm. Novruz xalqımızın ən sevimli bayramıdır. Azərbaycan xalqı əsrlər boyu Novruz bayramını qeyd etmişdir. İctimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə bu bayram hər bir Azərbaycan ailəsində qeyd edilirdi. Bu gün isə müstəqil Azərbaycanda bu bayram dövlət bayramı kimi qeyd edilir.

Bir neçə il bundan əvvəl imzaladığım sərəncam əsasında Novruz bayramı Azərbaycanda 5 gün qeyd edilir. Əgər şənbə və bazar günlərini əlavə etsək, vətəndaşlar bir həftə ərzində istirahət edirlər.

Azərbaycan xalqı milli-mənəvi dəyərlərinə həmişə sadiq olmuşdur. Bu dəyərlər bizi bir xalq kimi qoruyub saxlamışdır. Bu gün, müstəqillik dövründə Azərbaycanda dövlət quruculuğu prosesi də məhz milli-mənəvi dəyərlər üzərində qurulmuşdur.

Biz ümumbəşəri dəyərləri bölüşürük, Avropa dəyərlərinə böyük hörmətlə yanaşırıq. Bunlarla yanaşı, bizim üçün milli dəyərlər, Azərbaycan dəyərləri hər şeydən üstündür. Müasir müstəqil Azərbaycan dövləti bu möhkəm zəmin üzərində qurulmuşdur. Bu gün Azərbaycan bütün istiqamətlər üzrə uğurla və sürətlə inkişaf edir.

Milli-mənəvi dəyərlər bizim üçün əsas məsələdir. Elə etməliyik ki, bu dəyərlər gələcəkdə də Azərbaycanda daim üstünlük təşkil etsin. Gənclərimiz, uşaqlarımız, gənc nəsil bu dəyərlər üzərində tərbiyə alsınlar, milli ruhda böyüsünlər, Vətənə bağlı olsunlar, vətənpərvər olsunlar, daim Vətən haqqında düşünsünlər və Vətənin inkişafı üçün əllərindən gələni əsirgəməsinlər. Xüsusilə indiki zamanda, qloballaşma dövründə bunun daha da böyük əhəmiyyəti vardır. Çünki qloballaşmanın müsbət tərəfləri haqqında kifayət qədər geniş danışılır. Ancaq qloballaşmanın mənfi tərəfləri də vardır. Özümüzü bu mənfi təsirdən qorumaq və gələcəkdə, uzun illər bundan sonra da Azərbaycanı inkişaf yolu ilə irəliyə aparmaq üçün mütləq milli dəyərlər üstünlük təşkil etməlidir.

Bizim bayramlarımız da milli dəyərlərimizdir. Necə ki, milli musiqimiz, ədəbiyyatımız, incəsənətimiz, ana dilimiz – bütün bunlar milli dəyərlərimizi formalaşdırır. Biz ana dilimizi, Azərbaycan dilinin saflığını qorumalıyıq. Necə ki, bizdən əvvəl yaşamış nəsillər ana dilimizi qoruyublar, biz də ana dilimizi qorumalıyıq. Bu gün müstəqil Azərbaycan dövləti bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

Artıq 20 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq. Müstəqillik dövründə əldə edilmiş uğurlar kifayət qədərdir. Ancaq ən önəmli məsələ ondan ibarətdir ki, biz daim inkişaf edək, əldə olunmuş uğurlarla kifayətlənməyək, gələcəyə baxaq. Gələcəkdə Azərbaycan hansı istiqamətlər üzrə inkişaf edəcəkdir, Azərbaycanın bölgədəki, dünyadakı rolu necə olacaqdır?! Biz bunu müəyyən edirik. Hesab edirəm ki, müstəqillik dövrünün tarixçəsi deməyə əsas verir ki, Azərbaycan müstəqillik dövründə böyük uğurlara imza atmışdır.

Ancaq hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçirdi. Demək olar ki, 1991–1992-ci illərdə ölkəmizdə baş vermiş özbaşınalıq, anarxiya, xaos, vətəndaş qarşıdurması müstəqilliyimizə böyük zərbə idi. Azərbaycanda müasir dövlət quruculuğu prosesi 1993-cü ildən sonra başlanmışdır. Bütün xoşagəlməz hallara xalqın tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi nəticəsində son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi, ölkəmizdə sabitlik yarandı. Sabitlik hər bir ölkə üçün, inkişaf üçün əsas şərtdir. Biz bu gün dünyada müxtəlif yerlərdə qanlı toqquşmaları, sabitliyin pozulmasını görürük. Dünya birliyi bu məsələləri müzakirə edərkən çıxış yollarını axtarır ki, necə etsin, o ölkələrdə, o bölgələrdə vəziyyət yaxşılığa doğru getsin. Hesab edirəm, artıq bütün mütərəqqi bəşəriyyət açıq-aydın görür ki, hər bir ölkənin uğurlu inkişafı üçün, ilk növbədə, o ölkədə sabitlik olmalıdır.

Ulu öndər Heydər Əliyevin yorulmaz səyləri nəticəsində 1993-cü ildən sonra Azərbaycanda başlanmış sabitlik dövrü bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək. Əgər o sabitlik o vaxt yaradılmasaydı, Azərbaycanın, ümumiyyətlə, gələcəyi böyük sual altında ola bilərdi.

Sabitliklə bərabər, ölkəmizin əsas inkişaf istiqamətləri də məhz o illərdə – XX əsrin 90-cı illərinin ortalarında müəyyən edilmişdir. Çünki o vaxt Azərbaycan müxtəlif istiqamətlər üzrə inkişaf edə bilərdi. Ancaq ulu öndərin baxışları, onun siyasəti nəticəsində

Azərbaycan ən mütərəqqi və ölkəmiz üçün ən optimal inkişaf yolunu seçmişdir. Dövlət quruculuğu – hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu əsasında bütün islahatlar başlanmışdır. Siyasi sahədə islahatlar başlanmışdır. Azərbaycan dünya birliyinə uğurla inteqrasiya edə bilmişdir, mötəbər beynəlxalq təşkilatlara üzv olmuşdur.

Azərbaycanda iqtisadi sahədə də bazar iqtisadiyyatı prinsipləri tətbiq edilməyə başlanmışdır. Bu gün Azərbaycan iqtisadiyyatının, demək olar ki, 85 faizi bazar iqtisadiyyatı hesabına formalaşır.

Müasir müstəqil Azərbaycanın milli ideologiyasının inkişafı və tətbiqi istiqamətində böyük işlər görülmüşdür. Bu ideologiya yenə də milli-mənəvi dəyərlər üzərində qurulmuşdur. Azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji dayağımızdır. Bu gün müstəqil Azərbaycan bu ideoloji dayaq üzərində inkişaf edir. Hər bir dövlətin ideoloji dayaqları olmalıdır. Bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycanda ulu öndər tərəfindən müəyyən edilmiş ideoloji əsaslar əhalimizin mütləq əksəriyyətini birləşdirir. Bu ideoloji əsaslara əhalinin mütləq əksəriyyəti müsbət yanaşır. Bu da cəmiyyətimizi, Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələrini birləşdirir. Biz, sözün əsl mənasında, böyük vahid bir ailədə yaşayırıq. Bu bizim uğurlu inkişafımız üçün əsas şərtlər idi.

Əlbəttə, hər bir ölkənin uğurlu inkişafı iqtisadi müstəqillikdən kənarda həll oluna bilməz. İqtisadi müstəqillik siyasi müstəqilliyi də şərtləndirir. Azərbaycanda son illər uğurlu iqtisadi və siyasi islahatlar paralel olaraq aparılır. Bu islahatlar siyasi müstəqilliyimizi də yüksək dərəcədə möhkəmləndirə bilmişdir. Hətta dünya üçün ən ağır illərdə – maliyyə və iqtisadi böhran illərində də Azərbaycan iqtisadiyyatı inkişaf etmiş, əhalinin sosial vəziyyəti yaxşılaşmış və Azərbaycan öz məqsədlərinə çata bilmişdir.

Əgər iqtisadi müstəqillik olmasaydı, istər-istəməz, siyasi arenada da imkanlarımız daha da məhdud ola bilərdi. Bu gün isə Azərbaycan iqtisadi cəhətdən tam müstəqil ölkədir.

Azərbaycan yalnız öz imkanları ilə inkişaf edir. Siyasəti ancaq öz imkanları əsasında qurur. İqtisadi sahədə aparılan islahatlar həm də insanların gündəlik həyatında öz təsirini göstərir. Dünyanın aparıcı beynəlxalq maliyyə və iqtisadi qurumları da bu reallıqları görür və bunu qiymətləndirir. Avropanın aparıcı dövlətlərinin bir neçəsi böhranla üzləşdiyinə görə onların kredit reytinqləri beynəlxalq reytinq agentlikləri tərəfindən aşağı salınır, Azərbaycanın kredit reytinqləri isə artırılır. Dünyanın bir nömrəli iqtisadi forumu olan Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə MDB məkanında 1-ci, dünya miqyasında isə 46-cı yerdədir. Bütün bu statistik göstəricilər bir daha onu deməyə əsas verir ki, Azərbaycanda aparılan düşünülmüş siyasi və iqtisadi islahatlar öz bəhrəsini verməkdədir.

Bu gün Azərbaycan beynəlxalq maliyyə qurumlarının da donor ölkəsinə çevrilibdir. Bizim çox sabit maliyyə vəziyyətimiz imkan verir ki, öz maliyyə resurslarımızı, o cümlədən hüdudlarımızdan kənara da yerləşdirə bilək və beləliklə, bizim təsir imkanlarımız da artır. Biz bölgədə aparıcı ölkəyik. Bölgədə heç bir layihə, heç bir təşəbbüs Azərbaycanın razılığı olmadan həyata keçirilə bilməz. Mən bunu dəfələrlə bildirmişəm. Yaxın tarix onu bir daha göstərir ki, yerləşdiyimiz bölgədə Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs – istər siyasi, istər iqtisadi – həll oluna bilməz. Bizim bölgədəki mövqemiz kifayət qədər güclüdür.

Azərbaycan dünya miqyasında da çox etibarlı tərəfdaş kimi tanınır. Mənim həmkarlarımla çoxsaylı görüşlərim əsnasında bir daha görmək olar ki, Azərbaycana dünyada böyük hörmət, böyük rəğbət vardır. Azərbaycanın müstəqil siyasəti dünya birliyi tərəfindən qəbul olunur və təqdir edilir. Əgər belə olmasaydı, dünya dövlətlərini birləşdirən ən böyük təşkilatın ali orqanı olan Təhlükəsizlik Şurasına Azərbaycan üzv seçilə bilməzdi. Bu bizim tarixi qələbəmizdir və bu qələbə müstəqilliyimizin 20-ci ildönümünə təsadüf etmişdir.

Bu gün Azərbaycan dünya miqyasında söz sahibidir. BMT Təhlükəsizlik Şurasından yuxarı beynəlxalq qurum yoxdur. Biz artıq ikinci ildir ki, bu qurumun üzvüyük, bu qurumda sözümüzü deyirik, prinsipial mövqemizi ifadə edirik. Əvvəlki çıxışlarda qeyd etdiyim kimi, Azərbaycan bu qurumda beynəlxalq hüququ və ədaləti dəstəkləyir, müdafiə edir. Biz eyni zamanda «Qoşulmama Hərəkatı»na üzv olmuşuq. Bu da BMT-dən sonra deyə bilərəm ki, ən böyük təşkilatlardan biridir və dərhal o təşkilatda da böyük dəstək qazana bilmişik. Bizim o təşkilatın 1-ci zirvə görüşündəki fəaliyyətimiz nəticəsində «Qoşulmama Hərəkatı» tarixdə ilk dəfə olaraq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ədalətli qətnamə qəbul etmişdir. Orada da vurğulanır ki, bu münaqişə ölkələrin ərazi bütövlüyü prinsipləri əsasında öz həllini tapmalıdır.

Yəni bu faktlar özlüyündə bir göstəricidir. Onu demək istəyirəm ki, xarici siyasət istiqamətində qazanılmış uğurlardan daha böyük uğurlar əldə etmək mümkün olmazdı. Eyni zamanda, bizim enerji diplomatiyamız da çox uğurludur və indiki zamanda, xüsusilə dünyada və Avropada enerji resursları ilə bağlı gedən proseslərə nəzər salaraq bir daha bunu görürük ki, enerji siyasətini ümumi diplomatik və siyasi kontekstdən ayırmaq mümkün deyildir. Burada da Azərbaycan söz sahibidir və Azərbaycanın mövqeyi həlledicidir. Nəyə görə?! Çünki yenə də qayıdıram keçən əsrin 90-cı illərinin ortalarına. O vaxt Heydər Əliyevin qətiyyəti, cəsarəti sayəsində ölkəmizin gələcəyi üçün əvəzolunmaz işlər görülmüşdür. Bütün təzyiqlərə, təhdidlərə, hədə-qorxulara baxmayaraq, Heydər Əliyevin qətiyyəti və cəsarəti sayəsində «Əsrin müqaviləsi» imzalandı və o gündən bu günə qədər Azərbaycanın neft strategiyası və ondan sonra enerji diplomatiyası ölkəmizin, xalqımızın milli maraqlarına tam şəkildə xidmət edir. Əgər o illərdə bizim enerji təşəbbüslərimiz, demək olar ki, regional kontekstdən çıxmırdısa, artıq Azərbaycanın mövqeyi, addımları, təşəbbüsləri qitə miqyasında enerji xəritəsinə böyük dəyişikliklər etmiş olur. Bu gün Xəzər hövzəsinin enerji

resurslarının nəql edilməsi ilə əlaqədar Azərbaycan həlledici sözə sahibdir. Bizim mövqemiz həmişə olduğu kimi, ədalətli olubdur və milli maraqlarımıza tam şəkildə cavab veribdir. Azərbaycan tərəfindən irəli sürülmüş enerji təşəbbüsləri, əlbəttə ki, ölkəmizin bundan sonrakı uzunmüddətli inkişaf dinamikasını təmin edəcək, eyni zamanda, Azərbaycan tərəfdaş ölkələr üçün əvəzolunmaz partnyora çevriləcəkdir. Əminəm ki, əvvəlki illərdə olduğu kimi, bu dəfə də bizim bütün təşəbbüslərimiz həyata keçiriləcək və ölkəmizin uzunmüddətli strategiyası uğurla inkişaf edəcəkdir.

Ancaq bununla bərabər, daxili siyasət tələb edirdi ki, biz enerji amilindən asılılığı azaldaq. Çünki enerji resursları tükənən resurslardır. Biz gələcəyə baxmalıyıq. Baxmayaraq ki, Azərbaycanın qaz və neft ehtiyatları onilliklər bundan sonra da xalqımıza xidmət edəcək, indidən qeyri-neft iqtisadiyyatının möhkəm bünövrəsi qoyulmalıdır və qoyulubdur. Keçən ilin statistik göstəriciləri bunun əyani sübutudur. Keçən il qeyri-neft iqtisadiyyatımız təxminən 10 faiz artıbdır və iqtisadiyyatın şaxələndirilməsi məsələləri uğurla həll edilir.

Sosial məsələlərin həllinə gəldikdə, biz burada da çox ciddi siyasət aparırıq. Bazar iqtisadiyyatının bəzi hallarda çox acı fəsadları vardır. Bu gün Avropanın bəzi ölkələrində yaşanan böhran və böhrandan doğan etirazlar onu göstərir ki, bazar iqtisadiyyatı heç də hər zaman gəlirlərin ədalətli bölgüsünə gətirib çıxarmır. Belə olan halda mütləq güclü sosial siyasət aparılmalıdır. Azərbaycanda bu belədir və bazar iqtisadiyyatı istiqamətində aparılan islahatlar insanların rifah halını yaxşılaşdırmışdır. Əmanətlərin qaytarılması, maaşların və pensiyaların mütəmadi qaydada artırılması, ünvanlı sosial proqramın icra edilməsi, məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və bütün bu məsələlər böyük maliyyə mənbələri tələb edir. Azərbaycan dövlətinin siyasəti ondan ibarətdir ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşıdır, hər şey Azərbaycan vətəndaşı üçün olmalıdır. Bax, biz gələcək planlarımızı bu kontekstdə qururuq.

Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi əfsuslar ki, öz həllini tapmır. Bunun əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir və vasitəçilərin bu məsələyə bir növ biganə münasibətidir. Baxmayaraq ki, kifayət qədər güclü bəyanatlar səslənmişdir. Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının məlum bəyanatı hamımızın yadındadır ki, status-kvo qəbuledilməzdir, status-kvo dəyişdirilməlidir. Ancaq əslində heç bir addım atılmır. Ermənistan maraqlıdır ki, bu vəziyyəti – nə hərb, nə sülh vəziyyətini nə qədər mümkündür saxlasın. Ancaq bu bizi qane edə bilməz. Azərbaycan bütün imkanlardan istifadə edir və edəcək ki, danışıqlar prosesində tərəqqi, inkişaf olsun və məsələ tezliklə həll edilsin, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Ancaq bu məsələnin həlli istiqamətində atılan bütün addımlar beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Bundan kənarda heç bir addım atıla bilməz. Beynəlxalq hüquq normaları, beynəlxalq təşkilatların qərar və qətnamələri diktə edir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməlidir. Biz bütün imkanlardan istifadə edərək, ordu quruculuğu prosesində, diplomatik sahədə atılan addımlar, iqtisadi məsələlər və digər regional təşəbbüslər sayəsində mövqemizi gücləndiririk.

Azərbaycan ildən-ilə güclənir, Ermənistan isə ildən-ilə zəifləyir. Ermənistandan onların statistik göstəricilərinə görə ildə ən azı 100 min adam gedir, ölkəni tərk edir. Əlbəttə, əgər biz bu məsələyə tarixi cəhətdən yanaşsaq, heç kimdə şübhə olmaz ki, bu məsələ ədalətli həllini tapacaqdır və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Çünki inkişaf onu göstərir ki, bu məsələnin başqa həlli ola bilməz. Heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Heç vaxt Azərbaycan öz torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Erməni dövləti tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə – bütün bunlar bizim tarixi torpaqlarımızdır. 1918-ci ildə

Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən İrəvanı Ermənistana bağışlamaq da heç kimin yadından çıxmayıbdır. Yəni bu, tarixi həqiqətdir. İkinci dəfə Azərbaycan torpağında qondarma erməni dövləti yaradıla bilməz. Bu heç vaxt olmayacaqdır. Ancaq biz çalışırıq və çalışmalıyıq ki, tezliklə məsələni həll edək. Məsələnin bizim xeyrimizə həll edilməsinə mənim heç bir şübhəm yoxdur. Sadəcə olaraq, nə vaxt və hansı yollarla?! Hələ ki, biz diplomatik yollara üstünlük veririk. Bununla bərabər, öz gücümüzü artırırıq. Ermənistanı bütün regional proqramlardan kənarda saxlayırıq. Onları bütün layihələrdən təcrid etmişik. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycanla rəqabət aparmaq üçün onların nə imkanı, nə insan resursları, nə iradəsi, nə də gücü vardır. Azərbaycan bu gün güclü dövlətdir. Həm siyasi cəhətdən, həm iqtisadi cəhətdən, bütün cəhətlərdən. Azərbaycan öz gücünü göstərir və göstərəcəkdir.

Bu gün bu gözəl bayramı qeyd edərkən, deyə bilərəm ki, son illər ərzində bütün bölgələr kimi, Bakı şəhəri də gözəlləşir, abadlaşır. Bakı bu gün dünya miqyasında ən gözəl şəhərlərdən birinə çevrilir. Bakıya gələn hər bir qonaq bunu qeyd edir, bunu vurğulayır. Bu doğrudan da çox sevindiricidir. Bakı bizim mərkəzimizdir, ürəyimizdir, paytaxtımızdır.

Hər birimiz çalışmalıyıq ki, Bakı daha da gözəlləşsin, abadlaşsın. Son illər ərzində Bakının abadlaşdırılması üçün çox böyük işlər görülmüşdür. 2011-ci ildə Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilmişdir. Proqram bu ilin sonuna qədər başa çatmalıdır və qəsəbələrdə mövcud olan bütün infrastruktur məsələləri öz həllini tapacaqdır.

Bakıda yeni parklar salınır, ictimai yerlər yaradılır, böyük quruculuq işləri aparılır. Mən metro tikintisini xüsusilə qeyd etmək istəyirəm. Bu günə qədər bizim 23 stansiyamız vardır. Son bir neçə il ərzində 3 stansiya istismara verilmişdir. Ancaq qəbul edilmiş master-plan əsasında 2030-cu ilə qədər Bakıda 70 metro stansiyası olmalıdır. Bu işlər ardıcıllıqla aparılır.

Böyük istirahət zonaları, parklar salınır, avtomobil parkinqləri tikilir. Buna da böyük ehtiyac vardır. Çünki hər il ölkəmizə 100 minlərlə avtomobil idxal edilir. Azadlıq meydanının altında böyük parkinq tikilir, yaxın aylarda istifadəyə veriləcəkdir. Ən böyük parkinq isə Heydər Əliyev sarayının arxasında tikilir. Orada təqribən 4 minə qədər avtomobil saxlanması üçün imkan olacaqdır. Eyni zamanda, parkinqin üstündə gözəl park salınır. Onun uzunluğu 1 kilometr, eni isə 150 metrdir. Şəhərimizin ən böyük istirahət zonası olacaqdır, əlbəttə ki, bulvardan sonra.

Bakı bulvarı da genişlənir. Artıq yeni bulvar istifadəyə verilmişdir. Bayraq Meydanında son tamamlama işləri aparılır. Bir-iki aydan sonra Bayraq Meydanı da tamamilə vətəndaşlar üçün açılacaqdır. Bayraq Meydanından Bibiheybət istiqamətinə bulvarın tikintisi davam edir. Bulvarın uzunluğu artıq 15 kilometrdən çox olacaqdır və yaxın aylarda o yerlər də vətəndaşlar üçün açılacaqdır. Bu ildən başlayaraq dəniz vağzalından Zığ istiqamətinə bulvarın uzadılması layihəsi artıq icra edilməyə başlayıb. İlkin işlər görülmüşdür. Orada da çoxsaylı köhnəlmiş müəssisələr, binalar vardır. Orada da təmizlik işləri görülür, bütün köçürmələr aparılır, yüksək kompensasiya ödənilir. Beləliklə, Bakı bulvarı daha da böyüyəcək, uzanacaqdır. Bu da, əlbəttə ki, şəhərimizi daha da gözəlləşdirəcək, insanların istirahəti üçün daha da yaxşı şərait yaradacaqdır.

Əlbəttə, Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Eyni zamanda, mötəbər beynəlxalq tədbirlər də Bakıda indi mütəmadi qaydada keçirilir. Hər həftə, demək olar ki, Beynəlxalq konfrans, hansısa tədbir, yaxud da idman yarışı keçirilir. Ötən il «Evrovision» mahnı müsabiqəsi böyük uğurla keçirilmişdir. Bu il Davos (Dünya) İqtisadi Forumunun Bakıda keçirilməsi gözlənilir. Bu da ölkəmizə və şəhərimizə göstərilən böyük etimaddır. Əlbəttə, biz hamımız 2015-ci ildə keçiriləcək I Avropa oyunlarına hazırlaşırıq. Hazırlıq işləri başlamışdır və dünya tarixində ilk Avropa oyunları Azərbaycanda keçiriləcəkdir. Bunun da çox böyük rəmzi mənası vardır.

Bir sözlə, hər bir vətəndaş yaşadığı yerdə öz səylərini göstərməlidir ki, ölkəmiz daha da inkişaf etsin, çiçəklənsin, insanlar daha da

yaxşı yaşasınlar, Azərbaycan uğurla irəliyə getsin. Mən əminəm ki, bundan sonra da bizim inkişaf yolumuz həmişə açıq olacaqdır. Azərbaycan inkişaf və tərəqqi yolu ilə uğurla gedir və bundan sonra da uğurla gedəcəkdir.

Bir daha, əziz dostlar, sizi və bütün Azərbaycan xalqını bu gözəl Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bayramınız mübarək olsun!

* * *

*Sonra dövlətimizin başçısı, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bayram konsertinə baxdılar.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva Milli Parkda nümayiş etdirilən Azərbaycan xalçalarının nümunələri və toxuma prosesi ilə tanış oldular. Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar. Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.*

*Azərbaycan prezidenti və xanımı, həmçinin gənc rəssamların, modelyerlərin və el sənətkarlarının əl işlərinə tamaşa etdilər. Güləşçilərin və Azərbaycan Qol Güləşi Federasiyasının üzvlərinin çıxışları diqqətlə izlənildi.*

*Prezident İlham Əliyev federasiyanın üzvləri ilə görüşdü, Xatirə kitabına ürək sözlərini yazdı. Dövlətimizin başçısı burada qol güləşdirdi.*

*Sonra prezident İlham Əliyev və Mehriban xanım Əliyeva Milli Kulinariya Mərkəzinin nümayəndələri ilə söhbət etdilər, manqalda bişirilən kababın dadına baxdılar.*

*Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də təqdim edilirdi. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və Leyla Əliyeva bayram şirniyyatlarını daddılar, çay içdilər.*

*Milli Parkda təşkil edilən «Şərq bazarı» bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar, zorxana güləşçiləri, idmançılar məharətlərini göstərirdilər. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Leyla Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə baxdılar.*

*Pəhləvanlarla xatirə şəkli çəkdirildi.*

*Dövlətimizin başçısı və xanımı bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsulların bayram şənliyi çərçivəsində təşkil edilmiş sərgisi ilə tanış oldular. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri də şənlik iştirakçılarında maraq doğurdu.*

*Azərbaycan prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.*

*Novruz bayramı münasibətilə keçirilən şənliklərdə Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

*Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə axşamdan xeyli keçənədək davam etdi.*

## BAKININ FÜZULİ KÜÇƏSİ İLƏ MİRZAĞA ƏLİYEV KÜÇƏSİ ARASINDA İNŞA EDİLƏN YERALTI AVTOMOBİL DAYANACAĞINDA, YERÜSTÜ PARK, BAĞ VƏ FƏVVARƏLƏR KOMPLEKSİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*29 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 29-da Bakının Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında inşa edilən yeraltı avtomobil dayanacağında, yerüstü park, bağ və fəvvarələr kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısının tapşırıqlarına əsasən Bakı şəhərinin infrastrukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl olaraq davam etdirilir. Bakı şəhərində park və xiyabanlar müasir şəkildə yenidən qurulur, yaşıllıq zolaqları salınır, yeni istirahət guşələri yaradılır.*

*Paytaxtın Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında yeraltı avtomobil dayanacağının üstündə müasir park kompleksinin inşa olunması şəhərimizin simasının daha da yenilənməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Azərbaycan prezidenti kompleksdə inşaat işlərini daim nəzarətdə saxlayır, burada aparılan tikintinin gedişi ilə mütəmadi olaraq maraqlanır.*

*Dövlətimizin başçısı avtomobili özü idarə edərək, əvvəlcə yeraltı avtomobil dayanacağına gəldi. Bu dayanacaq avtomobil tutumuna görə dünyada ən böyük dayanacaqlardan biridir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeraltı avtomobil dayanacağından keçib yerüstü park kompleksinə gəldilər.*

*Yeni salınan bu park kompleksi şəhərin içərisində ən böyük parkdır. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalı-*

*bov park kompleksinin layihəsi əsasında prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, 7 hektar ərazisi olan parkın 29 min kvadratmetrlik sahəsinə qranit plitə döşənəcəkdir. Hazırda 20 min kvadratmetrlik sahəyə qranit plitələr döşənmişdir. Park kompleksinin 6 min kvadratmetrlik sahəsinə asfalt örtük çəkiləcəkdir. Kompleksin 35 min kvadratmetrlik ərazisində yaşıllıq zolaqları salınacaqdır. Həmin əraziyə 35 min kubmetr əkin torpağının töküldüyü bildirildi. Burada 2000-ə yaxın ağac, 10 minə yaxın bəzək kolu, çoxlu sayda gül və çiçək əkiləcəyi, ərazinin bütünlüklə yaşıl otlarla örtüləcəyi qeyd olundu. Bildirildi ki, parkda ən müasir tələblərə cavab verən 5 fəvvarə inşa olunacaq. Kompleksin ətrafındakı binalarda və ərazilərdə əsaslı şəkildə abadlıq və quruculuq işlərinin də həyata keçiriləcəyi bildirildi. Dövlətimizin başçısı paytaxtın Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında salınan park kompleksində aparılan inşaat işləri ilə bağlı müvafiq tövsiyələrini verdi.*

## «ATƏŞGAH MƏBƏDİ» DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA APARILAN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*Suraxanı rayonu*

*29 mart 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 29-da paytaxtın Suraxanı rayonu ərazisindəki «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq Qoruğunda aparılan bərpa və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşlar.*

*Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində mühüm layihələr həyata keçirilir. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən tarix və mədəniyyət abidələrinə dövlət səviyyəsində diqqət və qayğı gündən-günə artır. Dövlətimizin başçısının bununla bağlı imzaladığı fərman və sərəncamlar, aparılan məqsədyönlü siyasət və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihələr nəticəsində bir sıra abidələrimizin YUNESKO-nun mədəni irs siyahısına daxil edilməsi, qədim tariximizi yaşadan məbədlərin təmir və bərpası, bölgələrdə aparılan genişmiqyaslı arxeoloji ekspedisiyalar bunun ən yaxşı göstəricisidir. Azərbaycanın maddi mədəniyyət abidələri sırasında Bakının Suraxanı rayonunda yerləşən, XVII–XVIII əsrlərə aid atəşpərəst məbədinin qalıqları üzərində inşa olunmuş və YUNESKO-nun «Dünya irsinin ilkin siyahısı»na daxil edilmiş «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq Qoruğunun özünəməxsus yeri vardır. Azərbaycan prezidentinin sərəncamı ilə 2007-ci ildən Mədəniyyət və Turizm Nazirliyinin tabeliyinə verilən qoruqda 2009-cu ilin iyulundan ərazinin mühafizəsi və maddi-texniki təminatın*

*gücləndirilməsinə başlanılıb, məbəd və məbədətrafı ərazilərin abadlaşdırılması həyata keçirilib.*

*Qeyd olundu ki, qoruğun sahəsi 4,2 min kvadratmetrdən 15 min kvadratmetrə qədər genişləndirilib. Sahəsi 2 min kvadratmetrdən artıq olan əsas bina xüsusi memarlıq üslubunda inşa olunub. Məbədlə həmahəng inşa olunan əsas binada idarə, dəmirçi kürəsi, dəmirçi emalatxanası, mis və çini qablar, taxta üzərində oyma, xalça, kəlağayı və həsir toxuma emalatxanaları, suvenirlər, rəsm qalereyası mövcuddur. Xüsusi memarlıq üslubunda yaradılan muzeydə Bakı şəhəri və Abşeron rayonu ərazisində vaxtilə mövcud olan qədim yaşayış binalarını və abidələri əks etdirən guşələr yaradılıb. Burada əcdadlarımızın istifadə etdikləri məişət əşyaları və incəsənət nümunələri nümayiş olunur. Muğam evində isə buraya gələn ziyarətçilərin istirahətinin yüksək səviyyədə təşkili məqsədilə ayrıca guşə yaradılıb. Burada Azərbaycan muğamının təbliği məqsədilə müxtəlif konsertlərin təşkili də nəzərdə tutulur.*

*Bildirildi ki, 2012-ci ilin sentyabrından başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə məbədətrafı ərazilərin abadlaşdırılması, yardımçı binaların tikintisi işləri sürətlə həyata keçirilmiş, 7 ay ərzində başa çatdırılmışdır. Burada kütləvi tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb, müasir işıqlandırma sistemi qurulub.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Atəşgah məbədində görülən işlərlə tanış oldular.*

*Diqqətə çatdırıldı ki, Atəşgah məbədi XVII–XVIII əsrlərdə təbii qazların çıxdığı «əbədi», sönməz alovların yerində inşa edilmiş od məbədidir. İndiki ibadətgah da atəşpərəstlərin–zərdüştlərin qədim məbədlərinin yerində tikilmişdir. Bu məbədlər təqribən II–III əsrlərdə inşa edilmişdir. XVII əsrdə məbədin ətrafında bir-birinin yanında ibadətxana, 26 hücrə və karvansara inşa edilmişdir. Vaxtilə hücrələrdə müxtəlif dini ayinlərin icra olunması və oda sitayiş edən kahinlərin fəaliyyəti üçün lazımi şərait də olmuşdur. Məbədə gələn zəvvarlar karvansarada istirahət imkanı da əldə etmişlər. XVIII əsrin əvvəlində məbəd artıq bizim dövrə gəlib çıxdığı şəkli almışdır.*

*Vurğulandı ki, beşkünc planda tikilmiş abidənin həyatində mərkəzi səcdəgahın yuxarısı günbəzlə tamamlanan dördkünc tikili ucalır. Giriş portalının üstündə Abşeronda ənənəvi olan qonaq otağı – «Balaxana» yerləşir. Yeni memarlıq ənənələri ilə tikilmiş Atəşgah məbədi özündə qədim od səcdəgahlarının elementlərini qoruyub saxlamışdır. Məbədin ən erkən tikilisi olan karvansara 1713-cü ilə aiddir, üstündə qədim sanskrit dilində yazı vardır.*

*Dövlətimizin başçısı Atəşgah məbədinin XIX əsrdə çəkilən şəkillərini, bərpadan əvvəlki və sonrakı görüntülərini əks etdirən fotostendlərə, qoruq ərazisində yaxın gələcəkdə görüləcək işlərin eskiz layihələrinə baxdı.*

*Görülmüş işlərdən razılığını bildirən prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

# MASAZIR QƏSƏBƏSİNDƏ 760 MƏCBURİ KÖÇKÜN AİLƏSİ ÜÇÜN YENİ SALINMIŞ MƏHƏLLƏNİN AÇILIŞI MƏRASİMİ

*1 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Abşeron rayonunun Masazır qəsəbəsində 760 məcburi köçkün ailəsi üçün yeni salınmış məhəllənin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyevə məlumat verən Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bildirdi ki, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması hər zaman Azərbaycan dövlətinin diqqət mərkəzində olub. 1993-cü ildən başlayaraq ulu öndər Heydər Əliyev bu istiqamətdə 81 fərman və sərəncam imzalamış, Nazirlər Kabineti 307 qərar vermiş, Milli Məclis 24 qanun qəbul etmişdir. 2003–2012-ci illərdə isə bu sahədə prezident İlham Əliyev tərəfindən 49 fərman və sərəncam imzalanmışdır. Ötən dövrdə 2 Dövlət Proqramı və həmin dövlət proqramlarına edilən əlavələr təsdiq edilmiş və onlar uğurla icra olunmuşdur. 2001–2012-ci illərdə 31 min ailə və ya 140 min nəfərdən çox qaçqın və məcburi köçkün üçün 77 qəsəbə, çoxmərtəbəli binalardan ibarət məhəllə və fərdi evlər tikilib. Bu dövrdə 134 məktəb, 5 musiqi məktəbi, 48 uşaq bağçası, 51 tibb müəssisəsi, 2 Olimpiya İdman Kompleksi, 37 rabitə evi inşa olunmuş, minlərlə kilometr uzunluğunda su, elektrik və qaz xətləri çəkilmişdir. Həmçinin, 1348 ailə və ya 6740 məcburi köçkün Maliyyə Nazirliyi tərəfindən ayrılan vəsait hesabına dövlət ehtiyacları ilə əlaqədar Abşeron rayonunun ərazisində tikilmiş yeni mənzillərə köçürülmüşdür. Dövlət büdcəsində nəzərdə tutulan investisiya xərcləri vəsaiti hesabına Ahıska türkləri üçün 352 evin inşası başa çatdırılıb və bu layihə 2013-cü ildə də davam etdiriləcəkdir. Ümumilikdə qaçqınların və məcburi*

*köçkünlərin sosial problemlərinin həlli məqsədilə 1993–2012-ci illərdə 5,4 milyard dollar vəsait xərclənmişdir. 2012-ci ildə Dövlət Neft Fondundan 300 milyon manat vəsait ayrılmışdır ki, bu da 2011-ci illə müqayisədə 2,2 dəfə, 2003-cü ilə nisbətən isə 15 dəfə çoxdur. 2013-cü ildə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllinə 590 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Dövlət Neft Fondundan ayrılacaq 300 milyon manat vəsait hesabına 4 min ailə, yəni 20 min nəfər məcburi köçkün üçün ümumi sahəsi 260 min kvadratmetr olan, bütün zəruri sosial-texniki infrastruktur obyektləri ilə birlikdə 8 qəsəbə və məhəllə salınacaqdır.*

*Dövlətimizin başçısı əvvəlcə Zəngilan Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə maraqlandı. Ən müasir standartlar səviyyəsində inşa olunmuş üçmərtəbəli binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur. Bundan başqa, foyedə ulu öndər Heydər Əliyevin qaçqın və məcburi köçkünlərə qayğısını və onlarla görüşlərini, eləcə də Zəngilanın işğaldan əvvəlki görüntülərini əks etdirən fotostend yaradılmışdır. İş otaqları ilə tanışlıq zamanı bildirildi ki, burada işçilərin rahat fəaliyyəti üçün hər cür şərait vardır. Üçüncü mərtəbədəki 50 nəfərlik akt zalında isə müxtəlif tədbirlər keçirmək mümkün olacaqdır.*

*Sonra Azərbaycan prezidenti Zəngilan rayonundan məcburi köçkün Vəli Quliyevin mənzilində yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, ailə üzvlərinin sayı 5 nəfərdən ibarət olan Vəli Quliyevin mənzili üçotaqlıdır. Mənzildə ailənin rahatlığı üçün hər cür şərait vardır.*

*Dövlətimizin başçısı çay süfrəsi ətrafında mənzilin sahibi ilə söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Təbrik edirəm sizi. Gözəl qəsəbədir, gözəl mənzildir. İşğaldan sonra köçkünləri yataqxanalara, çadır şəhərciklərinə köçürmüşlər. Uzun illər siz orada çətin, ağır şəraitdə yaşamısınız. Amma indi dövlətin imkanları genişlənir. Bu istiqamətdə məqsədyönlü şəkildə dövlət siyasəti aparılır. Ona görə bütün köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması prioritet

məsələdir. Belə qəsəbələrin sayı çoxdur. Keçən il Müşfiqabadda buna bənzər bir məhəllənin açılışında iştirak etmişdim. Bu il artıq bu gözəl məhəllə istifadəyə verilir. Bundan sonra da olacaqdır, Mingəçevirdə olacaqdır. Bu proses davam edir və artıq burada rahat yaşamaq mümkün olacaqdır. Ancaq bu, müvəqqəti yaşayış yeridir. Əsas məsələ öz həllini tapandan, torpaqlarımız işğalçılardan azad olunandan sonra Zəngilanda, digər şəhər və rayonlarımızda bundan da gözəl evlər tikəcəyik.

**V ə l i Q u l i y e v:** Çox sağ olun, cənab Prezident. Bizə belə gözəl şərait yaratdığınız, bizə göstərdiyiniz qayğı üçün bütün köçkünlər adından, ailəmiz adından, öz adımdan Sizə təşəkkür edirəm. Sizə uzun ömür, cansağlığı arzu edirəm. Qarşıdan prezident seçkiləri gəlir. Sizin prezidentliyə namizədliyinizi biz – bütün köçkünlər, hamımız dəstəkləyəcəyik. Biz indiyədək çətin vəziyyətdə, ağır şəraitdə yaşamışıq. İndi, şükür Allaha, gözəl binalar tikilir, bizə gözəl otaqlar bəxş etmisiniz. Ona görə də sizə minnətdarıq, təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Hər şey ardıcıllıqla öz həllini tapır. Əlbəttə, ilk növbədə, biz çadırda yaşayanların problemlərini həll etmişik. Onlar uzun illər idi ki, daha da ağır vəziyyətdə yaşayırdılar. Sonra fin qəsəbələrində yaşayanların problemini həll etdik. Qalır yataqxanalarda, uşaq bağçalarında, məktəblərdə yaşayanlar. Onların da problemini həll edəcəyik. İndi həm də dövlətin imkanları var və ən önəmlisi, dövlət siyasəti vardır. Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Sosial cəhətdən ən az müdafiə olunan təbəqə, yəni məcburi köçkünlərin problemlərinin həlli prioritetdir. Bunu dəfələrlə ulu öndər də bəyan etmişdir, mən də bildirirəm ki, bundan böyük prioritet ola bilməz. Artıq bu qəsəbə özlüyündə bir göstəricidir. Bu, yeni bir yanaşma tərzidir. Əvvəllər də, indi də, xüsusilə rayon yerlərində fərdi evlər tikilir. Ancaq siz artıq 20 ildir şəhər şəraitində yaşayırsınız. Burada şəhər tipli evlərin tikilməsi məqsədəuyğun idi. Evlər də hamısı çox gözəl, qəsəbə də belə gözəl planlaşdırılmışdır. Bu şəhərcikdə 3500-ə qədər insan rahat yaşayacaqdır. Tibb məntəqəsi, məktəb, uşaq bağçası. Görürəm,

burada istilik sistemi, qaz, işıq, su da vardır. Bu təbiidir. İş yerləri ilə bağlı, işləyirsiniz?

**V ə l i  Q u l i y e v:** Mən özüm indi təqaüddəyəm. Əvvəl işləmişəm.

**İ l h a m  Ə l i y e v:** Təqaüd alırsınız?

**V ə l i  Q u l i y e v:** Bəli, alıram.

**İ l h a m  Ə l i y e v:** Bəs uşaqlar necə?

**V ə l i  Q u l i y e v:** Uşaqlar işləyirlər.

**Ə l i  H ə s ə n o v:** Cənab Prezident, tapşırığınız oldu ki, elə yer seçək ki, iş yerləri itirilməsin. Yəni bir problem həll olunursa, o birisi yaranmasın. O cür də icra olunur.

**İ l h a m  Ə l i y e v:** İndi yeni yollar tikilir, dairəvi yol, sonra Bakı–Sumqayıt yolu.

**Ə l i  H ə s ə n o v:** Bəli, buradan gəlib keçir.

**İ l h a m  Ə l i y e v:** Hələ Masazırın öz yolu da yenidən tikilibdir. İndi beynəlxalq qurumlar da bunu qeyd edir ki, Azərbaycanda bu məsələyə göstərilən diqqət və yanaşma bütün başqa ölkələr üçün də nümunədir. Çünki beynəlxalq təşkilatların rəhbərləri, nümayəndələri, xarici dövlətlərin nümayəndələri vaxtaşırı qəsəbələrə gəlir, tanış olurlar. Xüsusilə qaçqınlarla bağlı məsələlərə cavabdeh olan şəxslər də birmənalı qaydada deyirlər ki, Azərbaycanda bu məsələ ən yüksək səviyyədə həll olunur. Belə evlər, belə qəsəbələr heç bir ölkədə tikilmir.

Dünyada bir çox ölkələrdə qaçqın-köçkün problemləri vardır. Ancaq bu problemlərin ən uğurlu həlli metodu Azərbaycandadır. Görürsünüz, dünyada – Yaxın Şərqdə, başqa yerlərdə məcburi köçkünlər böyük problemlərlə üzləşirlər. İndi 100 minlərlə insan məcburi köçkünə çevrilmişdir. Azərbaycanda bu məsələnin bu dərəcədə düşünülmüş qaydada həll edilməsi o ölkələr üçün də bir yol göstərir. Bu cür məsələlər belə həll olunmalıdır. Burada söhbət təkcə binaların tikintisi ilə məhdudlaşmır. Biz bu məsələlərə kompleks şəkildə yanaşırıq – yardımlar, hər köçkünə ayrılan vəsait, iş yerləri.

Əhalinin sayını nəzərə alsaq ən çox qaçqın və köçkünü olan ölkə Azərbaycandır. Bizdə 1 milyondan çox qaçqın-köçkün vardır.

Bu doğrudan da böyük problemdir. Ancaq biz bu problemi həll edirik və həll edəcəyik. Yenə də deyirəm, bu, müvəqqəti məkandır. Şübhə yoxdur ki, biz o torpaqlara qayıdacağıq. O ərazilər bizim tarixi, əzəli torpaqlarımızdır. Ermənistan–Azərbaycan münaqişəsi öz həllini mütləq tapmalıdır. 2 ölkə arasında olan qüvvələr nisbəti bizim xeyrimizə dəyişmişdir. Tarixin inkişafı, gedən proseslərin inkişafı onu göstərir ki, biz mütləq öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Mənim buna heç bir şübhəm yoxdur. Azərbaycanın və Ermənistanın göstəricilərinə nəzər salın. Biz istənilən sahədə onlardan müqayisəedilməz dərəcədə üstünük – iqtisadi, siyasi, sosial məsələlərin həllində, bütün məsələlərdə, ordu quruculuğu işində.

Əlbəttə, biz istəyirik ki, məsələ tezliklə öz həllini tapsın. Amma prinsiplər vardır. Bu məsələ beynəlxalq hüquq normaları əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və tapacaqdır. Tarixin inkişafını heç kim dayandıra bilməz. Tarixin inkişafı, bölgədə gedən proseslərin inkişafı onu göstərir ki, Azərbaycan ilə rəqabət aparmaq üçün Ermənistanda heç bir imkan yoxdur. Nə maliyyə, nə iqtisadi, nə hərbi, nə də insan resursları yoxdur. Biz isə bu məsələnin həlli üçün bütün lazımi tədbirləri ardıcıllıqla görürük. Köçkünlər üçün müvəqqəti olaraq belə gözəl imkanlar yaradırıq. Sizi bir daha təbrik edirəm.

**V ə l i Q u l i y e v:** Çox sağ olun, cənab Prezident. Arzu edirəm ki, torpağımız alınsın, Sizi Zəngilanda qarşılayaq.

**İ l h a m Ə l i y e v:** İnşallah, sağ olun.

**V ə l i Q u l i y e v:** Çox sağ olun, minnətdarıq.

* * *

*Yeni məhəllə ilə tanışlıq zamanı prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, bu kompleks qaçqınlar və məcburi köçkünlər üçün indiyədək salınmış sayca 78-ci yaşayış məntəqəsidir. Məhəllə Azərbaycan prezidentinin 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na Azərbaycan Respublikası*

*Prezidentinin 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilən əlavələrin müvafiq bəndlərinə əsasən inşa olunmuşdur. Yeni salınmış məhəlləyə Azərbaycan Dövlət Neft Akademiyasının tələbə şəhərciyində müvəqqəti məskunlaşmış 760 ailə və ya 3420 məcburi köçkün köçürüləcəkdir. Məcburi köçkünlərdən 460-ı Zəngilan, 66-sı Ağdam, 52-si Cəbrayıl, 40-ı Füzuli, 142-si isə Kəlbəcər, Laçın, Qubadlı, Şuşa, Xocavənd, Xocalı rayonlarındandır.*

*Diqqətə çatdırıldı ki, 12 hektar sahəni əhatə edən yeni məhəllə inşa edilmiş 90-ı birotaqlı, 490-ı ikiotaqlı, 170-i üçotaqlı, 10-u isə dördotaqlı 760 evdən ibarətdir. Məhəllədə 540 şagird yerlik məktəb, 280 yerlik uşaq bağçası, klub-icma mərkəzi, tibb məntəqəsi və s. tikilmişdir. Məhəllənin inşasına ötən ilin aprelində başlanılmışdır. Tikinti işləri bu ilin martında tam başa çatdırılmışdır. Su, elektrik və qaz təchizatı şəbəkələri Abşeron rayonunun kommunikasiya sisteminə qoşulmuşdur. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə inşa olunmuş qəsəbənin inşasına 83,9 milyon manat sərf edilmişdir.*

*Azərbaycan prezidenti məhəllədə salınmış 280 yerlik «Şəfəq» uşaq bağçası ilə də tanış oldu. Bildirildi ki, bağçanın ikimərtəbəli binası zəruri avadanlıqla təchiz olunmuşdur. Burada balacaların təlim-tərbiyəsi üçün bütün tələblər nəzərə alınmışdır. Bağçanın musiqi zalında da hər cür şərait vardır.*

*Daha sonra prezident İlham Əliyev 540 şagird yerlik Zəngilan rayon 33 saylı tam orta məktəbinə gəldi.*

*Məktəbin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə məcburi köçkünlərlə görüşlərini, təhsilə diqqət və qayğılarını, eləcə də məhəllənin baş planını əks etdirən stendlər quraşdırılmışdır.*

*Məktəblə tanışlıq zamanı bildirildi ki, yüksək şəraiti, müasir təlim avadanlığı ilə diqqəti cəlb edən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Azərbaycan prezidentinin ölkəmizdə təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bu sahənin dövlət siyasətinin mühüm prioritetləri sırasına daxil edildiyini təsdiqləyir. Bu proses təkcə paytaxtla məhdudlaşmır,*

*bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət edir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə əhəmiyyəti ilə seçilir.*

*Prezident İlham Əliyev məktəbin kompüter otağında, idman zalında yaradılmış şəraitlə tanış oldu, Zəngilan rayonunun «Araz» idman klubu idmançılarının nümunəvi çıxışlarına baxdı.*

*Dövlətimizin başçısı idmançılarla xatirə şəkili çəkdirdi.*

*Azərbaycan prezidenti məktəbin ikinci mərtəbəsində təşkil olunan Zəngilan rayonunun Tarix-Diyarşünaslıq Muzeyinin eksponatlarından ibarət sərgi ilə tanış oldu. Məktəblə tanışlıqdan sonra dövlətimizin başçısı burada məcburi köçkünlər və inşaatçılarla görüşdü.*

*Prezident İlham Əliyev mərasim iştirakçılarını təbrik etdi:*

– Sizi ürəkdən salamlayıram, ürəkdən təbrik edirəm. Bu gün biz Masazır qəsəbəsində məcburi köçkünlər üçün salınmış yeni məhəllənin açılışını bərabər qeyd edirik. Çox gözəl hadisədir. Bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

Məhəllə ən yüksək standartlar əsasında tikilmişdir, yaraşıqlı mənzillər, gözəl məktəb, uşaq bağçası, tibb məntəqəsi vardır. Bütün infrastruktur yaradılmışdır – işıq, qaz, su, istilik xətləri çəkilmiş, yollar salınmışdır. Yəni bu məhəllədə rahat yaşamaq üçün bütün imkanlar vardır.

Bu şəhərciyin istifadəyə verilməsi bir daha Azərbaycan dövlətinin siyasətini əks etdirir. Bizim siyasətimiz isə ondan ibarətdir ki, hər şey Azərbaycan vətəndaşı üçün olmalıdır. Məcburi köçkünlərin problemlərinin həlli bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. Birinci qəsəbə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə salınmışdır. O vaxtdan bu günə qədər 77 qəsəbə tikilmişdir. Bu 78-cidir. Burada yeniliklər də çoxdur. Hündür binalar tikilmişdir. Əminəm ki, bu siyasət gələcək illərdə uğurla davam etdiriləcəkdir. Çünki Azərbaycanda ulu öndər Heydər Əliyev siyasəti bütün istiqamətlər üzrə davam etdirilir. O

cümlədən məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması məsələləri də öz həllini tapmaqdadır. Müvafiq sərəncamlar imzalanmışdır, proqramlar qəbul edilmişdir. Proqramlar çox dəqiqdir. Ən önəmli məsələ ondan ibarətdir ki, bu proqramlar vaxtında icra edilir.

Keçən il 20 min məcburi köçkün öz yaşayış şəraitini yaxşılaşdırmışdır. Bu il də ən azı 20 min köçkünün yaşayış səviyyəsi yaxşılaşdırılacaq. Bu işlər bundan sonrakı illərdə də görüləcəkdir. Dövlət bu istiqamətdə öz siyasətini uğurla aparır. Bu il bütün mənbələrdən məcburi köçkünlərin problemlərinin həlli üçün 600 milyon manata qədər vəsait nəzərdə tutulmuşdur. Bu məbləğin 300 milyondan çox hissəsi yeni qəsəbələrin tikintisinə sərf ediləcəkdir. Keçən ilin sonunda biz Müşfiqabad qəsəbəsində buna oxşar məhəllənin açılışını qeyd etmişik. Bu il isə buradayıq. Bundan sonra Mingəçevirdə, Gəncədə, başqa şəhərlərdə yeni qəsəbələr tikiləcəkdir.

Azərbaycan dövləti bütün bu istiqamətdəki işlərini ardıcıllıqla həll edir. Bilirsiniz ki, birinci mərhələdə, əlbəttə, ən ağır vəziyyətdə çadır şəhərciklərində yaşayan soydaşlarımız diqqət mərkəzində idi. Biz o proqramı uğurla və vaxtından əvvəl icra edə bildik. 2007-ci ildə sonuncu çadır şəhərciyi ləğv edilmişdir. Ondan sonra bəyan edilmişdir ki, fin qəsəbələrində, yataqxanalarda, məktəblərdə, uşaq bağçalarında yaşayan məcburi köçkünlərin də məsələləri öz həllini tapacaq və artıq bu istiqamətdə də çox vacib işlər görülmüşdür. Bu il fin qəsəbələri tamamilə ləğv edilir və yataqxanalarda məskunlaşmış məcburi köçkünlərin də artıq belə qəsəbələrə köçürülməsi prosesi başlamışdır. Bakı Dövlət Universitetinin, Dövlət Neft Akademiyasının yataqxanalarında məskunlaşmış vətəndaşlar, o cümlədən də siz artıq, bax, bu gözəl qəsəbələrə köçürülürsünüz. Bir daha demək istəyirəm ki, bu, dövlət siyasətinin təzahürüdür. Azərbaycanda çox güclü sosial siyasət aparılır və bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Məcburi köçkünlər ən çox əziyyət çəkən insanlardır. Erməni işğalından

sonra siz uzun illər çox ağır şəraitdə yaşamısınız. Məcburi köçkünlərin bəziləri hələ də ağır şəraitdə yaşayırlar. Biz bunu bilirik və bütün bu məsələləri ardıcıllıqla həll edirik. Əlbəttə, imkan daxilində.

İlk illərdə maliyyə imkanlarımız o qədər də böyük deyildi. Buna baxmayaraq, Dövlət Neft Fondundan birinci ödəmələr ulu öndər Heydər Əliyevin göstərişi ilə məcburi köçkünlərin problemlərinin həlli üçün sərf edilmişdi. O vaxt hələ bizim maliyyə imkanlarımız məhdud olduğu bir dövrdə birinci böyük vəsait məhz bu məqsədlərə istiqamətləndirilmişdi. Bu gün, əlbəttə ki, iqtisadi və maliyyə imkanlarımız böyük dərəcədə artmışdır. Ona görə də görülən işlərin həcmi də artmışdır. Yenə də deyirəm, təkcə bu il 600 milyon manatdan çox vəsait bu məqsədlər üçün sərf ediləcəkdir. Bu, böyük məbləğdir. Ancaq o da həqiqətdir ki, hələ də ağır vəziyyətdə yaşayan köçkünlər var – həm Bakıda, həm başqa şəhər və rayonlarda, məktəblərdə, uşaq bağçalarında, hərbi hissələrin ərazilərində, yataqxanalarda. Bu məsələlər tədricən öz həllini tapacaqdır. Bu il 20 min köçkün yeni mənzillərlə təmin ediləcəkdir. Bu qəsəbədə isə 3500-ə yaxın məcburi köçkün yaşayacaq. Əslində bura bir şəhərcikdir.

Görülən bütün bu işlər bir daha onu göstərir ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu günə qədər 140 min məcburi köçkün yeni evlərə, mənzillərə köçürülmüşdür. Yəni bu böyük bir işdir, elə bil ki, yeni böyük bir şəhər salınmışdır. Onu da bilməliyik ki, dünyada ən çox qaçqın-köçkün olan ölkə Azərbaycandır. Azərbaycanın əhalisi artır. Ancaq məcburi köçkünlərin də sayı artmaqdadır. 1992-ci ildə onların sayı 1 milyon idi, indi isə artıq 1 milyon 100 min, bəlkə də 1 milyon 200 min məcburi köçkün vardır.

Əlbəttə ki, bu, böyük maliyyə vəsaiti tələb edən məsələdir. Ancaq yenə də deyirəm, nəzərə alsaq ki, Azərbaycanda sosial siyasət çox uğurla aparılır, birinci növbədə ən böyük vəsait məcburi köçkünlərin problemlərinin həlli üçün nəzərdə tutulmuşdur. Gələcək illərdə də bu siyasət davam etdiriləcəkdir. Ola bilsin ki, gələcək illərdə daha da böyük məbləğlər ayrılacaqdır.

Amma onu da bilməliyik ki, keçən il Dövlət Neft Fondundan bütün dövrlərlə müqayisədə ən böyük məbləğ ayrılmışdır – 300 milyon manat. Əvvəlki illərdə 100 milyon, 200 milyon, yəni ötən il 300 milyon manat, bu il də 300 milyon manat təkcə Neft Fondundan ayrılmışdır. İlin əvvəlində Prezidentin ehtiyat fondundan da 14 milyon manat təxirəsalınmaz tədbirlərin görülməsi üçün ayrılmışdır. İstisna deyil ki, il ərzində ehtiyat fondundan bu məsələlərə yenə də vəsait ayrılacaqdır.

İndi Azərbaycan iqtisadiyyatı o qədər sürətlə inkişaf edir ki, bizim o qədər də böyük maliyyə problemlərimiz yoxdur. Ancaq biz ölkə qarşısında duran problemləri də həll edirik. Əlbəttə ki, məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması onların arasında ən böyük diqqətə layiq olan məsələdir. Ancaq digər məsələlər də var – infrastruktur layihələri, abadlıq-quruculuq, yenidənqurma işləri. Dövlət büdcəmizin həcmi artır, amma xərclər də artır və bu məsələləri uğurla həll etmək üçün biz hələ çox işləməliyik.

Ancaq bu gün bir mənzillə tanış olarkən məcburi köçkünlə söhbət əsnasında qeyd etdim və bir daha demək istəyirəm ki, bu, müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra biz bundan da gözəl binalar, evlər tikəcəyik. O cümlədən Zəngilanda və işğala məruz qalan digər rayonlarda bundan da gözəl şərait yaradacağıq. Yəni məcburi köçkünlərin yerləşdirilməsi və köçürülməsi prosesi onu göstərir ki, biz bu imkanlara malikik. Əgər biz 140 min köçkünü artıq yerləşdirə bilmişiksə və hər il 20 min köçkün yeni evlərlə təmin edilirsə, deməli, torpaqlarımız işğaldan azad olunandan sonra tezliklə bütün şəhərləri, kəndləri bərpa edəcəyik, evləri tikəcəyik, şərait yaradacağıq. Mən buna əminəm, buna şübhə etmirəm. Azərbaycanın artan maliyyə, iqtisadi qüdrəti bunu mümkün edəcəkdir. O ki qaldı əsas məsələnin – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, Azərbaycanın mövqeyi birmənalıdır. Bu mövqe həm tarixi ədalətə, həm də beynəlxalq hüquqa əsaslanır. Azərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməlidir.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Hazırda işğal altında olan bütün torpaqlar tarixi torpaqlarımızdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu deməyə əsas verən bir çox amillər vardır. Onların içərisində həm hüquqi, həm siyasi, həm tarixi, həm də iqtisadi amillər vardır. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Heç bir ölkə Dağlıq Qarabağı müstəqil qurum kimi tanımır və tanımayacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Bütün beynəlxalq təşkilatlarda qəbul edilmiş qətnamələr bunu göstərir. Bu, məsələnin həlli üçün əsas hüquqi və siyasi şərtlərdir.

Bölgədə qüvvələr nisbəti artıq bizim xeyrimizə dəyişmişdir. Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Ermənistan isə ildən-ilə tənəzzülə uğrayır. Bizim əhalimiz artır – artıq 9 milyon 300 min nəfərdir. Ermənistanın əhalisi hətta onların rəsmi statistik məlumatlarına görə ildə təxminən 100 minə qədər azalır. Ona görə mən deyəndə ki, tam əminəm Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir, bu amillərə əsaslanıram. Mən də, hər birimiz də çox istəyirik ki, bu məsələ tezliklə həllini tapsın. Biz çox istəyirik təxirəsalınmaz tədbirlər görülsün ki, işğala son qoyulsun. Əfsuslar olsun ki, dünyada mövcud olan ikili standartlar, ikili yanaşma məsələnin həllinə imkan vermir.

Münaqişənin birinci mərhələsində, demək olar ki, Ermənistan ilə Azərbaycan arasında hərbi və iqtisadi sahədə paritet mövcud idi. Ancaq biz artıq bu pariteti dəyişdirə bilmişik. Bu gün fərq çox böyükdür. Fərq böyüdükcə beynəlxalq təşkilatlardan və bu məsələ ilə məşğul olan ölkələrdən yeni mesajlar gəlir – məsələ yalnız sülh yolu ilə həllini tapmalıdır, başqa yol ola bilməz.

Ermənistan torpaqlarımızı hərb yolu ilə işğal edib. O vaxt bu işğalın nəticələrini aradan qaldırmaq üçün BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Onların heç biri 20 ildir ki, icra edilmir. Necə ola bilər ki, hansısa başqa bir məsələ ilə bağlı qətnamə qəbul edilir və bir gün ərzində dərhal icra edilməyə

başlayır, amma bizə gəldikdə 20 ildir ki, məsələ həllini tapmır və biz ancaq məsələnin sülh yolu ilə həll edilməsini eşidirik. Nəyə görə?! Ona görə ki, ikili standartlar vardır. Bizim tam hüququmuz vardır və beynəlxalq hüquq bizə bu imkanları verir ki, biz istənilən yolla ərazi bütövlüyümüzü bərpa edək. BMT-nin Nizamnaməsində bu müddəalar vardır ki, hər bir ölkə özünü müdafiə etmək üçün bütün imkanlardan istifadə etməlidir. Helsinki Yekun Aktında ölkələrin ərazi bütövlüyü prinsipi hər bir başqa prinsipdən üstündür, o cümlədən ölkələrin, xalqların öz müqəddəratını təyinetmə prinsipindən üstündür. Ancaq ədalətsizlik, ikili standartlar, erməni lobbisi və onun dünyadakı havadarları, bir də vasitəçilərin passivliyi, deyə bilərəm ki, məsələnin həlli üçün lazımi şəraiti yaratmır. Ancaq buna baxmayaraq, biz öz siyasi və diplomatik səylərimizi daha da böyük əzmlə, iradə ilə davam etdirəcəyik. Beynəlxalq təşkilatlarda fəaliyyətimizi daha da fəallaşdıracağıq. Eyni zamanda, ordu quruculuğu işində daha da ciddi addımlar atılacaqdır. İqtisadi və regional məsələlərdə Ermənistanı indiki təcrid vəziyyətində saxlamaq üçün bütün imkanlardan istifadə edəcəyik. Əminəm ki, bu kompleks tədbirlər nəticəsində və ölkəmizin artan qüdrəti hesabına biz ərazi bütövlüyümüzü tezliklə bərpa edəcəyik.

Bir daha demək istəyirəm, məndə heç bir şübhə yoxdur ki, biz doğma torpaqlarımıza, o cümlədən Zəngilana da, Qarabağa da, Şuşaya da qayıdacağıq və Azərbaycan bayrağı bütün şəhərlərimizdə dalğalanacaqdır. Buna şübhəm yoxdur. Sadəcə olaraq, biz hamımız istəyirik ki, bunu tezliklə həll edək, tezliklə sizi doğma torpağınıza göndərək və orada sizin üçün gözəl binalar, evlər tikək, qəsəbələr, şəhərlər salaq.

Əziz dostlar, sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm. Bu qəsəbədə Zəngilan Rayon İcra Hakimiyyəti üçün inzibati bina tikilmişdir. Əli Həsənov mənə dedi ki, əvvəllər icra hakimiyyətinin ayrıca inzibati binası olmayıb. Burada müvəqqəti də olsa, vahid mərkəz yaradılıbdır.

Rayonun bütün qurumları da burada olacaqdır. Bu məhəllədə yaxşı yaşamaq mümkün olacaqdır.

Bir daha sizi təbrik edirəm!

*Zəngilan rayonundan məcburi köçkün Xuduş İsgəndərov göstərdiyi yüksək diqqət və qayğıya görə Azərbaycan prezidentinə minnətdarlığını bildirdi:*

– Rayonumuzun ictimaiyyəti, ağsaqqalları adından, şəxsən öz adımdan Sizə dərin minnətdarlığımızı bildirirəm. Çox sağ olun ki, bizə bu cür gözəl şərait yaratmısınız. Siz bu son 10 ildə nəinki çadır şəhərciklərini ləğv etmisiniz, hətta namünasib şəraitdə yaşayan məcburi köçkünlərimiz üçün özünüz dediyiniz kimi, bu cür 78 qəsəbənin tikilib istifadəyə verilməsinə nail olmusunuz. Bu Sizin məcburi köçkünlərə göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Həm də ulu öndərimizin iqtisadi siyasətinin və onun bütün ideyalarının yaradıcılıqla inkişaf etdirilməsinin nəticəsidir.

Yadımdadır, ulu öndər Heydər Əliyev biz zəngilanlıları böyük bir fəlakətdən qurtardı. Siz bilirsiniz ki, biz 2 ay mühasirə şəraitində qaldıq, 250-yə qədər şəhid verdik. Ulu öndər olmasaydı, bəlkə də biz zəngilanlılardan bir nəfər sağ qalmazdı. Ona görə Allah ulu öndərimizə rəhmət etsin. Biz çox fəxr edirik, fərəh duyuruq ki, ulu öndərimizin qurub yaratdığı belə bir dövləti Siz cəsarətlə, mətanətlə, qüdrətlə inkişaf etdirirsiniz. Sizin daxili və xarici siyasətiniz, müdrikliyiniz bizim hamımızın ürəyindəndir.

Biz arzu edirik ki, Sizin işiniz həmişə avand olsun. Sizə möhkəm cansağlığı arzulayırıq. Biz əminik ki, belə bir şəraiti biz Zəngilan torpağında Sizin rəhbərliyiniz altında yaradacağıq. Çünki zəngilanlıların hamısı Sizi dəstəkləyir. Sizi bütün respublika əhalisi dəstəkləyir. Çox sağ olun, Allah Sizi qorusun. Biz Allahdan arzu edirik ki, Sizi Azərbaycan xalqına çox görməsin.

Cənab Prezident, Sizin qaçqın və məcburi köçkünlərin ailələrinə getməyiniz, onların evlərində öz ad günlərinizi, hətta

bayram günlərinizi keçirməyiniz bizim hamımıza böyük ruh yüksəkliyi verir. Bu nə deməkdir? Bu, sadəlik, təvazökarlıq deməkdir. Bu, xalqa diqqətin, qayğının təzahürüdür. Bundan yəqin ki, bütün məmurlar da nəticə çıxaracaqlar. Çox sağ olun. Allah Sizə yar olsun.

Mən siyasətçi deyiləm, lakin bir söz demək istəyirəm. Qoy bütün dünya bilsin ki, nə xaricdə, nə daxildə heç bir qüvvə Azərbaycan xalqının tarixən sınanmış iradəsini qıra bilməz. Biz birmənalı olaraq bugünkü prezidentimizi dəstəkləyirik, onun ətrafında sıx birləşəcəyik və həmişə ona dəstək olacağıq. Allah Sizə yar olsun, Ulu Tanrı Sizi qorusun!

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Yan Kellini (ABŞ), Jak Foru (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI SƏRHƏD XİDMƏTİNİN BAŞ DİREKTORU ZUMEYYİM BİN CUVEYBİR ƏS-SƏVVATIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Səudiyyə Ərəbistanı Krallığı Sərhəd Xidmətinin baş direktoru Zumeyyim bin Cuveybir əs-Səvvatın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında əməkdaşlıq və dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın ölkələrimizin sərhəd xidmətləri arasında əlaqələrin inkişafına da müsbət təsir edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərin inkişafında siyasi və iqtisadi əlaqələrlə yanaşı, təhlükəsizlik məsələlərinin də mühüm əhəmiyyət daşıdığını qeyd etdi. Hər bir ölkənin təhlükəsizliyinin təmin olunmasında sərhəd xidmətinin önəmini qeyd edən dövlətimizin başçısı ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Paytaxtımızda gedən böyük inkişaf proseslərinin şahidi olduqlarını deyən Səudiyyə Ərəbistanı Krallığının Sərhəd Xidmətinin baş direktoru Zumeyyim bin Cuveybir əs-Səvvat dost Azərbaycanın son illər əldə etdiyi yüksək nailiyyətlərə sevindiklərini vurğuladı. Zumeyyim bin Cuveybir əs-Səvvat ölkələrimizin sərhəd xidmətləri arasında əməkdaşlığın yaxın gələcəkdə inkişaf etdiriləcəyinə və bu sahədə qarşılıqlı əlaqələrin Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.*

# KANADA İCMALAR PALATASI SƏDRİNİN MÜAVİNİ, KANADA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN RƏHBƏRİ BARRİ DEVOLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Kanada İcmalar Palatası sədrinin müavini, Kanada–Azərbaycan dostluq qrupunun rəhbəri Barri Devolinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkəmizə ikinci dəfə səfər etdiyini vurğulayan Kanada İcmalar Palatasının sədrinin müavini, Kanada–Azərbaycan dostluq qrupunun sədri Barri Devolin ötən dövr ərzində paytaxtımızda gedən çox böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.*

*Görüşdə Azərbaycan ilə Kanada arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, parlamentlərarası əməkdaşlıq və digər sahələrdə genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı, münasibətlərimizin möhkəmləndirilməsində qarşılıqlı səfərlərin önəmi qeyd olundu, ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «THE BUSİNESS YEAR» JURNALININ BAŞ DİREKTORU AYSE NAZİR VALENTİN, BAŞ REDAKTORU CEYSON CON VƏ BURAXILIŞA MƏSUL ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də «The Business Year» jurnalının baş direktoru xanım Ayse Nazir Valentini, jurnalın baş redaktoru Ceyson Conu və buraxılışa məsul əməkdaşlarını qəbul etmişdir.*

*İnvestisiyaların təşviqi və nəşrlər üzrə ixtisaslaşan «The Business Year» jurnalının baş direktoru xanım Ayse Nazir Valentin ölkəmizlə bağlı layihələrə ilk dəfə 2010-cu ildə başladıqlarını məmnunluqla qeyd etdi. 2011-ci ildə Azərbaycanın müstəqilliyinin 20 illiyi və 2012-ci ildə «Eurovision» beynəlxalq mahnı müsabiqəsi ilə bağlı buraxılışlarının maraqla qarşılandığını qeyd edən qonaq bu il ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə bağlı xüsusi material hazırladıqlarını dedi.*

*Dövlətimizin başçısı jurnalın Azərbaycanın təşviqi ilə bağlı gördükləri işləri yüksək qiymətləndirdi. Prezident İlham Əliyev «The Business Year» jurnalının ingilis dilində Azərbaycanla bağlı geniş auditoriya üçün nəzərdə tutulan və müxtəlif yanaşmalarla zəngin olan bu nəşrinin ölkəmizin beynəlxalq ictimaiyyətə təqdim olunması üçün yaxşı imkan yaratdığını dedi. Azərbaycanın iqtisadi, siyasi, təhlükəsizlik, biznes, sərmayə qoyuluşu, xarici əlaqələr və digər sahələrlə bağlı məsələlərin jurnalda ətraflı təhlil olunmasını yüksək qiymətləndirən dövlətimizin başçısı «The Business Year: Azerbajan–2013» xüsusi buraxılışının əhəmiyyətini qeyd etdi.*

*«The Business Year» jurnalının prezident İlham Əliyevi «İlin adamı» seçdiyini qeyd edən jurnalın baş redaktoru Ceyson Con bunun Azərbaycanda iqtisadi artımın yüksəlişi, ümum daxili məhsulun son 5 ildə dəfələrlə artması, Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuza malik olması, BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi ilə və informasiya-kommunikasiya texnologiyaları sektorunda əldə edilən böyük uğurlarla bağlı olduğunu dedi.*

*Sonra «İlin adamı» mükafatı dövlətimizin başçısına təqdim olundu.*

*Prezident «İlin adamı» mükafatına görə təşəkkürünü bildirdi. Sonra dövlətimizin başçısı Azərbaycanda əldə olunan bütün uğurların əsasında ölkənin sürətli iqtisadi inkişafının olduğunu qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, iqtisadiyyatın şaxələndirilməsi nəticəsində neft-qaz amilindən asılılıq azalıb, neft gəlirlərinin şəffaf şəkildə insanların və ölkənin mənafeyi naminə istifadə olunması nəticəsində son 10 ildə yoxsulluğun səviyyəsi 50 faizdən 6 faizə qədər enib.*

*İnformasiya-kommunikasiya texnologiyaları sektorundakı sürətli inkişafa toxunan dövlətimizin başçısı Azərbaycanın kosmik ailənin üzvü olmasının önəmini qeyd etdi. 2013-cü ilin ölkəmizdə «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan olunduğunu deyən prezident İlham Əliyev bu sahədə əldə edilən uğurlardan danışdı. Dövlətimizin başçısı ölkəmizin nüfuzunun beynəlxalq aləmdə getdikcə möhkəmləndiyini xüsusi vurğuladı.*

*Prezident İlham Əliyev «The Business Year» jurnalının enerji, ticarət, biznes, investisiya, mədəniyyət və digər sahələrdə Azərbaycanı olduğu kimi təqdim etdiyinə görə yaradıcı kollektivə təşəkkürünü bildirdi.*

# BÖYÜK BRİTANİYANIN NÜFUZLU «THE BUSİNESS YEAR» JURNALINA MÜSAHİBƏ

*4 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Azərbaycanın dövlət başçısını «İlin adamı» elan edən Böyük Britaniyanın nüfuzlu «The Business Year» jurnalının əməkdaşlarına müsahibə vermişdir.*

**S u a l: Hörmətli cənab Prezident, bu il Azərbaycana rəhbərliyinizin 10 ili tamam olur. Geriyə baxarkən ötən dövrü necə qiymətləndirərdiniz və bu müddət ərzində baş vermiş hadisələrdən hansını ən qürurverici hesab edirsiniz?**

**C a v a b:** Arxada qalan 10 il Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində mühüm mərhələ olmuşdur. Biz ümummilli lider Heydər Əliyevin siyasi kursuna, yaratdığı ictimai-siyasi sabitliyə və iqtisadi bazaya, xalqın möhkəm dəstəyinə söykənərək çox böyük uğurlara imza atmışıq. Həm ölkənin ümumi inkişaf konturlarını, həm də ayrı-ayrılıqda hər bir sahədə görüləcək işləri əhatə edən çoxsaylı dövlət proqramları qəbul olundu və uğurla icra edildi. Bu işlərin görülməsi daxili sosial-iqtisadi inkişafın təminatına, vətəndaşların rifahının yüksəldilməsinə və cəmiyyət qarşısında duran digər problemlərin həllinə mühüm təsir göstərdi. Azərbaycanın yeni neft strategiyasının işə düşməsi bizə bütün gələcək planlarımızı reallaşdırmağa geniş imkanlar açdı. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəmərinin, daha sonra Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, Xəzərin karbohidrogen ehtiyatlarının ixrac infrastrukturunun yenilənməsi və şaxələndirilməsi Azərbaycan neftinin və qazının birbaşa Avropa və dünya bazarına çıxışını təmin etdi ki, bu da təkcə keçən 10 ilin deyil, bütövlükdə müstəqillik tariximizin ən önəmli hadisələri sırasına daxil olmuşdur.

Ötən 10 ildə biz iqtisadiyyatımızı 3 dəfə artırdıq və əsasən şaxələndirdik, müasir sosial-iqtisadi infrastruktur yaratdıq, qeyri-neft sektorunun dinamik inkişafını təmin etdik. 2003-cü ildə 1,5 milyard dollar olan dövlət büdcəsini 2013-cü ildə 25 milyard dollara çatdırdıq. Ölkədə 1 milyondan çox yeni iş yeri yaradıldı, əhalinin işsizlik səviyyəsi 5,1 faizə salındı. 2003-cü ildə Azərbaycanda yoxsulluq səviyyəsi 49 faiz təşkil edirdisə, 2012-ci ildə bu rəqəm 6 faizə endirildi. Bu, yoxsulluqla mübarizə sahəsində dünyada ən yüksək göstəricilərdən biridir. Azərbaycan iqtisadiyyatına bütövlükdə 140 milyard dollar həcmində sərmayə qoyuldu, ölkənin strateji valyuta ehtiyatları 46 milyard dolları ötdü.

2005–2009-cu illərdə Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada lider dövlət oldu və iqtisadiyyatda keçid dövrünü başa çatdırdı. Həmin ildən başlayaraq biz əsas diqqətimizi ölkənin neftdən asılılığının azaldılmasına yönəltmişik və son 3 ilin dinamikası aydın şəkildə göstərir ki, bu vəzifənin öhdəsindən layiqincə gəlmişik. Hazırda neft hasilatını sabit saxlamaqla, ölkənin iqtisadi artımını əsasən qeyri-neft sektorunun hesabına həyata keçiririk. Hətta dünyadakı maliyyə böhranının başladığı 2009-cu ildə Azərbaycan iqtisadiyyatında 9 faiz artım olmuşdur. Keçən il Azərbaycanda neft hasilatı müəyyən səbəblərdən aşağı düşsə də, ümumi daxili məhsulun 2,2 faizlik artımı müşahidə olunmuş, qeyri-neft sektoru isə təxminən 10 faiz yüksəlmişdir. Son 8 ildə isə qeyri-neft sektoru 2 dəfə artmışdır.

Məlumdur ki, hazırda bir çox dünya ölkələri ciddi maliyyə sıxıntısı yaşayır, yüksək məbləğdə borclar götürür və iqtisadi tənəzzül meyillərinin qarşısını almağa çalışırlar. Bəzi ölkələrdə, məsələn, Ermənistanda dövlət borcu artıq ÜDM-in 50 faizinə yaxınlaşır və bu halın getdikcə daha da pisləşməsi ehtimalı yüksəkdir. Azərbaycanın dövlət borcu isə ÜDM-in cəmi 7-8 faizini təşkil etməklə dünyada ən aşağı göstəricilərdən biri hesab olunur.

Mühüm dövlət proqramlarının və genişmiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində şəhər, kənd və qəsəbələrin siması dəyişmiş və müasirləşmiş, əhalinin rifahı yüksəlmişdir. Regional inkişaf proqramlarını reallaşdırmaqla biz paytaxtla bölgələr arasında inkişaf fərqini aradan qaldırmağa müvəffəq olduq. Azərbaycanda sosial sahədə ciddi irəliləyiş əldə etmişik. Son 10 ildə müasir tələblərə uyğun 2500-dən artıq məktəb, yüzlərlə səhiyyə müəssisəsi, idman kompleksləri və çoxsaylı sosial təyinatlı digər obyektlər tikilmiş və istifadəyə verilmişdir. Ölkədə əmək haqlarını, sosial müavinətləri mütəmadi olaraq artırırıq və artırmaqda davam edəcəyik. 2012-ci ildə Azərbaycanda sovet dövründən qalmış əmanətlərə görə kompensasiyaların verilməsinə başlanılmışdır. Qeyd edilməlidir ki, bütün postsovet məkanında yalnız Azərbaycanda bu vəsaitlər qısa zamanda və ən yüksək əmsalla ödənilir.

Məlum olduğu kimi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, 1 milyondan artıq qaçqın və məcburi köçkün yaranmış, onlar çox acınacaqlı şəraitdə, çadır şəhərciklərində, yaşayış üçün münasib olmayan digər yerlərdə məskunlaşmışlar. 2004-cü ildən biz məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı ciddi tədbirlər görməyə başladıq. Ötən müddət ərzində bütün çadır şəhərcikləri ləğv olunmuş, 77 müasir qəsəbə salınmış, yüz minlərlə məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Ötən il biz 20 min məcburi köçkünü müasir mənzillərə, evlərə köçürdük və bu il daha 20 min nəfərin mənzil problemini həll edəcəyik.

Bu illər ərzində biz ölkənin təhlükəsizlik strategiyasını uğurla həyata keçirdik. İlk növbədə, Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olundu, xarici enerji mənbələrindən asılılıq aradan qaldırıldı. Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan ölkədir. Bir sıra Avropa ölkələrinin qaz bazarında Azərbaycanın payı 40 faizədək artmışdır. Azərbaycanın müəllifi olduğu və Türkiyə ilə birlikdə reallaşdırılan TANAP layihəsi həyata keçirildikdən,

yəni 2017-ci ildən sonra Avropanın təbii qaz bazarında ölkənin rolu daha da yüksələcəkdir. Bu layihə bizim uzunmüddətli inkişafımızı, onilliklər ərzində Azərbaycanın iqtisadi və digər maraqlarını təmin etmək üçün ciddi vasitə olacaqdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, ərazilərimizin işğalı faktını nəzərə alaraq ordu quruculuğunu prioritet vəzifələrdən biri kimi müəyyənləşdirdik. Bu gün Azərbaycan Ordusu maddi-texniki, silah-sursat təchizatı, nizam-intizam, döyüş qabiliyyəti parametrlərinə görə Cənubi Qafqazın ən güclü ordusudur. Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi təsis olunmuş, hərbi təyinatlı müəssisələr işə salınmışdır və artıq 700 çeşiddə məhsul istehsal edilir.

Azərbaycan bu gün iqtisadi potensial baxımından regionun lider ölkəsidir. Cənubi Qafqaz iqtisadiyyatında onun payı 80 faizdən artıqdır. Biz artıq dayanıqlı iqtisadiyyata malik ölkəyə çevrilmişik. Qətiyyətlə demək olar ki, 2003-cü ildə qarşıya qoyduğumuz bütün məqsədlərə nail olduq. Dünyanın aparıcı iqtisadi və maliyyə qurumları hazırda Azərbaycanın uğurlarını qeyd edir, bütün hesabatlarda biz öncül mövqelər tuturuq. Keçən il dünyanın aparıcı «Fitch», «Moodys» və «Standard & Poors» reytinq agentlikləri əksər inkişaf etmiş ölkələrin kredit reytinqini aşağı saldıqları halda, ölkəmizin reytinqini artırmışlar. Azərbaycan BMT-nin İnkişaf Proqramının insan inkişafı ilə bağlı hesabatına əsasən «yüksək insan inkişafı» ölkələri qrupuna yüksəlmişdir. Dünya İqtisadi Forumunun «Qlobal Rəqabətlilik Hesabatı»nda ölkəmiz dünyada 46-cı, MDB məkanında isə 1-ci yerdədir. Bu il Davos (Dünya) İqtisadi Forumunun Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunmuşdur. Bu, ölkəmizin iqtisadi nailiyyətlərinin dünya birliyi tərəfindən təsdiq edilməsi deməkdir.

Gördüyünüz kimi, ötən 10 ildə əldə edilmiş uğurların, xalqımız üçün qürur mənbəyi olan hadisələrin siyahısı çox genişdir. Azərbaycan tarixində ilk dəfə olaraq 2011-ci ildə yüksək rəqabət şəraitində BMT Təhlükəsizlik Şurasına üzv seçildi, 2012-ci ilin mayında isə təşkilata sədrlik etdi. Hesab edirəm ki, bu,

müstəqillik illərində ölkəmizin davamlı inkişafına, dünyada qazandığı hörmətə, qlobal təhlükəsizliyə töhfələrinə verilən beynəlxalq qiymət olmuşdur.

Azərbaycan artıq sivilizasiyalararası dialoqun, multikulturalizmin mərkəzinə, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu məkana çevrilmişdir. Biz 2011-ci ildə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu təşkil etdik və bu sahədə Azərbaycan tərəfindən reallaşdırılan təşəbbüsləri regional müstəvidən çıxararaq qlobal səviyyəyə qaldırdıq. Dövlət və hökumət başçılarının, Nobel mükafatı laureatlarının, dünyada tanınmış ictimai-siyasi xadimlərin iştirakı ilə Bakı Beynəlxalq Humanitar Forumu artıq ənənə halını almışdır.

2011-ci ildə Azərbaycan Avropanın bir nömrəli musiqi yarışması – «Eurovision»un qalibi oldu və 2012-ci ildə bu müsabiqəni uğurla keçirərək, bütün dünyaya öz böyük potensialımızı təqdim edə bildik.

Keçən il BMT-nin VII İnternet İdarəçilik Forumu Bakıda keçirildi. Hesab edirəm ki, bu tədbirin Azərbaycanda təşkili heç də təsadüfi olmamışdır. Çünki informasiya-kommunikasiya texnologiyaları Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf edən və ən perspektivli seqmentidir. Təsadüfi deyildir ki, 2013-cü il Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilmişdir.

Bu il fevralın 8-də Azərbaycanın ilk süni telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin həyatında çox əlamətdar, tarixi bir gün, böyük nailiyyət olmuşdur. Qeyd edim ki, 2008-ci ildə Azərbaycan peykinin orbitə çıxarılması haqqında qərar verilmişdir. 2009-cu ildə müvafiq Dövlət Proqramı qəbul edilmiş, 2010-cu ildə «Azərkosmos» Səhmdar Cəmiyyəti yaradılmışdır. Əldə etdiyimiz nəticələr göstərir ki, bu gün müstəqil Azərbaycan dövləti həqiqətən də sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük. 2015-ci, 2016-cı illərdə əlavə 2 peyk orbitə buraxılacaq və bununla da Azərbaycanda kosmik sənayenin inkişafı üçün çox gözəl imkanlar yaranacaqdır. Yeni texnologiyaların, o cümlədən İKT sferasının

inkişafı bu gün Azərbaycanı fərqləndirən cəhətlərdən biridir və bizim uğurlu gələcəyimizi təmin edəcəkdir.

Bir sözlə, ötən illər ərzində Azərbaycan siyasi, iqtisadi, mədəni, idman və digər sahələrdə qlobal və mühüm beynəlxalq tədbirlərə layiqli ev sahibliyi etmişdir. Bununla yanaşı, Avropa Olimpiya Komitəsinin 2015-ci ildə I Avropa oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarı tarixi hadisə və ölkəmizin böyük uğuru olmaqla yanaşı, həm də Azərbaycanın dünyada artan nüfuzunun və geniş imkanlarının beynəlxalq birlik tərəfindən qəbul edilməsinin əyani göstəricisidir.

Bütün bunlarla yanaşı, Azərbaycanda demokratik islahatlar davam etdirilmiş, güclü vətəndaş cəmiyyəti formalaşmışdır. Bu gün Azərbaycan ifadə, söz, mətbuat azadlığı tam təmin olunmuş bir ölkədir. Bizim həyata keçirdiyimiz siyasətin əsasında insan amili, vətəndaşlarımızın rifahı məsələsi dayanır. Bütün addımlarımız, gördüyümüz işlər Azərbaycan xalqının maraqlarına xidmət edir. Təbii ki, xalqımızın etimadı, dəstəyi olmasaydı, biz bu nəhəng planları həyata keçirə bilməzdik.

**S u a l: Qarşıdan gələn prezident seçkilərini də nəzərə almaqla, ölkənin gələcəyi və qarşıda duran vəzifələr haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** Bilirsiniz, 20 ildən çoxdur ki, Azərbaycan totalitar bir sistemin buxovlarından azad olaraq müstəqil və demokratik dövlət quruculuğu yolu ilə gedir. Müstəqilliyə qədəm qoyduğumuz həmin həssas dövrdə kimin, hansı qüvvənin hakimiyyətə gələcəyi xalq üçün kifayət qədər taleyüklü məsələ idi. Azərbaycanın ötən əsrin 90-cı illərində rastlaşdığı acı təcrübə göstərir ki, dövlət idarəçiliyinin məsuliyyətini dərk etməyən, təsadüfi insanların hakimiyyətə gəlməsi xalqı fəlakətlə, dövləti isə ciddi problemlərlə üz-üzə qoya bilər. Azərbaycan xalqı müdrik xalqdır və öz tarixinin həlledici anlarında düzgün qərar qəbul etməyi bacarıb. Bu xalq 1993-cü ildə – dövlətçiliyimiz mühüm təhlükə qarşısında qalarkən özünün qəti sözünü dedi və böyük dövlətçilik təcrübəsi olan ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 20 il ərzində Heydər Əliyevin

müəyyənləşdirdiyi inkişaf strategiyasının ardıcıl surətdə həyata keçirilməsi ölkəmizin dinamik inkişafını təmin etdi, onu dünyanın müasir və demokratik dövlətinə çevirdi. Bilirsiniz ki, müasir və demokratik dövlət quruculuğunun müəyyən dəyişməz prinsipləri, dəyərlər sistemi mövcuddur ki, onlar ardıcıl olaraq təmin edilir və bu sahədəki əsas strateji hədəflər qorunub saxlanılır. Mən tam əminəm ki, Heydər Əliyevin müəyyənləşdirdiyi müstəqil dövlət, demokratik inkişaf və sosial rifah kursu, vətəndaş cəmiyyəti quruculuğu yolu Azərbaycanda bundan sonra da davam etdirilməlidir. Bu siyasətin başlıca prioriteti, ilk növbədə, dünyanın inkişaf etmiş ölkələri ilə bir cərgədə dayanan, rəqabətqabiliyyətli, ərazi bütövlüyü bərpa olunmuş, müstəqil, güclü və demokratik Azərbaycan olmalıdır.

**S u a l: Cənab Prezident, Azərbaycanın mühüm geosiyasi mövqeyini nəzərə alaraq, Rusiya, Türkiyə və digər qonşu ölkələrlə münasibətləri necə xarakterizə edərdiniz?**

**C a v a b:** Azərbaycan etibarlı tərəfdaş, bütün məsələlərlə bağlı öz mövqeyinə malik və tam müstəqil siyasət yürüdən ölkədir. Biz, Ermənistan istisna olmaqla, region və dünya ölkələri ilə münasibətlərimizi səmərəli əməkdaşlıq, qarşılıqlı etimad, hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qururuq. Azərbaycan məhz bu prinsipləri rəhbər tutaraq 2012-ci ildə Beynəlxalq «Qoşulmama Hərəkatı»na üzv olmuş, ölkəmizin xarici siyasətinin yeni vektorları müəyyənləşdirilmişdir. Biz hazırda digər dünya ölkələri ilə olduğu kimi, Afrika və Latın Amerikası ölkələri ilə də əməkdaşlığımızı möhkəmləndiririk, yeni əlaqələr qururuq.

Region ölkələri ilə münasibətlərin inkişaf etdirilməsi xarici siyasətimizin prioritet istiqamətlərindən biri olaraq qalır. Türkiyə Azərbaycana dost və qardaş ölkə, strateji müttəfiqimizdir. Son illər Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən transmilli layihələr, qarşılıqlı investisiyalar ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmışdır. Biz hazırda Türkiyədə 17 milyard dollarlıq neft-kimya və neft emalı kompleksi layihəsini həyata keçiririk. Azərbaycanın reallaşdırdığı nəhəng enerji layihələri Türkiyənin tranzit

ölkə kimi əhəmiyyətini artırır, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində onun rolunu yüksəldir.

Rusiya ilə əlaqələrimiz də əvvəlki illərdə olduğu kimi dinamik inkişaf edir və münasibətlərimiz strateji tərəfdaşlıq mahiyyəti kəsb edir. Siyasi dialoq, humanitar əməkdaşlıq, iqtisadi əlaqələrin möhkəmlənməsi və digər məsələlər tərəfdaşlığımızın vacib elementləridir. Azərbaycana idxalın həcminə görə Rusiya birinci yerdədir. Öz növbəsində, Rusiya da ilk növbədə, bizim kənd təsərrüfatı məhsulları üçün çox mühüm bazardır. Hazırda biz bu ölkədə daşınmaz əmlaka və iri kommersiya strukturlarının səhmlərinə sərmayə qoymağa başlamışıq. Azərbaycan şirkətləri Rusiyada kənd təsərrüfatı məhsullarının emalı sahəsində layihələr həyata keçirir və s.

Azərbaycan regionun digər ölkələri ilə də mehriban qonşuluq, səmimi dostluq əlaqələrini inkişaf etdirir. Biz ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərində Azərbaycan xalqının və dövlətinin maraqlarını əsas tuturuq.

**S u a l: 2012-ci il Azərbaycanda «İdman ili» elan edilmişdir. London Olimpiya oyunlarında Azərbaycanın uğurlarını, qızlar arasında futbol üzrə dünya çempionatının böyük müvəffəqiyyətlə təşkil edilməsini və bu yaxınlarda Avropa Olimpiya Komitəsinin 2015-ci ildə I Avropa oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar qəbul etməsini nəzərə alaraq, ötən ilin idman yekunlarını necə qiymətləndirə bilərsiniz?**

**C a v a b:** Keçən il idman sahəsində əldə edilmiş uğurlar, şübhəsiz, «İdman ili»nin yekunları haqqında bizə fəxrlə danışmağa tam əsas verir. Həmin ilin əvvəlində bu qərarı verərkən biz idmançılardan qələbələr, uğurlar gözləyirdik və onlar ümidlərimizi doğrultdular. İdmançılarımız beynəlxalq arenalarda ölkəmizi ləyaqətlə təmsil etdilər, müxtəlif yarışlarda 700-dən çox medal qazandılar, onlardan 255-i qızıldır.

Qeyd etmək istərdim ki, son 10 ildə Azərbaycanda yüksək səviyyədə 300-ə yaxın beynəlxalq səviyyəli idman tədbiri təşkil olunmuşdur. Mən onların içərisində ötən il keçirilmiş

FİFA U-17 qadınlararası dünya çempionatını xüsusilə qeyd etmək istəyirəm. Çünki bu bizim üçün yeni və çox uğurlu təcrübə idi. Həm FİFA, həm UEFA Azərbaycanda keçirilmiş bu çempionatı yüksək qiymətləndirmişdir.

Bu il biz Milli Olimpiya Komitəsinin 20 illik yubileyini qeyd etdik. Azərbaycan 20 ildir beynəlxalq olimpiya ailəsinin üzvüdür. 2012-ci il London Yay Olimpiadasında idmançılarımızın əldə etdiyi tarixi nailiyyətlər bir daha təsdiq etdi ki, ölkəmiz bu ailədə öz layiqli yerini tutmuşdur. İdmançılarımız 2-si qızıl, 2-si gümüş və 6-sı bürünc olmaqla, 10 medal qazandılar. Biz dünya miqyasında 30-cu, Avropada 15-ci, islam aləmində isə 3-cü yerə layiq görüldük.

Nəhayət, ötən il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında I Avropa oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi haqqında qərar qəbul edildi. Hesab edirəm ki, bu, tarixi qərardır. Çünki olimpiya hərəkatı tarixən Avropa məkanından başlamışdır, lakin Avropa Olimpiya oyunları heç vaxt keçirilməmişdir. Birinci oyunların keçirilməsi özlüyündə ciddi bir addım, olimpiya hərəkatında dönüşdür. Avropa tarixində ilk dəfə təşkil olunan bu oyunların məhz Azərbaycana həvalə edilməsi bizim üçün böyük məsuliyyət, beynəlxalq və Avropa olimpiya hərəkatı tərəfindən ölkəmizdə görülən bütün işlərə, o cümlədən idman sahəsində əldə edilən nailiyyətlərə verilən yüksək qiymətdir. Azərbaycanın beynəlxalq aləmdə daim artan nüfuzu, iqtisadi qüdrəti, dinamik inkişafı, müasir sosial, iqtisadi və mədəni infrastrukturu, mövcud ictimai-siyasi sabitlik və həyata keçirilən islahatlara ümumxalq dəstəyi bu tarixi qərarın qəbul edilməsində öz mühüm rolunu oynamışdır.

Qeyd edim ki, hələ bu qərar qəbul edilməmişdən çox əvvəl Azərbaycanda müasir, mühüm beynəlxalq tədbirlərin keçirilməsinə imkan verən idman infrastrukturunun yaradılmasına başlanmışdır. 2012-ci ildə bu tədbirlər davam etdirilmiş, il ərzində 2 regional olimpiya mərkəzi istifadəyə verilmiş və beləliklə, bölgələrdə tikilmiş idman olimpiya komplekslərinin sayı 35-ə çatmış, 8 kompleksdə tikinti işləri davam etdirilir. Bir

neçə kompleksin tikintisi nəzərdə tutulur. Bakı şəhərində yeni tikilmiş idman obyektləri istifadəyə verilmişdir. Ölkənin əsas stadionu beynəlxalq standartlara uyğun olaraq yenidən qurulmuşdur. Əlavə olaraq daha bir stadion istifadəyə verilmişdir. Hazırda böyük Gimnastika Kompleksi, Su İdmanı Sarayı tikilir. Keçən il regionun ən böyük idman obyekti olacaq Olimpiya stadionunun təməli qoyulmuşdur.

Əminliklə deyə bilərəm ki, 2015-ci ilə kimi I Avropa oyunlarının keçirilməsi üçün bütün infrastruktur, texniki-təşkilati məsələlər öz həllini tapacaqdır. Onu da nəzərə almalıyıq ki, mövcud təcrübəyə əsasən Olimpiya oyunlarına hazırlıq üçün, adətən, 6-7 il ayrılır. Bizim isə cəmi 2 il vaxtımız var. Buna görə də biz artıq indidən müvafiq tədbirlər həyata keçirməyə başlamışıq. Yanvarın 17-də I Avropa oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılmış və fevralın 2-də onun ilk iclası keçirilmiş, qarşıda duran vəzifələr müzakirə edilmiş və onların icrası ilə bağlı tapşırıqlar verilmişdir. Mən əminəm ki, bütün müvafiq qurumlar bu oyunların yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəməyəcəklər və həmişə olduğu kimi, biz bu dəfə də ölkəmizin qüdrətini, xalqımızın qonaqpərvərliyini, Azərbaycanın dinamik inkişafını həm Avropaya, həm də bütün dünyaya nümayiş etdirəcəyik.

## «AİTF–2013» XII AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*«Bakı Ekspo» sərgi və toplantı mərkəzi*

*5 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 5-də «Bakı Ekspo» sərgi və toplantı mərkəzində keçirilən «AİTF–2013» XII Azərbaycan Beynəlxalq turizm və səyahətlər, həmçinin «HOREX Caucasus–2013» VII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olmuşlar.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və xanımına məlumat verdi ki, son illər Azərbaycanın turizm potensialını nümayiş etdirmək məqsədi ilə keçirilən bir sıra mühüm tədbirlər bu sahəyə marağı daha da artırıb. Bu baxımdan Bakıda hər il ənənəvi keçirilən Beynəlxalq turizm və səyahətlər, Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgilərinin xüsusi rolu vardır.*

*Bildirildi ki, Azərbaycanın və ümumilikdə, Cənubi Qafqaz regionunun turizm sənayesinin ən böyük ixtisaslaşdırılmış tədbiri – «AİTF» təsis edildiyi gündən etibarən maraqla qarşılanmış və böyük nüfuz qazanmışdır. Məhz buna görə də sərgi iştirakçılarının sayı ildən-ilə artır.*

*Diqqətə çatdırıldı ki, sərgidə bir sıra aviaxətlər və avia-agentliklər həm milli qrupların tərkibində, həm də ayrıca stendlərdə təmsil olunur. Türkiyənin «Turkish Airlines», Çinin «China Southern Airlines», Qazaxıstanın «Air Astana», Sloveniyanın «Adria Airways», Yunanıstanın «Aegean Airlines»*

*şirkətləri və digər aviaşirkətlər sərgidə ayrıca stendlərlə iştirak edirlər.*

*Dövlətimizin başçısı və xanımı sərginin pavilyonları ilə yaxından tanış* oldular.

*«Azərbaycanda* istirah*ət» bölməsi ilə tanışlıq zamanı* prezident *İlham Əliyevə və xanımına məlumat* verildi ki, burada *regionlarımızın* iqlim *xüsusiyyətləri, təbii ehtiyatları və çoxmillətli mədəniyyəti təqdim* olunur. *Sərgidə şəhər və* rayonların *ən məşhur* kurort *zonaları,* mehmanxana *və* pansionatları *barədə stendlər də nümayiş* etdirilir.

Prezident *İlham Əliyev və xanımı* Mehriban *Əliyeva* Türk*iyənin «Tanay» şirkətinin* stendi *ilə tanış* oldular. Bildirildi ki, *şirkət artıq 6 ildir Azərbaycanda uğurla fəaliyyət göstərir. Keyfiyyətli məhsulları ilə seçilən şirkət Azərbaycandakı mehmanxanaların 70* faizini *öz məhsulları ilə təmin* edir.

*Almaniyanın «Wanzl» şirkəti ilə tanışlıq zamanı* qeyd olundu *ki, ilk dəfədir bu sərgidə iştirak edən şirkətin fəaliyyətinin əsas istiqaməti* hotel, *istirahət və supermarketlər kompleksləri üçün avadanlıq hazırlamaqdır. Şirkət bu sahədə dünyada aparıcı* qurumlardan hesab edilir *və* onun *məhsulları yüksək keyfiyyəti ilə seçilir.*

*Dövlətimizin başçısı və xanımı İsveçrənin* «Franke» *şirkətinin* stendi *ilə də tanış* oldular. Bildirildi ki, *artıq 8* ildir *Azərbaycan bazarında* yerini tutan bu *şirkət ölkədə fəaliyyət göstərən* ictimai *obyektlər üçün müxtəlif təyinatlı* avadanlıqlar *hazırlayır. Şirkətin məhsulları İsveçrə ilə yanaşı, İtaliya,* Alma*niya və* Avstriyada istehsal olunur.

*Azərbaycan* prezidentinin *və xanımının tanış olduğu* daha *bir* stend *Almaniyanın «Mühldorfer» şirkətinə məxsus idi.* Bildirildi ki, bu *şirkət* yataq *dəstlərinin* istehsalı *üzrə* dünyada *aparıcı* qurumlardan biridir. *1920-ci ildən fəaliyyət göstərən şirkət dünyanın müxtəlif ölkələrində* hotel *və* mehmanxana *komplekslərini yataq dəstləri ilə təmin edir. Şirkətin məhsulları yüksək keyfiyyəti və rahatlığı ilə seçilir.*

Avstriyanın «Kny Design» şirkətinin stendi ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, bu şirkət işıq dizaynı və dekorativ işıqlandırma sahəsində dünyada böyük nüfuza malikdir. Şirkət işıqlandırma dizaynı sahəsində böyük layihələr reallaşdırır.

Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya «AF Hotel-Aqua Park» ailəvi istirahət kompleksində yaradılan şərait barədə də məlumat verildi. Bildirildi ki, Xəzər dənizi sahilində yerləşən kompleks təkcə Azərbaycanda deyil, bütövlükdə Cənubi Qafqazda analoqu olmayan ailəvi istirahət mərkəzidir. Fəaliyyətə başladığı gündən kompleks həm xarici qonaqların, həm də yerli sakinlərin sevimli istirahət mərkəzinə çevrilmişdir. Qonaqlar burada yüksək səviyyədə hotel, əyləncə və idman xidmətlərindən istifadə edə bilərlər.

Diqqətə çatdırıldı ki, «AF Hotel-Aqua Park» qonaqların arzusu ilə paytaxta və regionlara ekskursiyalar da təşkil edir.

İndoneziyanın stendi ilə tanış olan prezident İlham Əliyevə və xanımına bu ölkənin turizm imkanları barədə məlumat verildi. Qeyd edildi ki, İndoneziya artıq ikinci dəfədir bu sərgidə iştirak edir.

Dövlətimizin başçısı və xanımı Birləşmiş Ərəb Əmirliklərinin stendi ilə də tanış oldular. Prezident İlham Əliyevə bu ölkənin, xüsusilə də Dubayın turizm imkanları barədə məlumat verildi. Bildirildi ki, Bakıdan Dubaya birbaşa aviareysin açılması qarşılıqlı turizm axınını təmin etməyə imkan yaradır.

Türkiyənin stendi ilə tanışlıq zamanı bildirildi ki, bu ölkə sərgidə geniş şəkildə iştirak edir. Türkiyəni təmsil edən şirkətlərin müxtəlif stendlərində ölkənin turizm marşrutları, infrastrukturu barədə geniş məlumatlar əksini tapmışdır. Diqqətə çatdırıldı ki, son illərdə Türkiyədən Azərbaycana gələn turistlərin sayında artım qeydə alınmışdır. Türkiyənin turizm şirkətlərinin nümayəndələri Azərbaycanda keçirilən bu beynəlxalq sərgiyə böyük önəm verirlər.

Dövlətimizin başçısı və xanımı Bolqarıstan, Sloveniya və Monteneqronun stendləri ilə də tanış oldular.

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgilərin işinə uğurlar arzuladılar.*

*Bu il «AİTF–2013» sərgisində 35 ölkədən 60-dan çox istiqaməti təmsil edən 251 şirkət iştirak edir. Sərgidə bir çox ölkələrin milli stendlərinin fəal iştirakı artıq ənənəyə çevrilmişdir. Builki sərgidə rekord sayda – 20 stend öz milli ekspozisiyası ilə iştirak edir. Onların arasında sərginin daimi iştirakçıları olan Türkiyə, Rusiya, Gürcüstan, Bolqarıstan, Kipr, Çexiya, Birləşmiş Ərəb Əmirlikləri, Sloveniya və Misirin milli qrupları vardır. Fransa, Macarıstan, İndoneziya, İran, Monteneqro, Mərakeş, Ukraynanın Krım Muxtar Respublikası, Tailand və Tunisin milli qrupları isə bu il ilk dəfə sərgiyə qatılmışlar.*

*Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, «İTE Group plc» və onun tərəfdaşı «İteca Caspian» MMC-lərin təşkilatçılığı ilə keçirilən sərgi aprelin 6-da başa çatacaqdır.*

## DÜNYA İQTİSADİ FORUMUNUN TƏSİSÇİSİ VƏ İCRAÇI SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev aprelin 7-də Dünya İqtisadi* Forumunun *təsisçisi və icraçı sədri* Klaus *Şvabı qəbul etmişdir.*

*Görüşdə Dünya İqtisadi Forumunun Bakıda keçirilməsinin önəmi* qeyd olundu, *Azərbaycanda gedən sürətli* iqtisadi *inkişaf proseslərinə* toxunuldu. Qeyd olundu ki, *Dünya İqtisadi Forumu Bakıda uğurla keçiriləcək və* bu *tədbir* iqtisadi *əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəkdir.*

## BAKIDA «CƏNUBİ QAFQAZIN VƏ MƏRKƏZİ ASİYANIN GƏLƏCƏYİ İLƏ BAĞLI STRATEJİ DİALOQ» MÖVZUSUNDA DÜNYA İQTİSADİ FORUMUNUN (DAVOS FORUMU) AÇILIŞINDA İŞTİRAK

*8 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 8-də Bakıda «Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq» mövzusunda Dünya İqtisadi Forumunun (Davos Forumu) «Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının gələcəyinə baxışlar» mövzusunda birinci sessiyasında iştirak etmişlər.*

*Dünyanın diqqəti növbəti dəfə Azərbaycana yönəlmişdir. Son illər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Bakı Dünya İqtisadi Forumunun iştirakçılarını qəbul etmişdir. Dünyanın iqtisadi vəziyyətini proqnozlaşdıran tanınmış iqtisadçılar, ekspertlər, dövlət və hökumət nümayəndələri bir araya gələrək, bəşəriyyəti narahat edən mühüm iqtisadi məsələləri müzakirə etmək üçün mərkəz kimi məhz Bakını seçiblər.*

*Dünya İqtisadi Forumunun Bakıda keçirilməsi barədə ümumi razılıq yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvab ilə görüşündə əldə edilib.*

*Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvab Forumu açıq elan etdi.*

**Klaus Şvab:** Hörmətli cənab Prezident, hörmətli qonaqlar, əziz dostlar, Dünya İqtisadi Forumunun üzvləri!

Mən sizin hamınızı Cənubi Qafqaz və Orta Asiyanın gələcəyinə dair strateji dialoqa həsr edilmiş I Dünya İqtisadi Forumunda salamlamaqdan son dərəcə məmnunam.

İcazənizlə, cənab Prezident, Sizə təşəkkür etmək istərdim. Azərbaycan hökuməti tərəfindən lütfkarlıqla bu Forumun Bakı kimi gözəl şəhərdə təşkilinə görə təşəkkür etmək istərdim. İcazənizlə onu da qeyd etmək istərdim ki, sonuncu dəfə mən 20 il bundan əvvəl Bakıda olmuşam. Həqiqətən deməliyəm ki, o vaxtdan bəri çox böyük dəyişikliklərin baş verdiyini müşahidə etdim. Bakı şəhəri çox gözəl məkana çevrilib. Dünya İqtisadi Forumunun Azərbaycanda keçirilməsi bizim üçün bir qürurdur. Azərbaycan çox böyük imkanların olduğu bir ölkədir. Ümumiyyətlə, son illər ölkədə çox böyük iqtisadi artım göstəriciləri qeydə alınmışdır. Bu, ölkənin müstəsna təbii resurs potensialının düzgün istifadəsi sayəsində mümkün olmuşdur. Eyni zamanda, bu nailiyyətlər həmin resurslardan ölkə iqtisadiyyatının şaxələndirilməsində uğurla və bacarıqla istifadə edilməsi sayəsində qazanılmışdır. Azərbaycan informasiya texnologiyaları, maliyyə, tikinti sahələrində çox qabaqcıl bir ölkədir.

Qeyd etməliyik ki, region ölkələrinin heç biri potensialı təkbaşına reallaşdıra bilməz. Uzunmüddətli iqtisadi uğurlara nail olmaq üçün əməkdaşlıq zəruridir. Yəni bu uğur yalnız təbii resurslardan asılı deyildir.

Azərbaycanın nadir coğrafi mövqeyi, yüksək təhsil almış işçi qüvvəsi vardır. Buradakı sağlam mühit, ümumiyyətlə, birgə iş və əməkdaşlıq çərçivəsində çox uğurlar əldə oluna bilər. Avropa qitəsinə, yaxud Asiya regionuna baxsaq görərik ki, iqtisadi, sosial sahələrdə uğurlar əldə etmək üçün mütləq etibar və uzunmüddətli əməkdaşlıq şəraitində birgə səylər göstərilməlidir. Məhz buna görə də Dünya İqtisadi Forumu çox nadir bir format yaradır.

Forumun məqsədi, sadəcə olaraq, müəyyən görüşlərin keçirilməsi deyildir. Məqsəd uzunmüddətli təşəbbüslərə start verməkdir. Cənubi Qafqaz və Orta Asiya regionları üçün müəyyən ssenarilər təqdim olunur. Qarşıdan gələn 18 ay ərzində bu proseslər davam edəcəkdir. Regiondan və region xaricindən olan aparıcı şəxslər bu prosesə cəlb ediləcəklər. Məqsəd regional iqtisadi inteqrasiyaya nail olmaqdır. Regionun uzunmüddətli gələcəyi üçün müxtəlif ssenarilər yaradılır. Məqsəd regionun nadir

evolyusiya potensiallarını araşdırmaq və müxtəlif alternativ ssenariləri nəzərdən keçirməkdir. Bu gün biz bu prosesi başlayırıq. Məqsəd regionun nadir imkanlarını aşkar etməkdir.

Ümid edirəm ki, siz dəyərli fikirlərinizi bölüşəcəksiniz, bizim paneldə təmsil olunmuş natiqlərlə bir yerdə fikir mübadiləsi aparacaqsınız.

Cənab Prezident, mən bu imkandan istifadə edib çox dostcasına münasibətinizə və Dünya İqtisadi Forumu ilə əməkdaşlıq etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istərdim. Neçə illər boyu Siz davamlı olaraq bizim illik görüşlərimizdə iştirak etmisiniz. Bu mənada Azərbaycanı və bu regionu beynəlxalq xəritədə çox gözəl təqdim etmisiniz. Regionun iqtisadi imkanları və bu bölgənin dünyanın iqtisadi baxımdan çiçəklənməsinə necə töhfə verəcəyi barədə bizdə dolğun təsəvvür yaratmısınız.

*Sonra Dünya İqtisadi Forumu tərəfindən hazırlanmış Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının iqtisadi inkişaf potensialına həsr edilmiş videoçarx nümayiş olundu. Videoçarxda Azərbaycan iqtisadiyyatının uğurlarına və potensialına xüsusi yer ayrılmışdı.*

*Daha sonra müzakirələrin hansı istiqamətdə aparılması ilə bağlı səsvermə keçirildi. Regionun gələcəyinə dair sorğuda pərakəndəlik, inteqrasiya və qütbləşmə ilə bağlı 3 bənd yer aldı. Səsvermə zamanı tədbir iştirakçıları müzakirələrin inteqrasiya mövzusunda keçirilməsi fikrində yekdil oldular.*

*ABŞ-ın Con Hopkins Universitetinin Mərkəzi Asiya–Qafqaz İnstitutunun rəhbəri Frederik Star səsvermənin nəticələrinin müsbət olduğunu dedi. Bildirdi ki, son 15 ildə energetika sahəsinə baxsaq görərik ki, şaxələndirilmə daha da aktuallaşıb və gələcəkdə bunun rabitə və nəqliyyat sahələrini də əhatə etməsi labüddür.*

*Frederik Star regionun əhəmiyyətinə toxunaraq onun qitənin mühüm mərkəzinə çevrildiyini vurğuladı. «Cənub Qaz Dəhlizi»nin yaradılması və digər yolların çəkilməsinin vacibliyini diqqətə çatdırdı.*

*Sonra söz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verildi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizin hamınızı Azərbaycanda salamlayıram. Belə bir möhtəşəm tədbirdə iştirak etmək fürsətini yaratdığınıza görə minnətdarlığımı bildirirəm.

Bakıda Dünya İqtisadi Forumunun keçirilməsi ilə əlaqədar dəvətimizi qəbul etdiyinə görə professor Şvaba və bu Forumda iştirak edən, eləcə də ölkəmizi dəstəkləyən bütün digər ölkələrə xüsusi təşəkkürümü bildirirəm.

Professor Şvabın qeyd etdiyi kimi, mən 7 dəfə bu Forumda iştirak etmişəm. Deyə bilərəm ki, bu iştirak, müzakirələrə qatılmaq, dünyanın biznes elitası ilə ünsiyyət iqtisadiyyatımızı şaxələndirməkdə bizə çox yardım etdi. Çünki bizim iqtisadi inkişafımız enerji sektoru ilə başlayıb və bu sektor hələ də xarici sərmayələr üçün cəlbedici sahə kimi qalır.

Hazırda əsas məqsədimiz iqtisadiyyatı şaxələndirməkdir. Bunu etmək üçün biz dünyanın biznes icmasına özümüzü nəinki mühüm coğrafi mövqeyi və təbii sərvətlərə malik olan ölkə, o cümlədən islahatlara, dəyişikliklərə və şaxələndirməyə sadiq olan bir ölkə kimi təqdim etməliyik. Deyə bilərəm ki, Dünya İqtisadi Forumu, eləcə də Davosda keçirilən görüşlər sayəsində açılan imkanlar Azərbaycanı keçmişdə, ümumiyyətlə, tanımayan dünya şirkətləri ilə münasibətlərin qurulmasını mümkün edir. Ölkəmiz kifayət qədər gəncdir, müstəqilliyimizin 21 yaşı var. Lakin Azərbaycan böyük tarixə, adət-ənənələrə, mədəniyyətə malik olan ölkədir. Əminəm ki, sizin Azərbaycanı daha yaxşı tanımaq şansınız olacaqdır. Bununla belə, müstəqil ölkə kimi biz yalnız 21 ildir ki, yaşayırıq.

Professor Şvab qeyd etdi ki, Azərbaycana ilk səfərini 1993-cü ilin mart ayında edib. Həmin vaxtlar gənc, müstəqil ölkəmiz üçün ən ağır vaxtlar idi və müstəqilliyimizin yaşı 2 ildən də az idi. O vaxt Azərbaycanda olan vəziyyət postsovet məkanında ən

ağır vəziyyət idi. Daxili çaxnaşmalar, vətəndaş qarşıdurması var idi, Ermənistan ilə Azərbaycan arasında müharibə gedirdi və bu hadisələr beynəlxalq səviyyədə tanınan ərazimizin 20 faizinin işğalı ilə nəticələndi.

Lakin 1993-cü il inkişaf baxımından dönüş nöqtəsi oldu. 1993-cü ilin ortalarından etibarən vəziyyət sabitləşməyə başladı. Biz olduqca ciddi, köklü siyasi və iqtisadi islahatları həyata keçirməyə başladıq və Azərbaycan özünü beynəlxalq ictimaiyyətə təqdim etdi. Bu, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına, birpartiyalı sistemdən çoxpartiyalı sistemə, totalitarizmdən demokratiyaya keçid dövrü oldu. Tarixi baxımdan 21 il böyük zaman kəsiyi deyil, amma real dəyişikliklər dövrü idi. İslahatların başlanğıc mərhələsində Azərbaycan öz enerji sektoruna böyük sərmayələri cəlb edə bildi. Biz Azərbaycana sərmayə yatırdıqlarına görə, xarici investorlara, böyük enerji şirkətlərinə minnətdarıq. Sonrakı mərhələdə iqtisadi inkişafın istiqamətini enerji sektorundan qeyri-enerji sektoruna yönəldə bildik və neft-qaz sahəsinə aid olmayan sektorlara sərmayələr cəlb etdik. Siyasi və iqtisadi islahatları davam etdirdik, hazırda bu proses gedir. Bu, gələcək illərdə Azərbaycanda sabit inkişaf üçün imkanlar yaradacaqdır.

Bizim çox əlverişli coğrafi mövqemiz var. Lakin infrastruktur olmadan bu mövqenin böyük əhəmiyyəti yoxdur. Təbii sərvətlərimiz vardır, karbohidrogenlərimizin nəql edilməsi üçün şaxələndirilmiş şəbəkə yaratmışıq. Çünki Azərbaycanın açıq dənizə çıxışı yoxdur. Buna görə də neft və qazımızı nəql etmək üçün boru kəmərlərini çəkməli idik. Bu, ötən əsrin 90-cı illərinin sonunda və bu əsrin əvvəlində qarşımızda duran ən böyük vəzifələrdən biri idi. Bu vəzifə uğurla icra edildi. Hazırda şaxələndirilmiş 7 neft-qaz boru kəmərimiz mövcuddur ki, bu kəmərlər Azərbaycanın neft və qazını beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına çıxarır. Eyni zamanda, Azərbaycan karbohidrogenlərin nəqlində Xəzər dənizinin digər sahilində yerləşən tərəfdaşlarımız üçün tranzit rolunu oynamağa başlamışdır.

Lakin son 10 ildə əsas məqsədimiz iqtisadiyyatın şaxələndirilməsi olmuşdur. Azərbaycanın iqtisadi inkişafına nəzər yetirsəniz görərsiniz ki, iqtisadiyyatımız son 10 ildə dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olmuşdur. Ümumi daxili məhsul 3 dəfə – 300 faiz, sənaye istehsalı 2,5 dəfə artmışdır. Biz işsizliyi azalda bilmişik, hazırda işsizliyin səviyyəsi 5,2 faizdir. 10 il əvvəl əhalimizin, demək olar ki, yarısı yoxsulluq şəraitində yaşayırdı. Hazırda yoxsulluq səviyyəsi 6 faiz təşkil edir. Büdcə xərcləri, demək olar ki, 20 dəfə artıb və inflyasiya isə təxminən 1 faiz səviyyəsindədir. Bu, son 10 il ərzində müşahidə olunan inkişafdır.

Biz nailiyyətlərimizi Dünya İqtisadi Forumunun verdiyi qiymətdə görməkdən çox şadıq. Çünki Dünya İqtisadi Forumu iqtisadiyyatın rəqabətə davamlılığı baxımından Azərbaycanı 46-cı yerdə qərarlaşdırmışdır və bu sahədə ölkəmiz ardıcıl olaraq 4-cü ildir ki, MDB məkanında birinci yerdədir. Hətta iqtisadi və maliyyə böhranı zamanı, neftin qiymətləri kəskin surətdə aşağı düşdüyü zaman iqtisadiyyatımız inkişafını davam etdirmişdir. Çünki qeyri-enerji sektorumuz yaxşı nəticələr verməyə başladı. «Fitch», «Standard & Poors», «Moodys» kimi əsas kredit reytinqi təşkilatları Azərbaycanın kredit reytinqini bu yaxınlarda yaxşılaşdırmışlar. Bu da islahatların yaxşı göstəricisidir.

Hazırda biz neft gəlirlərini insan kapitalına çeviririk və əsas gələcək məqsədlərimizdən biri təhsildir. Təhsil istənilən ölkənin hər hansı uğurlu inkişafının ən vacib amilidir. Təhsil sahəsinə sərmayələr, universitetlərimiz ilə dünyanın aparıcı universitetləri arasında əlaqələr iqtisadi gələcəyimizi çox ciddi intellektual potensiala əsaslanaraq planlaşdırmağa imkan yaradır. Biz hazırda yeni texnologiyalara sərmayə yatırırıq. İndi informasiya-kommunikasiya texnologiyaları sahəsi Azərbaycanda prioritetlərdən birinə çevrilir. Azərbaycan artıq kosmos sənayesinə malik olan məhdud sayda ölkələr klubunun üzvünə çevrilmişdir. Bu ilin fevral ayında ilk peykimiz – «Azərspace-1» uğurla buraxıldı və bu, kosmik sənayenin inkişafının yalnız başlanğıcıdır.

Bir sözlə, müstəqillik illəri nəinki siyasi və iqtisadi sistemin dəyişilməsi illəri oldu, həmçinin bu dövrdə gələcək illərdə gəlir gətirəcək sərmayələr yatırıldı.

İslahatlarımızın əvvəlində müsbət sərmayə mühitinin yaradılması prioritetlərimizdən biri olmuşdur. Son 10 il ərzində Azərbaycana 130 milyard dollardan çox sərmayə qoyulmuşdur. Bu sərmayələrin müəyyən hissəsi xarici investisiyadır. Yaxşı sərmayə mühiti, proqnozlaşdırılan siyasi vəziyyət, ölkədə sabit durum və əlbəttə ki, regional əlaqələr hər bir ölkənin uğuru üçün ilkin şərtlərdən biridir.

Bu gün müzakirə olunan mövzulardan biri regional əməkdaşlıq və inteqrasiya olacaqdır. Səsvermənin nəticələrini görməkdən çox şad oldum. Yeri gəlmişkən, bunu belə də gözləyirdim. Çünki Azərbaycan regional əməkdaşlıqda öz rolunu oynayır. Keçən əsrin 90-cı illərinin ortalarında başladığımız layihələr nəinki Azərbaycanın iqtisadi inkişafına, o cümlədən geniş regional əməkdaşlığa yönəlmişdir. Biz Xəzər dənizini xarici sərmayələr üçün açıq elan edən ilk ölkə olduq. Biz Xəzər dənizindən Aralıq dənizinə və Qara dənizə dəhliz yaradan ilk ölkəyik. Neft və qaz dəhlizləri sonra ümumi geosiyasi və enerji dəhlizi rolunu oynamağa başladı. Hazırda biz Azərbaycan, Gürcüstan və Türkiyə arasında mühüm dəmir yolu xətti layihəsini yekunlaşdırmaq üzrəyik və bu, dostumuz cənab Starın qeyd etdiyi kimi, sırf regional layihə olmayacaq, Avropanı Asiya ilə Azərbaycan və qonşu ölkələr vasitəsilə bağlayacaq layihə olacaq. Böyük fərəh hissi ilə qeyd edirəm ki, biz bu layihənin həyata keçirilməsində nəinki maliyyə resurslarımızla, o cümlədən öhdəliklərimiz və siyasi iradəmizlə əsas rollardan birini oynayırıq. Əlbəttə ki, hökumətimizə gəldikdə, enerji amili artıq əsas prioritet deyil. Lakin enerji potensialımız regionun, xüsusən də Avropanın enerji təhlükəsizliyində daha böyük rol oynayır və oynayacaqdır.

2 il öncə biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlıq memorandumu imzaladıq. Bu hazırda həyata keçirilir. Son dövrün ən mühüm nailiyyətlərindən biri TANAP– Trans–

Anadolu boru kəməri layihəsidir. İdeya Azərbaycan tərəfindən verilmiş, Türkiyə və Gürcüstandakı tərəfdaşlarımızın güclü dəstəyini almışdır. Azərbaycan bu layihənin həyata keçirilməsi üçün əsas maliyyə öhdəliyini öz üzərinə götürüb və ən azı 100 il xidmət edəcək boru kəmərinin çəkilişinə başlamışdır. Azərbaycanın nəhəng qaz ehtiyatlarını və regiondakı potensial resurslarını nəzərə alsaq, bu dəhliz gələn onilliklər ərzində mühüm rol oynaya bilər. Əlbəttə ki, regional əməkdaşlıq yalnız siyasi baxımdan sabit və inkişaf edən ölkələrlə baş tuta bilər.

Biz nəqliyyat marşrutları, əməkdaşlıq və inteqrasiya haqqında danışacağıq. Bu isə yalnız prosesə cəlb olunan bütün ölkələrin eyni münasibəti olduqda mümkündür. Şadam ki, Xəzər regionu, Mərkəzi Asiya və bu regionda Azərbaycan gələcəyimizi sıx münasibətlərdə və əməkdaşlıqda, xalqlarımız üçün daha yaxşı həyatı, ölkələrimiz üçün daha yaxşı gələcəyi təmin etmək məqsədilə səylərimizin inteqrasiyasında və birləşdirilməsində görürük.

Hörmətli dostlar! Bir daha sizi ölkəmizdə salamlamaq istəyirəm. Professor Şvaba və onun heyətinə bu Forumu Bakıda keçirdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, bu tədbirin nəticələrinin gündəlik həyatımıza çox ciddi təsiri olacaqdır. Region isə daha sabit, proqnozlaşdırılan və çiçəklənən olacaqdır.

Çox sağ olun.

* * *

**B a k ı t j a n  S a g i n t a y e v** *(Qazaxıstan Respublikası Baş nazirinin birinci müavini):*Hörmətli cənab Prezident!

Hörmətli sədr!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, belə mötəbər görüşə dəvətə görə Dünya İqtisadi Forumuna minnətdarlığımı bildirmək istəyirəm. Mərkəzi Asiya və Qafqaz Avrasiyanın mühüm geostrateji regionudur. O, qitənin mərkəzində yerləşərək, bu geniş məkanda çox əhəmiyyətli iqtisadi rol oynayır. Odur ki, dünyada onun

perspektivlərinə marağın artması tamamilə qanunauyğundur. Ümidvarıq ki, bugünkü diskussiya yeni imkanların axtarışında və ölkələrimiz arasında əməkdaşlığın fəallaşmasında praktiki addım olacaqdır.

İlk növbədə, Qazaxıstanda müasir iqtisadi vəziyyəti xarakterizə etmək istəyirəm. Qazaxıstan ötən 10 il ərzində iqtisadi potensialını ikiqat artıra bilmişdir. Mütləq şəkildə desək, ölkədə ümumi daxili məhsul artaraq 2000-ci ildəki 18 milyard dollardan 2012-ci ilin yekunlarına görə, 200 milyard dollara çatmışdır. Sözügedən dövrdə adambaşına ÜDM artaraq 1200 dollardan 2012-ci ildə 12 min dollara çatmışdır. Proqnozlara görə, 2020-ci ilədək həmin göstərici artaraq 20 min dolları ötüb keçəcəkdir. Biz dünyada iqtisadi böhran və bir sıra aparıcı dövlətlərin üzləşdiyi mürəkkəb iqtisadi vəziyyət şəraitində makroiqtisadi sabitliyi qoruyub saxlaya bilmişik. 2012-ci ildə iqtisadiyyatın artımı 5 faiz təşkil etmişdir. İşsizliyin səviyyəsi son illər sabit səviyyədə olub, 5,5 faizdən çox deyildir. Mütəxəssislərin hesablamalarına görə, Qazaxıstan MDB ölkələrinin investisiyaları üçün ən cəlbedici yerlərdən biridir. 1993-cü ildən indiyədək ölkəmizə 160 milyard dollardan çox birbaşa xarici investisiya cəlb olunmuşdur. Hesablamalara görə, Mərkəzi Asiya regionunun birbaşa xarici investisiyalarının təxminən 80 faizi Qazaxıstanın payına düşür.

Qazaxıstanın maliyyə potensialı möhkəmlənir. Beynəlxalq ehtiyatlar, o cümlədən milli fondun vəsaiti artaraq 87 milyard dolları ötmüşdür. Dünya İqtisadi Forumunun reytinqi də ölkənin qazandığı uğurları təsdiq edir. Reytinqə görə Qazaxıstan 1 il ərzində 21-ci mövqeyə – daha yüksək inkişaf səviyyəsi olan ölkələr qrupuna keçərək Qlobal Rəqabət Qabiliyyəti İndeksində 51-ci yeri tutmuşdur.

Dünyanın inkişafının innovasiyalar, ən müasir biliklər və texnologiyalarla bağlı yeni mərhələsi ölkənin iqtisadi təməlinin modernləşdirilməsini tələb edir. Bununla əlaqədar olaraq, 2010-cu ildən yerli iqtisadiyyatın irimiqyaslı şəkildə şaxələndirilməsinə yönəldilmiş sürətləndirilmiş sənaye innovasiya inkişafı üzrə Dövlət

Proqramı həyata keçirilir. Hazırda 200 mindən çox iş yerinin yaradılmasını ehtiva edən 775-dən çox layihənin həyata keçirilməsi planlaşdırılmışdır. Ötən 3 il ərzində ölkədə tamamilə yeni istehsalatların işə salınmasını tənzimləməyə, infrastrukturu modernləşdirməyə imkan verən 530-dan çox müəssisə işə salınmışdır. Proqramı dəstəkləmək üçün 9 azad iqtisadi zona, texnoparklar, sənaye parkları fəaliyyət göstərir, biznesi dəstəkləyən müxtəlif maliyyə və qeyri-maliyyə tədbirləri nəzərdə tutulmuşdur. Bu məqsədlə region dövlətlərini şirkətlərimiz və müəssisələrimizlə əməkdaşlığa və kooperasiyaya dəvət edirik.

Qazaxıstanın 2050-ci ilədək dünyanın inkişaf etmiş 30 ölkəsi sırasına daxil olması üzrə prezident Nursultan Nazarbayevin qarşıya qoyduğu strateji vəzifələri nəzərə almaqla, Qazaxıstan iqtisadiyyatının həmin qrupdan olan ölkələr üçün səciyyəvi olan parametrlərə, ən yaxşı beynəlxalq təcrübə standartlarına görə modernləşdirilməsi və transformasiyası üzrə iş başlayır. Birinci praktiki addım «yaşıl iqtisadiyyat» prinsiplərinə keçid olacaqdır. Sabit inkişaf ətraf mühitə və təbii ehtiyatlara qayğıkeş münasibət olmadan qeyri-mümkündür. Odur ki, əsas mövzusu gələcəyin enerjisi müəyyən edilmiş «Expo–2017» beynəlxalq sərgisinin keçirilməsinin əsas yeri kimi Qazaxıstanın seçilməsi təsadüfi deyil. Bu, dünyanın qabaqcıl texnologiyalarının və «yaşıl» qərarların ölkəmizin iqtisadiyyatına cəlb olunmasına imkan verəcəkdir.

Çıxışımın ikinci hissəsinə keçərək, Mərkəzi Asiya və Qafqaz ölkələri ilə əməkdaşlığın bəzi perspektiv istiqamətləri üzərində dayanmaq istəyirəm. Bir sıra istiqamətlər üzrə artıq müəyyən işlər nəzərdə tutulmuşdur. Lakin bütövlükdə qarşılıqlı fəaliyyəti genişləndirmək və işgüzar münasibətləri həyata keçirmək üçün hələ xeyli potensial qalır.

Əvvələn, Avropa ilə Asiyanın qovuşuğunda coğrafi mövqeyi nəzərə alsaq, xeyli nəqliyyat-logistik potensial vardır. Lap qədim zamanlardan regionumuz Şərqdən Qərbə doğru tarixi İpək yolunun üstündə yerləşir. Çindən və Hindistandan Avropaya aparılan strateji baxımdan əhəmiyyətli yüklər

yüzilliklər ərzində məhz bu ərazidən keçmişdir. Buna görə də Qazaxıstan Şərqlə Qərb arasında körpünün əvvəlki tranzit funksiyalarını bərpa etmək işini ciddi şəkildə sürətləndirmişdir. Bu məqsədlə Qərb–Şərq, Şimal–Cənub istiqamətləri üzrə bir sıra mühüm layihələr həyata keçirilir. Bunlar Qazaxıstanın, habelə Mərkəzi Asiya və Qafqazın dənizə çıxışı olmayan, beynəlxalq bazarlardan uzaqda yerləşən digər dövlətlərinin ticarəti və qarşılıqlı iqtisadi mübadiləni inkişaf etdirmələri üçün onların qarşısında yeni imkanlar açan transkontinental layihələrdir. Məsələn, biz Qərbi Avropa – Qərbi Çin beynəlxalq avtomobil yolunun tikintisini həyata keçiririk. Ölkənin şərqində Cənubi-Şərqi Asiyanın, habelə Çinin sürətlə inkişaf edən regionu ilə ticari əlaqələrin genişləndirilməsinə yönəldilmiş «Xorqos–Şərq qapısı» layihəsi həyata keçirilir. Xəzərdə Aktau limanı bazasında «Qazaxıstanın Qərb qapısı» layihəsi həyata keçirilir. Belə layihələrin icrası ilə bir çox coğrafi əngəllər aradan qaldırıla bilər. Bu, region ölkələrinin birgə fəaliyyəti üçün geniş məkandır.

İkincisi, kənd təsərrüfatı sektorunda böyük potensial vardır. Hazırda Qazaxıstan dünyanın ən mühüm taxıl mərkəzlərindən biridir və un ixracı üzrə dünyada ikinci yerdədir. Müşahidə olunan demoqrafik proseslərin və əhalinin strukturunu nəzərə alaraq, Qazaxıstanda artıq ərzaq bazasını genişləndirmək üzrə geniş addımlar atılmışdır. Aqrar-sənaye kompleksinin inkişaf proqramı çərçivəsində 2020-ci ilədək ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulunun hazırlanması üzrə tədbirlər planlaşdırılmışdır. Bu məqsədlər üçün 2020-ci ilədək 20 milyard dollardan çox vəsait nəzərdə tutulmuşdur. Qazaxıstan bu istiqamətdə ən sıx kooperasiyaya da hazırdır.

Üçüncüsü, ticarət sahəsində kifayət qədər istifadə edilməmiş potensial vardır. Belə ki, 2012-ci ildə Mərkəzi Asiya ölkələri ilə əmtəə dövriyyəsi hesablamalara görə 2011-ci illə müqayisədə 27 faiz artaraq 4,7 milyard dollar təşkil etmişdir. Lakin bu, bütövlükdə Qazaxıstanın xarici ticarət dövriyyəsinin cəmi 4,2 faizini təşkil edir. Özü də ölkənin ümumi xarici ticarət

dövriyyəsinin yalnız 0,4 faizi Qafqaz ölkələrinin payına düşür. Gördüyümüz kimi, potensial böyükdür. Ticarət missiyaları ilə mübadiləni, regional biznes-forumların keçirilməsini, hökumətlərarası qərarların işlənib hazırlanmasını fəallaşdırmaq mümkündür.

Deyilənləri nəzərə alsaq, bütövlükdə xeyli potensial və ümumi maraqlar vardır. Sizə məlumat verib bildirmək istəyirəm ki, mayın 22-də növbəti Astana İqtisadi Forumu keçiriləcək. Düşünüləsi məqamlar çoxdur. Forumun keçirilməsində məqsəd dünyanın bir çox dövlətlərinin üzləşdikləri aktual və regional problemlərin həlli yollarının axtarışıdır.

Astana Forumunun ən mühüm hadisəsi BMT-nin himayəsi altında Dünya Antiböhran Konfransının keçirilməsi olacaqdır. Fürsətdən istifadə edərək, bugünkü iştirakçıları Astana İqtisadi Forumuna dəvət etməyi özümüzə şərəf bilirik.

Sonda əla təşkil edilmiş Bakı Forumuna səmərəli iş arzulamaq istəyirəm. Diqqətinizə görə minnətdarıq.

**A n d r e y K o s t i n** *(Rusiyanın VTB Bankının sədri və icraçı direktoru):* Xanımlar və cənablar, hesab edirəm ki, ən aparıcı inteqrasiya qrupları kimi, Avropa İttifaqında iqtisadi və maliyyə böhranı içərisində biz daha çox imkanlar və iqtisadi artım üçün yeni sahələr axtarırıq. Əlbəttə, Cənubi Qafqaz və Mərkəzi Asiya regionları belə sahələrdən birini təmsil edir. Cənab prezident İlham Əliyevin qeyd etdiyi kimi, son 10 ildə Azərbaycan çox böyük artıma nail olmuşdur və ölkənin iqtisadi inkişafının nəticələri heyranedicidir. Prezident İlham Əliyev bu iqtisadi artımın mənzərəsini təqdim etmişdir. Mən bu nailiyyətlərə görə onu təbrik etmək istəyirəm.

Neft-qaz və digər mineral ehtiyatlara malik region ölkələrinin ola bilsin ki, digər ölkələrlə müqayisədə iqtisadiyyatı daha sürətlə inkişaf edir. Amma biz başa düşürük ki, neft və qaz dövrü daimi deyildir. Dünya daha rəqabətli bazar vəziyyətinə hazır olmalıdır və gələcəkdə enerjinin alternativ mənbələri təklif oluna bilər. Dediyim kimi, bu region iqtisadi artım üçün çox gözəl imkanlar açır. Region üçün ən böyük məsələlərdən biri təhlükəsizlik

problemləridir. Bu region hərbi və siyasi baxımdan çox mürəkkəbdir. Regionun firavan gələcəyini təmin etmək üçün biz bu məsələlərlə, əlbəttə ki, çox ciddi məşğul olmalıyıq və onları həll etməliyik. Amma burada qarşılıqlı əməkdaşlıq imkanları da mövcuddur. Enerji ehtiyatlarını ixrac edən ölkələrin strategiyalarının inteqrasiyası çox önəmlidir. Azərbaycan praktiki baxımdan yanaşaraq, bu sahədə çox böyük nailiyyətlərə imza atmışdır.

Hesab edirik ki, daha sıx əməkdaşlıq bizim hamımızın xeyrinədir. Sovet İttifaqı dövründə bizim iqtisadiyyatımız vahid idi. Əlbəttə, bir çox məsələlər dəyişmişdir. Amma sənaye, iqtisadi və bir çox digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Ona görə də biz digər imkanlar təklif edirik. Bizim yanaşmamız ondan ibarətdir ki, region ölkələri ilə inteqrasiyada bir çox sürətli yanaşmadan istifadə edə bilərik. Qazaxıstan kimi ölkələrlə biz artıq gömrük ittifaqına qoşulmuşuq. Biz vahid iqtisadi məkan istiqamətində irəliləyirik. Digər ölkələrlə biz daha yumşaq, daha aşağı səviyyəli əməkdaşlıq həyata keçirə bilərik. Gələcəkdə ola bilsin ki, onlarla digər istiqamətdə əməkdaşlıq davam edəcəkdir. Biz hesab edirik ki, Rusiya region ölkələrinin iqtisadi və siyasi müstəqilliyinə heç bir təsir etmir. Başa düşürük ki, region ölkələri müxtəlif inkişaf səviyyələrindədir. Ona görə də əməkdaşlıq da müxtəlif səviyyədə ola bilər. Amma yenə də hesab edirik ki, region həm iqtisadi, həm də siyasi baxımdan xeyli fayda görəcəkdir.

**C o m ə r d  O t o r b a y e v** *(Qırğız Respublikası Baş nazirinin birinci müavini):* Cənab Prezident, professor Şvab, tədbiri çox yüksək səviyyədə təşkil etdiyinizə görə sizə təşəkkür edirəm. Ümumiyyətlə, qardaş ölkə olan Azərbaycanın inkişafı məndə çox böyük təəssürat yaratdı. Çox təəssüf edirəm ki, mən ilk dəfədir Azərbaycana gəlirəm. Həqiqətən də burada gedən proseslər məndə çox böyük təəssürat yaratdı.

Cənab Prezident, sözsüz ki, bu inkişaf prosesində Sizin şəxsi rolunuz qeyd edilməlidir. Dünən bizim küçədə sadə insanlarla,

gənclərlə, tələbələrlə söhbət etmək imkanımız oldu. Biz onlarda yüksək əhval-ruhiyyə, optimizm müşahidə etdik. Sözsüz ki, bütün bunlara görə biz qardaş Azərbaycanın nailiyyətləri ilə fəxr edə bilərik.

Təbii ki, nadir bir Forumda iştirak edirik, Qırğız Respublikası da bu Forum ilə yanaşı, həm də bu qəbildən olan gələcək forumlarda iştirak edəcəkdir. Region, ümumiyyətlə, daha dinamik, daha iddialı olmalıdır. Dünya çox sürətlə dəyişir, inkişaf edir. Ən azı biz də eyni sürətlə hərəkət etməliyik. Biz regionun bütün dinamikasından istifadə etməliyik. Biz buradakı çıxışlarda rəqəmləri dinlədik. Mərkəzi Asiyanın 5 ölkəsinin birlikdə ümumi daxili məhsulu balaca bir ölkə olan Sinqapurun ümumi daxili məhsulundan daha azdır. Bu o deməkdir ki, inkişaf üçün böyük potensial, çox geniş təbii resurslar vardır. Çox böyük insan kapitalı mövcuddur, amma hələ də bu kapitaldan kifayət qədər istifadə edilmir.

Qırğız Respublikası açıq ölkədir. Bizim məqsədimiz həm siyasəti, həm də iqtisadiyyatı və cəmiyyəti inkişaf etdirərkən rəqabətədavamlı bir mühit yaratmaqdır. Bu mənada bizim üçün yeganə prioritet regional əməkdaşlığı gücləndirməkdir. Qırğız Respublikası təbii resurslarla çox zəngindir. Təsdiq edilmiş qızıl ehtiyatları 1000 tondan artıqdır. Hidroenergetika ehtiyatları ilə çox zəngin ölkədir. Məqsədimiz müsbət əlverişli investisiya mühiti yaratmaq üçün müvafiq infrastruktur qurmaqdır.

Cənab prezident Əliyevin vurğuladığı kimi, regional əməkdaşlıq regionun inkişafında əsas rol oynamalıdır. Marko Polo bu regionda səyahətə çıxsaydı, indiki vaxtda onun bu səyahəti daha gec çəkərdi. Çünki bizdə sərhədlərdə müəyyən problemlər vardır. Sənədləşmə, bürokratiya ilə bağlı müəyyən problemlər mövcuddur. Biz hazırkı inkişafla qane ola bilmərik. Gəlin daha böyük inkişafa nail olaq.

Sağ olun.

**T a n ə r  Y ı l d ı z** *(Türkiyənin Energetika və Təbii Ehtiyatlar naziri):* Hörmətli cənab prezident İlham Əliyev!

Hörmətli tədbir iştirakçıları!

Xanımlar və cənablar!

Hamınızı Türkiyə Respublikasının Hökuməti adından salamlayaraq çıxışımı başlamaq istəyirəm.

Əvvəlcə hörmətli prezident İlham Əliyevə və Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvaba bu tədbirin təşkilinə və qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Bakıya, Azərbaycana layiq olan bir tədbir keçirilir. Təbii ki, tədbirdə mühüm əməkdaşlıq imkanları müzakirə edilir.

Beynəlxalq əlaqələrdə mühüm rol oynayan irimiqyaslı layihələrin ümumi təhlilini aparmağa ehtiyac vardır. İqtisadiyyatlar qloballaşır, siyasətlər isə beynəlmiləlləşir. Ölkələr beynəlxalq siyasətlərini birləşdirdikləri zaman əməkdaşlıq əlaqələrini qura bilirlər.

Qlobal böhranın enerji sektoru ilə əlaqədar təbii nəticələri vardır. Bunlardan biri o ölkələrdəki enerji sektorunun subsidiyaları ilə əlaqədar rəqəmlərin getdikcə azalmasıdır. Bu, Türkiyə Respublikası kimi dəyişərək inkişaf etməyə çalışan ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Türkiyə son 10 ildə ümumi daxili məhsulunu 3 dəfə artırmışdır. Ölkənin enerji sektorunun yenidən qurulmasına qoyulan sərmayəni 2 dəfə çoxaltmışdır. Düzgün addım atdığı üçün Türkiyə gücləndi.

Türkiyə dünyanın bir çox ölkələri ilə müxtəlif layihələr həyata keçirməyə nail olmuşdur. Ona görə siyasi sabitliyini davam etdirən ölkələrlə birlikdə region güclənə bilər. Enerji resurslarından sülhün, sabitliyin təminatçısı kimi istifadə edərək inkişafa nail ola bilərik.

Bu gün Türkiyə Qara dənizdə Rusiya Federasiyası ilə «Cənub axını» layihəsini reallaşdırmaqla yanaşı, dost və qardaş ölkə Azərbaycan ilə Trans–Anadolu qaz boru kəməri (TANAP) layihəsini uğurla həyata keçirir.

Digər tərəfdən, siyasi problemlərə baxmayaraq, Türkiyə İranla təbii qaz sahəsində müqavilə imzalayıb, İraqla neft və təbii qaz sektorunda əməkdaşlığı davam etdirir.

Türkiyə hazırda Suriyadakı rejimi təqdir etmir, ancaq ehtiyacı olduqda bu ölkəni elektrik enerjisi ilə təmin edir.

Cənubi Kipr rəhbərləri ilə əlaqədar oradakı siyasəti təqdir etmirik, amma ehtiyacları olanda onları da elektrik enerjisi ilə təmin edirik.

Türkiyənin hazırda regiona olan töhfəsinin davam edən siyasi sabitliklə birlikdə daha da artdığını görürük. Türkiyə xüsusilə coğrafi vəziyyətinin üstünlüklərindən istifadə edərək, ciddi layihələr həyata keçirmək üçün müsbət mövqeyini davam etdirəcəkdir. Türkiyə Bakı–Tbilisi–Ceyhan neft boru kəməri layihəsi ilə birlikdə Xəzərdəki enerji ehtiyatlarının dünya bazarına çıxmasına töhfə verir. Dəmir yolu layihələri ilə birlikdə nəqliyyat təhlükəsizliyinin təminatçısı olur.

Türkiyə Asiyanın istehsal güclərini Avropanın istehlak bazarları ilə birləşdirməklə regionda vacib nəqliyyat körpüsü rolunu oynayır. Coğrafi mövqeyindən qaynaqlanan bu üstünlüklərindən sui-istifadə etmədən Türkiyə bütün müsbət yanaşması ilə regionun inkişafına öz töhfəsini verməyə davam edəcəkdir.

Türkiyə bu dəyişikliyi yaşayarkən 2023-cü və 2030-cu il hədəflərini real görür. Türkiyə bir tərəfdən, yenilənən enerji ehtiyatları ilə öz ehtiyacını ödəməyə çalışarkən, Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, hələ də 3 əsas yanacaq olan neft, təbii qaz və kömürlə əlaqədar tədarüklərini davam etdirir. Enerji istehsal edilən ölkələrdə həmin sektordan digər sektorlara sərmayə qoyularkən, neft və qaz ehtiyatlarına malik olmayan Türkiyədə digər sektorlardan enerji sektoruna maliyyə vəsaiti qoyulur.

Regionumuzda ölkələrin inkişaf hədəfləri o ölkələrin gəlirlərindən daha çoxdur. Yəni daxili sərmayədən daha çox xarici sərmayənin qoyulması bu baxımdan əhəmiyyətlidir. Xarici sərmayə hər zaman olduğu kimi, sabitliyi, hüquqi cəhətdən və təməli möhkəm olan ölkələrə qoyulur. Buna görə də Türkiyə bütün bunları nəzərə alaraq inkişafını davam etdirir.

Biz bu tədbirdə iştirak edən bütün qonaqları İstanbulda keçiriləcək Dünya İqtisadi Forumuna dəvət edirik.

Ev sahibliyinə görə, hörmətli prezident İlham Əliyev başda olmaqla, bütün tədbir iştirakçılarına minnətdarlığımı bildirirəm.

*Sonra diskussiya şəraitində müzakirələr başladı. İlk sual Avropa və Asiya arasında körpü olan Cənubi Qafqaz və Mərkəzi Asiya regionları ölkələrinin risk profilinin hansı səviyyədə olması ilə bağlı idi. Digər tərəfdən, neftdən asılılığın azaldılması ilə bağlı proqramlar hansı planları əhatə edir, bundan əlavə, regionda əməkdaşlıq baxımından daha çox hansı model haqqında danışılmalıdır?*

*Digər sual inteqrasiya prosesində suverenliyin qorunub saxlanması ilə bağlı idi.*

**İ l h a m Ə l i y e v:** Mən bir daha qeyd etmək istəyirəm ki, hökumətimiz üçün son 10 ildə şaxələndirilmə bir nömrəli prioritet olmuşdur. Çünki biz müstəqilliyin əvvəlki mərhələsində sərmayələri cəlb etmək üçün enerji potensialımızı təqdim etməli idik. İnvestorlar üçün çox güzəştli şəraitlər yaratmalı idik ki, onlar özlərini Azərbaycanda rahat hiss etsinlər. Lakin anlayırıq ki, yalnız enerji sektorunun inkişafı bizə dəyişikliklərə nail olmaq, iş yerlərini açmaq imkanını yaratmayacaqdır. Çünki enerji sektoru çox sayda iş yerləri açmır. Bu bizə zəngin və yoxsul arasındakı boşluğu aradan qaldırmağa imkan verməyəcək. Buna görə də biz 2004-cü və 2009-cu illərdə 2 regional İnkişaf Proqramını qəbul etdik. Bu proqramların əsas məqsədi şaxələndirmə və infrastruktur, sərmayə, özəl sektorun stimullaşdırılması idi.

Əlbəttə, tənzimləmə, liberal islahatlar və sərmayə mühiti bu məqsədə nail olmaqda bizə yardımçı oldu. Azərbaycan haqqında ən yaxşı statistik məlumatlar yoxsulluğun, işsizliyin azaldılması və qeyri-enerji sektorunun yüksəlməsi idi. Ötən il qeyri-enerji sektorunda artım təxminən 10 faiz olmuşdur. Gələn illərdə əminəm ki, şaxələndirmə prosesi uğurla gedəcək. Çünki ölkəmizdə 2020-ci ilə baxış proqramı vardır. Bu, 2020-ci ilə qədər hansı işlərin görülməsini təsvir edən əhatəli və olduqca dəqiq proqramdır. Məqsədimiz gələn 8-9 ildə qeyri-enerji sektorunda ümumi daxili məhsulun payının 2 dəfə artırılmasıdır. Diqqət yetirdiyimiz sektorlar – informasiya-kommunikasiya texnologiyaları, həmçinin kənd təsərrüfatı və

xidmətlərdir. Enerji amilindən asılılığın azaldılması, həmçinin prioritetlərimizdən biridir. Anlayırıq ki, enerji amili nəinki Azərbaycanın iqtisadi inkişafında, o cümlədən buradakı regional əməkdaşlıqda mühüm yer tutacaqdır. Çünki bu, aparıcı qüvvədir. İnteqrasiyanın suverenliklə necə uzlaşması ilə bağlı sualınızın ikinci hissəsinə gəldikdə bildirmək istəyirəm ki, bu paneldə öz inkişaf seçimlərini etmiş ölkələrin nümayəndələri əyləşiblər. Əlbəttə, Avropa İttifaqı inteqrasiyanın bir nümunəsidir. Hazırda müəyyən ölkələrin üzv olduqları Gömrük İttifaqı yaradılmışdır və elə ölkələr var ki, gələcək inteqrasiya planlarını hazırda qiymətləndirirlər.

İnteqrasiya ilə suverenlik arasında tarazlığa gəldikdə, Azərbaycanın mövqeyi baxımından bizim üçün suverenlik müzakirə olunmayan məfhumdur. 100 faizlik suverenlik, bu mütləqdir. Ola bilsin bu bizim keçmişimizlə bağlıdır. O vaxtlar Azərbaycan digər imperiyaların, ölkələrin bir hissəsi olmuşdur. Müstəqilliyimizin yalnız 21 yaşı var. Bu səbəbdən bizim üçün siyasi və iqtisadi müstəqillik gələcək inkişaf baxımından ilkin şərtdir. Gəlin bugünkü Azərbaycana və 30,40 və 50 il öncəki Azərbaycana baxın. Bu, gecə ilə gündüzün fərqi kimidir. Ona görə də müstəqillik nəinki milli qürur hissini gətirdi, həmçinin ölkədə gündəlik həyat tərzini yaxşılaşdırmağa imkan yaratdı. Lakin bu o demək deyil ki, biz ətrafımızda baş verənləri yalnız müşahidə etmək fikrindəyik. Biz regional əməkdaşlıq layihələrində fəal iştirak edirik. Biz regional əməkdaşlıq layihələrinin əksəriyyətini başlatmışıq və bunun faydasını görürük. Zənnimcə, əməkdaşlığın hüdudları suverenliyin azaldılmasına və ya iqtisadi suverenliyimizin bir hissəsinin dövlət səviyyəsindən yuxarıda duran müəyyən ittifaqlara və ya strukturlara verilməsinə gətirib çıxarmır. Hesab edirəm ki, biz bir tərəfdən, regional əməkdaşlıq və inteqrasiya, digər tərəfdən isə suverenliyimiz və seçimimiz arasında lazımi tarazlığı tapmışıq.

*Türkiyənin Energetika və Təbii Ehtiyatlar naziri Tanər Yıldız bildirdi ki, istehlakçılar və hasilatçılar bir-biriləri ilə sıx bağlıdır*

*və Türkiyə bu məsələyə hər zaman müsbət baxmışdır. Avropa İttifaqı ölkələrində bu cür münasibətlərə çox az rast gəlinsə də, Azərbaycan və Türkiyə Trans–Anadolu qaz kəməri layihəsini reallaşdırmaqla bu nümunəni göstərdilər.*

*Rusiyanın VTB Bankının sədri Andrey Kostin neft gəlirlərinin şaxələndirilməsi ilə bağlı Azərbaycanın yanaşmasını nümunə adlandırdı.*

**A n d r e y K o s t i n:** Hesab edirəm ki, Azərbaycanın çox məqbul yanaşması vardır. Azərbaycan müvafiq əməliyyatları həyata keçirir və gələcəyin iqtisadi şaxələndirilməsini təmin etməyə çalışır. Düşünürəm ki, müasir dünyada neft ixracatçısı məhz bu yanaşmadan istifadə etməlidir.

*Qazaxıstanın Baş nazirinin birinci müavini Bakıtjan Sagintayev ölkəsində iqtisadi şaxələndirmə, o cümlədən iqtisadiyyatın sənayeləşdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi ilə bağlı görülən işlərdən danışdı.*

*Qırğız Respublikası Baş nazirinin birinci müavini Comard Otorbayev belə görüşlərin regionun inkişafı baxımından önəmli olduğunu dedi. C.Otorbayev inteqrasiya proseslərində görülən işlərin əhəmiyyətinə də toxundu.*

*Digər sual həm Cənubi Qafqaz, həm də Mərkəzi Asiya regionlarında yerləşən ölkələr arasında ünsiyyətin qurulmasının vacibliyi, o cümlədən bu ünsiyyətdə dövlət və biznes dairələrinin iştirakı ilə bağlı oldu. Bundan əlavə, iştirakçılar gələcəkdə sözügedən regionlara daha hansı ölkələrin daxil edilməsinin mümkünlüyü ilə maraqlandılar.*

**K l a u s Ş v a b** (*Dünya İqtisadi Forumunun (Davos Forumu) təsisçisi və icraçı sədri*): **Cənab prezident Əliyev, biz nəticələrin çıxarılması mərhələsinə çatdıq. Əgər bir dəqiqəlik şərhlə çıxış etsəydiniz, bu sessiyanın ən mühüm mesajını necə təsvir edərdiniz?**

**İ l h a m Ə l i y e v:** Ən mühüm mesajlardan biri odur ki, bizim hamımıza regionda əməkdaşlıq və proqnozlaşdırılan vəziyyət lazımdır. Bizə sabitlik lazımdır. Biz iqtisadi və siyasi münasibətlərimizi genişləndirməliyik. Çünki biz bir-birimizlə

bağlıyıq. Bu yalnız onunla bağlı deyildir ki, onilliklər ərzində eyni ölkədə yaşamışıq. Bu həmçinin regionumuzun Mərkəzi Asiyanın və Qafqazın uğurlu inkişafının yalnız sırf əməkdaşlıqla bağlı olması ilə izah edilər. Bunlar sadə sözlər deyildir. Biz artıq regional əməkdaşlıq layihələrinin həyata keçirilməsi üçün bir çox işlər görmüşük. Məsələn, Azərbaycana gəldikdə enerji, daşıma məsələləri, o cümlədən ticarət sahəsindəki əlaqələr bizə inkişaf etməkdə yardımçı olur. Regional əməkdaşlıq olmadan biz karbohidrogenlərimizi ixrac edə bilməzdik. Sıx regional əməkdaşlıq olmadan biz Xəzər dənizinin digər sahilində yerləşən tərəfdaşlarımız və qonşularımız üçün tranzit ölkə ola bilməzdik. Bir sözlə, regional əməkdaşlıq gücləndirilməlidir və hər bir ölkə əməkdaşlıq və inteqrasiyanın səviyyəsini müəyyənləşdirməlidir. Fikrimcə, inteqrasiya ilə əməkdaşlıq arasında ziddiyyət olmamalıdır. Əgər hər bir ölkə nə dərəcədə inteqrasiya olunmaq, müxtəlif strukturlarda iştirak etmək niyyətini özü müəyyən edərsə və digərləri onun bu hüququnu tanıyarsa, o zaman hesab edirəm ki, yaxşı irəliləyişimiz ola bilər.

**K l a u s  Ş v a b:** Sağ olun. Bütün iştirakçılar adından mən, cənab Prezident, göstərmiş olduğunuz qonaqpərvərliyə və bu mühüm prosesi mümkün etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Digər panel iştirakçılarına da bizimlə olduqlarına görə minnətdaram. Sizə uğurlu gün arzulayıram. Bir daha çox sağ olun.

# DÜNYA İQTİSADİ FORUMUNUN (DAVOS FORUMU) YEKUN İŞÇİ ŞAM YEMƏYİ TƏDBİRİNDƏ İŞTİRAK

*8 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 8-də Bakıda keçirilən Dünya İqtisadi Forumunun (Davos Forumu) yekun işçi şam yeməyi tədbirində iştirak etmişlər.*

*Tədbirin aparıcısı, Hollandiyanın Leiden Universitetinin professoru Viktor Halberstadt Forumun yekun işçi şam yeməyi zamanı gün ərzində keçirilən sessiyaların nəticələrinin müzakirə olunacağını bildirdi.*

**Viktor Halberstadt:** Bütün müzakirələrin və fikirlərin məqsədi regionda mövcud olan potensial imkanlardan istifadə etmək və bu imkanları reallaşdırmaqdır. Ümid edirəm ki, biz maraqlı fikir mübadiləsi aparacağıq. Hamınız bu müzakirələrdə fəallıqla iştirak edəcəksiniz. Əvvəlcə söz cənab Klaus Şvaba veriləcək. O, Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədridir.

**Klaus Şvab:** Cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar, əziz dostlar!

Həqiqətən də çox gözəl bir gün yaşadıq. Cənab Prezident, Sizin rəhbərliyiniz altında bu qədər böyük nailiyyətlər əldə etmiş Azərbaycan gələcəkdə qlobal miqyasda ən mühüm rol oynayan mövqelərdən birini tutacaqdır. Sözsüz ki, Azərbaycan dünyanın gələcəyinə töhfə verən ölkələrdən biridir. Biz bu gün Sizin təkliflərinizi, fikirlərinizi eşidəcəyik. Buna görə Sizə təşəkkür edirəm.

Sizə vəd edə bilərəm ki, Dünya İqtisadi Forumuna gəldikdə, biz bu ölkədə, bu regionda fəaliyyətimizi davam etdirəcəyik. Yəni, cənab Prezident, Siz 7 dəfə Davosda, bizim iclaslarda iştirak etmisiniz və bu ənənəni başlamısınız. Bu ənənəni biz də

davam etdirəcəyik. Mən Sizin hamınıza təşəkkür edirəm. Bu görüşün baş tutmasına öz töhfəsini vermiş bütün tərəflərə təşəkkürümü bildirirəm. Azərbaycan hökumətinə minnətdarlığımı bildirmək istərdim. Biz öz tərəfdaşlarımıza təşəkkür edirik. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə təşəkkür edirəm. ARDNŞ ilə Forum çərçivəsində əməkdaşlıq etməkdən son dərəcə məmnunuq. Eyni zamanda, bizə böyük qonaqpərvər münasibət göstərdiyinə görə Azərbaycan xalqına təşəkkür edirəm. Hörmətli Prezident, təşəkkür edirəm. Hörmətli iştirakçılar, hamınıza təşəkkür edirəm.

*bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrell ölkəmizlə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğuladı.*

**Q o r d o n B i r r e l l:** *bp* və onun tərəfdaşları Azərbaycanda 20 il əvvəl investisiyalar yatırmağa başlamışlar. O vaxtdan bəri, həqiqətən də tam sabitlik təmin edilmişdir və həmin dövrdə imzalanan sazişlərin heç birinə dəyişiklik edilməmişdir. Hasilatın pay bölgüsü sazişində heç bir dəyişiklik olunmamışdır. Bu mənada əminəm ki, neft və qaz sektorunun əsas investorlarını maraqlandıran bir nömrəli sabitlik məsələsi Azərbaycanda gələcəkdə də hökm sürəcəkdir. Tərəflərin qarşılıqlı etibar şəraitində dialoq aparması və investorların qəbul edən ölkənin məqsədlərini tam anlamasına imkan verən bir dialoqun olması çox vacibdir.

Neft və qaz sektoru, ümumiyyətlə, çox mürəkkəb sektordur. Bu sahədə ən yeni texnologiyalar tələb olunur və bunun üçün işçi heyət də ən yüksək standartlara uyğun təlim keçməlidir ki, bu avadanlıqdan istifadə edə bilsin. Qeyd edim ki, son 8–10 il ərzində 700-dən çox azərbaycanlı mühəndis, texniki işçi təlim keçmişdir. Dənizdəki yataqlarda ən müasir avadanlığı işlədənlərin 95 faizi azərbaycanlılardır. Onu da deyim ki, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokuna yatırılan investisiyamızı davam etdirməyə hazırıq. Bu çox böyük ehtiyatlara malik yataqdır. Ancaq ehtiyatların çıxarılması üçün böyük investisiyalar tələb olunur. Biz bu istiqamətdə işimizi

davam etdirə bilərik. «Şahdəniz-2» yatağının uğurla işlənilməsi çox vacibdir. Bu həm investorların, həm də Azərbaycan hökumətinin gözləntilərinə uyğun gəlir. Deyə bilərəm ki, ARDNŞ ilə əməkdaşlıq sayəsində biz bu il investisiya ilə bağlı çox mühüm və uğurlu bir qərar qəbul etmişik.

Sonda demək istərdim ki, yeni layihələrə, yeni kəşfiyyat layihələrinə investisiyaların yatırılması çox vacibdir. Biz həmçinin yeni hasilatın pay bölgüsü sazişi imzalamışıq və Azərbaycanda fəaliyyət göstərən digər potensial investorlarla birgə ilk kəşfiyyat quyularının qazılmasına başlayacağıq.

*Rusiya Birbaşa İnvestisiyalar Fondunun vitse-prezidenti Piter Salnikov üzvü olduğu işçi qrupunda regionun böyük investisiya layihələri, sərmayə qoyuluşuna mane olan cəhətlər, onların aradan qaldırılması və digər aktual mövzularda maraqlı müzakirələr aparıldığını bildirdi.*

**P i t e r  S a l n i k o v:** Cənab Prezident!

Xanımlar və cənablar!

Bu imkana görə təşəkkür edirəm. Mən Rusiya prezidentinin və Baş nazirinin dəstəyi ilə yaradılmış Rusiya Birbaşa İnvestisiyalar Fondunu təmsil edirəm. Bu il Rusiyanın «Böyük 20-lik»ə sədrliyi çərçivəsində Birbaşa İnvestisiyalar Fondu xüsusi işçi qrupa həmsədrlik edir. Bu qrup praktiki tövsiyələr irəli sürmək və çox kritik məsələlərin, qlobal biznes məsələlərinin həllini tapmaq üçün qlobal biznes liderlərini birləşdirir. Bu gün toxunulan məsələlərin çoxu irəli sürdüyümüz tövsiyələrə tam uyğun gəlir. Bunlar işçi qrupun üzərində işlədiyi 3 əsas istiqamət – kapitalın rahat axınına mane olan problemlərin müəyyən edilməsi və aradan qaldırılması, inkişaf etməkdə olan ölkələrdə investisiyaların stimullaşdırılması və investisiyalardan səmərəli istifadənin təmin edilməsidir. Təşəkkür edirəm.

*York Hersoqu, şahzadə Endryu Forumun insan kapitalı bölməsində müzakirə olunan məsələlər barədə məlumat verdi. Fikir mübadiləsinin əsasən regionda sahibkarlığın inkişafı və yeni layihələrə sərmayə qoyuluşu mövzuları ətrafında aparıldığını vurğuladı.*

**Ş a h z a d ə  E n d r y u:** Biz belə bir nəticəyə gəldik ki, kiçik və orta sahibkarlığın dayanıqlı inkişafı bu gün səhər cənab Prezidentin dediyi kimi, əsas məqsədlərə nail olmaq üçün çox önəmlidir. Neft-qaz sektorundan əldə olunan gəlirlərin iqtisadiyyatın digər sahələrinə yönəldilməsi çox vacibdir. Biz elə bir nəticəyə gəldik ki, bunun tətbiq edilməsi üçün bir sıra mühüm şərtlər vardır. Bunlardan biri telekommunikasiyalardan və genişzolaqlı internetdən istifadəni təmin etməkdir. Digər vacib şərt sahibkarların təhsili və bacarığıdır. Bundan başqa, istehlakyönümlü bazarı və bütövlükdə bazar iqtisadiyyatını izləmək vacibdir.

Bizim müzakirələrdə gənclərə bu sahədə öz istedad və bacarıqlarını nümayiş etdirməyə şərait yaradılması da diqqət mərkəzində oldu. Gənclər çox yaradıcı, XXI əsrin tələblərinə uyğun olmalıdırlar. İnsanlar və hökumətlər təhsil sisteminin islahatı baxımından innovativ olmalıdırlar. Bizim ümumi nəticəmiz o oldu ki, kiçik başlanğıclardan böyük nailiyyətlər əldə edilə bilər.

**A y d ı n  Ə l i y ev** *(Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri):* Cənubi Qafqaz və Mərkəzi Asiya nadir regiondur, Şərq, Qərb, Şimal və Cənub arasında əlverişli coğrafi mövqeyə malikdir. Biz sessiyamızın əvvəlində regionda nəqliyyatın və ticarətin təkmilləşdirilməsi barədə danışdıq. Təqdimatdan sonra qərara aldıq ki, bu regionda əsas məsələ tranzit nəqliyyatının artırılması və ticarətin təşviq edilməsi olmalıdır. Həm region daxilində, həm regiondan kənarda, həm də yol və logistika sektoruna investisiyalar barədə müzakirələr apardıq. Sərhədlərdə əngəllər, süründürməçilik və bürokratiyanın aradan qaldırılması və nəhayət, nəqliyyat dəhlizlərinin təkmilləşdirilməsi barədə geniş fikir mübadiləsi oldu.

Daha sonra gömrük məsələləri müzakirə olundu. Gömrük fiskal qanunvericiliyin tətbiqi və digər fəaliyyətlərlə məşğuldur. Gömrük ölkələr arasında körpüdür. Gömrük nəzarəti ölkələr üçün çox önəmlidir. Gömrük həm də büdcə üçün vəsait toplayır. Biz narkotiklərin qaçaqmalçılığı və digər məsələlərin müzakirəsindən sonra qərara aldıq ki, gömrük sahəsində

qanunvericiliyin təkmilləşdirilməsi, müasir standartlar səviyyəsində gömrük xidmətlərinin göstərilməsi bu qurumun işinin modernləşməsindən və müxtəlif ölkələr arasında gömrük münasibətlərinin səmərəli qurulmasından çox asılıdır.

## Azərbaycan prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun yekun işçi şam yeməyi tədbirində çıxışı

Hörmətli professor Şvab!

Xanımlar və cənablar, əziz dostlar!

Sizin hamınızı bir daha ölkəmizdə salamlamaq istəyirəm. Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm. Mən professor Şvaba Dünya İqtisadi Forumunu Bakıda keçirmək qərarını qəbul etdiyinə, Azərbaycanın inkişafı ilə bağlı söylədiyi xoş sözlərə və şərhlərinə görə bir daha xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Bu gün panel iclaslarda çox maraqlı müzakirələrimiz oldu. Bizə belə bir məlumat daxil olub ki, müzakirə edilən mövzulara çox böyük maraq vardır. Əminəm ki, müzakirələrin nəticələri biznes dairələri, siyasi liderlər və regionumuzun nümayəndələri arasında daha yaxşı anlaşma yaradacaqdır. Mərkəzi Asiya, Xəzər dənizi və Qara dəniz regionlarının, Cənubi Qafqazın böyük potensialı vardır. Ola bilsin bu gün həmin potensialın yalnız bir hissəsini təqdim edə bildik. Əminəm ki, gələn illər ərzində biz bu müzakirələrə daha çox diqqət ayıracağıq və onlar eyni zamanda, ideyaları formalaşdırır, rəyləri və gözləntiləri, o cümlədən narahatlıq doğuran, bəzən məyus edən məsələləri söyləmək üçün mühit yaradır. Lakin regionda müşahidə olunan əsas meyil inteqrasiya və əməkdaşlıqdır.

Bu gün qaldırdığımız məsələlərin hamısının Azərbaycana bağlılığı vardır. Xəzər dənizinin enerji resursları barədə danışdıqda, aydındır ki, Xəzər regionunda müasir mərhələdə enerji resurslarının işlənilməsində ilk cərgədə gedən Azərbaycan ilə *bp* şirkətidir. Bu şirkət əsas strateji tərəfdaşımızdır.

Bu tərəfdaşlıq 20 ildən artıqdır ki, davam edir. Bu şirkət neft və qaz konsorsiumuna rəhbərlik edir. Dünyanın bir çox yerlərindən olan enerji şirkətləri bu konsorsiumda geniş şəkildə təmsil olunur. Əlverişli sərmayə mühiti, lazımi hüquqi təminat, «*bp*–Azərbaycan» şirkətinin rəhbərinin qeyd etdiyi kimi, müqavilələrdən heç biri nəinki yenidən nəzərdən keçirilməmiş, hətta onların mətnində heç bir bənd belə dəyişdirilməmişdir. Çünki bütün müqavilələr parlament tərəfindən qanun kimi qəbul olunur və Prezidentin fərmanı ilə qanuni qüvvəsini alır. Heç kəs bunları dəyişə bilməz. Bu, rahatlığı, proqnozlaşdırmanı və sabitliyi yaradır.

Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan üçün yeganə inkişaf yolu və öz müstəqilliyinin gücləndirilməsi siyasi və iqtisadi islahatlardan, sərmayələrin yatırılmasından keçirdi. Biz ölkəmizin ən ağır anlarında bizimlə olmuş, Azərbaycana sərmayə qoymuş, etimad göstərmiş tərəfdaşlarımıza və dostlarımıza olduqca minnətdarıq. Onlar bu gün də ölkəmizi dəstəkləməkdə davam edir.

Neft-qaz sahəsində əldə etdiyimiz olduqca müsbət təcrübəmiz əsasında söyləyə bilərik ki, biz Azərbaycanda dəyişiklik edib, qeyri-enerji sektorunu yaratdıq. Bu səhər mən bu haqda artıq bir neçə söz söylədim. Özəl sektora, sahibkarlığa göstərilən dəstək, xarici və yerli sərmayələrin təşviqi bu gün prioritetlərdən birini təşkil edir.

21 il əvvəl Azərbaycan müstəqilliyini yenicə əldə etdiyi zaman bazar iqtisadiyyatının ümumi daxili məhsuldakı payı sıfır faiz idi. Bu gün isə bu göstərici 83 faizdir. Bu, bazar iqtisadiyyatına yönələn islahatların yaxşı göstəricisidir. Başqa sözlə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid dövrü başa çatıb. Hazırda Azərbaycanda qeyri-enerji sektorunda, tikinti, yüksək texnologiyalar, kənd təsərrüfatı, neft-kimya sahələrində geniş imkanlar açılır.

Ölkəmizin davamlı inkişafını təmin etmək üçün sərmayələrə ehtiyac duyulan sahələrə investisiyaları cəlb etmək məqsədi ilə dövlət strategiyası vardır. Hamımız bilirik ki, neft və qaz

müvəqqətidir. Biz nəinki neft və qaz erasından sonrakı dövrə hazırlaşırıq – baxmayaraq ki, bu hələ ən azı 100 ildən sonra baş verəcək – o cümlədən neft və qaz gəlirlərini qeyri-enerji sektorunun inkişafı, insan kapitalı və təhsil üçün istifadə edirik. Gənc nəsil bundan bəhrələnir. Bu gün Azərbaycanda və xarici ölkələrdə yaxşı təhsil almış gənclər ölkəmizdə mühüm biznes fəaliyyəti ilə məşğuldurlar və Azərbaycanın davamlı inkişafına töhfə verirlər.

Bu gün qaldırılmış məsələlər arasında daşıma sahəsi də qeyd edildi. Bu həmçinin çox vacibdir. Bizim əlverişli coğrafi mövqemiz vardır. Lakin infrastruktur olmadan bunun heç bir əhəmiyyəti yoxdur. Ona görə daşıma infrastrukturuna, boru kəmərlərinə, yollara, dəniz və hava limanlarına sərmayənin qoyuluşu regionda xüsusi mühit yaradır. Beləliklə, Azərbaycan regionun nəinki coğrafi, həmçinin logistika mərkəzinə çevrilir. Dəmir yolu xətti ilə bağlı irəli sürdüyümüz layihə, boru kəməri infrastrukturu ölkəmizin, eləcə də qonşularımızın rifahına xidmət edir. Bu gün Forumda səsləndirilən əsas ideya regional əməkdaşlığı necə təşviq etməklə bağlı idi.

Biz regional əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsində çox maraqlıyıq. Çünki regional əməkdaşlıq olmadan biz heç bir uğur əldə edə bilmərik. Ölkəmizin açıq dənizə çıxışı yoxdur, lakin nəhəng karbohidrogen ehtiyatları vardır. Əgər boru kəmərləri olmasaydı, bu ehtiyatlar bir əsr də suyun altında qalardı. Regional əməkdaşlıq, qonşularımızın dəstəyi və bizim onlara göstərdiyimiz dəstək olmadan heç bir uğur qazanıla bilməzdi. Eyni sözləri daşıma sahəsinə də aid etmək olar.

Bu regional əməkdaşlıq islahatlara sərmayə qoymaq imkanı yaradır. Bunun nəticəsində iqtisadiyyatımız dəyişir, davamlı inkişafımız üçün əsaslar yaranır. Ən vacibi budur. Bazar iqtisadiyyatı, güclü siyasi sistem, sabitlik, sərmayələr, insan kapitalına investisiyalar və davamlı inkişaf vacibdir. Hazırda biz davamlı inkişaf haqqında çox danışırıq. Biz dəyişikliklər haqqında söhbət açırıq. Hesab edirəm ki, Azərbaycan bunun necə baş verməsinin nümunəsi ola bilər. Nəticələr göz

qabağındadır. Bəli, gələcəkdə görüləcək işlər çoxdur. Biz islahatlara, siyasi təsisatların inkişafına, hüquqi çərçivəyə, qanunun aliliyinə daha çox diqqət yetirməliyik.

Dünyadakı dostlarımızın, dünyada bir nömrəli Forum hesab edilən, siyasətçiləri, dünya liderlərini, biznes-elitanı bir araya gətirən Dünya İqtisadi Forumunun dəstəyi ilə biz böyük nailiyyətləri əldə edə bilərik.

Mən bir daha professor Şvaba 7 il əvvəl Azərbaycanı Davosda iştiraka dəvət etdiyinə, özümüzü təqdim etməyə və əlaqələri qurmağa imkan yaratdığına, xüsusi əməkdaşlıq mühitini yaratdığına və Dünya İqtisadi Forumunu Bakıda keçirmək qərarına görə təşəkkürümü bildirmək istəyirəm. Əziz dostlar, bir daha çox sağ olun. Sizə xoş axşam arzulayıram.

*Dünya İqtisadi Forumunun böyük əhəmiyyət kəsb etdiyini bildirən, ölkəsində iqtisadiyyatı şaxələndirmək məsələsinə toxunan Monqolustanın Xarici İşlər naziri Luvsanvandan Bold bu sahədə Azərbaycanın təcrübəsinin təqdirəlayiq olduğunu vurğuladı.*

**L u v s a n v a n d a n  B o l d:** Cənab Prezident!

Professor Şvab!

Zati-aliləri, Sizin qarşınızda çıxış etmək mənim üçün böyük şərəfdir. Bugünkü müzakirələrdə çox maraqlı fikirlər eşitdim. Mən aşkar etdim ki, biz burada həqiqətən dostlarımızın arasındayıq. Bu Forumdan həqiqətən, çox şey götürdük, çox şey öyrəndik.

Ölkəmizin elə də çox təbii resursları yoxdur. Biz ölkə daxilində əldə olunmayan, ehtiyac duyulanları cənub qonşularımızdan əldə edə və istehsal etdiklərimizi şimal qonşularımıza ixrac edə bilərik. Ancaq vaxt gələcək ki, biz də iqtisadi şaxələndirmə yolunu seçəcəyik.

Bu gün insanlarımızın həyatını yaxşılaşdırmağa və bu həyatı daha da mükəmməl etməyə ehtiyac vardır. Azərbaycanın nümunəsi, Azərbaycanın timsalı həqiqətən, təqdirəlayiqdir. Çox sağ olun, cənab Prezident. Həqiqətən, çox müdrik və ümidverici fikirlərinizi dinlədik. Həqiqətən də, hər bir iştirakçı, təmsil olunan hər bir ölkə üçün imkanlar çox saydadır. Mən bu regiona

Cənubi Qafqaz və Mərkəzi Asiya, üstəgəl Monqolustan regionu deyərdim. Mən buraya öyrənmək, eyni zamanda, öz təcrübəmizi bölüşmək məqsədilə gəlmişəm. Buraya gəlişimin məqsədi təəssüratlarımı Azərbaycandan olan tərəfdaşlarla bölüşmək və onları Monqolustana dəvət etməkdir. Onlar bizdən xeyli qabaqdadırlar.Yəni Azərbaycanda neft, bizdə isə mis, kömür və digər resurslar vardır. Biz sizi ölkəmizlə əməkdaşlığa dəvət edir və real tərəfdaşlıq etməyə çağırırıq.

2 həftə bundan əvvəl mən icraçı sədr, professor Şvab ilə Anlaşma Memorandumu imzaladıq. Eyni formatda olan bir konfrans sentyabrda Monqolustanda keçiriləcəkdir. Ümid edirəm ki, 5 aydan sonra siz burada da əldə etdiyiniz biliklərinizi və təcrübənizi bizim ölkə nümayəndələri ilə bölüşəcəksiniz. Biz hamımız burada gördük ki, ortaq məqamlarımız çoxdur, yəni tarix, mədəniyyət və sair. Heç bir regionu təmsil etmədən mən öz regionumu tapmışam. Bu region Bakıdan başlayır və Ulan-Batora qədər davam edir. Sentyabrda bu tədbir Ulan-Batorda davam edəcəkdir. Hamınızı dəvət edirəm.

*Litvanın Baş naziri Algirdas Butkeviçyus Forumun təşkilatçılarına minnətdarlığını bildirdi və müzakirə olunan mövzuların aktuallığına toxundu. Forumda iştirak etməkdən şərəf duyduğunu bildirən Baş nazir Algirdas Butkeviçyus Azərbaycanın bu tədbirə layiqincə ev sahibliyi etdiyini diqqətə çatdırdı.*

**Algirdas Butkeviçyus:** Zati-aliləri!

Xanımlar və cənablar!

İstərdim Dünya İqtisadi Forumunun təşkilatçılarına təşəkkürümü bildirim. Hesab edirəm ki, Cənubi Qafqaz və Mərkəzi Asiya haqqında bu müzakirələr çox önəmlidir. Bu müzakirə öz başlanğıcını yanvarda Davosdan götürmüşdür.

Azərbaycan strateji mövqeyi ilə Cənubi Qafqazda lider rolunu oynayır. Hesab edirəm ki, strateji dialoqun təşkil olunması üçün bu çox yaxşı düşünülmüş bir seçimdir. Avropanın və Mərkəzi Asiyanın əsrlər boyu davam edən əlaqələri hər 2 regionu zənginləşdirmişdir. Biz bu əlaqələrdən indi də insanların rifahı və cəmiyyətin yaxşılaşdırılması üçün istifadə etməliyik.

Avropa İttifaqının Mərkəzi Asiya üçün strateji tərəfdaşlıq layihəsi mövcuddur. Biz bu imkandan istifadə edərək, bir tərəfdən, Qərbi Avropa və Skandinaviya, digər tərəfdən, Cənubi Qafqaz və Mərkəzi Asiya əlaqələrini təmin etməliyik. Bu, Litva üçün də prioritetlərdən biridir. Litva qlobal iqtisadi meyillərə cavab verərək qlobal təchizat zəncirinə hazır olmalıdır. Trans–Avropa şəbəkələrinin yaradılması, Avropa nəqliyyat əlaqələrinin genişləndirilməsi, avrostruktur layihələrə investisiyaların yatırılması, Baltik və Qara dəniz regionlarını birləşdirən nəqliyyat layihələrinin hamısı mənim təmsil etdiyim hökumətin prioritetlərinə daxildir. Əlbəttə ki, Mərkəzi Asiya regionu Avropa üçün enerji təhlükəsizliyi baxımından çox önəmlidir. Mərkəzi Asiya, Xəzər regionlarında və Cənubi Qafqazda dialoqun inkişaf etdirilməsi, ümumiyyətlə, Avropa İttifaqı üçün enerji təhlükəsizliyi imkanlarını genişləndirir.

Sonda onu qeyd etmək istərdim ki, Avropa İttifaqının Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri ilə enerji, ticarət və iqtisadi əlaqələri genişləndirmək üçün çox böyük potensialı mövcuddur. Bu potensialdan gələcəkdə də istifadə etmək lazımdır.

Xanımlar və cənablar, mənim üçün burada olmaq, sizin qarşınızda çıxış etmək, fikirlərimi sizinlə bölüşmək böyük şərəfdir. Mən istərdim ki, bu Foruma çox gözəl ev sahibliyi etdiyinə görə Azərbaycan Respublikasının Prezidentinə xüsusi təşəkkürümü bildirim.

*Tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə prezident İlham Əliyevə minnətdarlıq edən Albaniyanın Baş naziri Sali Berişa yerləşdiyi bölgədə sabitlik olmasa da, Azərbaycanın mühüm regional layihələrə imza atmasına böyük ehtiram bəslədiyini vurğuladı.*

**S a l i B e r i ş a:** Cənab Prezident, gözəl qonaqpərvərliyinizə görə, mən istərdim ilk növbədə, Sizə təşəkkür edim.

Cənab Prezident, cənab Baş nazirlər, hörmətli dostlar!

Azərbaycan doğrudan da çox maraqlı, ilhamverici bir ölkədir. Forum da gözəl, əla təşkil edilmişdir. Bu Forumda biz əsasən

regional əməkdaşlıq haqqında danışdıq. Regional əməkdaşlıq sülhün, sabitliyin, rifahın və yaxşı qonşuluğun təşviq edilməsi üçün ən yaxşı yol kimi sübut edilmişdir. Biz burada Azərbaycan Respublikasının və Azərbaycan hökumətinin qarşısında baş əyməliyik. Ona görə ki, o qədər də sakit olmayan bir regionda onlar cəsarətli qərarlar vermişlər, çox önəmli regional layihələrə imza atmışlar və onlar indi bütöv Avropa üçün çox önəmli enerji qərarları astanasındadırlar. «Şahdəniz» konsorsiumu tərəfindən veriləcək bu qərar çox böyük bir ərazinin enerji təhlükəsizliyinin gələcəyini təmin edəcəkdir.

Xanımlar və cənablar, Albaniya kiçik ölkədir. Lakin ölkənin çox böyük potensialı vardır. Mənim ölkəm əvvəllər keçmiş kommunist rejimində çox pis vəziyyətdə olmuşdur. Bizim ölkə Avropanın, demək olar ki, ən yoxsul ölkəsi idi. İnfrastruktur tam dağılmış bir vəziyyətdə idi. Amma son 21 il ərzində ölkəmizdə ümumi daxili məhsul 11 dəfə artmışdır. Bu artım, ilk növbədə, islahatlar hesabına əldə edilmişdir. Biz vergiləri azaltdıq, dövlət mülkiyyətini tamamilə özəlləşdirdik, iqtisadiyyatı tam liberallaşdırdıq. Baxmayaraq ki, əsas tərəfdaş ölkələrimiz İtaliya və Yunanıstanda böyük problemlər yaşanırdı, biz bundan əziyyət çəksək də artımımızı davam etdirdik. Biznes mühitinin yaxşılaşdırılması nəticəsində birbaşa xarici investisiyalar 340 faiz artmışdı. Yenə də ölkə bir çox məhdudiyyətlərlə üzləşir. Bizim bank sistemimiz tam olaraq avrozonaya daxil olduğundan əmanətlərimizin 50 faizini investisiya etmişlər. Biz hazırda bank sistemimizi şaxələndirməliyik.

Albaniyada çox güclü təbii potensial vardır. Su-elektrik stansiyalarının tikilməsi çox geniş vüsət almışdır. 2007-ci ildə biz xüsusi qanun qəbul etmişik və həmin ildən bəri 360 su-elektrik stansiyasının tikilməsi haqqında müqavilələr bağlamışıq. Norveç, İtaliya, Almaniya, ABŞ, Türkiyə, İsrail şirkətləri su-elektrik stansiyalarının tikilməsi ilə məşğuldurlar. Sizin ölkənin investorlarını da qarşılamağa hazırıq. Albaniya «Avropanın Himalay»ı adlandırılır. Dağlarımızda çox füsunkar mənzərələr vardır. Bizim dağlara investisiya qoyan hər bir

sahibkar vergilərdən 7 il ərzində azad ediləcəkdir. Bir daha, cənab Prezident, qonaqpərvərliyinizə görə Sizə ürəkdən təşəkkürümü bildirirəm. Mən doğrudan da bu regionun əməkdaşlıq görüntüsündən ilham aldım. Çox sağ olun. Təşəkkür edirəm.

*Dünya İqtisadi Forumunun İdarə Heyətinin üzvü və icraçı direktoru Borge Brende bildirdi ki, Forumda region ölkələrinin iqtisadiyyatı barədə çox mühüm məlumatlar səsləndi. Azərbaycan iqtisadiyyatının uğurlarından danışan Borge Brende dedi ki, bu, prezident İlham Əliyevin siyasi liderliyi nəticəsində mümkün olub. O, Bakı Forumunun Cənubi Qafqaz və Mərkəzi Asiya regionları ölkələrinin iqtisadiyyatının çiçəklənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

**Borge Brende:** Möhtərəm Prezident, Zati-aliləri!

Xanımlar və cənablar, əziz dostlar!

Forumun bu ölkədə keçirilməsinə və son dərəcə qonaqpərvər münasibətə görə dərin təşəkkürümü bildirirəm. Deyə bilərəm ki, həqiqətən, çox məhsuldar və stimullaşdırıcı bir gün idi. Biz real ssenarilərin hazırlanması ilə başladıq. Dünyanın ən maraqlı regionlarından biri üçün alternativ ssenarilər yaratdıq.

Məsələn, bu görüşə qədər mən heç bilmirdim ki, son 10 il ərzində xaricə birbaşa investisiyalar 10 dəfə artmışdır. Yəni söhbət bu regiondan gedir. Mən bilmirdim ki, Azərbaycanın və Qazaxıstanın maliyyə ehtiyatları son 10 il ərzində 15 dəfə artıb. Bu o deməkdir ki, burada müdrik liderlik, strateji rəhbərlik vardır. Ancaq bu həm də o deməkdir ki, bizim hələ də üzləşdiyimiz çətinliklər, çağırışlarla bağlı yaxşı ölçülüb-biçilmiş strategiyalar və siyasi qərarlar qəbul edilməlidir. Sözsüz ki, bu, prosesin başlanğıcıdır. Bu Forum bu region üçün strateji tədbirlərin ssenarilərinin hazırlanması üçün yaxşı platformadır. Ümid edirəm ki, Bakıda keçirilən Dünya İqtisadi Forumu bu regionun çiçəklənməsinə müəyyən töhfə verəcəkdir.

Çox sağ olun.

## ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Albaniya Respublikasının Baş naziri Sali Berişanı qəbul etmişdir.*

*Görüşdə Dünya İqtisadi Forumunun Bakıda keçirilməsinin əhəmiyyəti vurğulandı, tədbirin iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı qeyd olundu.*

*Görüşdə, həmçinin Azərbaycan ilə Albaniya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə inkişafının perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## LİTVA RESPUBLİKASININ BAŞ NAZİRİ ALGİRDAS BUTKEVIÇYUS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Litva Respublikasının Baş naziri Algirdas Butkeviçyusu qəbul etmişdir.*

*Dünya İqtisadi Forumunun Bakıda keçirilməsinin önəminin vurğulandığı görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu, bu əlaqələrin möhkəmləndirilməsində qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edildi.*

*Görüşdə, həmçinin son illər ölkələrimiz arasında ticarət dövriyyəsinin dinamik şəkildə artdığı qeyd edildi, sərmayə qoyuluşu, enerji və digər sahələrdə əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# «STATOYL» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU HELGE LUND İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də «Statoyl» şirkətinin baş icraçı direktoru Helge Lundu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Statoyl» şirkəti arasında mövcud olan uzunmüddətli tərəfdaşlıq əlaqələrini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Statoyl» şirkəti arasında əməkdaşlığımıza dair yeni layihələrin önəmini qeyd etdi.*

*«Statoyl» şirkətinin baş icraçı direktoru Helge Lund Azərbaycanda neft və qaz sənayesinin inkişafında ölkəmizdə mövcud olan sabitliyin rolunu xüsusi vurğuladı.*

*Görüşdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Statoyl» şirkəti arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB DEVİD KEMERONA

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının keçmiş Baş naziri, görkəmli siyasi və dövlət xadimi xanım Marqaret Tetçerin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

XX əsrin dünya siyasətinin parlaq simalarından biri olan xanım Marqaret Tetçer Mühafizəkarlar Partiyasının çoxillik rəhbəri və Baş nazir qismində Birləşmiş Krallığın tarixində silinməz iz qoymuşdur. Marqaret Tetçer Azərbaycan ilə Birləşmiş Krallıq arasında əlaqələrin təşəkkülünə və genişlənməsinə, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafına böyük töhfə vermişdir.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və Birləşmiş Krallığın bütün xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 aprel 2013-cü il*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİMON PERESƏ**

Hörmətli cənab Prezident!

İsrail Dövlətinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İsrail arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra daha da inkişaf edərək, xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 aprel 2013-cü il*

**DANİMARKA KRALİÇASI**
**ÜLYAHƏZRƏT**
**II MARQRETEYƏ**

Ülyahəzrət!

Danimarka Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan ilə Danimarka arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Danimarka xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 aprel 2013-cü il*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Avropa Yenidənqurma və İnkişaf Bankı İdarə Heyətinin üzvlərini qəbul etmişdir.*

*Görüşdə İdarə Heyətinin üzvlərinin ölkəmizə səfərinin Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında strategiyanın hazırlanması baxımından önəmi vurğulandı.*

*Həmçinin görüşdə Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən yol-nəqliyyat infrastrukturu, sosial layihələr, informasiya-kommunikasiya texnologiyaları, turizm, təhsil, səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SLOVAKİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ VƏ AVROPA İŞLƏRİ NAZİRİ MİROSLAV LAYÇAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Slovakiya Respublikası Baş nazirinin müavini, Xarici və Avropa İşləri naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycanda bir neçə dəfə səfərdə olduğunu vurğulayan Slovakiya Baş nazirinin müavini, Xarici və Avropa İşləri naziri Miroslav Layçak ötən dövr ərzində ölkəmizdə gedən çox böyük inkişaf proseslərinin şahidi olduğunu dedi. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunlarının Bakıda keçiriləcək I Ümumdünya Forumunun önəmini qeyd edən qonaq bu tədbirin keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Dövlətimizin başçısı Miroslav Layçakın Azərbaycana vaxtaşırı səfərlərini ölkələrimiz arasında mövcud olan ikitərəfli münasibətlərin yaxşı göstəricisi kimi dəyərləndirdi. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunlarının Bakıda keçiriləcək I Ümumdünya Forumuna toxunan prezident İlham Əliyev tədbirin uğurlu olacağına və Forumun ənənəvi xarakter alacağına əminliyini bildirdi.*

*Görüşdə Azərbaycan ilə Slovakiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## UKRAYNA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ KONSTANTİN QRİŞENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Ukraynanın Baş nazirinin müavini Konstantin Qrişenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Baş nazirin müavini Konstantin Qrişenko Ukrayna prezidenti Viktor Yanukoviçin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Ukrayna prezidentinin Azərbaycan prezidenti ilə görüşlərini məmnunluqla xatırladığını dedi.*

*Prezident İlham Əliyev dövlət başçıları arasında mövcud olan dostluq əlaqələrinin ölkələrimizin ikitərəfli münasibətlərinin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi. Ölkələrimiz arasında dostluq, tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı bu münasibətlərin müxtəlif sahələrdə gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev prezident Viktor Yanukoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ MEŞƏ VƏ SU İŞLƏRİ NAZİRİ VEYSƏL ƏROĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Türkiyə Respublikasının Meşə və Su İşləri naziri Veysəl Əroğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Veysəl Eroğlu Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu vurğulayan Veysəl Əroğlu ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsinin önəmini qeyd etdi. Azərbaycanda çox böyük inkişafın şahidi olduğunu deyən türkiyəli nazir əldə edilən böyük uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı, ölkələrimizin ayrı-ayrı nazirlikləri, o cümlədən ekologiya və ətraf mühitlə bağlı qurumlar arasında əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda da son illər ekoloji məsələlərin həlli ilə bağlı böyük işlərin görüldüyünü bildirdi.*

*Dövlətimizin başçısı prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## «CATEF–2013» I XƏZƏR BEYNƏLXALQ SU TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*11 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Bakı Sərgi Mərkəzində «CATEF–2013» I Xəzər Beynəlxalq su texnologiyaları sərgisi ilə tanış olmuşdur. Dövlətimizin başçısına məlumat verən «Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov bildirdi ki, son illərdə Azərbaycanda şəhər və rayon mərkəzlərinin, kənd və qəsəbələrin su təchizatı yenidən qurulur. Bu sahədə beynəlxalq maliyyə təşkilatları və xarici şirkətlərlə əməkdaşlıq genişlənir. Həmçinin ölkəmizdə su təchizatı və kanalizasiya sektorunda reallaşdırılan genişmiqyaslı layihələr, yeni texnologiyaların tətbiqi perspektivləri sərmayəçilərin regiona marağını daha da artırır. «CATEF–2013» sərgisi də bunun bariz nümunəsidir.*

*Bildirildi ki, «CATEF–2013» sərgisi Xəzər regionunda su texnologiyaları sahəsində əldə olunan nailiyyətlərin nümayiş etdirildiyi yeganə ixtisaslaşdırılmış tədbirdir. «Azərsu» ASC-nin təşəbbüsü və fəal dəstəyi ilə təşkil olunan sərginin tərəfdaşı «İteca Caspian» MMC-dir. Cənubi Qafqaz regionunda bu mövzuya dair ilk dəfə keçirilən sərgi su texnologiyalarına olan marağı nümayiş etdirir. Burada iştirak edən 23 ölkədən 70-dən çox şirkət içməli su təchizatı və kanalizasiya sahəsində mövcud olan ən yeni texnologiyaları və xidmətləri nümayiş etdirir. Bu sərgidə yerli və xarici şirkətlərə öz məhsullarını və texnologiyalarını nümayiş etdirmək üçün gözəl fürsət yaradılmışdır.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, sərgidə ABŞ, Avropa ölkələri, Yaponiya və Koreya Respublikası şirkətlərinin üstünlük təşkil etməsi yüksək texnologiyalar sahəsində təcrübəsi*

*olan müəssisələrin bu tədbirə böyük önəm verdiyini təsdiqləyir. «CATEF–2013»də Azərbaycan ilə yanaşı, Türkiyə, ABŞ, Koreya Respublikası, Almaniya, İsveçrə, Yaponiya, Avstriya, Fransa, İsveç və digər ölkələrdən olan şirkətlər su infrastrukturuna dair məhsullarını və xidmətlərini təqdim edir. Bu, yeni texnologiyaların tətbiqi, xarici investisiyaların cəlb edilməsi və beynəlxalq tərəfdaşlığın genişləndirilməsi baxımından belə sərgilərin əhəmiyyətini təsdiqləyir.*

*Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.*

*ABŞ-ın «Dow» şirkətinin pavilyonu ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, müəssisə sənaye suları və regionlarda istifadə olunan sular, yaşayış yerlərinin içməli suları və suyun təkrar istifadəsi zamanı tətbiq edilən ion mübadilə qatranları, habelə elektrik deionizasiya məhsullarının geniş çeşidini təklif edir. Hazırda bu şirkət Bakıda içməli suyun təmizlənməsi üçün dünyanın ən böyük ultrasüzgəc qurğusunun hazırlanmasında yaxından iştirak edir. Həmin qurğunun quraşdırılmasının 2013-cü ildə başa çatdırılması nəzərdə tutulmuşdur. Qurğu gün ərzində 520 min kubmetr həcmində içməli suyun təchiz olunmasına imkan verəcəkdir.*

*Bazarda aparıcı mövqeyə sahib olan Almaniyanın «Herrenknecht» şirkəti mexaniki üsulla tunelqazıma sistemləri sahəsində tətbiq olunan texnologiyalar üzrə lider müəssisələrdəndir. «Herrenknecht» dünyada istənilən torpaq tipi üçün bütün diametrlərdə ən müasir tunelqazıma maşınları istehsal edən yeganə şirkətdir.*

*İsveçin «Nordic Water Products AB» şirkətinin pavilyonunda dövlətimizin başçısına məlumat verildi ki, müəssisə dənəvər hissəcikləri ayırmaq üçün istifadə olunan ələklərin, eləcə də onların avadanlığının çatdırılmasını və quraşdırılmasını həyata keçirir.*

*Rusiyanın «Ecoline» şirkəti isə şüşə lifli plastik materialdan avadanlıq hazırlayır. Buraya əsasən məişət və istehsal obyektlərində yaranan tullantı suların təmizlənməsi üçün istifadə olunan avadanlıq, həmçinin kanalizasiya sularının təmizlənməsi və nasosla vurulması üçün məhsullar daxildir.*

*Sonra prezident İlham Əliyev «Ekoton» beynəlxalq tədqiqat və istehsal şirkətinin pavilyonuna baxdı. Şirkət tullantı suların təmizlənməsi üzrə Rusiyada ən iri müəssisə hesab olunur. Avadanlıq Rusiya, Ukrayna, Polşa və Qazaxıstanda yerləşən zavodlarda istehsal edilir.*

*Sərgidə yerli şirkətlər də geniş təmsil olunur. Prezident İlham Əliyevin iştirakı ilə 2009-cu ildə istismara verilən Sumqayıt Texnologiyalar Parkının Cənubi Qafqaz və Mərkəzi Asiyada bənzəri yoxdur. Bu müəssisədə müxtəlif profilli zavodlar fəaliyyət göstərir. Onlardan biri də polimer məmulatlar zavodudur. Zavodda yüksək təzyiqə davamlı qaz, su, alüminium təbəqəli çoxqatlı polietilen, şüşə lifli üçqat fiber borular və digər məhsullar istehsal olunur.*

*Azərbaycan prezidenti «Azərsu» ASC-nin pavilyonuna gəldi. Cəmiyyətin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, pavilyonda Bakıda, Abşeron yarımadasında və regionlarda həyata keçirilən layihələri əks etdirən stendlər təqdim olunur.*

*Prezident İlham Əliyevə Abşeron yarımadasının 2013-cü ildə su alacaq qəsəbələri, o cümlədən 2035-ci ilədək perspektiv inkişafı nəzərdə tutan «Master plan» barədə məlumat verildi. Bildirildi ki, hazırda ölkənin 38 şəhər və rayon mərkəzində, həmçinin 350-dən çox kənddə su və kanalizasiya layihələri icra edilir. «SCADA» idarəetmə və məlumatların əldə olunması sistemi vasitəsilə Oğuz–Qəbələ–Bakı su kəmərinin fəaliyyətinə «online» rejimdə nəzarət edilir. Dövlətimizin başçısına, həmçinin yeraltı infrastrukturun elektron xəritəsinin hazırlanmasını nəzərdə tutan «Azərsu–GİS» layihəsi barədə məlumat verildi.*

*Prezident İlham Əliyev «Ceyranbatan» ultrasüzgəcli sutəmizləyici qurğusunun, mərkəzi laboratoriyanın, cəmiyyətin yeni inzibati binasının, Hövsan aerasiya stansiyasının maketlərinə də baxdı. Bildirildi ki, mərkəzi laboratoriyada tikinti işləri yekunlaşmaq üzrədir və bu il istifadəyə veriləcəkdir. Diqqətə çatdırıldı ki, icra olunan layihələrin daha keyfiyyətlə həyata keçirilməsi, müasir texnologiyanın və xarici təcrübənin*

*öyrənilməsi məqsədi ilə cəmiyyətin əməkdaşları Sinqapur, Türkiyə, Koreya Respublikası və digər ölkələrdə, eləcə də daxili təlimlərdə iştirak edirlər.*

*Fransanın «SUEZ Environnement» şirkətinin pavilyonunda olan prezident İlham Əliyevə məlumat verildi ki, müəssisə və onun filialları içməli su resursları, sanitar-nəzarət və tullantıların idarə edilməsi sahəsində milyonlarla insana və təsərrüfat subyektlərinə qabaqcıl təcrübə təqdim edir.*

*Türkiyənin «Elektromed» şirkəti isə su, qaz və istilik miqdarını ölçmə sahələrində geniş məhsul çeşidi təqdim edir.*

*Azərbaycan prezidentinə bildirildi ki, sərgi ilə eyni vaxtda Xəzər Beynəlxalq su texnologiyaları forumu da keçirilir.*

*Sərgi ilə tanışlıqdan sonra dövlətimizin başçısı «CATEF–2013» I Xəzər Beynəlxalq su texnologiyaları sərgisi və forumunun işinə uğurlar arzuladı.*

## BAKIDA MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTU MƏZUNLARININ I ÜMUMDÜNYA FORUMUNDA İŞTİRAK

*12 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 12-də Bakıda Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) məzunlarının I Ümumdünya Forumunun açılışı mərasimində iştirak etmişlər.*

*MDBMİ Məzunlarının Azərbaycan Assosiasiyasının bu Forumun Bakıda keçirilməsi təşəbbüsü dünyanın hər yerində bu institutun məzunları arasında böyük maraq doğurmuşdur. «Birlikdə gələcəyə doğru» devizi altında təşkil olunmuş Forumda Rusiya, Ukrayna, Macarıstan, Çexiya, Bolqarıstan, Moldova, Polşa, Slovakiya, Kuba, Koreya Respublikası, İsrail, Qazaxıstan, Qırğız, Çin, Vyetnam və s. ölkələrdən rəsmi şəxslər, nüfuzlu beynəlxalq təşkilatların, maliyyə və biznes nümayəndələri iştirak etmişlər. Ümumiyyətlə, Forum 500-dən çox nümayəndəni, həmçinin Azərbaycanda, eləcə də xaricdə yaşayıb- çalışan azərbaycanlı məzunları bir araya toplamışdır.*

*Dövlətimizin başçısı Forumun açılışı mərasimində nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Əziz qonaqlar!

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun əziz məzunları!

Sizi Azərbaycanda səmimi-qəlbdən salamlamaq, sizə «Xoş gəlmisiniz!» – demək və əmin olduğumu bildirmək istəyirəm ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunlarının I Ümumdünya Forumu layiqli səviyyədə, bizim ənənələrimiz ruhunda, qarşılıqlı anlaşma, dostluq ruhunda

keçəcəkdir. Əminəm ki, bu gün bizim görüşümüzdən yaranan təəssüratlar uzun müddət yadımızda qalacaqdır.

Fikrimcə, bu gün bizim hər birimiz – Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları təxminən eyni hissləri keçirir. Yəqin ki, biz fikrən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxuduğumuz illərə qayıdır, müəllimlərimizi minnətdarlıq hissi ilə xatırlayır, kurs yoldaşlarımızı, dostlarımızı, həyatımızın müəyyən anlarını xatırlayırıq. Bütün bunlar təbiidir və yəqin ki, bu hisslər Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu haqqında xoş xatirələrlə yaşayan məzunların hamısını birləşdirir. Lakin bu gün biz birlikdə bu Foruma toplaşdığımız vaxtda güman edirəm ki, burada mövcud olan ab-hava bizim xatırladığımız, heç vaxt unutmayacağımız və qiymətləndirdiyimiz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundakı ab-havanı tam əks etdirir.

Doğrudan da MDBMİ çox dərin və möhkəm ənənələrə əsaslanan institutdur, indi universitetdir. Mənə dərs deyənlərin hamısına, mənim müəllimlərimə, professorlara, fakültə rəhbərlərimə təşəkkürümü bildirmək istərdim. Bizim rektorumuz, böyük insan Nikolay İvanoviç Lebedevə xüsusi təşəkkürümü bildirmək istərdim. Dünən Nikolay İvanoviçlə xeyli, təxminən 2 saat söhbət etdik və əlbəttə, mənim təhsil aldığım və Nikolay İvanoviçin rəhbərliyi altında işlədiyim illəri xatırladıq, biz xarici siyasət məsələləri, regional problemlər barədə daha çox danışdıq. Mən bir daha yəqin etdim ki, Nikolay İvanoviç nəinki müasir beynəlxalq həyat məsələlərini necə dərindən və hərtərəfli bilir, həm də baş verən bütün hadisələri çox dəqiq təhlil edir. Əlbəttə, bir daha demək istəyirəm ki, bizim dünənki görüşümüz mənə çox güclü təsir bağışladı. Onu da qeyd etmək istəyirəm ki, mənim fikrimcə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda bizim bu gün qayğı ilə qoruyub saxladığımız əsas ənənələrin təməli məhz Nikolay İvanoviç Lebedevin rəhbərliyi altında qoyulmuşdur. Keçən əsrin 70–80-ci illərində onun rəhbərliyi altında Moskva Dövlət

Beynəlxalq Münasibətlər İnstitutu ölkənin aparıcı ali məktəblərindən birinə çevrilmiş, bu markanı uca saxlamışdır.

Lakin hər şey müqayisədə bilinir. Mən onu da xatırlayıram ki, Nikolay İvanoviç Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundan gedəndən sonra təkcə bizim institutda deyil, bütövlükdə ölkədə heç də yaxşı olmayan dövr başlandı. Kadrlarla bağlı hərc-mərclik yaranmışdı, praktiki olaraq hər il rektorlar dəyişdirilirdi və belə deyək, bizim institutun sabitləşmə və yenidən çiçəklənmə dövrü artıq Anatoli Vasilyeviç Torkunovun rəhbərliyi altında başlandı.

Zənnimcə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun bütün məzunları ona səmimi-qəlbdən minnətdardırlar ki, o bizim ənənələri qoruyub saxlayır, möhkəmləndirir, artırır. Bu gün onun rəhbərliyi altında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu dünya səviyyəli, dünya miqyaslı ali məktəbdir və Azərbaycanda da çoxları Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil almağa çalışır. Onu da qeyd etməliyəm ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundakı ənənələr bizə də sirayət etmişdir. Bizim ailə ənənələri davam edir. Mən çox şadam ki, Leyla da Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda yaxşı təhsil almışdır.

Düşünürəm ki, dünən və bu gün sadəcə, ünsiyyətdə olmaq, olub-keçənləri xatırlamaq, həmçinin müasir siyasətin, beynəlxalq həyatın, iqtisadi münasibətlərin mühüm məsələlərini müzakirə etmək üçün yaxşı imkan olmuşdur və olacaqdır. Ona görə ki, bu gün Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları bir sıra ölkələrdə məsul vəzifələr tutur, çox mühüm məsələləri həll edir və əlbəttə, bu gün Bakıda onların bir araya gəlməsi, düşünürəm ki, bizim təmsil etdiyimiz ölkələr arasında daha artıq yaxınlaşmaya təkan verəcəkdir.

Mənim həyatımın 15 ili Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ilə bağlıdır. Orada oxumuşam, sonra aspiranturaya daxil olmuşam, işləmişəm. Bu, unudulmaz illərdir. Yəqin ki, hər kəs üçün ən yaxşı illər gənclik, forma-

laşma illəridir. Mübaliğəsiz, tam səmimi deyə bilərəm ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda qazandığım bilik və təcrübə bu gün mənə işimdə kömək edir.

Bu gün biz hamımız Azərbaycanda toplaşmışıq. Buna görə ölkəmizin son illərdə keçdiyi yol barədə bir neçə söz demək istərdim. Müstəqillik illəri çox mürəkkəb şəraitdə başlanmışdı, çox ziddiyyətli proseslər gedirdi, müstəqilliyin ilk illəri hərc-mərclik, anarxiya, özbaşınalıq, vətəndaş müharibəsinə və sadəcə, iqtisadi kollapsa gətirib çıxarmış iğtişaş illəri idi. Sənaye staqnasiya vəziyyətində idi, inflyasiya göstəricisi min faizlərlə ölçülürdü, ümumiyyətlə, Azərbaycanın müstəqil dövlət kimi inkişaf perspektivləri çox böyük sual altında idi. Lakin ən həlledici anda Azərbaycan xalqının müdrikliyi özünü onda göstərdi ki, xalq Heydər Əliyevə müraciət etdi və onu ölkəni ağır böhrandan çıxarmağa çağırdı. Hətta statistikaya nəzər salsaq, iqtisadi və siyasi prosesləri müşahidə etsək görərik ki, 1993-cü ildən sabitləşmə dövrü başlandı. Azərbaycan informasiya blokadasından çıxdı, qonşu ölkələrlə, region ölkələri ilə müstəqilliyin ilk illərində tamamilə korlanmış əlaqələri yenidən qurub möhkəmlətdi və sabitləşmə, inkişaf, dünya birliyinə inteqrasiya dövrü başlandı. Sonradan bu proseslər genişlənmiş, sürətlənmiş və artıq 2000-ci illərdən başlayaraq Azərbaycanın inkişaf dinamikası gündəlik həyatda da, ölkəmizin artan beynəlxalq nüfuzunda da təzahür etməyə başladı.

Son 10 ildə iqtisadi sahədə xeyli uğurlar qazanılmışdır, Azərbaycan dünyada iqtisadiyyatı ən sürətlə inkişaf etməkdə olan ölkələrdən biridir. Son 10 ildə iqtisadiyyat 3 dəfə artmış, sənaye potensialı da təxminən 3 dəfə yüksəlmişdir. İri infrastruktur layihələri həyata keçirilmiş, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 6 faizə düşmüşdür, işsizlik göstəricisi 5 faiz həddindədir, xarici borcun həcmi təxminən ÜDM-in 7-8 faizi qədər, valyuta ehtiyatlarının həcmi isə təxminən ÜDM-in 70 faizi civarındadır. Ölkəmiz iqtisadi baxımdan özünü təmin edir. Çoxlu sosial məsələlər həll edilir. Əlbəttə, energetika

indiyə qədər iqtisadiyyatın əsası olaraq qalır və bu təbiidir, çünki sənaye üsulu ilə dünyada ilk dəfə neft hasilatı Bakıda olmuşdur, dəniz yataqlarından ilk neft də dünyada ilk dəfə Bakıda çıxarılmışdır. Neft-qaz sahəsində ənənələr qorunub saxlanır və möhkəmlənir. Təbii ki, müstəqil Azərbaycanın inkişafının ilk mərhələsində enerji amili bizə kömək etmişdir. Zənnimcə, biz bu sərvətdən düzgün istifadə edə bilmişik və təbii sərvətləri cəmiyyətin üzvləri arasında bərabər bölüşdürməyə nail olmuşuq.

Lakin indiki mərhələdə, enerji məsələləri, ümumiyyətlə desək, bütövlükdə uğurla həll edildiyi bir vaxtda bizim əsas vəzifəmiz qeyri-neft sektorunu inkişaf etdirməkdir. Burada da çox iş görülür, hələ daha çox işlər görülməlidir. Lakin cari ilin ilk 3 ayının statistikası göstərir ki, qeyri-neft sektorunun iqtisadiyyatı 11 faizdən çox artmışdır və bu, artıq Azərbaycan iqtisadiyyatının şaxələnməsinin göstəricisidir. Müasir texnologiyalara, informasiya-kommunikasiya texnologiyalarına çoxlu sərmayə qoyulur. Bu ilin fevral ayında Azərbaycanın «Azərspace-1» adlı ilk süni telekommunikasiya peyki buraxılmışdır. Beləliklə, Azərbaycan kosmik ölkələr klubuna daxil olmuşdur. Mənim fikrimcə, bugünkü Azərbaycan reallıqlarını məhz bu əks etdirir və bizim gələcək məqsədlərimizi göstərir. Çünki texnoloji tərəqqi, innovasiyalı iqtisadiyyat olmadan uğurla inkişaf etmək mümkün deyildir.

Düşünürəm ki, qabaqcıl ölkələrin təcrübəsindən istifadə etmək olar və lazımdır. Lakin müasir ixtisaslı kadrların hazırlanması istiqamətində çox iş görmək lazımdır və bu istiqamətdə böyük iş aparılır. Bizim tələbələrin dünyanın aparıcı ali məktəblərində, o cümlədən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil alması üzrə Dövlət Proqramı vardır. Beləliklə, zəruri kadr potensialı yaradılır. Bunsuz ölkə iqtisadiyyatını istədiyimiz sürətlə inkişaf etdirmək, sadəcə, mümkün olmayacaqdır. Ona görə ki, artıq qeyd etdiyim kimi, indi şaxələndirilmiş inkişaf gedir. Artıq Azərbaycanda iqtisadiyyatın əvvəllər, ümumiyyətlə, mövcud olmayan sektorları,

məsələn İKT, turizm sahəsi fəal inkişaf edir və bu istiqamətdə hələ çox işlər görülməlidir.

Onu da deməliyəm ki. Azərbaycanın iqtisadi uğurları aparıcı beynəlxalq strukturlar tərəfindən də qeyd edilmişdir. 3 aparıcı reytinq agentliyi – «Fitch», «Moodys» və «Standard & Poors» agentlikləri Azərbaycanın kredit reytinqini artırmışlar, halbuki Avropa ölkələrinin çoxu əks mənzərə ilə qarşılaşır.

Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyəti üzrə dünyada 46-cı yerdə və MDB-də 1-ci yerdədir. Zənnimcə, bu da onun göstəricisidir ki, biz iqtisadiyyatın və sənayenin birtərəfli inkişafından imtina edə bilmişik və hazırlanmış təməl gələcəkdə yalnız ölkəmizin xeyrinə işləyəcəkdir.

Enerji diplomatiyası ilə bağlı məsələlər uğurla həyata keçirilir. Mənim fikrimcə, müasir şəraitdə bu termin tamamilə əsaslıdır, çünki enerji təhlükəsizliyi məsələləri çox vaxt bütövlükdə təhlükəsizlik məsələlərinə çevrilir. İndiki halda Azərbaycan öz təbii ehtiyatları, coğrafi mövqeyi və neft-qaz resurslarının nəqli üçün inkişaf etmiş infrastruktur sayəsində getdikcə daha əhəmiyyətli rol oynayır. Qonşularımızla çox səmərəli əlaqələr yaradılmışdır. Azərbaycan bütün qonşu ölkələrə neft, qaz, elektrik enerjisi ixrac edir və təbii ki, bu sahədə, xüsusən istehsalçı ölkələr arasında əməkdaşlıq indiki mərhələdə xüsusi əhəmiyyət kəsb edir. Ona görə ki, istehsalçılar bazarlara maraq göstərirlər, onların maraqları ümumidir.

Deməliyəm ki, enerji diplomatiyası məsələsi xarici siyasət məsələsi ilə birbaşa bağlıdır. Bu auditoriyada Azərbaycanın xarici siyasət təşəbbüsləri ilə əlaqədar bəzi məsələlərə toxunmamaq, yəqin ki, düzgün olmazdı. Biz çox fəal xarici siyasət yeridirik, bu siyasət artıq çoxdan bizim regionun çərçivələrindən kənara çıxmışdır. Tərəfdaşlarımız bizim regional miqyasda irəli sürdüyümüz təşəbbüsləri əsasən dəstəkləyirlər. Bu təşəbbüslər ilk növbədə, iqtisadi inkişaf məsələləri, inteqrasiya prosesləri, energetika ilə bağlıdır. Biz həm də qlobal beynəlxalq

problemlərlə əlaqədar çox fəal müstəqil xarici siyasət kursu həyata keçiririk.

Azərbaycanın «Qoşulmama Hərəkatı»na daxil olması, zənnimcə, son dövrün mühüm hadisələrindən biridir. Hesab edirəm ki, bu əlamətdar hadisə Azərbaycanın xarici siyasət səylərinin müasir vektorunu əks etdirir və zənnimcə, qlobal miqyasda çox aktiv xarici siyasi fəaliyyətin daha bir elementidir. «Qoşulmama Hərəkatı»nın bizim iştirak etdiyimiz birinci sammitində bu hərəkatın üzvləri tərəfindən bizə, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi ilə bağlı göstərilən dəstək seçimimizin düzgün olmasını bir daha sübut edir.

Dağlıq Qarabağ münaqişəsi bölgənin və Azərbaycanın təhlükəsizliyinə əsas təhdiddir. Bu münaqişənin nizamlanmaması regiondakı bütün ölkələrə mənfi təsir göstərir. Beynəlxalq miqyasda qəbul edilmiş hüquq normaları var, həmin normalar bu münaqişənin nizamlanması yollarını diktə edir: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, işğal altında olan bütün ərazilər – Dağlıq Qarabağ və onun ətrafındakı ərazilər beynəlxalq hüquqa görə həmin ərazilərin sahibinə qaytarılmalıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi tərəfindən tanınmışdır və qeyd-şərtsiz bərpa edilməlidir.

Biz danışıqlar prosesinə əlavə impuls verməyə çalışırıq. Təəssüf ki, qarşı tərəf süründürməçilik taktikası yeridir, bu perspektivsizdir. Bu gün Azərbaycanla rəqabət aparmaq və ya düşmənçilik etmək artıq əvvəllər olduğundan daha çətindir, gələcəkdə isə bu, mümkün olmayacaqdır. Buna görə də münaqişənin beynəlxalq hüquq prinsipləri, Helsinki Yekun Aktı, beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında tezliklə tənzimlənməsi bütün əlaqədar tərəflərin mənafeyinə uyğundur. Belə sənədlər arasında, ilk növbədə, erməni işğalçı qüvvələrinin bizim ərazidən dərhal və danışıqsız çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etmək istərdim. 20 il əvvəl qəbul edilmiş bu qətnamələr, təəssüf ki, yerinə yetirilmir və burada biz ikili standartların daha bir

təzahürü, daha bir elementi ilə üzləşirik. Biz hamımız keçmiş və indiki beynəlxalq hüquq mütəxəssisləri kimi, dünyada nələr baş verdiyini çox gözəl bilirik. Onu da gözəl bilirik ki, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat ərzində icra olunur. Bizimlə bağlı isə artıq 20 ildir ki, bu qətnamələr kağız üzərində qalır. Bu, Təhlükəsizlik Şurasının və bütövlükdə BMT-nin nüfuzunu artırmır. Hesab edirəm ki, münaqişənin tezliklə tənzimlənməsi bu gərəksiz ikimənalılığı və təəssüf ki, müasir beynəlxalq fəaliyyətdə hələ yetərincə çox olan ikili standartlar elementlərini də aradan qaldırar.

Azərbaycanın elə həmin, Qarabağa dair qətnamələr qəbul etmiş Təhlükəsizlik Şurasına üzv seçilməsi də onun üçün mühüm beynəlxalq hadisədir. Bu bizim xarici siyasi fəaliyyətimizin zirvəsi olmuşdur. Bizi 155 ölkə dəstəkləmişdir və bizi fəal dəstəkləmiş bütün ölkələrə, ilk növbədə qonşularımıza ürəkdən minnətdarıq. Çünki Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində bizi ən fəal dəstəkləyən qonşularımız – buna görə onlara bir daha səmimi təşəkkürümü bildirirəm – habelə bir sıra başqa ölkələr, əslində dünya birliyi olmuşdur. Bəzən müəyyən tribunalardan dünya birliyi terminini eşidəndə nədənsə bu ifadədən istifadə edənlər üzvlərinin sayı çox olmayan hansısa regional təşkilatları nəzərdə tuturlar. Dünya birliyi – BMT-dir, dünya birliyi – biz hamımızıq, bütün ölkələrdir. Bu ən çox inkişaf etmiş və ya seçilmiş ölkələrin hansısa klubu deyil, biz hamımızıq. Biz hamımız bərabərik, bütün qanunlara görə – həm təbiətin qanunlarına, həm də beynəlxalq hüququn qanunlarına görə bərabər hüquqlara malikik. Buna görə də dünya birliyinin fəal dəstəyi – bir daha deyirəm, bizim namizədliyimizə 155 ölkə səs vermişdir – bizim uğurlu xarici siyasətimizin təsdiqidir.

Sonda sizi bir daha salamlamaq, buraya gəldiyinizə görə hamınıza bir daha təşəkkürümü bildirmək istərdim. Mən bilirəm ki, siz hamınız çox məşğul adamlarsınız, öz ölkələrinizdə çox mühüm vəzifələr tutursunuz və bununla belə, buraya gəlməyə, bir daha birlikdə olmağa imkan tapmısınız. Bu bizim bir-

birimizə, ilk növbədə, doğma Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna bəslədiyimiz hisslərin göstəricisidir. Sizin diqqətinizi həm də ona cəlb etmək istərdim ki, bizim Forum məzunların I Ümumdünya Forumu adlanır. Bu o deməkdir ki, bu Forum sonuncu olmayacaqdır. Bəlkə də nəyisə indi müzakirə etmək hələ tezdir, bəlkə də bunun əsl vaxtıdır. Lakin indicə söyləyəcəyim bir neçə amil nəzərə alınmaqla, mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun II Forumunu da Azərbaycanda keçirməyi təklif edərdim.

Bir qədər qeyri-təvazökarlıq da olsa, deməliyəm ki, həmin amillərdən biri ondan ibarətdir ki, hələlik mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu olan yeganə prezidentəm. Bilirsinizmi, bəlkə də müəyyən şəraitdə yeganə olmaq xoşdur, lakin səmimi deyirəm, indiki halda mən istərdim ki, bizim məzunlar arasından həmkarlarım kampaniyası daha geniş olsun. Güman edirəm ki, gələcəkdə biz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları olan dövlət və hökumət başçılarının forumunu keçirəcəyik. Əgər bu məsələyə əlifba nöqteyi-nəzərindən yanaşsaq, burada da Azərbaycan irəlidədir. Hələ onu demirəm ki, soyad üzrə yanaşsaq, yenə belədir. Buna görə bir daha tam ciddi şəkildə demək istəyirəm ki, biz 1 ildən, 2 ildən sonra, nə vaxt qərara alsaq, yenidən burada toplaşaraq ünsiyyətimizi davam etdirməyə çox şad olardıq.

Bir daha xoş gəlmisiniz, bizim Foruma uğurlar diləyirəm!

* * *

*MDBMİ-nin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, bu ali təhsil ocağının 1972-ci il məzunu Anatoli Torkunov çıxış edərək dedi:*

– Möhtərəm prezident İlham Əliyev!

Hörmətli Mehriban xanım!

Hörmətli dostlar, həmkarlar, MDBMİ təmsilçiləri!

Bəzilərimiz artıq birinci dəfə deyil ki, buradayıq. Deməliyəm ki, biz hamımız Bakının qonaqpərvərliyinin, Azərbaycan səmimiyyətinin, dostlarımızın və həmkarlarımızın, MDBMİ təmsilçilərinin bizə göstərdikləri diqqətin ağuşundayıq. Açığını deyək ki, uzun illər ərzində görmədiyimiz dostlarımızla ünsiyyətin hər bir anı bizə sevinc və fərəh bəxş edir.

Hörmətli İlham Heydər oğlu! Mən Sizə, MDBMİ Məzunlarının Azərbaycan Assosiasiyasına bu gün bizim üçün yaratdığınız müstəsna şəraitə görə dərindən minnətdaram.

Mənə olduqca xoş bir tapşırıq verilib. Mən böyük məmnuniyyətlə, özümə böyük şərəf bilərək onu yerinə yetirmək istəyirəm. Bizim Forumun ünvanına Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin təbrik məktubu göndərib. İcazə verin, həmin məktubu oxuyum.

«Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu
məzunlarının I Ümumdünya Forumunun
iştirakçılarına və qonaqlarına

Əziz dostlar! Bu gün Azərbaycan Respublikasının qonaqpərvər paytaxtı dünyanın bir sıra ölkələrindən gəlmiş qonaqları – Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu – Universitetinin məzunlarını qarşılayır.

Ötən onilliklər ərzində MDBMİ peşəkar, hərtərəfli savadlı, yaradıcı insanların, diplomat və siyasətçilərin, dövlət xadimləri və jurnalistlərin, alim və biznesmenlərin parlaq bir nəslini yetişdirmişdir.

Sizin hamınızı öz müəllimlərinizə, kurs yoldaşlarınıza, öz ənənələri və tələbə qardaşlığı ab-havası ilə haqlı olaraq məşhurlaşmış «alma–mater»inizə ən səmimi hisslər birləşdirir. Əlbəttə, bu universitetin diplomu həmişə ciddi hazırlığın və necə deyərlər, «beynəlxalq səviyyəli» ən müasir biliklərin təsdiqidir.

Qeyd etmək istəyirəm ki, rus dilini əla bilməyiniz sizin işgüzar və həyati məsələlərdə qazandığınız uğurlarda böyük rol oynayır. Bu dil nüfuzlu beynəlxalq təşkilatların rəsmi dili,

milyonlarla insanın nadir ünsiyyət vasitəsidir. Ümid edirəm ki, siz bundan sonra da rus dilinin dünyada yayılmasına kömək edəcəksiniz. Sizin bir-birinizlə, gələn il 70 yaşı tamam olacaq doğma ali məktəblə, bizim ölkəmizlə əlaqə saxlamağınız çox vacibdir. Bilin ki, burada sizi xatırlayırlar və sizinlə yeni görüşlərə şad olurlar.

Əminəm ki, MDBMİ məzunlarının forumu qəbilindən olan təşəbbüslər ölkələrimiz arasında münasibətlər palitrasını insan hərarəti və şəxsi ünsiyyət sevinci ilə zənginləşdirəcəkdir. Sizə ən xoş arzularımı bildirir, uğurlar diləyirəm.

*Vladimir Putin*
*Rusiya Federasiyasının Prezidenti».*

Məktubda deyilir ki, biz gələn il universitetimizin 70 illiyini qeyd edəcəyik. Həqiqətən, xatırladıram ki, 1944-cü ilin oktyabrında SSRİ Xalq Komissarları Şurası bir il əvvəl yaradılan MDU-nun beynəlxalq münasibətlər fakültəsinin müstəqil Beynəlxalq Münasibətlər İnstitutuna çevrilməsi barədə qərar qəbul etmişdir. Əlbəttə ki, həmin vaxtdan ötən 70 il ərzində institut dəfələrlə dəyişmiş, himnimizdə səsləndiyi kimi, təkcə adını və mahiyyətini dəyişməmişdir. Məlum olduğu kimi, hətta ünvanlarını da dəyişmişdir. Amma bununla belə, banilər, görkəmli professorlar, müəllimlər, akademiklər və əlbəttə ki, əksəriyyəti Böyük Vətən müharibəsi cəbhələrindən gələn ilk tələbələri tərəfindən əsası qoyulan gözəl ənənələr qorunub saxlanmışdır. Bu tələbələr – əlbəttə, indi bizimlə olanlar – indiyədək hər il görüşürlər, bir-birinə kömək edirlər və bu görüşlər həmişə müstəsna olaraq təsirli və öyrədici səciyyə daşıyır. Ötən 70 il ərzində MDBMİ-ni 40 minə yaxın məzun bitirmişdir. Bunların arasında bir hissəsi Moskvaya xarici ölkələrdən gələnlərdir. Son 20 il ərzində əcnəbi tələbələrin sayı artır. Hazırda MDBMİ-də, demək olar ki, tələbələrin 17 faizini dünyanın 50 ölkəsindən gələn məzunlar təşkil edir.

Bugünkü Forum universitetimizin beynəlmiləl mahiyyətinə çevrilib. Bu zalda dünyanın 32 ölkəsinin – Ukraynadan Çinə,

Fransadan Vyetnama, Kubadan Monqolustana qədər ölkələrin məzunları vardır. Həm də Forumun 500 iştirakçısından yarıdan çoxu uzaq xaricdən gələnlərdir. Forumda, əlbəttə ki, şəxsi təşəbbüslə BMT ailəsinin üzvü olan 10 təşkilatın, Avropa Komissiyası, Avropa Şurası, çoxtərəfli sahə təsisatlarının əməkdaşları iştirak edirlər. Burada bütün fakültələr, bütün buraxılış illəri təmsil olunur.

Bu gün biz böyük məmnuniyyətlə ilk məzunlar adlananları – zalda əyləşmiş Sovet İttifaqının Xarici İşlər naziri olmuş məzunumuz Aleksandr Aleksandroviç Bessmertnini və sonradan institutumuzun rektoru olmuş ilk məzunumuz Nikolay İvanoviç Lebedevi salamlayırıq. İndi məmnuniyyətlə demək olar ki, prezidentin haqqında danışdığı çətin illəri institut şərəflə dəf etdi. Biz bəzi həmkarlarımızın yolu ilə getmədik. Doğma institutumuzun bir qarış torpağını da kommersiya müəssisələrinə vermədik, biz nəsillərin topladığı nadir yanaşma və metodikası olan professuranı itirmədik. Biz əvvəlki kimi, universitetdə tədris edilən xarici dillərin sayına görə Ginnesin Rekordlar Kitabında qalırıq. Tələbələrimiz arasında böyük faiz fərqi ilə irəlidə gedən Olimpiada qalibləri təhsil alır. Onlara isə ümumittifaq olimpiadaların qalibi olan müəllimlər dərs deyirlər. Ən başlıcası isə biz bir-birimizi itirməmişik. MDBMİ, onun tələbələri və məzunları bir ailə olaraq qalırlar.

Qeyd etmək istəyirəm ki, «Facebook», «Odnoklassniki» ixtira olunmazdan xeyli əvvəl vahid ailə idik. MDBMİ həmişə öz məzunlarını xatırlayıb, toplayıb və birləşdirib. Onlar da buna cavab olaraq MDBMİ-ni və bir-birilərini həmişə xatırlayıblar.

Bu gün universitet möhkəm təməl üzərində dayanır. Bizdə həmişəkindən daha çox tələbə vardır. Bu il sayımız, demək olar ki, 6,5 min nəfərdir. Biz planetin ən yaxşı universitetlərinin beynəlxalq reytinqinə daxil olmuşuq və yerli reytinqlərdə yüksək mövqeləri qoruyub saxlayırıq.

MDBMİ BMT-nin sifarişi ilə Pensilvaniya Universitetinin keçirdiyi ən yaxşı qlobal elmi-tədqiqat mərkəzlərinin reytinqində təmsil olunan Rusiyanın yeganə universitetidir. Tələbələrimizin,

demək olar ki, hamısı işə düzəlir, həm də çox vaxt hətta təcrübə keçməyin də asan olmadığı təşkilatlarda işləyirlər. Əlbəttə, əgər bu gün əldə edilən faktlara əsaslansaq, bütün uğurlarımız göstərir ki, biz nəyə isə nail olmuşuq. Bu gün bizim ali məktəbdə bakalavrların və magistrlərin hazırlığı 18, elmi mütəxəssislərin hazırlığı isə 28 ixtisas üzrə gedir. 7 şura fəaliyyət göstərir, 8 jurnal nəşr edilir, 48 magistratura vardır. Magistraturalardan 16-sı xarici ali məktəblərlə birlikdə fəaliyyət göstərir və bu il biz ukraynalı həmkarlarımızla, Kiyev Beynəlxalq Münasibətlər İnstitutu ilə birgə magistratura açmışıq. Dünən isə biz həm memarlıq həlli, həm zənginliyi, o cümlədən proqramların zənginliyi və yönümü baxımından məndə müstəsna dərin təəssürat oyadan Azərbaycan Diplomatik Akademiyasında olarkən belə bir razılığa gəldik ki, artıq gələn il bu akademiya ilə birgə magistr proqramı açaq. Biz bu akademiya ilə artıq səmərəli əməkdaşlıq edirik. Bütün bunlar ilk baxışda az deyil, amma biz belə bir xalq deyimini yaxşı xatırlayırıq: «Əgər siz 3 gün fasiləsiz xoşbəxtsizsə, deməli, sizdən nəyisə gizlədirlər».

Biz çox gözəl başa düşürük ki, dünyadakı bütün ali təhsil sistemi ləng, bəlkə də digər sahələrdən bir qədər sonra müasir gerçəkliklərə qoşulur. Ali məktəblər tez dəyişir, internet də, informasiya texnologiyaları da. Yeri gəlmişkən deyək ki, bir neçə həftə bundan əvvəl Moskva hökuməti bütün kağız dərslikləri ləğv edən elektron dərsliklərin tətbiq olunması üzrə 60 məktəbdə pilot proqramın tətbiqinə başlayıb. Əgər bu eksperiment alınsa, onun uğur qazanmaq şansı vardır. Yəni 3-4 ildən sonra bizə əllərində kağız-kitab tutmağı unudan abituriyentlər nəsli gələ bilər. Əlbəttə, bu məni sevindirmir. Buna baxmayaraq, nəzərə almaq lazımdır ki, indi fəxr etdiyimiz çap olunmuş kurs işlərinə onlar vaxtı ilə bizim işə gələrkən hesab çötkəsi və yazı makinasına baxdığımız kimi baxacaqlar. Sözün qısası, istəsək də, istəməsək də, ali məktəbdə hazırlıq sistemləri artıq heç vaxt bizim xatırladığımız kimi olmayacaqdır. Əgər yaxın tarixin dərsləri bizə nəyisə öyrədibsə, onda təhsilin təkamülü davam edəcək və texnoloji inqilab dayanmayacaqdır.

Bu gün universitet ötən dövr haqqında zərfdə poçt indeksini sonuncu dəfə doldurur. Bu kontekstdə universitetin qlobal strateji vəzifəsi – universitetin dünya səviyyəli ən yaxşı ali məktəblər sırasına daxil ola bilməsidir. Qısa desək, dünyanın beynəlxalq reytinqinə görə, 100 ən yaxşı universitet sırasına düşməyə çalışacağıq.

Belə statusun əsasında, əlbəttə ki, bütün beynəlxalq universitet ekspert birliyi, professorlar heyəti, tələbələr arasında tanınması, sevilməsi, ən yüksək keyfiyyətli beynəlxalq təhsil proqramları, qabaqcıl elmi-tədqiqat layihələri durur. Amma sırf təhsil və elmi nailiyyətlərlə yanaşı, dünya səviyyəli universitet korporativ dəyərlərini özü ilə daşıyır, kənara nəql edir. Bu mənada MDBMİ artıq çoxdan qlobal səviyyədə tanınan sosial fəal universitetdir. Beləliklə, 70 il ərzində MDBMİ təhsilin, əməkdaşlığın, özünü universitetin adı ilə birləşdirən və onun dəyərlərini bütün həyatı boyu dünyanın hər yerinə yayan insanları ətrafında cəmləyir. Məzunlar Assosiasiyası Şəbəkəsinin inkişafının və Bakıda keçirdiyimiz I Ümumdünya Forumunun böyük mənası da elə budur.

Həmkarlarım, mən universitet haqqında, xüsusilə də planlarımız haqqında çox danışa bilərəm. Bu planlar deməzdim ki, nəhəngdir. Biz başa düşürük ki, dərhal hər şeyə nail olmaq mümkün deyildir. Buna baxmayaraq, bu planlar ali məktəbin inqilabsız daimi təkamülünü nəzərdə tutur. Bizim 2020-ci ilə qədər strateji proqramımız vardır. Ümid edirəm ki, malik olduğumuz, fəxr etdiyimiz belə qüdrətli məzunlar birliyinin köməyi ilə həmin məqsədlərə çatacağıq.

Bir daha azərbaycanlı dostlarımıza «çox sağ olun» – deyirəm. Hamınıza uğurlar, xoş ünsiyyət və vaxtınızı səmərəli keçirməyi arzulayıram. Sağ olun!

**Konstantin Kosaçov** *(«Rossotrudniçestvo»nun rəhbəri, Rusiya Federasiyası Prezidentinin MDB işləri üzrə xüsusi nümayəndəsi, MDBMİ-nin Qəyyumluq Şurasının üzvü, 1984-cü ildə beynəlxalq münasibətlər fakültəsinin məzunu):*

– Hörmətli İlham Heydər oğlu!

Hörmətli Anatoli Vasilyeviç!

Həmkarlar, dostlar!

İcazə verin, ilk növbədə, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi Kollegiyasının üzvü kimi, Rusiyanın Xarici İşlər naziri, MDBMİ-nin daxil olduğu sistemlər idarəsinin rəhbəri, MDBMİ-nin 1972-ci il məzunu və düşünürəm ki, indi hamının sevimlisinə çevrilmiş və bu gün dəfələrlə birlikdə ifa edəcəyimiz MDBMİ himninin müəllifi Sergey Viktoroviç Lavrovun tapşırığını yerinə yetirərək onun məktubunu oxuyum.

«MDBMİ məzunlarının I Ümumdünya Forumunun iştirakçılarına

Dünyanın hər yerindən ilk forumlarını keçirmək üçün Bakıya toplaşmış MDBMİ-nin məzunlarını ürəkdən salamlayırıq.

Səmimi-qəlbdən təəssüf edirəm ki, iş qrafikim bu dəfə sizinlə olmağıma imkan vermir. Bizim hamımız üçün MDBMİ-də təhsil almaq peşəkarlığın, daim intellektual təkmilləşmə vərdişləri qaydalarının, dəyişən şəraitdə səmərəli və tez işləmək qabiliyyətinin əsasını qoyub.

Diplomatlarda vətənpərvərlik, digər ölkələrə və mədəniyyətlərə münasibətdə tolerantlıq kimi keyfiyyətlər xüsusilə vacibdir. Milli maraqların inadla yeridilməsi və kompromislərin mühümlüyünün başa düşülməsi, öz mövqeyini açıq bildirmək bacarığı və xarici həmkarlarla yaxın yoldaşlıq münasibətini saxlamaq böyük əhəmiyyət kəsb edir. MDBMİ bizə məhz bunları öyrədib.

MDBMİ-nin təkcə 1970-ci il məzunları deyil, həm də 1990-cı illərin məzunları öz institutlarını çətinliklə tanıyırlar. Bu ali məktəb daha da böyüyüb, maraqlı olub, yeni simalar peyda olub. Lakin toxunulmaz ənənələr qalıb. Ali məktəb həmişə məşhur olduğu keyfiyyətli, hərtərəfli təhsil, tələbənin və müəllimin şəxsiyyətinə hörmət, yeni ideyalara rəğbət və yeni zirvələr fəth etmək səylərini nəinki saxlayıb, həm də artırıb. Bu cür yanaşma sayəsində MDBMİ aparıcı universitetlər və dünyanın analitik mərkəzlərinin reytinqlərində möhkəmlənib, Avropa və Avrasiyanın təhsil məkanının dayaq elementlərindən birinə çevrilib.

Doğma ali məktəbə səmimi münasibətin, MDBMİ-nin əldə etdiyi uğurlara görə iftixar hissinin təsdiqi olan forumun keçirilməsi ideyası 1982-ci ilin məzunu, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin rəhbərliyi ilə azərbaycanlı dostlarımıza məxsusdur. Əminəm ki, ənənəvi Azərbaycan qonaqpərvərliyi parlaq yaddaqalan bayram keçirməyə kömək edəcəkdir. İnanırıq ki, bu təşəbbüsü digər məzunların milli birlikləri və klubları da dəstəkləyəcəklər və bu formatda görüşlər müntəzəm xarakter alacaqdır.

Biz 2014-cü ildə bizim universiteti qiymətləndirən və sevən hər kəsə Moskvada toplaşmaq üçün gözəl imkan yaradan MDBMİ-nin 70 illik yubileyini qeyd edəcəyik.

Hamınıza maraqlı, məhsuldar ünsiyyət və ən xoş arzularımı bildirirəm.

Sergey Lavrov».

Əziz dostlar! İndi ki, məni tribunaya buraxmısınız, daha bir neçə söz demək istərdim.

Düşünürəm ki, bu gün bizim bütün çıxışlarımızda eyni fikirlər və emosiyalar, institutumuza, universitetimizə sevgilər, tələbə dostluğumuza sədaqət və bu gözəl Bakı Forumunu təşkil edən bugünkü tədbir sahiblərinə təşəkkür səslənəcəkdir.

Biz həqiqətən, MDBMİ-ni sevirik. Biz həqiqətən, tələbəlik dostluğumuzun ənənələrinə sadiqik. Biz həqiqətən, bu gün məhz burada, Bakıda, tərcümeyi-halında MDBMİ-nin təhsili olan, xalqın öz taleyini etibar etdiyi Prezidentin, lider seçdiyi şəxsiyyətin rəhbərlik etdiyi dövlətin paytaxtında toplaşa bilməyimizə sevinirik və bundan zövq alırıq.

Mən Anatoli Vasilyeviçin sözlərini xatırladaraq demək istərdim ki, MDBMİ-ni bitirdikdən 30 il sonra da özümü xoşbəxt hesab edirəm. MDBMİ-yə təşəkkür edirəm.

*Sonra Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun himni ifa olundu.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Buşəhr vilayətində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, onlara səbr, yaralananlara və xəsarət alanlara şəfa diləyir, dağıntıların nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 aprel 2013-cü il*

# ÇİN XALQ RESPUBLİKASININ BAŞ PROKURORU, BEYNƏLXALQ ANTİKORRUPSİYA QURUMLARI ASSOSİASİYASININ PREZİDENTİ ÇAO CİANMİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Çin Xalq Respublikasının Baş prokuroru, Beynəlxalq Antikorrupsiya Qurumları Assosiasiyasının prezidenti Çao Cianminqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bu münasibətlərin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Siyasi əlaqələrimizin uğurla inkişaf etdiyini bildirən prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də yaxşı əməkdaşlıq etdiyini dedi. Prezident İlham Əliyev hüquq mühafizə orqanlarının əməkdaşlığının inkişaf etdirilməsinin ölkələrimiz arasında mövcud olan çoxşaxəli əlaqələrin genişləndirilməsinə müsbət təsirini göstərəcəyini vurğulayaraq Çao Cianminqin ölkəmizə səfərinin bu əlaqələrin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycanın Çinin böyük və etibarlı dostu olduğunu vurğulayan cənab Çao Cianminq ölkəmizin regionda mövqelərinin daha da güclənməsində maraqlı olduqlarını dedi. O, Beynəlxalq Antikorrupsiya Qurumları Assosiasiyası çərçivəsində ölkələrimizin hüquq mühafizə orqanlarının korrupsiyaya qarşı mübarizə sahəsində uğurlu əməkdaşlıq etdiklərini bildirdi.*

# İSVEÇRƏ KONFEDERASİYASININ FEDERAL MÜŞAVİRİ VƏ İQTİSADİ MƏSƏLƏLƏR, TƏHSİL VƏ TƏDQİQATLAR NAZİRİ YOHANN ŞNAYDER - AMMANNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də İsveçrə Konfederasiyasının federal müşaviri və İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar naziri Yohann Şnayder-Ammannın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İsveçrəli nazir Yohan Şnayder-Ammann böyük nümayəndə heyəti ilə respublikamıza səfər etməsini ölkəsinin Azərbaycan ilə əməkdaşlığa olan marağının ifadəsi kimi dəyərləndirdi. O, ölkələrimiz arasında uzun illər mövcud olan qarşılıqlı əlaqələrin intensiv şəkildə davam etdiyini vurğuladı. Enerji və qeyri-energetika sektorunda qarşılıqlı sərmayə qoyuluşuna toxunan isveçrəli nazir bu sahədə əməkdaşlığın ölkələrimiz arasında digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi işinə təkan verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İsveçrə arasında ikitərəfli əlaqələrin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Ölkələrimiz arasında yaxşı əməkdaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı qarşılıqlı sərmayə qoyuluşu, birgə layihələrin həyata keçirilməsi istiqamətində də yaxşı nəticələrin olduğunu qeyd etdi. Prezident İlham Əliyev İsveçrə Konfederasiyasının federal müşaviri və İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar naziri Yohann Şnayder-Ammannın ölkəmizə səfərinin uğurlu olacağına ümidvar olduğunu bildirdi.*

## «ROSSİYA-24» TELEKANALINA MÜSAHİBƏ

*14 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Rossiya-24» telekanalının «Vesti v subbotu» verilişinin aparıcısı Sergey Brilyova müsahibə vermişdir.*

**Sergey Brilyov:** 25 il əvvəl SSRİ nüvə silahından imtina etməklə bağlı təbliğat aparırdı. Bu gün bu, ABŞ prezidenti Barak Obamanın rəsmi şüarıdır. Yeni Rusiya ilə onun köhnə tanışı Böyük Britaniya bu məsələyə indi eyni cür baxır. Bəs görəsən, indi yeni dövr başlanıb, yoxsa yox? Yəqin ki, bu sualın cavabını Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunlarından daha yaxşı heç kim bilməz. Biz də belə məzunlardan birinə – Azərbaycan prezidenti İlham Əliyevə müraciət etdik. Onun ölkəsi haqqında bunu deyə bilərik ki, hazırda bu ölkə BMT Təhlükəsizlik Şurasının üzvüdür.

**Sual: Keçən əsrin 90-cı illərinin sonunda belə bir təəssürat yaranırdı ki, guya tarixin sonudur. Amerika politoloqu Frensis Fukuyama bunu belə ifadə etmişdi: «Kommunizm çökdü, bəşəriyyətin bütün problemlərinə isə yalnız liberal demokratiya cavab ola bilər». Əslində son 5 ilin hadisələri təəssüf ki, bunun belə olmadığını sübut edir. Təkcə avrozonadakı böhran çox mətləbləri aşkar edir. Sizin fikrinizcə, prinsip etibarilə hansı yeni modellər yarana bilər?**

**Cavab:** Zənnimcə, hamımızda böyük xülyalar var idi. İnkişafın hazırkı mərhələsində düşünürəm ki, sizin dediyiniz kimi, yalnız liberal demokratiya adlı bir modelin olmaması ilə bağlı fikir güclənir. Bu hətta onun müəllifliyi iddiasında olan ölkələrdə də mövcud deyildir. Avrozonada baş verən hadisələr və böhran göstərir ki, dövlət nizamlanmaya qarışmadığı təqdirdə dayanıqlı yüksəlişi təmin etmək çox çətin olacaqdır. Hesab edirəm ki, maliyyə və iqtisadi böhrana görə günah

siyasətçilərin məsuliyyətsizliyindədir. Gələcək nəsillərin cibinə girənlər bəlkə də təsəvvür etmirdilər, bəlkə də təsəvvür edirdilər ki, bu nəyə gətirib çıxara bilər.

**S u a l: Bəlkə bu, hər halda, idealizm idi? Məsələn, avronu götürək. 1999-cu ilin ruh yüksəkliyini xatırlayırsınızmı? Düşünmək olardı ki, bir qədər sonra bütün məsələlər həll olunacaqdır?**

**C a v a b:** Düşünürəm ki, idealizm olsa belə, bu, qəti qərar qəbul edənlərdə yox idi. Həmin idealizm bu yolu daha çox geosiyasi imkanları gücləndirməkdə görənlərdə var idi. Çünki əgər tarixi perspektiv nöqteyi-nəzərindən baxsaq, axı prinsipcə ötən 100 il ərzində dünya siyasətində milli və qlobal maraqları təmin etmək formalarından başqa heç nə dəyişməyib. Sadəcə, indi başqa formalar mövcuddur. Praktiki olaraq elə həmin üsullardan istifadə edilir: əmin etmək, əgər bu alınmasa təzyiq, bu da baş tutmasa, onda daha sərt üsullar tətbiq olunur. Ona görə də prinsipcə dünyada heç nə dəyişməyib. Sadəcə, örtük dəyişib və hansısa müddətdə XX 90-cı illərində müstəqilliklərini bərpa edən bəzi dövlətlər nə baş verdiyini anlamırdılar. Düşünürəm ki, xoş günlər xülyası quran və hansısa strukturlara daxil olanların bir çoxu indi dərin təəssüf hissi keçirirlər. Nüfuz dairəsinə dair müəyyən qarşıdurma indi də var, keçmişdə də olub.

Düşünürəm ki, bu, bəzi dairələr tərəfindən sadəlövhcəsinə qəbul olunur. Nüfuz dairəsi guya sənə hesabat verilən yerdir. Əslində isə nüfuz dairəsi sənə rahat olan, hörmət edilən, dəstək göstərilən yerdir.

**S u a l: Yəni Foruma gəlmək kimi?**

**C a v a b:** Gəlmək və özünü evdəki kimi hiss etmək mümkündür.

**S u a l: «Rossiya-24» telekanalında bu geniş buraxılış üçün biz xüsusi olaraq daha bir mövzunu saxladıq. Bəs necə olur ki, SSRİ Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu olan İlham**

**Əliyevin prezidentliyi dövründə Qəbələdəki Rusiya Radiolokasiya Stansiyasının işçi heyəti Azərbaycanı tərk edir?**

**C a v a b:** Azərbaycanın bu məsələyə nöqteyi-nəzərini təqdim etmək üçün yəqin ki, bu barədə bir qədər ətraflı danışmaq lazımdır. Məsələ ondadır ki, Bakıdan sonra Azərbaycanın ikinci turizm mərkəzi olan ən mənzərəli guşələrindən birində 300 hektar sahəni əhatə edən əraziyə görə Qəbələ Radiolokasiya Stansiyasının icarə haqqı cəmi 7 milyon dollar təşkil edirdi. Əgər dənizdən uzaqda yaşayanlar dəniz kənarında istirahət edirlərsə, biz Xəzər sahilində yaşayanlar isə dağlarda dincəlirik. Buna görə də təbii ki, bu obyektə görə icarə ödənişinin reallığa uyğun olması bizim istəyimiz idi.

Əvvəla, bir növ ötən 10 ilə görə müəyyən dərəcədə kompensasiya olardı. Çünki ötən 10 il ərzində Azərbaycan heç vaxt qiymətlərə yenidən baxılması məsələsini qaldırmamışdı, hərçənd hamının fikrincə, elə Rusiyada da başa düşürdülər ki, qiymət, yumşaq deyilərsə, rəmzidir. Bununla yanaşı, icarə haqqının artırılması istəyi onunla əsaslandırılırdı ki, son 5-6 il ərzində Azərbaycan ilə Rusiya arasında hərbi-texniki əməkdaşlıqda böyük irəliləyiş nəzərə çarpırdı. Bu haqq-hesab milyard dollarlarla hesablanırdı. Nə 1, nə 2, nə 3, nə də 4 milyard dollar. Mən artıq gerçəkləşmiş və imzalanmış müqavilələrin sayını sadəcə, davam etdirmək istəmirəm. Biz Rusiyanın hərbi texnikasını dünya qiymətlərinə uyğun alırıq.

**S u a l: Əlbəttə, axı Siz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyilsiniz.**

**C a v a b:** Əlbəttə. Təbii, hesab edirik ki, əgər biz dünya qiymətlərinə uyğun alırıqsa, bütün başqa haqq-hesabları da dünya qiymətlərinə uyğun aparırıqsa, onda icarə qiyməti də buna uyğun, yaxud buna yaxın olmalıdır. Üstəlik öz-özlüyündə Qəbələ Radiolokasiya Stansiyasının Azərbaycan üçün heç bir əhəmiyyəti yoxdur. Onun aldığı informasiya bizə gərək deyil. Qəbələnin aldığı informasiyaya qarşı hər hansı iş görmək üçün bizim vasitəmiz yoxdur. Buna görə də bu məsələ sırf dostluq və kommersiya münasibətləri əsasında nizamlanmalıdır. Biz də

Rusiya tərəfinə əməkdaşlığı daha 5 yaxud 10 il uzatmağı təklif etdik. Amma yeni qiymətlərlə. Lakin bu təklif qəbul olunmadı. Başa düşdüyümüzə görə, çox güman ki, buna heç ehtiyac da yox idi. Həm rəsmi şəxslərin, həm Müdafiə Nazirliyinin və digərlərinin şərhləri onu göstərir ki, Rusiyanın artıq həm fiziki, həm də mənəvi cəhətdən köhnəlmiş Qəbələ Radiolokasiya Stansiyasına nisbətən daha müasir aşkarlama stansiyası mövcuddur. Əslində, məsələnin məğzi də elə budur. Bu məsələ – əgər medianı nəzərə almasaq – ikitərəfli münasibətlərdə qətiyyən narahatlıq doğurmurdu və doğurmur.

**S u a l: Kütləvi informasiya vasitələrində deyilirdi ki, bu qərara Sizi amerikalılar vadar edib?**

**C a v a b:** Bu qətiyyən belə deyil. Əvvəla, mən demək istəyirəm ki, bizi heç kəs heç vaxt vadar edə bilməz. Regional məsələlərin sonuncu inkişaf tarixi, məhz sizin haqqında danışdıqlarınızın regionda həyata keçirməyə çalışdığı təşəbbüslər və bizim bu təşəbbüslərə qarşı hərəkətlərimiz onu göstərir ki, bizi heç kəs heç nəyə məcbur edə bilməz. Xüsusilə də bizi strateji tərəfdaşımıza qarşı hər hansı addım atmağa vadar etmək, ümumiyyətlə, mümkün deyildir. Buna görə də bu mənim dediklərimə əsaslanırdı.

**S e r g e y B r i l y o v:** Bu şərhə görə çox sağ olun. Buna çoxdan ehtiyac var idi.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## QEYDLƏR

**1. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideeyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə

təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5 –10, 11, 12, 13, 17, 27, 31, 33, 95, 100, 110, 225, 226, 237, 238, 239, 241, 242, 273, 274, 275, 324, 332.

**2. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi

Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı.

Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 6, 24, 28, 29, 38, 62, 79, 90, 93, 96, 103, 107, 113, 119, 120, 128, 143, 226, 229, 232, 244, 245, 249, 250, 252, 256, 269.

**3. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdik-

də qəbul olunmuş sayılır. – 7, 8, 15, 23, 32, 74, 77, 111, 158, 176, 199, 212, 214, 232, 254, 202, 267, 331.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 8, 23, 31, 86, 97, 98, 152, 153, 175, 194, 198, 199, 212, 234, 253, 254, 255, 258, 266, 330.

**5. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 8, 32, 175, 192, 194, 208, 212.

**6. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 9, 209, 210, 211, 219–220.

**7. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,8 milyon km$^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 12, 97, 98, 258, 280, 308, 320, 321, 343.

**8. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88,3 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 17–34, 36, 196.

**9. Tomislav Nikoliç** (d.1952) – Serbiya siyasətçisi. 2012–2017-ci illərdə Serbiya Respublikasının Prezidenti olmuşdur. – 17–34, 36.

**10. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 23, 109, 158, 174, 194, 212.

**11. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 24, 28.

**12. Nikola Tesla** (1856–1943) – serb əsilli amerikalı mühəndis-ixtiraçı, fizik, elektrofizik. Yüksək gərginlikli və yüksək tezlikli naqilsiz işıqlandırmadan istifadə edərək ilk dəfə olaraq simsiz idarə olunan qayıq düzəltmişdi. – 27–30.

**13. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 33–34, 44, 95, 97, 98, 225, 237, 250.

**14. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min $km^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şəhəridir. – 35, 306.

**15. Dalya Qribauskayte** (d.1956) – Litva siyasətçisi. 2009-cu ildən Litva Respublikasının Prezidentidir. – 35.

**16. Liviya,** L i v i y a Ə r ə b X a l q S o s i a l i s t C ə m a-h i r i y y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1.76 milyon km$^2$, əhalisi 6,5 milyon nəfərdir. Qanunverici orqanı Ümumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripoli şəhəridir. – 37.

**17. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 38–41.

**18. Akif Əlizadə,** A k i f A ğ a m e h d i o ğ l u (d.1934) – görkəmli geoloq-alim. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının sədri, Yeni Azərbaycan Partiyası sədrinin müavinidir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 39.

**19. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 42, 97, 128, 158, 258, 276, 321, 334.

**20. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respub-

likası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 44, 45.

**21. Küveyt,** K ü v e y t D ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 4 milyondur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 76–77, 83, 84.

**22. Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 76, 83.

**23. Bruney,** B r u n e y D a r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 434 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavan şəhəridir. – 81.

**24. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsidir. – 81.

**25. Estoniya,** E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,3 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Tallinn şəhəridir. – 82.

**26. Toomas İlves** (d.1953) – Estoniya siyasətçisi, diplomat, jurnalist, AŞPA-nın sabiq üzvü. 2006–2016-cı illərdə Estoniya Respublikasının Prezidenti olmuşdur. – 82.

**27. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 82 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 85–86, 97, 276, 340.

**28. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 87, 275, 324.

**29. Rosen Plevneliyev** (d.1964) –Bolqarıstan siyasətçisi və sahibkarı. 2012–2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 87.

**30. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 88.

**31. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 95–98, 212, 249.

**32. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 95, 149, 238.

**33. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 97, 205, 263–272, 313.

**34. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 97, 135–136, 274, 321.

**35. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 82,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 97, 106, 198, 266, 270, 273, 274, 275, 276, 284, 285, 292–294, 308, 319.

**36. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 97, 100-112, 198, 221, 222, 276, 284, 285.

**37. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 98, 225, 237, 238.

**38. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 881 min km$^2$, əhalisi 201 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 98, 147.

**39. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı

prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 98, 204.

**40. 8 Mart Beynəlxalq Qadınlar Günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq Qadınlar Gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmiş, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 131–132.

**41. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 135, 136.

**42. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 138, 156, 157, 171,174, 175, 192, 205, 285, 289.

**43. Tunis,** T u n i s R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr

Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 146, 276.

**44. Munsef əl-Mərzuqi** (d.1945) – Tunis siyasətçisi və dövlət xadimi, hüquq mühafizəçisi, yazıçı, həkim, 2011–2014-cü illərdə Tunis Respublikasının Prezidenti olmuşdur. – 146.

**45. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan Respublikasının Prezidenti olmuşdur. – 147.

**46. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 148, 273.

**47. Karolos Papulyas** (d.1929) – yunan siyasətçisi, 2005–2015-ci illərdə Yunanıstan Respublikasının Prezidenti olmuşdur. – 148.

**48. Xorvatiya,** Xorvatiya Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 149–176, 196.

**49. İvo Yosipoviç** (d.1957) – Xorvatiyanın siyasi xadimi, kompozitor, pedaqoq. 2010–2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti olmuşdur. – 150–161, 164–176.

**50 ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik

edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 199, 234, 258.

**51. İrlandiya,** İ r l a n d i y a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min $km^2$, əhalisi 4,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublin şəhəridir. – 201.

**52. Maykl Higgins** (d.1941) – İrlandiya siyasətçisi, şair, yazıçı, sosioloq. 2011-ci ildən İrlandiya Respublikasının Prezidentidir. – 201.

**53. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 206, 288, 324, 334, 341.

**54. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXP Mərkəzi Hərbi Şurasının sədridir. – 206.

**55. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat. 2007–2016-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. – 219.

**56. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 223.

**57. VI Məhəmməd,** b i n əl - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 223.

**58. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Maniladadır (Filippin). Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 224.

**59. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 194,8 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 249.

**60. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 249.

**61. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 249.

**62. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 249.

**63. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 249.

**64. Qubadlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1933-cü ildə təşkil edilmişdir. Sahəsi 802 $km^2$, əhalisi 27,2 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 249.

**65. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatçılar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 249, 255.

**66. Xocavənd rayonu** (1930–91-ci illərdə Martuni rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. Kiçik Qafqazda Qarabağ silsiləsinin cənub-şərq hissəsində yerləşir. Sahəsi 1458 $km^2$, əhalisi 43,4 min nəfərdir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 249.

**67. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 258, 270, 276, 289–290, 296, 300, 324–339, 343–346.

**68. Dünya İqtisadi Forumu,** D a v o s  İ q t i s a d i  F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 198, 266, 277–312.

**69. Klaus Şvab** (d.1938) – alman iqtisadçısı, Dünya Davos İqtisadi Forumunun yaradıcısı və icraçı sədri. – 277, 278–280, 285, 292, 296, 297, 298, 299.

**70. Marqaret Tetçer** (1925–2013) – 1979–1990-cı illərdə Mühafizəkarlar Partiyasından Böyük Britaniyanın Baş naziri, baronessa. Siyasətdəki sərt mövqeyinə görə «dəmir ledi» ləqəbi ilə tanınmışdır. Böyük Britaniyada ilk qadın Baş nazir olmuşdur. – 313.

**71. Danimarka,** D a n i m a r k a  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,7 milyon nəfərdir. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı Folketinqdir. Paytaxtı Kopenhagen şəhəridir. – 315.

**72. II Marqrete** (d.1940) – 1972-ci ildən Danimarka Krallığının Kraliçası. Kral IX Frederikin qızıdır. – 315.

**73. Avropa Yenidənqurma və İnkişaf Bankı** – Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1991-ci ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 316.

**74. Moskva Beynəlxalq Əlaqələr İnstitutu (Universiteti)** – Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin ali təhsil müəssisəsi. Əsası 1944-cü ildə qoyulmuşdur. Yüksək səviyyəli peşəkar diplomatlar, tədqiqatçılar, jurnalistlər, siyasi və ictimai xadimlər hazırlayır. – 317, 324–339, 344.

**75. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 333–334.

**76. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 338–339.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Səbuhi** – 113
**Abutalıbov Hacıbala** – 149
**Alasaniya İrakli** – 222
**Bessmertni Aleksandr** – 335
**Berişa Sali** – 307–309, 310
**Bəşirov Aydın** – 134
**Birrell Qordon** – 299–300
**Bold Luvsanvandan** – 305–306
**Bolkiah Həssənal** – 81
**Brende Borge** – 309
**Brilyov Sergey** – 343–346
**Butkeviçyus Alqirdas** – 306, 311
**Cəlili Səid** – 85–86
**Çao Cianminq** – 341
**Dassu Marta** – 78
**De Villpen Dominik** – 42
**Devolin Barri** – 260
**Dukanoviç Milo** – 187, 188
**Eldarov Ömər** – 27, 143
**Endryu (York şahzadəsi)** – 300–301
**Əfəndiyev Elçin** – 38–39
**Əhmədinejad Mahmud** – 340
**Əl-Məqarif Məhəmməd** – 37
**Əs-Sabah əl-Xalid** – 76–77
**Əs-Sabah əl-Cabir** – 76, 83
**Əl-Tüveycri Əbdüləziz** – 209
**Əliyev Aydın** – 391–392
**Əliyev Heydər** – 6, 24, 28, 29, 38, 62, 79, 90, 93, 96, 103, 107, 113, 119, 120, 128, 143, 226, 229, 232, 244, 245, 249, 250, 252, 256,

269
**Əliyeva Leyla** – 98, 225, 237, 238
**Əliyeva Mehriban** – 5 –10, 11, 12, 13, 17, 27, 31, 33, 95, 100, 110, 225, 226, 237, 238, 239, 241, 242, 273, 274, 275, 324, 332
**Əlizadə Akif** – 39
**Əmiraslanov Əhliman** – 40
**Əroğlu Veysəl** – 319
**Əsədov Oqtay** – 95
**Ərdoğan Rəcəb Tayyib** – 319
**Fedotov Yuri** – 210–211
**Fərzəliyev Vaqif** – 39
**Fişer Hayntz** – 135, 136
**Fransisk (Roma Papası)** – 207
**For Jak** – 258
**Freyzer Saymon** – 205
**Frias Uqo** – 137
**Füle Ştefan** – 138
**Fukuyama Frensis** – 343
**Gül Abdullah** – 319
**Hacıbəyli Üzeyir** – 24, 28
**Hacıyev İsmayıl** – 40
**Halberstadt Viktor** – 298
**Həsənov Əli** – 244
**Higgins Maykl** – 201
**Hüseyn Cavid** – 188, 194
**Hüseynov Qorxmaz** – 320
**İqnatenko Vitali** – 93
**İlves Toomas** – 82
**İsgəndərov Xuduş** – 256–257
**Jao Ksiao** – 224
**Juliç Aleksandr** – 190
**Kahkönen Yuna** – 141
**Kellin Yan** – 258

**Kemeron Devid** – 313
**Kerali Henri** – 88
**Kərimov Mahmud** – 38–41
**Kostin Andrey** – 289–290, 296
**Krivokapiç Ranko** – 186
**Kosaçov Konstantin** – 337–338
**Qribauskayte Dalya** – 35
**Qrişenko Konstantin** – 318
**Quliyev Vəli** – 245, 247, 248
**Qusman Mixail** – 93
**Lavrov Sergey** – 338–339
**Lanser Mohaned** – 229
**Layçak Miroslav** – 317
**Lebedev Nikolay** – 335
**Leko Yosip** – 162
**Lukşiç İqor** – 180
**Linkyeviçyus Linas** – 138
**Lund Helge** – 312
**Malboum Hamad** – 99
**Mehdiyev Ramiz** – 95, 149, 238
**VI Məhəmməd** – 223
**Məmmədəliyev Vasim** – 40
**Məmmədyarov Elmar** – 21, 180
**Mərkuzi Monsef** – 146
**Mixaylov Serqey** – 94
**Milanoviç Zoran** – 163
**Moros Nikolas** – 137
**Mrkiç İvan** – 21
**II Marqrete** – 315
**Mustafayev Şahin** – 44
**Neugebauer Fritz** – 135–136
**Nikoliç Dragitsa** – 17, 27, 31, 33, 34
**Nikoliç Tomislav** – 17–34, 36
**Obama Barak** – 343
**Otorbayev Comərd** – 290

**Pan Gi Mun** – 219
**Pancikidze Maya** – 221
**Papulyas Karolos** – 148
**Paviç Milorad** – 28, 29
**Peres Şimon** – 314
**Plevneliyev Rosen** – 87
**Popov İqor** – 258
**Putin Vladimir** – 333–334
**Rasizadə Artur** – 149, 298
**Rulofs Sandra** – 100, 110
**Saakaşvili Mixeil** – 100–112
**Sagintayev Bakıtjan** – 285–289
**Salamzadə Sənan** – 27
**Salnikov Piter** – 300
**Si Cinpi** – 206
**Star Frederik** – 280
**Şnayder-Ammann Yohann** – 342
**Şirinov Şirin** – 117–119
**Şvab Klaus** – 277,278–280, 285, 292, 296, 297, 298, 299
**Tesla Nikola** – 27–30
**Tetçer Marqaret** – 313
**Torkunov Anatoli** – 332–333
**Vuyanoviç Filip** – 197–185, 191
**Yıldız Tanər** – 292–294
**Yosipoviç İvo** – 150–161, 164–176
**Zannier Lamberto** – 208
**Zərdari Asif** – 147
**Zqonean Valeriu** – 204

## Coğrafi adlar göstəricisi

**Adriatik dənizi** – 176
**Ağcabədi** – 59
**Ağdam** – 249
**Afrika** – 13
**Aktau** – 288
**Albaniya** – 307
**Almaniya** – 126, 274, 308, 321
**Amerika Birləşmiş Ştatları** – 12, 97, 98, 258, 280, 308, 320, 321, 343
**Aralıq dənizi** – 284
**Asiya** – 28, 73, 293, 294
**Astana** – 289
**Avrasiya** – 112
**Avropa** – 7, 9, 50, 60, 106, 109, 152, 157, 158, 174, 188, 198, 263, 265, 283, 284, 285, 307, 320, 329
**Avstriya** – 97, 135–136, 274, 321
**Baltik dənizi** – 307
**Batumi** – 102
**Belarus** – 97
**Belqrad** – 28
**Beyləqan** – 59
**Biole-Pole** – 182, 190
**Birləşmiş Ərəb Əmirlikləri** – 97, 275, 276
**Bolqarıstan** – 87, 275, 324
**Bosniya və Herseqovina** – 196
**Böyük Britaniya** – 97, 205, 263–272, 313
**Bruney-Darüssalam** – 81
**Cəbrayıl** – 249
**Cənub-Şərqi Avropa** – 174

**Cənub-Şərqi Asiya** – 288
**Cənubi Afrika Respublikası** – 97
**Cənubi Amerika** – 13
**Cənubi Qafqaz** – 44, 88, 266, 273, 275, 278, 279, 280, 281, 289, 294, 301, 302, 306, 307
**Çexiya** – 97, 98, 276, 324
**Çetinye** – 177–185, 191–200
**Çin** – 206, 288, 324, 334, 341
**Dağlıq Qarabağ** – 8, 23, 31, 86, 97, 98, 152, 153, 175, 194, 198, 199, 212, 234, 253, 254, 255, 258, 266, 330
**Danimarka** – 315
**Davos** – 198, 266, 277–312
**Dubay** – 275
**Estoniya** – 82
**Əfqanıstan** – 42
**Fransa** – 42, 97, 128, 158, 258, 276, 321, 334
**Fransız Qvianası** – 13
**Füzuli** – 249
**Göyçə** – 235
**Gürcüstan** – 97, 100–112, 198, 221, 222, 276, 284, 285
**Xəzər dənizi** – 10, 169,176,263, 275, 283, 284, 285, 288, 302, 307
**Xocalı** – 95–98, 212, 249
**Xocavənd** – 249
**Xorvatiya** – 149–176, 196
**İndoneziya** – 97, 276
**İordaniya** – 97
**İsrail** – 97, 309, 314, 324
**İsveç** – 97
**İran** – 85–86, 97, 276, 340

**İrəvan** – 235
**İspaniya** – 97
**İrlandiya** – 201
**İsveçrə** – 321, 341
**İtaliya** – 78, 97, 128, 308
**Kanada** – 97, 260
**Kəlbəcər** – 249
**Kolumbiya** – 98
**Koreya Respublikası** – 97, 321, 324
**Kuba** – 324, 334
**Küveyt** – 76–77, 83, 84
**Qafqaz** – 12, 109, 174, 287, 289
**Qara dəniz** – 284, 302, 307
**Qazaxıstan** – 97, 273, 286, 287, 288, 289, 290, 324
**Qəbələ** – 113–130, 344, 345, 346
**Qərbi Avropa** – 307
**Qətər** – 97
**Qırğız Respublikası** – 290–292, 296, 324
**Qubadlı** – 249
**Laçın** – 249
**Latın Amerikası** – 73, 137
**Litva** – 35, 306
**Liviya** – 37
**Macarıstan** – 97, 276, 324
**Makedoniya** – 196
**Malayziya** – 12
**Masazır** – 244–257
**Meksika** – 98
**Mərakeş** – 223
**Mərkəzi Asiya** – 13, 141, 278, 280, 285, 286, 289, 294, 301, 302, 306, 307
**Mərkəzi Avropa** – 132
**Misir** – 276
**Monteneqro** – 177–200, 275

**Monqolustan** – 305, 334
**Moskva** – 93, 324–339
**Müşfiqabad** – 251
**Naxçıvan Muxtar Respublikası**– 44, 45
**Norveç** – 308
**Novi Sad** – 28
**Orta Asiya** – 279
**Özbəkistan** – 97
**Pakistan** – 98, 147
**Podqoritsa** – 186–189
**Polşa** – 324
**Roma** – 271
**Rumıniya** – 98, 204
**Rusiya** – 258, 270, 276, 289–290, 296, 300, 324–339, 343–346
**Serbiya** – 17–34, 36, 196
**Səudiyyə Ərəbistanı** – 97, 259
**Sloveniya** – 196, 275, 276
**Slovakiya** – 317,324
**Şuşa** – 249
**Tailand** – 276
**Tbilisi** – 102, 106
**Tunis** – 146, 276
**Türkiyə** – 97, 106, 198, 266, 270, 273, 274, 275, 276, 284, 285, 292–294, 308, 319
**Türkmənistan** – 97
**Ukrayna** – 276, 318, 334
**Ulan-Bator** – 306
**Venesuela Bolivar** – 137
**Vyetnam** – 324, 334
**Yaxın Şərq** – 13, 141
**Yaponiya** – 97
**Yunanıstan** – 148, 273
**Zaqreb** – 149–176

**Zəngəzur** – 23
**Zəngilan** – 245, 246, 248, 249, 250, 253, 255, 256

# MÜNDƏRİCAT

«BAKU» JURNALINA MÜSAHİBƏ

*7 fevral 2013-cü il* ......................................................................................*5*

AZƏRBAYCANIN İLK «AZƏRSPACE-1»
TELEKOMMUNİKASİYA PEYKİNİN ORBİTƏ
BURAXILMASI MƏRASİMİNDƏ İŞTİRAK

*8 fevral 2013-cü il* ......................................................................................*11*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ
TOMİSLAV NİKOLİÇİN AZƏRBAYCANA RƏSMİ
SƏFƏRİ

*8 fevral 2013-cü il* ......................................................................................*17*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ TOMİSLAV
NİKOLİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*8 fevral 2013-cü il* ......................................................................................*18*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*8 fevral 2013-cü il* ......................................................................................*19*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*8 fevral 2013-cü il* ......................................................................................*21*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ TOMİSLAV
NİKOLİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA
ÇIXIŞLAR

*8 fevral 2013-cü il* ......................................................................................*22*

BAKIDA GÖRKƏMLİ SERB ALİMİ NİKOLA TESLANIN
ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*8 fevral 2013-cü il* ..........................................................................*27*
ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ
İŞTİRAK

*8 fevral 2013-cü il* ..........................................................................*31*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*8 fevral 2013-cü il* ..........................................................................*33*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ
XANIM DALYA QRİBAUSKAYTEYƏ

*11 fevral 2013-cü il* ........................................................................*35*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TOMİSLAV NİKOLİÇƏ

*11 fevral 2013-cü il* ........................................................................36

LİVİYA DÖVLƏTİ ÜMUMMİLLİ KONQRESİNİN SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD
ƏL-MƏQARİFƏ

*11 fevral 2013-cü il* ........................................................................*37*

AZƏRBAYCAN ELMİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ
MAHMUD KƏRİMOVUN
SON MƏNZİLƏ YOLA SALINMASI
MƏRASİMİ

*11 fevral 2013-cü il* ........................................................................*38*

FRANSA RESPUBLİKASININ KEÇMİŞ BAŞ NAZİRİ VƏ
TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ VƏKİLİ DOMİNİK DE
VİLLPEN İLƏ GÖRÜŞ

*11 fevral 2013-cü il* ........................................................................*42*

«AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ
2009–2013-cü İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI
DÖVLƏT PROQRAMI»nın İCRASININ DÖRDÜNCÜ
İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ
KONFRANSDA İŞTİRAK

*12 fevral 2013-cü il* ............................................................................ *43*

YEKUN NİTQİ

*12 fevral 2013-cü il* ............................................................................ *55*

«SOS – KİNDERDORF İNTERNATİONAL»
TƏŞKİLATININ PREZİDENTİ SİDDHARTHA KAUL İLƏ
GÖRÜŞ

*13 fevral 2013-cü il* ............................................................................ *75*

KÜVEYT DÖVLƏTİ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ
İŞLƏR NAZİRİ ŞEYX SABAH ƏL-XALİD ƏL-HAMAD
ƏL-SABAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*14 fevral 2013-cü il* ............................................................................ *76*

İTALİYA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN
MÜAVİNİ MARTA DASSUNUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*15 fevral 2013-cü il* ............................................................................ *78*

AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASININ
VI QURULTAYINA

*15 fevral 2013-cü il* ............................................................................ *79*

BRUNEY-DARÜSSALAMIN SULTANI
ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

*18 fevral 2013-cü il* ............................................................................ *81*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*18 fevral 2013-cü il* ............................................................................ *82*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX
SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*18 fevral 2013-cü il ........................................................................83*
KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ ŞAHZADƏ ŞEYX
NƏVVAF ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*18 fevral 2013-cü il ........................................................................84*

İRAN İSLAM RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK
ŞURASININ KATİBİ SƏİD CƏLİLİNİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 fevral 2013-cü il ........................................................................85*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİYEVƏ

*25 fevral 2013-cü il ........................................................................87*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ
DİREKTORU HENRİ KERALİ İLƏ GÖRÜŞ

*25 fevral 2013-cü il ........................................................................88*

MDB DÖVLƏT İNFORMASİYA AGENTLİKLƏRİ
RƏHBƏRLƏRİ ŞURASININ XVI İCLASININ
İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*25 fevral 2013-cü il ........................................................................89*

XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ
ANMA MƏRASİMİ

*26 fevral 2013-cü il ........................................................................95*

BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ, HƏMÇİNİN
KAMERUN MİLLİ OLİMPİYA VƏ İDMAN
KOMİTƏSİNİN PREZİDENTİ
HAMAD KALKABA MALBOUM İLƏ GÖRÜŞ

*27 fevral 2013-cü il ........................................................................99*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
MİXEİL SAAKAŞVİLİNİN
AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*27 fevral 2013-cü il ............................................................................100*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL
SAAKAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*27 fevral 2013-cü il ............................................................................101*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*27 fevral 2013-cü il ............................................................................102*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL
SAAKAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*27 fevral 2013-cü il ............................................................................105*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ
İŞTİRAK

*27 fevral 2013-cü il ............................................................................110*

QƏBƏLƏ RAYONUNA SƏFƏR

*28 fevral 2013-cü il ............................................................................113*

QƏBƏLƏ RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 fevral 2013-cü il ...........................................................................115*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ
MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA
TƏBRİK

*4 mart 2013-cü il ...............................................................................131*

AZƏRBAYCAN DÖVLƏT XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN
YENİ İNŞA OLUNMUŞ

«GƏMİ TƏMİRİ VƏ GƏMİQAYIRMA» İSTEHSALAT BİRLİYİNİN AÇILIŞI MƏRASİMİ

*4 mart 2013-cü il ........................................................................133*

AVSTRİYA RESPUBLİKASI MİLLİ ŞURASININ İKİNCİ PREZİDENTİ FRİTZ NEUGEBAUERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2013-cü il ........................................................................135*

VENESUELA BOLİVAR RESPUBLİKASININ VİTSE-PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAS MADURO MOROSA

*6 mart 2013-cü il ........................................................................137*

LİTVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ LİNAS LİNKYEVİÇYUSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 mart 2013-cü il ........................................................................138*

AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN XXIV BAŞ MƏCLİSİNƏ

*7 mart 2013-cü il ........................................................................139*

BEYNƏLXALQ VALYUTA FONDUNUN YAXIN ŞƏRQ VƏ MƏRKƏZİ ASİYA DEPARTAMENTİNİN DİREKTOR MÜAVİNİ YUHA KAHKÖNEN İLƏ GÖRÜŞ

*7 mart 2013-cü il ........................................................................141*

AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASININ İSTİFADƏYƏ VERİLMİŞ YENİ KORPUSUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*7 mart 2013-cü il ........................................................................142*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MONSEF MƏRZUKİYƏ

*11 mart 2013-cü il*..........................................................................................*146*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*11 mart 2013-cü il ........................................................................147*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA

*11 mart 2013-cü il ........................................................................148*

XORVATİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*11 mart 2013-cü il ........................................................................149*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*11 mart 2013-cü il ........................................................................150*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ İVO YOSİPOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*11 mart 2013-cü il ........................................................................151*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*11 mart 2013-cü il ........................................................................152*

STRATEJİ TƏRƏFDAŞLIQ VƏ DOSTLUQ MÜNASİBƏTLƏRİ HAQQINDA ZAQREB BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİ

*11 mart 2013-cü il ........................................................................154*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ İVO YOSİPOVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*11 mart 2013-cü il ........................................................................155*

XORVATİYA PARLAMENTİNİN SƏDRİ YOSİP LEKO İLƏ GÖRÜŞ

*11 mart 2013-cü il ........................................................................162*

XORVATİYANIN BAŞ NAZİRİ ZORAN MİLANOVİÇ İLƏ GÖRÜŞ

*11 mart 2013-cü il* ........................................................................ *163*

İŞ ADAMLARI İLƏ GÖRÜŞ

*11 mart 2013-cü il* ........................................................................ *164*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*11 mart 2013-cü il* ........................................................................ *173*

MONTENEQRODA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*12 mart 2013-cü il* ........................................................................ *177*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 mart 2013-cü il* ........................................................................ *178*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 mart 2013-cü il* ........................................................................ *179*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 mart 2013-cü il* ........................................................................ *180*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 mart 2013-cü il* ........................................................................ *181*

ÇETİNYE ŞƏHƏRİNDƏKİ KRAL NİKOLAY SARAYI İLƏ TANIŞLIQ

*12 mart 2013-cü il* ........................................................................ *185*

MONTENEQRO PARLAMENTİNİN SƏDRİ RANKO KRİVOKAPİÇ İLƏ GÖRÜŞ

*12 mart 2013-cü il .........................................................................186*

MONTENEQRONUN BAŞ NAZİRİ MİLO DUKANOVİÇ İLƏ GÖRÜŞ

*12 mart 2013-cü il .........................................................................187*

AZƏRBAYCAN TƏRƏFİNDƏN MONTENEQRODA HƏYATA KEÇİRİLƏCƏK LAYİHƏLƏRLƏ TANIŞLIQ

*12 mart 2013-cü il .........................................................................188*

AZƏRBAYCAN HÖKUMƏTİNİN MALİYYƏ DƏSTƏYİ İLƏ MONTENEQRODA İNŞA EDİLƏN UŞAQ BAĞÇASININ LAYİHƏSİ İLƏ TANIŞLIQ

*12 mart 2013-cü il .........................................................................190*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*12 mart 2013-cü il .........................................................................191*

MONTENEQRONUN «POBJEDA» QƏZETİNƏ MÜSAHİBƏ

*12 mart 2013-cü il .........................................................................196*

İRLANDİYA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYKL HİGGİNSƏ

*13 mart 2013-cü il .........................................................................201*

«MÜLKİ MÜDAFİƏ VƏ ƏHALİNİN FƏLAKƏT RİSKİNİN QARŞISININ ALINMASINA HAZIRLANMASI» MÖVZUSUNDA QƏBƏLƏDƏ KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*13 mart 2013-cü il* ........................................................................... *202*
RUMİNİYA DEPUTATLAR PALATASININ SƏDRİ
VALERİU ZQONEANIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 mart 2013-cü il* ........................................................................... *204*

BÖYÜK BRİTANİYANIN XARİCİ VƏ İTTİFAQ
MƏSƏLƏLƏRİ ÜZRƏ OFİSİ KATİBİNİN DAİMİ
MÜAVİNİ VƏ DİPLOMATİK XİDMƏTİN RƏHBƏRİ
SAYMON FREYZERİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 mart 2013-cü il* ........................................................................... *205*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*15 mart 2013-cü il* ........................................................................... *206*

ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

*15 mart 2013-cü il* ........................................................................... *207*

ATƏT-in BAŞ KATİBİ LAMBERTO ZANNİERİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2013-cü il* ........................................................................... *208*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN
OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*16 mart 2013-cü il* ........................................................................... *209*

BAKIDA «TERRORİZMİN QARŞISININ ALINMASINDA
ƏMƏKDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİ» MÖVZUSUNDA
KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN AÇILIŞINDA
İŞTİRAK

*18 mart 2013-cü il* ........................................................................... *210*

GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR
NAZİRİ MAYA PANCİKİDZE İLƏ GÖRÜŞ

*18 mart 2013-cü il* ............................................................................*221*
GÜRCÜSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ
İRAKLİ ALASANİYA İLƏ GÖRÜŞ

*18 mart 2013-cü il* ............................................................................*222*

MƏRAKEŞ KRALLIĞININ DAXİLİ İŞLƏR NAZİRİ
MOHANED LANSER İLƏ GÖRÜŞ

*18 mart 2013-cü il* ............................................................................*223*

ASİYA İNKİŞAF BANKININ VİTSE-PREZİDENTİ KSİAO
JAO İLƏ GÖRÜŞ

*18 mart 2013-cü il* ............................................................................*224*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ
ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2013-cü il* ............................................................................*225*

BAKININ FÜZULİ KÜÇƏSİ İLƏ MİRZAĞA ƏLİYEV
KÜÇƏSİ ARASINDA İNŞA EDİLƏN YERALTI
AVTOMOBİL DAYANACAĞINDA, YERÜSTÜ PARK,
BAĞ VƏ FƏVVARƏLƏR KOMPLEKSİNDƏ APARILAN
TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*29 mart 2013-cü il* ............................................................................*239*

«ATƏŞGAH MƏBƏDİ» DÖVLƏT TARİX-MEMARLIQ
QORUĞUNDA APARILAN
BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA
YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*29 mart 2013-cü il* ............................................................................*241*

MASAZIR QƏSƏBƏSİNDƏ 760 MƏCBURİ KÖÇKÜN
AİLƏSİ ÜÇÜN YENİ SALINMIŞ MƏHƏLLƏNİN AÇILIŞI
MƏRASİMİNDƏ İŞTİRAK

*1 aprel 2013-cü il* ...........................................................................*244*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*2 aprel 2013-cü il ......................................................................................258*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI SƏRHƏD XİDMƏTİNİN BAŞ DİREKTORU ZUMEYYİM BİN CUVEYBİR ƏS-SƏVVATIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2013-cü il ......................................................................................259*

KANADA İCMALAR PALATASI SƏDRİNİN MÜAVİNİ, KANADA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN RƏHBƏRİ BARRİ DEVOLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 aprel 2013-cü il ......................................................................................260*

«THE BUSİNESS YEAR» JURNALININ BAŞ DİREKTORU AYSE NAZİR VALENTİN, BAŞ REDAKTORU CEYSON CON VƏ BURAXILIŞA MƏSUL ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞ

*4 aprel 2013-cü il ......................................................................................261*

BÖYÜK BRİTANİYANIN NÜFUZLU «THE BUSİNESS YEAR» JURNALINA MÜSAHİBƏ

*4 aprel 2013-cü il ......................................................................................263*

«AİTF–2013» XII AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*5 aprel 2013-cü il ......................................................................................273*

DÜNYA İQTİSADİ FORUMUNUN TƏSİSÇİSİ VƏ İCRAÇI SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*7 aprel 2013-cü il ......................................................................................277*

BAKIDA «CƏNUBİ QAFQAZIN VƏ MƏRKƏZİ ASİYANIN GƏLƏCƏYİ İLƏ BAĞLI STRATEJİ DİALOQ» MÖVZUSUNDA DÜNYA İQTİSADİ FORUMUNUN (DAVOS FORUMU) AÇILIŞINDA İŞTİRAK

*8 aprel 2013-cü il ............................................................................278*

DÜNYA İQTİSADİ FORUMUNUN (DAVOS FORUMU) YEKUN İŞÇİ ŞAM YEMƏYİ TƏDBİRİNDƏ İŞTİRAK

*8 aprel 2013-cü il ............................................................................298*

ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*8 aprel 2013-cü il ............................................................................310*

LİTVA RESPUBLİKASININ BAŞ NAZİRİ ALGİRDAS BUTKEVIÇYUS İLƏ GÖRÜŞ

*8 aprel 2013-cü il ............................................................................311*

«STATOYL» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU HELGE LUND İLƏ GÖRÜŞ

*8 aprel 2013-cü il ............................................................................312*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB DEVİD KEMERONA

*9 aprel 2013-cü il ............................................................................313*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ

*9 aprel 2013-cü il ............................................................................314*

DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

*9 aprel 2013-cü il ............................................................................315*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI
İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*9 aprel 2013-cü il* ............................................................................316

SLOVAKİYA RESPUBLİKASININ BAŞ NAZİRİNİN
MÜAVİNİ, XARİCİ VƏ AVROPA İŞLƏRİ NAZİRİ
MİROSLAV LAYÇAKIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 aprel 2013-cü il* ..........................................................................317

UKRAYNA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ
KONSTANTİN QRİŞENKONUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 aprel 2013-cü il* ..........................................................................318

TÜRKİYƏ RESPUBLİKASININ MEŞƏ VƏ SU İŞLƏRİ
NAZİRİ VEYSƏL ƏROĞLUNUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 aprel 2013-cü il* ..........................................................................319

«CATEF–2013» I XƏZƏR BEYNƏLXALQ SU
TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*11 aprel 2013-cü il* ..........................................................................320

BAKIDA MOSKVA DÖVLƏT BEYNƏLXALQ
MÜNASİBƏTLƏR İNSTİTUTU MƏZUNLARININ
I ÜMUMDÜNYA FORUMUNDA İŞTİRAK

*12 aprel 2013-cü il* ..........................................................................324

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*12 aprel 2013-cü il* ..........................................................................340

ÇİN XALQ RESPUBLİKASININ BAŞ PROKURORU,
BEYNƏLXALQ ANTİKORRUPSİYA QURUMLARI

ASSOSİASİYASININ PREZİDENTİ ÇAO CİANMİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2013-cü il ............................................................................341*

İSVEÇRƏ KONFEDERASİYASININ FEDERAL MÜŞAVİRİ VƏ İQTİSADİ MƏSƏLƏLƏR, TƏHSİL VƏ TƏDQİQATLAR NAZİRİ YOHANN ŞNAYDER - AMMANNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2013-cü il ............................................................................342*

«ROSSİYA-24» TELEKANALINA MÜSAHİBƏ

*14 aprel 2013-cü il ............................................................................343*

QEYDLƏR........................................................................................*348*

*Şəxsi adlar göstəricisi..........................................................................*

*Coğrafi adlar göstəricisi ......................................................................*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət* **Orucov**

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.